# iqtisadi tərəqqi və VERGİ siyasəti

**Zahid H.RZAYEV**

**Şaiq İ.XƏLİLOV**

**BAKI** 2008

ISBN: 978-9952>27-090-7

Zahid H.Rzayev, Şaiq I.Xəlilov

İQTİSADİ TƏRƏQQİ VƏ VERGİ SİYASƏTİ Bakı
2008, 272 s.

Birinci nəşr

Elmi Redaktor
Mirdaməd Sadıqov
İqtisad Elmləri Doktoru, professor

Korrektor
Nəsimi Əhmədov

Tərtibat
İdris Əhmədov

© Regioniann İnkişafı İctimai Birliyi
AZ 1009 Bakı şəhəri,
Zərgərpalan küçəsi 143,
Tel.: (+994 12) 596 36 60 Faks: (+994 12) 596 36 86
Mobil: (+994 50)216 78 57 (+994 50) 443 80 07
regionlariib@yahoo.com region.00@rambler.ru

Metbəe
ÇAŞIOĞLU

Kitabda Azerbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respubiikamızın müasir vergi sisteminin formalaşdıniması və tekmilləşdirilmesi, onun qanunvericilik bazasının yaradiiması istiqamətində gördüyü işlərdən bəhs edilmişdir. Eyni zamanda, ulu öndərin bilavasitə rəhbərliyi aitında Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, xarici in> vestisiyaiann ölkə iqtisadiyyatına cəlb edilməsi məqsədilə əlverişli vergi mühitinin yaradiiması istiqamətində həyata keçirilən tədbirlərin analitik təhlili apanimışdır.

iqtisadi tərəqqi və

# VERGİ

siyasəti

**iqtisadi siyasətin mühüm tərkib hissəsi**

**Müasir Azərbaycan dövlətinin və xalqının tarixində silinməz iz qoymuş ümummilli lider Heydər Əliyev Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi böyük bir möcüzə, gələcək nəsillər üçün örnək məktəbidir. Bu böyük insan barəsində indiyə qədər onlarca kitab yazılıb, filmlər çəkilib, onun respublikamızın sosial-iqtisadi və siyasi inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər hər zaman alimlərin tədqiqat mövzu- su olub. Lakin bu işlərin heç biri Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev dühasını tam açıqlamayıb və bunu etmək qeyri- mümkündür. Çünki Heydər Əliyev fenomeni yüzlərlə tədqiqat işlərinin hüdudlarına sığmayacaq dərəcədə çoxşaxəli elmi araşdırmaların predmetidir. Azərbaycanın son 40 illik tarixində ictimai-sosial həyatın elə bir sahəsi olma- yıb ki, onun diqqətindən kənarda qalmış olsun. Heydər Əliyev irsini elmi əsaslarla tədqiq etmək, gələcək nəsillərə ulu öndərin çoxsahəli fəaliyyətini olduğu kimi təqdim etmək sözün əsl mənasında, hər bir yaradıcı insanın vətəndaşlıq borcudur. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin əbədiliyini təmin etmək üçün ölkənin uzunmüddətli inkişaf konsepsiyasında həyata keçirilən struktur dəyişikliklərinin iqtisadi əsaslar bazisində aparılmasını təmin etmişdir. Ulu öndərimizin bilavasitə rəhbərliyi və birbaşa nəzarəti ilə reallaşan iqtisadi islahatlar ölkəmizin sosial-iqtisadi**

L _

inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuş, milli inkişafımızın yüksələn xətlə sosial tərəqqiyə və intibaha nail olunmasına zəmin yaratmışdır. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf xəttini müəyyən edən irimiqyaslı konsepsiya, strategiya və proqramlar iqtisadi islahatların tərkib hissəsi olan vergi sisteminin yenidən qurulması və yeni iqtisadi siyasətə uyğunlaşdırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etmişdir. Milli dövlətçilik konsepsiyasının banisi Heydər Əliyev taleyüklü layihələrin, uğurlu sosial-iqtisadi islahatların müəllifi kimi Azərbaycan vergi sisteminin formalaşmasına rəhbərlik etmiş və gələcək inkişaf parametrlərini müəyyən etmişdir. Ulu öndərimiz vergi siyasətinin iqtisadi siyasətin mühüm tərkib komponenti olduğunu dəfələrlə bəyan etmiş, ölkə iqtisadiyyatının yeni bazar münasibətlərinə keçid və davamlı inkişaf prosesində bu siyasətin aparıcı rolunu mütərəqqi vergi islahatlarının həyata keçirilməsi ilə əsaslandırmışdır. Müasir Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev "biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" deyimi ilə vergi sisteminə verdiyi önəmi göstərmiş və bunun da məntiqi nəticəsi olaraq, Azərbaycanın həm keçid iqtisadiyyatlı ölkələr arasında, həm də Şərqi Avropa məkanında analoqu olmayan, müasir iqtisadi reallıqlara adekvat, çevik vergi

**siste- minin əsasını qoymuşdur. Görülmüş işlərə ən real qiyməti tarix özü verir. Bəzən həyata keçirilən islahatlar, görülən işlər həmin dövrdə çoxları tərəfindən anlaşılmır. Lakin zaman keçdikcə görülən bu işlərin nə qədər düzgün olduğu, nə qədər vaxtında həyata keçirildiyi öz təsdiqini tapır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən böyük işlərə də indi zaman özü qiymət verməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının sosial-iqtisadi, siyasi sahədə əldə etdiyi uğurlar, regionun lider dövlətinə çevrilməsi ölkənin beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi sahəsində Azərbaycanın qazandığı nailiyyətlər "Mən ona özüm qədər inanıram" - deyən ulu öndərin uzaqgörən tarixi təcrübəsinin reallaşmasına**

möhtəşəm
qayıdış

iqtisadi tərəqqi və

VE

# RGİ

siyasəti

**indi**
**bütün həyatımı təhlil edəndə**
**görürəm ki, hər halda bir başlıca**
**hadisə var, o da budur ki. mən**
**Azərbaycanın müstəqilliyini təmin**
**edə bilmişəm. Onu daxili**
**çəkişmələr alovunda, dağıntılar və**
**qaniçində məhv olmağa**
**qoymamışam.**

**Heydər Əliyev**

**Müasir tariximizin 40 ilə yaxın bir mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın dərin zəkasını, yenilməz iradəsini və əzmini təcəssüm etdirən böyük dövlət xadimlərimizin, tarixi şəxsiyyətlərimizin siyasi və dövlətçilik ənənələrini layiqincə davam etdirərək daha da zənginləşdirən Heydər Əliyev müdrikliyi və fədakarlığı nəticəsində müstəqil dövlətimizin təməli möhkəmlənmiş, qorunub saxlanmış, bu böyük dühanın möhtəşəm əsəri olan müasir Azərbaycan yaranmışdır. Azadlıq və müstəqil dövlətə malik olmaq hər bir xalqın ən böyük istəyidir. Əsrlər boyu xalqımız müs-**

təqillik qazanmaq arzusunda olub. Lakin hadisələr elə gətirib ki, hər cəhətdən zəngin olan Azərbaycanın müstəqil dövlət olmasına uzun müddət maneçilik törədilib.

XX əsrdə tale Azərbaycan xalqına müstəqillik istəyinə çatmağı iki dəfə qismət etmişdir. Birinci dəfə 1918-ci ildə yaranan Azərbaycan Demokratik Respublikasının ömrü cəmi 23 ay olmuşdur. İkinci dəfə belə bir fürsət 1991-ci ildə SSRİ- nin dağılması nəticəsində reallaşdı. 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan öz müstəqilliyini elan etdi. Lakin o vaxtkı ölkə rəhbərliyinin səriştəsizliyi bu müstəqilliyin qorunub saxlanılmasını şübhə altına alırdı.

Müstəqilliyə xas olan bütün atributlara malik olmasına baxmayaraq, ölkə müstəqil daxili və xarici siyasət apara bilmirdi, bir çox hallarda xarici təsirdən asılı bir vəziyyətdə idi. Ölkə vətəndaş müharibəsi, milli dövlətçiliyin məhv olması təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanda gedən neqativ proseslər, idarəolunmaz vəziyyət, hərc-mərclik, iqtisadi və siyasi böhran müstəqilliyin müqəddəratını şübhə altına qoyurdu. Tarix dəfələrlə sübut edib ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub saxlanılması onun əldə edilməsindən qat-qal ağır və mürəkkəb vəzifədir.

Dövlətlərin müstəqillik tarixi kifayət qədər mürəkkəb mərhələlərdən keçib. Ən çətin məqamlarda, ən ağır vəziyyətlərdə cəmiyyət tarixi şəxsiyyətlərin roluna, onların fərdi keyfiyyətlərinə, siyasi məharətinə və uzaqgörənliyinə güvənmişdir. Bu nadir insanlar ən azı milyonlarla insanlardan fərqləndiklərinə görə, onların həyat yolu həm böyük marağa, həm də ən müxtəlif istiqamətlərdə ibrət və səmimiyyət dolu araşdırmalara, təhlillərə layiqdir. Əlbəttə ki, bu nadir şəxsiyyət Azərbaycanın ümummilli lideri, ictimai-siyasi istinadgahı Heydər Əliyevdir.

Xalqın vətənimizi sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısım almağa, Azərbaycanı düçar olduğu fəlakətlərdən qurtarmağa qadir olan bir şəxsiyyətə böyük ehtiyacı var idi və xalq bilirdi ki. belə bir şəxsiyyət yalnız uzaqgörən siyasətçi, 1969-1982-ci illərdə Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirmiş Heydər Əliyevdir. Hamı inanırdı ki, zəngin dövlətçilik və idarəçilik təcrübəsinə malik olan bu uzaqgörən insan bizi faciələrdən, fəlakətlərdən

xilas edəcək.

Dövlətçiliyimizin müqəddəratının həll edildiyi, müstəqilliyimizin təhlükə ilə üzləşdiyi 1993-cü ilin iyun günlərində xalqın təkidilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı uçurumun bir addımlığında dayanan Azərbaycanı məhv olmaq fəlakətindən xilas etdi. Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə möhtəşəm siyasi hadisə kimi daxil oldu. Bu qayıdış sayəsində Azərbaycan üçün çoxdan bəri hazırlanan məkrli planların qarşısına möhkəm sipər çəkildi. Siyasi varlığımıza doğru uzanan xain əllər kəsildi, dövlətimizin müstəqilliyi əbədi, dönməz, sarsılmaz xarakter aldı. Məhz həmin dövrdə Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsas zəmin və möhkəm təməl yaradıldı. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş günü elan etdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda siyasi münasibətlər sisteminin yenidən yaradılmasına və cəmiyyətin milli ideologiya ətrafında birləşməsinə rəvac verdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə ictimai münasibətlər sisteminin bütün sahələrində sabitlik və qarşılıqlı anlaşma mühiti yaradıldı. İctimai sabitliyin mövcud olmadığı, siyasi təhlükəsizliyin formalaşmadığı bir ölkədə iqtisadi tərəqqidən və sosial inkişafdan danışmaq olmaz. Hər bir iqtisadi islahat, sosial irəliləyiş davamlı sabitliyə əsaslanır. Digər tərəfdən isə iqtisadi inkişafın özü də nəticə etibarilə cəmiyyətdə sosial ədalətin bərqərar edilməsinə və davamlı sabitliyin yaradılmasına stimul verir. Ümummilli lider Heydər Əliyev sabitliklə inkişafın olduqca mürəkkəb xarakter daşıyan qarşılıqlı təsir mexanizmini Azərbaycanda həyata keçirməyə müvəffəq oldu.

Onun Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər tariximizə inkişaf və çiçəklənmə dövrü kimi daxil olub. Heydər Əliyev hələ o vaxt Azərbaycanı müstəqil ölkə kimi görürdü. O, rəhbərliyə gəlməzdən əvvəl respublika iqtisadiyyatında öz həllini gözləyən çoxsaylı problemlər mövcud idi. Ölkəni bu vəziyyətdən çıxarmaq üçün möhkəm iradəyə malik,

xalqı öz ardınca apara biləcək şəxsiyyətə böyük ehtiyac duyulurdu.

Belə bir çətin şəraitdə Heydər Əliyev respublikanın iqtisadi yüksəlişini təmin edə bildi, qısa bir müddət ərzində Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikaları sırasına çıxdı. Bütün bu proseslər xalqın gözü qarşısında cərəyan etmişdi, xalq ona inanırdı və tarix də bu seçimin doğruluğunu sübut etdi.

Heydər Əliyev millətimiz üçün belə çətin bir məqamda «mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram» - deyərək, bu ağır yükü öz üzərinə götürdü. Ümummilli liderin qətiyyəti, iradəsi, müdrikliyi sayəsində Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu.

Bu işlərin həyata keçirilməsi, təbii ki, böyük məsuliyyət tələb etdiyi kimi, böyük də qabiliyyət tələb edirdi. Burada xalqını sevmək, onun tarixini, mentalitetini dərindən bilməklə yanaşı, dünya siyasətindən, zamanın gərdişindən baş çıxarmaq, anadangəlmə dövlətçilik fəhminə malik olmaq gərəkdir. Çox-çox sonralar ümummilli liderimiz qeyd edirdi: "İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam".

Prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərkən Heydər Əliyev iki halı xüsusi olaraq qeyd etmişdir: «Respublika iqtisadiyyatı demək olar ki, tamamilə dağılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik».

1993-cü ilin 2-ci yarısından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli

qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq etdi.

Dahi öndərin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində ölkəmiz nəinki öz bütövlüyünü, dövlət müstəqilliyini qoruyub saxladı, ölkədə getdikcə gərginləşən iqtisadi və siyasi böhranların qarşısı alındı və Azərbaycan dövlətçilik tarixinin yeni mərhələsinin əsası qoyuldu. Bununla da respublikada iqtisadiyyatın inkişafı və kompleks islahatların həyata keçirilməsinə real şərait yarandı.

Beləliklə, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən quruldu, makroiqtisadi sabitliyin möhkəmlənməsi və iqtisadiyyatın tarazlı inkişafının təmin olunması sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə başlanıldı.

1995- **Cİ** ildən etibarən Azərbaycanda iqtisadi sabitlik bərqərar oldu, bu isə ölkənin həm ictimai-siyasi, həm də sosial-iqtisadi həyatında genişmiqyaslı islahatların aparılması üçün münbit şərait yaratdı.

**1993- CÜ** ildə Heydər Əliyev Azərbaycan xalqının xahişi və müraciəti ilə hakimiyyətə gələrkən, respublikada ümumi daxili məhsul istehsalında hər il orta hesabla 20-23 faiz geriləmə baş verirdi. Lakin Heydər Əliyevin rəhbərliyi ilə respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu. Hazırda həmin tarixi dövrü təhlil etdikdə, onu sabitləşmə dövrü kimi səciyyələndirmək olar. Məhz həmin illərdə geriləmənin qarşısı alındı və 1996-cı ildən etibarən dirçəliş dövrü başladı.

Statistikaya nəzər salsaq görərik ki, 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz artmış, 1997-ci ildə həmin rəqəm 5,8 faiz, 1998-ci ildə isə 10 faiz təşkil etmişdir.

**1995-Cİ ildə sənaye məhsullarının buraxılışında azalma 21,4 faiz, 1996-cı ildə 6,7 faiz olmuşdusa, artıq 1997-ci ildə bu sahədə 0,3 faiz artım müşahidə edilmişdir.** Bu **sıradan neft**

emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək olmuşdur. Digər istehsal sahələrində geriləmənin sürəti azaldılmış, bəzi hallarda isə bu meyil tamamilə dayandırılmışdır.

1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə 207,1 faizdən 1763 faizə qədər artması müşahidə olunduğu halda, aparılan iqtisadi islahatlar nəticəsində 1995-ci ildən başlayaraq sabitləşmə prosesi getmişdir. Belə ki, 1995-ci ildə istehlak bazarında qiymətlərin əvvəlki ilə nisbətən 5,1 dəfə,
1996- cı ildə 19,9 faiz, 1997-ci ildə 3,7 faiz artdığı halda, 1998-1999-cu illərdə inflyasiya deflyasiya ilə əvəz olunmuş və istehlak qiymətləri 1998-ci ildə 0,8 faiz, 1999-cu ildə 8,5 faiz ucuzlaşmış, sonrakı illərdə isə demək olar ki, sabit qalmışdır.

Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra islahatlar aparılmasını təmin edən hüquqi və təşkilati bazanın yaradılması üçün zəruri qanunvericilik aktları və digər normativ hüquqi aktlar qəbul edildi. Bundan əlavə, beynəlxalq maliyyə təşkilatlarının məsləhət xarakterli köməyi ilə üç proqram işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirildi. Bu proqramlarda makroiqtisadi sabitləşməni, struktur dəyişikliklərini, iqtisadiyyatın artımının və əhalinin maddi rifahının yüksəlməsini təmin edən tədbirlər nəzərdə tutulurdu. Başqa sözlə, mərkəzləşdirilmiş planlaşdırma və bölgü sistemindən bazar münasibətləri sisteminə keçid prosesi, Azərbaycanın iqtisadi strukturunun spesifik xüsusiyyətləri nəzərə alınmaqla, ardıcıl və sistemli şəkildə aparılırdı. O illərdə Azərbaycanın hansı siyasi və iqtisadi modeli qəbul edib-etməməsi məsələsi ətrafında ciddi mübahisələr gedirdi.

İqtisadi ədəbiyyatlarda əsasən bazar iqtisadiyyatının aşağıdakı modelləri bir-birindən fərqləndirilir:

- liberal model;
- sosial yönümlü bazar iqtisadiyyatı modeli;
- sosial-demokratik model.

Liberal model aşağıdakı cəhətləri ilə səciyyələnir:

- xüsusi mülkiyyətin iqtisadiyyatda çəkisinin çox olması və üstün mövqe tutması;
- təsərrüfat qanunvericiliyinin bazar subyektlərinin tam sərbəstliyini təmin etməklə, onların dövlət tərəfindən ola biləcək təsirindən.qoruunıaşu.

- dövlət tənzimlənməsinin məhdud xarakter daşıması və əsasən makroiqtisadi prosesləri əhatə etməsi;
- əhalinin bir çox yaşayış problemlərinin həll edilməsindən dövlətin təcrid edilməsi;
- sosial məqsədlərin həyata keçirilməsinə yönəldilən xərclərin qalıq xarakter daşıması, onların işsizlərə və həyat səviyyəsi ən aşağı olan təbəqələrə yönəldilməsi;
- ümumi milli məhsulda dövlət büdcəsinin xüsusi çəkisinin az olması;
- sosial məqsədlərə yönəldilən dövlət investisiyalarının və dövlət xərclərinin çəkisinin aşağı olması.

Bu model ilk dəfə olaraq ABŞ-da, XX əsrin əvvəllərindən tətbiq edilməyə başlanmışdır.

Sosial yönümlü bazar iqtisadiyyatı modeli aşağıdakı cəhətləri ilə səciyyələnir:

- çox və ya az dərəcədə dövlət sektorunun olduğu qarışıq iqtisadiyyatın mövcud olması;
- nəinki makroiqtisadi proseslərin, hətta bazar subyektlərinin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi;
- dövlət tərəfindən əhaliyə qeyri-istehsal sahəsindəki xidmətlərin pulsuz göstərilməsi, ailə gəlirlərindən asılı olmayaraq, cəmiyyətin bütün üzvlərinin bu xidmətlərdən istifadə etməsi üçün sosial təminat yaradılması, hər bir vətəndaşa pulsuz təhsil, səhiyyə xidməti alması hüquqlarının həyata keçirilməsinə təminat verilməsi;
- tənzimlənmənin azad rəqabətin saxlanmasına, kapitalların olduqca az əllərdə cəmlənməsinin qarşısının alınmasına, yeni təsərrüfat obyektlərinin yaradılmasına yönəldilməsi;
- işsizlərin sayını minimum həddə çatdırmaqla, əhalinin məşğulluğunun tənzimlənməsi;
- ümumi milli məhsulda dövlət büdcəsinin böyük hissəyə malik olması;
- iqtisadiyyatın büdcə-maliyyə siyasəti ilə deyil, pul-kredit siyasəti vasitəsilə tənzimlənməsi.

Bazar iqtisadiyyatının bu modeli II Dünya müharibəsindən sonra L.Erxard tərəfindən təklif olunmuşdur və alman və ya neoliberal model adlanır.

Sosial - demokratik model aşağıdakı cəhətləri ilə səciyyələnir:

- dövlət mülkiyyətinin həddən artıq çox olması;
- əmək münasibətlərinin ümummilli, ümumdövlət səviyyəsində tənzimlənməsi;
- dövlətin həyata keçirdiyi sosial siyasətin əhalinin gəlirləri üzrə təbəqələşməsinin azaldılmasını təmin etməsi;
- ümumi milli məhsulda dövlət büdcəsinin çox olması;
- işsizlərin sayının minimum həddə çatdırılması.

Bu model İsveç modeli adlanır.

Bazar modellərinin bu 3 növü aşağıdakı cəhətlərinə görə bir-birindən fərqlənir:

- mövcud olan mülkiyyətin formaları ilə;
- dövlətin yeritdiyi sosial siyasətlə;
- dövlət tənzimlənməsi ilə;
- ümumi milli məhsulda dövlət büdcəsi xərclərinin xüsusi çəkisinin müxtəlifliyi ilə.

Ümummilli liderimiz Heydər Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək bəyan etdi ki, Azərbaycan bazar iqtisadiyyatının əsas prinsipləri nəzərə alınmaqla, öz modelini yaradacaqdır. Bu, həqiqətən də belə oldu və ötən dövrün iqtisadi göstəriciləri həmin modelin özünü doğrultduğunu tam şəkildə təsdiqlədi.

İctimai həyatda sabitliyin təmin olunması və bəzi sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirilməsindən sonra Azərbaycanda qanunun aliliyinə istinad edən idarəçilik sisteminin formalaşdırılması prosesi start götürdü. 1995-ci ildə Konstitusiyanın qəbulu Azərbaycanda hüquqi və demokratik dövlətin mövcudluğunu təsdiqləyən hadisə kimi tarixə düşdü. Azərbaycan Konstitusiyası insan hüquqlarına və demokratiyanın fundamental prinsiplərinə əsaslanan cəmiyyət quruculuğu ideyalarını özündə təcəssüm etdirir və sonrakı mərhələdə qəbul olunan qanunlar bu prosesin uğurla davam etdirildiyini göstərdi. Konstitusiya insanlara bütün növ azadlıqların verilməsini nəzərdə tutur və müstəqil Azərbaycan Respublikasının strateji inkişaf yolunu müəyyənləşdirir. Bu, ümummilli lider Heydər Əliyevin milli dövlətçilik konsepsiyasının müasir dünyanın reallıqları kontekstində intişar tapdığını və xalqın ümumi maraqlarını nəzərə alan bir strategiya kimi səciyyələndiyini göstərdi.

Beləliklə də. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azər

baycanın siyasi münasibətlər sisteminin kifayət qədər uğurlu modelinin yaradılmasına və cəmiyyətin milli ideologiya ətrafında birləşməsinə rəvac vermiş oldu. Kimin necə qiymətləndirməsindən asılı olmayaraq, bu hadisə Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik bir mərhələnin əsasını təşkil edir və Prezident Heydər Əliyevin yaratdığı idarəetmə sistemi ölkənin iqtisadi və siyasi inkişafının ən uğurlu parametrlərini müəyyənləşdirdi. Çünki məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai münasibətlər sisteminin bütün sferalarında sabitlik və qarşılıqlı anlaşma mühiti yaradılmışdır. Ölkənin iqtisadi və siyasi inkişafının başlıca istiqamətləri də məhz buna əsaslanmışdır.

# iqtisadi tərəqqi və VERGİ siyasəti

**vergi siyasəti və vergi islahatları**

**Güman edirəm ki, əgər böyük istehsal varsa, dövlətə verilən vergi də yüksək olacaqdır. Bax, bizə lazım olan əsas fakt budur.**

**Heydər Əliyev**

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilməsi iqtisadiyyatda əldə edilən nailiyyətlərin, qazanılan uğurların əsas səbəblərindən biri olmuşdur. Dərin iqtisadi təfəkkürə malik olan ulu öndər bilirdi ki, bazar iqtisadiyyatı heç də dövlətin idarəetmə və tənzimləmə proseslərindən kənarlaşdırılması demək deyildir. Əsas məsələ ondan ibarətdir ki, bu proses-

lər Özlüyündə təsərrüfat subyektlərinin istehsal-maliyyə fəaliyyətinə bilavasitə müdaxiləni ifadə etməməlidirlər. Dövlət bazar mexanizmlərinin fəaliyyəti üçün zəruri şərait yaratmalı və bu mexanizmlərin köməyi ilə iqtisadi prosesləri tənzimləməlidir.

Hətta iqtisadi inkişaf səviyyəsi təqribən eyni olan müxtəlif ölkələrdə dövlətin iqtisadiyyata müdaxilə səviyyəsi müxtəlifdir. Məsələn, İsveçdə bu müdaxilənin səviyyəsi kifayət qədər yüksək, Almaniya, Yaponiya, ABŞ-da isə nisbətən aşağıdır.

İstənilən dövlət həyat fəaliyyətinin müxtəlif sahələrində cəmiyyətin maraqlarını ifadə etməklə iqtisadi, hərbi, sosial və digər sahələrdə siyasət işləyib hazırlayır və həyata keçirir. Dövlət tənzimlənməsi prosesində bilavasitə dövlətin maliyyə siyasətində təcəssüm olunan maliyyə mexanizmlərindən istifadə olunur.

Vergi siyasəti dövlətin maliyyə siyasətinin ayrılmaz tərkib hissəsidir. Ölkənin vergi sistemini yaradarkən, dövlət ondan müəyyən maliyyə siyasətinin məqsədləri üçün istifadə etməyə can atır. Vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərindən biridir.

Dövlətin vergi siyasəti dedikdə, dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi başa düşülür.

İqtisadi, siyasi və digər fərqlərə baxmayaraq, istənilən dövlətin vergi siyasəti ilk növbədə onunla müəyyən olunur ki, dövlət özü təkrar istehsal prosesinin fəal iştirakçısı kimi çıxış edir. Dövlətin əsas məqsədi cəmiyyətin qarşısında duran iqtisadi və sosial məsələlərin həll edilməsidir ki, bu da vergi siyasətinin formalaşmasına öz təsirini göstərir.

Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarətdir. Beləliklə, vergilər öz təyinat və funksiyasını vahid büdcə prosesində həyata keçirir. Hər bir maliyyə ili üçün büdcə qəbul edilərkən vergi siyasətinin əsası qoyulmuş olur. Onun həyata keçirilməsi isə uyğun qanunvericilik və normativ aktların

qəbul edilməsi yolu ilə aparılır.

Vergi siyasəti həyata keçirilərkən dövlət büdcəsinin tənzimlənməsi, planlaşdırılması və ona nəzarətin qanunla müəyyən edilmiş hüquqi normaları reallaşdırılır. İqtisadi cəhətdən əsaslandırılmış vergi siyasəti vəsaitlərin vergi sistemi vasitəsi ilə toplanmasının optimallaşdırılması məqsədini güdür. Vergi siyasəti dövlət orqanlarının elmi cəhətdən əsaslandırılmış hüquqi fəaliyyəti kimi, geniş təkrar istehsalın tələbatını təmin etməlidir. Onun əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər, vergi- tutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir.

Vergi siyasətinin həyata keçirilmə müddətindən, təsir dairəsindən, iqtisadi vəziyyətin dəyişməsinə reaksiyasından asılı olaraq, müxtəlif formaları mövcuddur.

Əhatə etdiyi dövrdən və həll edilən məsələlərin xarakterindən asılı olaraq, vergi siyasəti vergi strategiyası və vergi taktikasına bölünür.

Vergi strategiyası vergi sahəsində dövlətin uzunmüddətli kursunu müəyyən edir və irimiqyaslı məsələlərin həllini nəzərdə tutur.

Vergi taktikası isə vergi sisteminə əlavə və dəyişikliklər edilməsi yolu ilə konkret bir dövrdə qarşıda duran məsələlərin həllini nəzərdə tutur.

Beləliklə, gələcək nəzərə alınmaqla hazırlanan vergi siyasəti vergi strategiyası, cari dövrdə həyata keçirilən vergi siyasəti isə vergi taktikası adlanır.

Miqyasından və təsir dairəsindən asılı olaraq, vergi siyasəti daxili və xarici vergi siyasətinə bölünür.

Daxili vergi siyasəti bir ölkə və ya ərazi vahidi çərçivəsində həyata keçirilir və daxili məsələlərin həllini nəzərdə tutur. Xarici vergi siyasəti isə ikiqat vergitutmanm aradan qaldırılmasına, müxtəlif ölkələrin vergi sistemlərinin yaxmlaşdırıl- masına, onların vahid şəklə salınmasına yönəldilir.

İqtisadiyyatda baş verən dəyişikliklərə reaksiya mexanizmindən asılı olaraq, diskresion və qeyri-diskresion vergi siyasəti bir-birindən fərqləndirilir. Buna uyğun olaraq da onun fəaliyyət mexanizmləri, vergi tənzimlənməsinin forma və üsulları müəyyənləşdirilir.

Diskresion vergi siyasəti vergi dərəcələri və ya vergitutmanın strukturu ilə manipulyasiya etmək barədə hökumətin qərarları əsasında həyata keçirilir. O, iqtisadi tənəzzülün tez bir zamanda aradan qaldırılması və tarazlıq vəziyyətinin saxlanılması üçün istifadə edilir. Bununla əlaqədar olaraq diskresion siyasəti tez-tez sabitləşdirici siyasət də adlandırırlar.

İqtisadi dövrün mərhələlərindən asılı olaraq, o, qarşısını alan (destimullaşdırıcı) və stimullaşdırıcı ola bilər. Qarşısını alan vergi siyasəti iqtisadi yüksəliş mərhələsində izafi tələb nəticəsində yaranmış inflyasiyanın qarşısını almaq üçün həyata keçirilir. İctimai istehsalın tənəzzülü, işsizliyin səviyyəsinin yüksək olduğu dövrlərdə isə stimullaşdırıcı vergi siyasəti həyata keçirilir.

Qeyri-diskresion vergi siyasəti isə hökumətin qərarlarından asılı olmayaraq, avtomatik surətdə həyata keçirilir. Bu, özünütənzimləmə rejimində işləyən mexanizmlərin - «quraşdırılmuş özütənzimləyicilərm» köməyi ilə mümkün olur.

Yüksək inkişaf etmiş bazar münasibətləri şəraitində dövlət tərəfindən vergi siyasəti istehsalın, ərazilərin iqtisadi inkişafının, əhalinin gəlirlilik səviyyəsinin strukturunun dəyişdirilməsi məqsədi ilə ümumi daxili məhsulun yenidən bölüşdürülməsi üçün istifadə edilir.

Vergi siyasətinin əsas subyekti dövlətdir. Dövlətin vergi siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- sahə və ərazi nöqteyi-nəzərindən ölkə iqtisadiyyatının tənzimlənməsi üçün şəraitin yaradılması;
- dövlətin maliyyə ehtiyatları ilə təmin edilməsi;
- bazar münasibətləri şəraitində əhalinin gəlir səviyyələri arasında yaranmış qeyri-bərabərliyin hamarlanması.

İqtisadiyyatın vəziyyətindən, iqtisadi inkişafın cari mərhələsində dövlətin üstün hesab etdiyi məqsədlərdən asılı olaraq vergi siyasətinin müxtəlif tiplərindən istifadə olunur. Vergi siyasətinin üç tipi bir-birindən fərqləndirilir:

- maksimal vergi siyasəti;
- optimal vergi siyasəti;
- sosial yönümlü yüksək dərəcəli vergi siyasəti.

Maksimal vergi siyasəti zamanı dövlət yüksək vergi dərəcələri tətbiq etməklə, vergilərin sayını artırmaqla, vergi

güzəştlərini ixtisar etməklə vətəndaşlardan mümkün qədər çox maliyyə vəsaitləri toplamağa çalışır. Təbiidir ki, belə vergi siyasəti ayrıca götürülmüş konkret vergi ödəyicisi və ümumiyyətlə, cəmiyyət üçün iqtisadi inkişafa heç bir ümid yeri qoymur. Buna görə də belə siyasət, bir qayda olaraq, fövqəladə hallarda, məsələn, iqtisadi böhranlar, müharibələr zamanı həyata keçirilir. Belə siyasətin uzun müddət həyata keçirilməsi bir sıra mənfi nəticələrə gətirib çıxara bilər.

Əvvəla, vergilər ödənildikdən sonra vergi ödəyicisinin maliyyə ehtiyatları qalmır, bu isə istehsalın genişləndirilməsini qeyri-mümkün edir. Bunun da nəticəsində iqtisadi artımın səviyyəsi aşağı düşür və iqtisadiyyatda tənəzzül başlayır.

İkincisi, belə siyasət vergidən yayınma hallarının kütləvi şəkil almasına səbəb olur.

Üçüncüsü isə «gizli iqtisadiyyat»m miqyası genişlənir.

Optimal vergi siyasəti zamanı dövlət sahibkarlıq fəaliyyətinin subyektləri üçün vergi yükünü yüngülləşdirir, onların inkişafına təkan verən əlverişli vergi mühiti yaradır. Bu isə dövlət xərclərinin azalmasına, ilk növbədə sosial proqramların məhdudlaşdırılmasına səbəb olur.

Vergi siyasətinin üçüncü tipi həyata keçirilərkən, dövlət kifayət dərəcədə yüksək vergilər tətbiq etməklə, nəzərəçarpacaq sosial müdafiə proqramları işləyib hazırlayır. Bu zaman büdcə gəlirlərinin böyük hissəsi müxtəlif sosial fondların artırılmasına yönəldilir.

Ümummilli liderin bilavasitə rəhbərliyi altında həyata keçirilən vergi siyasətinin əsas məğzini həm dövlətin, həm də vergi ödəyicilərinin maraqlarının maksimum tarazlaşdırılması təşkil edir.

Vergi siyasətinin həyata keçirilməsi üsulları dövlətin bu siyasəti aparmaqla əldə etməyə çalışdığı məqsədlərdən asılıdır. Müasir şəraitdə vergi siyasətini həyata keçirməyin aşağıdakı üsullarından istifadə olunur:

- vergi ödəyicisinin üzərinə düşən vergi yükünün optimallaşdırılması;
- vergitutmanın bir üsul və formalarının digəri ilə əvəz edilməsi;
- bu və ya digər vergilərin yayılma dairəsinin dəyişdirilməsi;
- vergi güzəştlərinin daxil edilməsi və ya ləğvi;

- vergi dərəcələrinin diferensiallaşdırılmış sisteminin tətbiqi və s.

Vergi siyasətinin məqsədləri bir sıra amillərin təsiri nəticəsində formalaşır. Bu amillərdən ən mühümləri ölkədəki sosial və iqtisadi vəziyyət, cəmiyyətdə sosial-siyasi qüvvələrin yerləşməsidir. Müasir şəraitdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə vergi siyasəti aşağıdakı məqsədlərə nail olmaq məqsədini güdür:

- iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirakı;
- hakimiyyətin bütün səviyyələrinin iqtisadi və sosial siyasəti həyata keçirmək üçün lazımi həcmdə maliyyə ehtiyatları ilə təmin edilməsi;
- dövlətin gəlirlərin tənzimlənməsi siyasətinin təmin edilməsi.

Vergi siyasəti aparılarkən iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirakı vergi dərəcəsi, vergi güzəştləri, vergitutma bazası kimi vergi alətləri vasitəsi ilə həyata keçirilir.

Dövlət vergi dərəcəsini dəyişməklə vergi qanunvericiliyinin əsasına toxunmadan, yalnız müəyyən edilmiş dərəcələrdə düzəliş aparmaqla vergi tənzimlənməsini həyata keçirir. Müəyyən kateqoriyadan olan vergi ödəyiciləri, ayrı-ayrı sahələr və regionlar üçün vergi dərəcələrini diferensiallaşdır- maqla nəzərəçarpacaq səmərə əldə etmək olar.

Vergi dərəcəsi ilə yanaşı, vergi siyasətinin həyata keçirilməsinin səmərəli alətlərindən biri də vergi güzəştləridir. Bu onunla əlaqədardır ki, müəyyən tələblərə cavab verən hər bir vergi ödəyicisi vergi ödəməkdən qismən və ya tamamilə azad edilə bilər. Aktiv vergi siyasətinin həyata keçirilməsinə qanunvericilik orqanı tərəfindən sahibkarlıq fəaliyyətinin forma və növlərindən asılı olaraq, vergi güzəştləri verilməsi üçün çoxsaylı və müxtəlif əsasların verilməsinin müəyyən edilməsi də imkan verir.

Vergi ödəyicilərinə bu və ya digər vergi güzəştlərini verməklə dövlət müxtəlif iqtisadi proseslərə vergi requlyatorunun təsirini aktivləşdirir. İstənilən dövlətdə vergi güzəştlərinin verilməsinin forma və üsulları daim dəyişir.

Vergi stimullaşdırmasının ən geniş yayılmış obyekti investisiya fəaliyyətidir. Əksər ölkələrdə bu məqsədə yönəldilmiş

mənfəət vergidən tam və ya qismən azad edilir. Vergi güzəştləri vasitəsilə kiçik müəssisələrin yaradılması, xarici kapitalın cəlb edilməsi, iqtisadiyyatın inkişafı üçün fundamental əhəmiyyət kəsb edən elmi-texniki layihələr təşviq edilir.

Vergi bazasının formalaşması da dövlətin vergi siyasətinin əsas alətlərindən biridir. Müxtəlif kateqoriyalı vergi ödəyicilərinin vergi öhdəliklərinin həcminin artıb-azalması məhz ondan asılıdır. O, istehsalın genişləndirilməsi və investisiya layihələri üçün əlavə stimullar və ya məhdudiyyətlər yaradır.

Əksər ölkələrin vergitutma sistemi amortizasiya ayırmaları ilə bağlı vergi bazasının yaradılmasının müxtəlif formalarını nəzərdə tutur. Sürətli amortizasiyanın aparılmasına, yəni əsas kapitalın dəyərinin onun fiziki aşınma normasından artıq məbləğdə silinməsinə icazə verilməsi istehlak xərclərinin süni surətdə artmasına səbəb olur. Bu isə mənfəətin məbləğinin azalmasına gətirib çıxarır. Bəzi ölkələrin qanunvericiliyi yeni avadanlığın dəyərinin yarısını amortizasiyaya silməyə icazə verir.

Dövlətin vergi siyasəti mümkün qədər çox qoparmağa deyil, sahibkarlığın inkişafına kömək göstərməyə xidmət etməlidir. Təsərrüfatçılıq nəzəriyyəsi və praktikası vergi siyasətinə bir sıra tələblər irəli sürür. Bu tələblər əsasən aşağıdakılardan ibarətdir:

- səmərəli vergi siyasəti üçün baza təşkil edən elmi yanaşmalara əməl edilməsi;
- cəmiyyətin inkişafının konkret tarixi mərhələlərinin, dövlətin real iqtisadi və maliyyə imkanlarının nəzərə alınması;
- dünya təcrübəsinin və əvvəlki təsərrüfat və maliyyə quruculuğundakı təcrübənin ətraflı təhlili;
- vergi siyasəti konsepsiyası işlənib hazırlanarkən nəticələrin proqnozlaşdırılması;
- təsərrüfat subyektlərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması;
- iqtisadiyyatın vəziyyəti, ölkənin obyektiv imkanları, maliyyə potensialı barədə dəqiq informasiyadan istifadə edilməsi.

Vergi siyasətinin çoxcəhətli və geniş diapazonlu olması konkret məsələlərin həlli zamanı əvəzsizdir və vergiləri mühüm ümumiqtisadi kateqoriyalarla bir sıraya qoyur.

Vergi siyasətini dəyişməklə, vergi mexanizmlərindən sui istifadə etməklə dövlət iqtisadi inkişafı stimullaşdırmaq və ya məhdudlaşdırmaq imkanı əldə edir. Belə tənzimləmənin məqsədi şirkətlərin daxili və xarici fəaliyyəti üçün ümumi vergi ab-havasının yaradılmasıdır.

Dövlətin vergi siyasəti aparılan iqtisadi siyasəti əks etdirməklə bərabər özü müstəqil əhəmiyyət kəsb edir. Dövlətin öz iqtisadi siyasətinə hansı düzəlişləri etməli olduğu məhz həyata keçirilən vergi siyasətinin nəticələrindən asılıdır.

Dövlətin vergi siyasəti elmi nəzəriyyəyə əsaslanmalıdır. Vergi siyasətinin əsasında, adətən, görkəmli iqtisadçılar tərəfindən işlənib hazırlanmış elmi konsepsiyalar durur. Onun düzgünlüyü isə praktikada yoxlanılır.

Milli iqtisadiyyatın inkişafı xeyli dərəcədə ölkədə həyata keçirilən vergi siyasətindən asılıdır. Hal-hazırda Azərbaycan Respublikasında bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilir.

Ulu öndərin rəhbərliyi altında respublikamızda aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun sti- mullaşdınlmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri - rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, vergi siyasəti büdcə siyasətinin tərkib hissəsi olub, büdcənin gəlir hissəsinin formalaşmasına xidmət edir və büdcənin xərc hissəsi nəzərə alınmadan həyata keçirilə bilməz.

Azərbaycan dövlətinin bugünkü büdcə siyasəti aşağıdakı istiqamətlərdə aparılır:

- sosial müdafiə siyasəti;
- istehsal sferasının inkişafı siyasəti;
- «maksimal vergi» siyasəti.

Birinci istiqamət büdcə xərclərinin istehsalın həcminin artırılmasına yönəldilməsi, ikinci istiqamət büdcə xərclərinin yığım həcminin artırılmasına yönəldilməsi, üçüncü istiqamət isə büdcə xərclərinin maliyyə vəziyyətinin sağlamlaşdırıl- masına yönəldilməsi yolu ilə həyata keçirilir.

Dövlətin büdcə siyasətinin qeyd olunan hər üç istiqaməti büdcənin formalaşdırılmasmm aşağıdakı iki prinsipinə əsaslanır:

- imkanlara əsaslanan büdcə (kəsirsiz və ya az kəsirli);
- tələbata əsaslanan büdcə (böyük büdcə kəsiri).

Birinci prinsipə əsasən, büdcənin formalaşdırılması mövcud (aşkar və qeyri-aşkar) imkanlar nəzərə alınmaqla dövlətin bütün mənbələr üzrə gəlirlərinin cəmi hesabına, ikinci prinsipə görə isə tələbata - pul emissiyasına əsasən həyata keçirilir.

Azərbaycan Respublikasının son illər üçün büdcə haqqında qanunları Vergi Məcəlləsinə əsaslanır. Bu da respublikada aparılan iqtisadi siyasətin, o cümlədən də vergi siyasətinin mövcud qanunvericilik bazasına əsaslandığını göstərir. İqtisadi siyasətin mövcud elmi və qanunvericilik bazasına əsaslanması isə onun reallıq dərəcəsini artırır.

Vergi siyasətinin səmərəliliyi dövlətin onu hansı prinsiplər əsasında həyata keçirməsindən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikasında vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- vergi sisteminin normativ-hüquqi bazasının yaradılması, vergi mədəniyyətinin formalaşdırılması;
- vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması;
- vergi yükünün optimal səviyyədə saxlanılması;
- vergi sisteminin idarəetmə orqanlarının fəaliyyətinin digər dövlət orqanlarının fəaliyyəti ilə əlaqələndirilməsi;
- dövlət vergi xidməti orqanları əməkdaşlarının fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmin olunması;
- mövcud vergi sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla, inkişaf etmiş ölkələrin vergi sisteminin özünü doğrultmuş təcrübəsindən istifadə olunması;
- sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, sadə və vergi ödəyicisi tərəfindən başa düşülən vergi sisteminin

yaradılması;

- vergi qanunvericiliyinə əməl edilməsinin praktiki cəhətdən rahat olması və minimum inzibati xərclər cəlb etməsi üçün müvafiq şəraitin yaradılması.

Yuxarıda göstərilən prinsiplər əsasında Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;
- ölkənin ixrac potensialının inkişafının təmin edilməsi;
- daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə əlverişli vergi mühitinin yaradılması;
- vergi sisteminin vahid uçot-informasiya sisteminin yaradılması;
- vergi və qeyri-vergi ödənişlərinin yığılması səviyyəsinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi;
- vergi intizamına əməl olunması üzərində nəzarət sisteminin təkmilləşdirilməsi və vergi hüquq pozuntusu hallarına görə məsuliyyət sisteminin daha da sərtləşdirilməsi;
- vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədi ilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi və s.

Respublikada həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri də vergi ödəyicilərinin məlumatlandırılması və vergi təbliğatıdır.

Son illərdə Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasəti aşağıda qeyd olunanlara nail olunması məqsədini güdür:

- vergilərin sayının azaldılması;
- vergi dərəcələrinin aşağı salınması;
- vergi güzəştlərinin minimuma endirilməsi;
- hüquqi şəxslərlə fərdi sahibkarlar arasında vergi yükünün bərabərləşdirilməsi;
- rezident vergi ödəyiciləri ilə qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsi;
- əlverişli investisiya mühitinin yaradılması;
- dağ və ucqar rayonlarda sahibkarlığın stimullaşdırılması;

- vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi;
- vergidən yayınmaya qarşı səmərəli vergi nəzarətinin təşkili;
- vergi idarəçiliyinin təkmilləşdirilməsi;
- vergi ödəyicilərinin məlumatlandırılması, vergi təbliğatı və s.

Vergi siyasətinin mahiyyətinin aşkar edilməsinin ilkin şərti vergi münasibətləridir. Vergi münasibətlərinin əsasını isə dövlətlə təsərrüfat subyektləri arasında olan dövlətin maliyyə ehtiyatlarının yaradılması ilə bağlı münasibətlər təşkil edir.

Praktikada dövlət vergi siyasətini vergi mexanizmləri vasitəsi ilə həyata keçirir. Vergi mexanizmi vergitutmanm idarə edilməsinin təşkilati-hüquqi forma və üsullarının məcmusudur.

Dövlət bu mexanizmə vergi qanunvericiliyi vasitəsi ilə hüquqi forma verir. Vergi mexanizminin yaradılması aşağıdakı mərhələlərdən ibarət olan ardıcıl prosesdir:

- vergi mexanizminin işlənib hazırlanması, yəni müasir mərhələdə vergi siyasətinin məqsəd və vəzifələrinin yerinə yetirilməsini təmin edən vergi münasibətlərinin müəyyən edilməsi;
- vergi mexanizminin praktiki tətbiqi;
- vergi münasibətlərinin müəyyən edilmiş forma və üsullarına əməl edilməsinin yoxlanılması, informasiyanın yığılması, vergi mexanizminin fəaliyyətinin müsbət və mənfi cəhətlərinin aşkar edilməsi üçün nəzarət tədbirlərinin həyata keçirilməsi;
- mövcud vergi sisteminin təhlili, onun qiymətləndirilməsi və vergi mexanizminin təkmilləşdirilməsi üzrə təkliflərin işlənib hazırlanması.

Vergi mexanizminin formalaşması prosesini şəkil 1-də olduğu kimi əks etdirmək olar.

Vergi münasibətləri prosesinin idarə edilməsində müxtəlif təşkilati-hüquqi üsullardan, normalardan, alətlərdən istifadə olunur.

Vergi münasibətlərinin təşkili üsullarını təyin etməklə, dövlət onları qanunlar, prezident fərmanları və digər normativ xarakterli aktlar şəklində rəsmiləşdirir, ödənişlərin növlərini, vergi dərəcələri və güzəştlərini və s. müəyyənləşdirir.




Şəkil 1. Vergi mexanizminin formalaşması.

Beləliklə, vergi mexanizmi müxtəlif üstqurum alətləri (vergi dərəcələri, vergi güzəştləri və s.) vasitəsi ilə vergitutmanm dövlət tərəfindən idarə edilməsinin təşkilati-hüquqi norma, üsul və formalarının məcmusudur.

Vergi mexanizmi vergi münasibətlərinin təşkilinin yalnız forma və üsullarını deyil, həm də onların kəmiyyət və keyfiyyətinin müəyyən edilməsi üsullarını özündə birləşdirir.

Vergi dərəcəsi, vergi güzəştinin həcmi, ümumi daxili məhsulun vergilər vasitəsi ilə büdcəyə alman hissəsi, vergilərin yığım səviyyəsi və s. kəmiyyət parametrlərinə malik olan vergi mexanizmi elementlərinə aiddir.

Vergi tənzimlənməsinin səmərəliliyi, cəmiyyətin iqtisadi inkişafına, investisiya siyasətinin həyata keçirilməsinə vergilərin təsiri və s. isə keyfiyyət parametrlərinə malik olan vergi mexanizmi alətlərinə aiddir.

Vergi mexanizmi - vergi nəzəriyyəsinin bu anlayışı iqtisadi kateqoriya kimi şərh edən bir sahəsidir. Vergi mexanizmi prosesi zamanı yaranan münasibətləri aşağıdakı kimi qruplaşdırmaq olar;

- hüquqi tənzimləmə və reqlamentləşdirmə;
- vergi planlaşdırması və proqnozlaşdırması;
- vergitutmanm idarə edilməsi;
- vergi nəzarəti.

Hüquqi tənzimləmə və reqlamentləşdirmə dövlət orqanları tərəfindən həyata keçirilən vergi tənzimlənməsinin təşkili üzrə qanunvericilik aktlarının işlənib hazırlanması və qəbul edilməsidir. Vergilər haqqında qanunlar, büdcə haqqında qanun və digər analoji normativ sənədlər belə reqla- mentləşdirici sənədlərdir. Maliyyə Nazirliyi və Vergilər Nazirliyi mövcud qanunvericilik və hökumətin qərarları əsasında təlimat və digər sənədlər işləyib hazırlayırlar. Bu sənədlər onlara öz səlahiyyətləri çərçivəsində vergi münasibətlərinin təşkilinin vergi intizamına əməl edilməsini təmin edən, iqtisadi siyasətin həyata keçirilməsinə imkan yaradan, dövlətin iqtisadi inkişafının müasir vəziyyətinin tələblərinə cavab verən vahid qaydalarını təyin etməyə imkan verir.

Vergi planlaşdırması mərkəzi hakimiyyət tərəfindən, iqtisadiyyatın inkişafının məqsədli təmayülünə uyğun olaraq proseslərin koordinasiyası, bütün sahə və regionların inkişafının balanslaşdırılması yolu ilə, obyektiv surətdə fəaliyyət göstərən iqtisadi qanunları nəzərə alınmaqla, iqtisadiyyatın iradi tənzimlənməsidir.

Vergi proqnozlaşdırması iqtisadi inkişafın perspektivlərini nəzərə alır, vergitutma konsepsiyasını işləyib hazırlayır, vergiyə cəlb edilmənin rəsmi qaydalarını qanunvericilik yolu ilə təsbit edir, vergilər üzrə büdcəni təsdiq edir.

Vergi tənzimlənməsi investisiya proseslərinə, iqtisadiyyatın müxtəlif sahələrində texnologiyanın yeniləşdirilməsinə, büdcənin balanslaşdırılmasma iqtisadi təsir göstərilməsini təmin edir. Bazar şəraitində vergi tənzimlənməsi bazar tənzimlənməsi xarakteri daşıyır, düz və tərs əlaqələr əsasında istehsalçı və istehlakçıların sərbəst qarşılıqlı fəaliyyətini əks etdirir. İstehsalçıların ayrılması və onların maraqlarının bir-biri ilə ziddiyyət təşkil etməsi dağıdıcı hadisələrlə nəticələnə bilər. Beləliklə, bazar münasibətləri, bir tərəfdən, sərt rəqabət şəraitində ayrı-ayrı təsərrüfat subyektlərinin inkişaf etməsinə səbəb olur, digər tərəfdən isə istehsal olunmuş mal kütləsinin tələb və satışın imkanlarına uyğun gəlməməsi nəticəsində ayrılmış müəssisələr arasında təsərrüfat əlaqələrinin qırılmasına gətirib çıxarır.

Buradan isə istehsaldakı durğunluğun və bazardakı böhran təmayüllərinin qarşısının alınması üçün bazar münasibət-

larinin dövlət tənzimlənməsi zərurəti yaranır. İqtisadiyyatın dinamik inkişafının tənzimləyicisi kimi vergi mexanizmi çıxış edir.

Vergilərin idarə edilməsi xüsusi üsulların, o cümlədən vergi stimullarının köməyi ilə mütəxəssislər tərəfindən həyata keçirilir.

Müasir təsərrüfatçılıq şəraitində vergilər üzrə idarəetmə qərarlarının elmi cəhətdən əsaslandırılması xüsusi əhəmiyyət kəsb edir.

Vergilərin idarə edilməsi vergi intizamına əməl edilməsinə, istehsalın inkişafının stimullaşdırılmasına yönəldilir. Vergi stimulları vergi güzəştləri və vergi sanksiyalarından ibarətdir. Vergi güzəştlərinin xüsusiyyətləri vergilərin növündən, hesablama metodikasından, onlardan istifadənin məqsədindən asılı olaraq müəyyən edilir. Dünya təcrübəsindən vergi tənzimlənməsinin təşkilinin aşağıdakı prinsipləri işlənib hazırlanmışdır:

- vergi güzəştlərinin tətbiqi seçim xarakteri daşımır;
- investisiya güzəştləri, müstəsna olaraq, dövlət investisiya proqramlarının yerinə yetirilməsini təmin edən vergi ödəyicilərinə verilir;
- vergi güzəştlərinin tətbiqi dövlətin iqtisadi maraqlarına zərər vurmamalıdır;
- vergi güzəştlərinin tətbiqi qaydası qanunla müəyyən edilir.

Vergi sanksiyaları ikili xarakter daşıyır. Əvvəla, onlar vergi qanunvericiliyinə əməl edilməsini təmin edirlər, çünki büdcə qarşısındakı öhdəliklərə əməl edilmədikdə sanksiyalar tətbiq edilir. İkincisi isə onlar təsərrüfat subyektlərini öz fəaliyyətində təsərrüfatçılığın daha səmərəli formalarından istifadə etməyə sövq edirlər. Qeyd etmək lazımdır ki, sanksiyaların kəsərliliyi nəzarəti və cəza tədbirlərini həyata keçirən orqanların fəaliyyətinin səmərəliliyindən asılıdır.

Vergi nəzarəti hüquqi və fiziki şəxslərin ödədikləri vergilərin dövlət büdcəsinə vaxtında daxil olmasını, düzgün hesablanmasını təmin edir.

Optimal vergi mexanizminin qəbul edilməsi həm müxtəlif növ vergilərin seçilməsi, həm də onların hesablanması və büdcəyə ödənilməsinin uyğun norma və qaydalarının təmin edilməsi deməkdir. Burada vergi güzəştləri və sanksiyalarının

tərkibi də mühüm əhəmiyyət kəsb edir. Onlar vergi tənzimlənməsinin və onun tərkib hissəsi olan vergi nəzarətinin əsası kimi çıxış edirlər.

Vergi anlayışının daxili potensialının praktikada reallaşmasının iqtisadi-hüquqi üsulu kimi formalaşan vergi mexanizmi təkrar istehsal məqsədlərinə xidmət edir, ümumdövlət, korporativ və şəxsi iqtisadi maraqlar arasında nisbi tarazlığa nail olunmasına kömək göstərir. Funksional nöqteyi-nəzərdən vergi mexanizminin elementlərinin fəaliyyəti iki altsistem üzrə məhdudlaşır; fiskal və tənzimləyici. Onlar arasında bərabər nisbətin gözlənilməsi optimal vergi mexanizminin yaradıldığı barədə danışmağa əsas verir. Ölkədə iqtisadi və siyasi sabitlik olmadıqda bu vəzifənin yerinə yetirilməsi olduqca mürəkkəbləşir.

Vergi taktikasının formalaşması və vergitutma strategiyasının seçilməsi zamanı daxil edilən vergi mexanizmi üçün bu şərtlərin ödənilməsi olduqca zəruridir. Vergi mezanizmi sırf subyektiv yanaşmalardan və məhdud maraqlardan asılı olmamalıdır.

Vergi mexanizminin yuxarıda sadalanan bütün həlqələri arasında şərti olaraq sərhəd qoyulur, çünki praktikada onlar daim kəsişirlər, vergi tənzimlənməsi və vergi nəzarəti isə demək olar ki, bir tam kimi çıxış edirlər. Cari vergi tənzimlənməsi prosesində həm vergi güzəştləri sistemi şəklində həvəsləndirici üsullardan, həm də cərimələr şəklində sanksiya üsullarından istifadə olunur.

Vergi mexanizminin elementləri, eyni zamanda, həm də müstəqil komplekslərdir, onların hər birinin özünün təşkili, qiymətləndirilməsi qaydaları mövcuddur.

Vergi planlaşdırması, tənzimlənməsi, idarə edilməsi və nəzarətinin üsullarının bir-birindən fərqli olması onları müstəqil sahə kimi tədqiq etməyə, onlara xas olan qanunauyğunluqları müəyyən etməyə imkan verir. Bu əsasda vergi mexanizminin təkmilləşdirilməsi istiqamətləri işlənib hazırlanır.

Vergi mexanizminin bütün həlqələrinin mahiyyəti yalnız vergi elmi və praktikası ilə müəyyən edilmir. Məsələn, vergi planlaşdırması planlaşdırma, marketinq və digər elmlərin ümumi nəzəriyyəsi və praktikasının müddəaları əsasında həy-

ata keçirilir. Vergi tənzimlənməsi, idarəçiliyi və nəzarəti də eyni qaydalara tabedir. Onlar üçün idarəetmənin ümumi nəzəriyyəsinin işlənib hazırlandığı müddəalar daha çox əhəmiyyət kəsb edir.

Vergi planlaşdırmasmm qarşısında duran vəzifələr birmənalı deyil. Bu vəzifələr kim tərəfindən, yəni dövlət orqanları və ya müəssisələr tərəfindən qoyulmasından asılı olaraq, bir- birindən fərqləndirilir, başqa sözlə, vergi planlaşdırması dövlət və korporativ vergi planlaşdırmasma bölünür. Birincinin məqsədi dövlət büdcəsinin tələbatının təmin edilməsi, ikincinin məqsədi isə vergi ödənişlərinin optimallaşdırılması, onların minimallaşdırılması üçün qanuni üsulların tapılmasıdır.

Vergi tənzimlənməsi, idarə edilməsi və nəzarəti sahələrində də dövlət, korporativ və şəxsi iqtisadi maraqlar toqquşduğundan onlar da birmənalı deyillər. Büdcə-vergi tənzimlənməsi, vergitutmanm idarə edilməsi və büdcə vergi nəzarəti xüsusi, özlərinə məxsus üsullarla həyata keçirilir, öz məqsəd və vəzifələri var.

Vergi mexanizminin daxili məzmununu büdcə gəlirlərinin formalaşması, vergi məbləğlərinin ərazi və regionlar arasında yenidən bölüşdürülməsi zamanı yaranan hüquqi və maliyyə münasibətləri təşkil edir. Təşkilati-iqtisadi və maliyyə münasibətləri sistemi vergi mexanizminin qurulması xüsusiyyətlərini müəyyən edir.

Dünyada qloballaşma proseslərinin geniş vüsət aldığı, ölkə iqtisadiyyatının iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iqtisadiyyatına inteqrasiyasının sürətləndiyi bir şəraitdə Avropa İttifaqı çərçivəsində həyata keçirilən vergi siyasətinin prioritet istiqamətlərinə nəzər yetirilməsi əhəmiyyətli olardı.

Avropa İttifaqına daxil olan ölkələrdə vergi siyasəti iki əsas strateji prioritetlər əsasında qurulur:

- iqtisadi səmərəlilik;
- sosial bərabərlik və müdafiə.

Avropa İttifaqına daxil olmuş ölkələri iki böyük qrupa bölmək olar. Birinci qrupu təşkil edən inkişaf etmiş ölkələrdir (Almaniya, Fransa, İngiltərə, Hollandiya, İspaniya, İtaliya, İsveç, Danimarka, Finlandiya və sair ölkələr). Bu qrup ölkələrin vergi siyasətinin əsas prioritetləri ölkənin iqtisadi

rəqabət qabiliyyətinin təmin edilməsi ilə yanaşı, ölkədə sosial bərabərlik prinsiplərinə riayət edilməsidir. Bu ölkələrdə vergi daxilolmalarının böyük hissəsi daha az təminatlı əhalinin sosial müdafiəsi və insan kapitalının inkişaf etdirilməsi üçün istifadə edilir.

İkinci qrupda Avropa İttifaqına yeni daxil olmuş və namizəd olan ölkələr (Şərqi Avropa və Baltikyanı ölkələr) daxildir. Bu qrup ölkələrin vergi siyasətinin əsas prioriteti - ölkə iqtisadiyyatının səmərəliliyinin artırılmasıdır və sosial müdafiə məsələləri artıq ölkənin iqtisadi imkanlarına uyğun həll olunur.

Bu prioritetlərə əsasən, Avropa İttifaqının çərçivəsində olan iki qrup ölkələr arasında vergi növləri üzrə vergi siyasəti fərqlənir.

Avropa İttifaqının tərkibinə əvvəl daxil olmuş inkişaf etmiş ölkələrdə, xüsusən Skandinaviya ölkələrində vergi yükünün xüsusi çəkisi ( 42-45%) Avropa İttifaqına yeni daxil olmuş ölkələrə nisbətən (30-32%) daha yüksəkdir və bu, daha yüksək vergi dərəcələrinin tətbiq olunmasının nəticəsidir.

Eyni zamanda, inkişaf etmiş ölkələrdə sosial müdafiə ilə bağlı dövlət xərcləri yüksəkdir, insan kapitalının artmasına xidmət edən yüksək təhsil və tibbi sığorta standartları mövcuddur, innovasiya texnologiyalarının inkişaf etdirilməsi ilə bağlı xərclər xeyli yüksəkdir. Aydındır ki, dövlətin bu sahələrdə tələb olunan büdcə vəsaitləri daha yüksək vergi daxilolmalarının hesabına toplanılır.

Dolayı vergilər (əlavə dəyər vergisi, aksizlər) büdcənin artırılmasında daha tez iqtisadi effekt verir və ona görə, iqtisadi baxımından Avropa İttifaqına yeni daxil olmuş ölkələr üçün bu vergilərin səmərəliliyi daha çoxdur. Eyni zamanda ƏDV, istehlak əsasında qurulmuş vergidir və bununla ƏDV yükü aztəminatlı insanlara daha çox təsir edir.

Avropa İttifaqının üzvü olan inkişaf etmiş ölkələrdə və xüsusən Skandinaviya ölkələrində vergi siyasətində sosial ədalət və müdafiə prinsipləri əsas prioritetlər kimi nəzərə alınır. Buna görə də bu ölkələrdə vergi daxilolmalannda birbaşa vergilərin dolayı vergilərə nisbəti (2,2) Avropa İttifaqına yeni daxil olmuş ölkələrlə müqayisədə (1,6) daha yüksəkdir.

Avropa İttifaqına əvvəl daxil olmuş və yeni daxil olmuş ölkələr arasında həm birbaşa vergilər, həm də dolayı vergilər arasında vergi dərəcələri fərqlənir. Bu baxımdan Aİ-yə yeni daxil olmuş ölkələrdə vergi yükü daha aşağıdır və vergi güzəştləri daha çoxdur.

Bu isə yuxarıda qeyd etdiyimiz kimi, Avropa İttifaqının çərçivəsində fəaliyyət göstərən ölkələrdə iqtisadi səmərəliliyin və sosial müdafiə üzrə məsələlərin həlli səviyyəsi ilə bağlıdır.

Avropa İttifaqı üzrə vergi siyasətinin ümumi prinsipləri ondan ibarətdir ki, vergi dərəcələrinin diferensiasiyası və vergi güzəştləri, maliyyə kapitalının mobil olduğundan bir iqtisadi fəaliyyət növündən digər növə axmasına şərait yaradır. Bununla ölkədə (və eynilə Avropa İttifaqı ölkələri arasında) iqtisadi fəaliyyət növləri arasında inkişaf baxımdan qeyri- bərabərlik yaranır, bir sahə digər sahəyə nisbətən daha sürətlə inkişaf edir. Bu isə iqtisadi baxımından müsbət rol oynamır. Buna görə də ümumi olaraq Avropa İttifaqının vergi siyasətində ölkələr arasında vergi növləri üzrə vergi dərəcələrinin vahid dərəcələr əsasında qurulmasına əsas prioritet verilir və Aİ-yə yeni daxil olmuş və ya namizəd olan ölkələr üçün bu sahədə lazımi addımların atılmasına dair tələblər irəli sürülür.

Avropa Şurasının 1999/49, 2005/92/EC nömrəli Direktivlərinə əsasən tələb olunur ki, 2010-cu ilə kimi Avropa İttifaqına daxil olmuş ölkələrdə ƏDV üzrə minimal vahid vergi dərəcəsi 15%- dan aşağı olmasın.

Vergi güzəştlərinə gəldikdə, bu sahədə Avropa Komissiyasının mövqeyi ondan ibarətdir ki, vergi güzəştləri əsasən vergi krediti (mənfəətdən çıxılmalar) şəklində verilməlidir və bu, müəssisənin şəffaflığının təmin edilməsinə cavab verir.

Avropa Komissiyasının “COM (2007) 728 final” adlandan sənədi elmi-tədqiqat sahəsində vergi güzəştlərinin verilməsi qaydalarını müəyyənləşdirir. Bu sahədə əsasən elmi-tədqiqat işləri üzrə vergi güzəştləri, məhdud olan müddət, səmərəlilik və şəffaflıq prinsiplərinə əsasən verilməlidir.

Bununla yanaşı, əhəmiyyətli odur ki, yeni fəaliyyətə başlayan kiçik biznes, daha az inkişaf etmiş rayonlar (dağ və dağətəyi rayonlar), intensiv insan sərfiyyatı tələb edən istehsal

(kənd təsərrüfatı) və sair dövlətin dəstəyinə ehtiyacı olan insan qrupları üzrə Avropa İttifaqının iqtisadi siyasətində subsidiyalar (üfüqi və şaquli) siyasətinin, tətbiq edilməsinə geniş yer verilir.

Eyni zamanda, bir sıra ölkələrdə (Yaponiya, ABŞ) dövlət subsidiyalarının yerinə özəl biznesin vergi güzəştləri əsasında stimullaşdırılmasma üstünlük verilir. Ancaq vergi güzəştləri, eyni zamanda, müəssisələrə göstərdikləri fəaliyyət nəticəsində dövlətin müəyyən hədəflərinin yerinə yetirilməsinə görə verilə bilər. Bu ölkələrdə hesab olunur ki, subsidiyaların verilməsi nəzarəti bürokratik çətinliklərlə və əlavə xərclərlə qarşılaşır və subsidiya alanların fəaliyyət nəticələrindən asılı deyil, ona görə ki, subsidiyalar avans şəklində verilir.

Bununla göstərmək olar ki, vergi siyasəti dövlətin iqtisadi-sosial siyasətinin çərçivəsinə daxil olan və digər komponentləri tamamlayan vacib komponent kimi inkişaf etməlidir. Vergi sisteminin istehsala, istehlaka və məşğulluğa göstərdiyi təsir nəzərə alınmalıdır.

Ümumikdə Avropa İttifaqına daxil olan və digər ölkələrin vergi sistemlərini təhlil edərək, belə nəticəyə gəlmək olar ki, mütərəqqi vergi sistemi aşağıdakı əsas 5 prinsipə cavab verməlidir:

1.Bərabərlik - vergi sistemi bütün vergi ödəyiciləri üçün bərabər və ədalətli olmalıdır, nəticədə eyni şəraitdə olan vergi ödəyiciləri üçün eyni vergilər tutulmalıdır və eyni əməliyyatlardan da eyni qaydada vergi alınmalıdır.

2.Sadəlik - vergi sistemi mümkün qədər sadə olmalıdır ki, vergi ödəyiciləri öz öhdəliklərini asan başa düşüb vergiləri vaxtında və tam ödəsinlər və eyni zamanda vergi orqanlarının inzibati xərcləri və vergi nəzarətində çətinliklər azalsın.

3.Kafılik - vergi sistemi dövlət büdcəsini kifayət qədər və qabaqcadan məlum olan gəlir mənbələri ilə təmin etməlidir.

4.Səmərəlilik - vergi sistemi səmərəli olmalıdır və ölkənin iqtisadiyyatında məhsul və xidmətlərin istehsal həcminin artmasının qarşısını almamalı və ya azaltmamalıdır.

5.Rəqabət qabiliyyəti - digər ölkələrin vergi sistemlərinə dair milli vergi sistemi rəqabət qabiliyyətli olmalıdır, ona görə ki uzun müddətli, davamlı və real iqtisadi inkişafı, yeni iş yer-

larinin yaradılmasını və artımını təmin edən sistem olmalıdır.

Azərbaycanın iqtisadi inkişaf tempi, neft gəlirlərinin sürətlə artmasının davamlılığı, qeyd edilən prinsiplər əsasında vergi sisteminin daha da sürətlə inkişaf etdirilməsinə və vergi ödəyicilərinin vergi yükünü artırmadan həm də iqtisadi səmərəliliyinin artmasına, həm sosial ədalət və müdafiə sistemlərinin möhkəmlənməsinə imkanlar yaradır.

Azərbaycan dövləti tərəfindən qəbul olunmuş Avropa İttifaqı - Azərbaycan Fəaliyyət Planı Azərbaycan və Avropa İttifaqı arasındakı əməkdaşlığın strateji hədəflərini əhatə edən siyasi bir sənəddir.

Avropa İttifaqı - Azərbaycan Fəaliyyət Planı Azərbaycan dövlətinin fəaliyyəti üzrə bir sıra prioritetləri tənzimləyir. Fəaliyyət Planında Vergilər Nazirliyi üçün əsas əhəmiyyət kəsb edən prioritetlər, sahələr və onların çərçivəsində görülməsi tələb olunan aşağıdakı xüsusi tədbirlər göstərilib:

- vergi orqanlarında müasirləşmənin, sadələşmənin və informasiya kommunikasiya texnologiyalarının istifadəsinin davam etdirilməsi. Vergi ödəyiciləri ilə əməkdaşlıq və verginin razılaşdırılması, etika siyasəti, maliyyə nəzarəti strategiyası, audit və tədqiqat üsulları daxil olmaqla, bütün zəruri idarəetmə strukturlarını, prosedurları və siyasəti müəyyənləşdirərək, Vergi Məcəlləsinin asan və şəffaf tətbiqinin təmin edilməsi;
- beynəlxalq standartlara uyğun olaraq, şəffaflığın və məlumat mübadiləsinin təkmilləşdirilməsi daxil olmaqla, Azərbaycan və Aİ-yə üzv dövlətləri arasında ikiqat vergitutmanm aradan qaldırılması haqqında ikitərəfli sazişlər şəbəkəsinin başa çatdırılması üçün səylərin davam etdirilməsi;
- Avropa İttifaqının daxili bazarına Azərbaycanın gələcək inteqrasiyasında ədalətli şərtlərin təmin edilməsi məqsədilə Avropa İttifaqının Biznes Vergitulmasmm Aparılması Məcəlləsinin prinsiplərinə əsaslanaraq dialoqa başlanılması;
- vergilərin idarə edilməsi üçün müfəssəl strategiya planının hazırlanması və həyata keçirilməsi və informasiya kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi;
- ümumi Avropa İttifaqının və beynəlxalq prinsiplərə uyğun şəkildə Azərbaycan Respublikasının vergi sisteminin

İnkişaf etdirilməsi.

Bunları əsas tutaraq, Azərbaycan Respublikasının vergi sahəsində Fəaliyyət Planında vergi siyasətinin və inzibatçılığının təkmilləşdirilməsi üzrə ortamüddətli (2008-2012-ci illər üzrə) strateji istiqamətlər və xüsusi tədbirlər müəyyənləşdirilib.

Vergi siyasətinin həyata keçirilməsi dövləti vergi islahatları aparmağa sövq edən əsas amillərdən biridir.

Son onilliklərin vergi islahatlarının klassik stimulu hökumətin ölkədəki vergi sistemində ədalətliliyə, sadəliyə, səmərəliliyə nail olmaq istəyi və iqtisadi yüksəliş yolunda olan bütün maneələrin aradan qaldırılması arzusu olmuşdur. Ölkədə qəbul edilmiş vergi normalarının sahibkarlıq və inno- vasiya fəaliyyətinə stimulları məhdudlaşdırdığı, əhalinin yığımlarının səviyyəsini aşağı saldığı müəyyən edildikdə, yeni vergitutma konsepsiyasının işlənib hazırlanması zərurəti ortaya çıxır.

Məsələn, ABŞ-da 1986-cı ildə tammiqyash vergi islahatlarından öncə ictimai rəy öyrənilmiş və rəyi soruşulanların 70 faizi ölkədə vergi yükünün bölüşdürülməsindən narazı olduqlarını bildirmiş və vergi islahatlarının aparılmasını zəruri hesab etmişlər.

Vergitutmada islahatlar aparılmasının əsas stimullarından biri həmişə vergi sisteminin sadələşdirilməsi zərurəti olmuşdur. Çünki islahatlararası dövrdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən vergi qanunvericiliyinə edilən çoxsaylı əlavələr və düzəlişlər onu xeyli mürəkkəbləşdirir.

Vergi sisteminin mürəkkəbliyi inzibati xərclərin artmasına səbəb olur, vergi ödəyicilərinin ayrı-ayrı qrupları arasında vergi yükünün qeyri-bərabər bölüşdürüldüyü fikrinə inamı artırır. Bununla da vergiqoymada islahatların aparılmasına klassik stimullar ölkədə qərarlaşmış iqtisadi imkanların yol verdiyi hədd daxilində reallaşdırılır.

Vergi ödəyiciləri üzərində nəzarətin məhsuldarlığını təmin etmək üçün hökumət işəgötürənlərin üzərinə ödədikləri bütün gəlirlər barədə məlumat vermək vəzifəsini qoyur. Lakin buna baxmayaraq, islahatdan-islahata vergidən yayınmanın miqyası genişlənir, gizlədilən gəlirlərin məbləği artır.

Qanunvericiliyin nəzərdə tutduğu vergi nəzarətinin bütün üsullarından istifadə etdikdə belə, heç bir vergi orqanı pul

vəsaitlərinin bütün hərəkətini aşkar etmək və bağlanan bütün kommersiya əqdləşmələrinə nəzarət etmək iqtidarında deyildir. Bunun da nəticəsində müəyyən dövrdən bir vergi islahatları aparılması zərurəti yaranır. Hesab edilir ki, hər 5-7 ildən bir əsaslı vergi islahatları aparılmalı, hər 2-3 ildən bir isə qüvvədə olan vergi normalarının səmərəliliyinin dərin təhlili aparılmalıdır. Əgər belə bir təhlil mənfi nəticə çıxarmağa əsas verirsə, onda yubanmadan islahatlar aparmaq lazımdır. Belə bir tendensiya əsasən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə xasdır.

Keçid iqtisadiyyatlı ölkələrdə vergi islahatları tədricən, bir eksperimentdən digərinə keçməklə həyata keçirilir. Eksperimentin nəticələri dərindən və hərtərəfli təhlil edilir. Bu cür eksperimentlərin müvəffəqiyyətli olmasını iki əsas məqsədə nail olunması təsdiq edir. Birincisi, bütün mülkiyyətçilərin iqtisadi maraqlarının müvazinəti pozulmamalıdır, ikincisi isə, ölkənin vergi sisteminə qanunvericiliklə daxil edilmiş bütün vergilər öz aralarında məntiqi vəhdət təşkil etməlidirlər.

Vergi eksperimenti məhsuldar qüvvələrin, istehsalın sahə strukturunun inkişaf səviyyəsi və sürətində baş verən əsaslı dəyişikliklərlə əlaqədar olaraq vergi praktikasında nümunə kimi müəyyən dəyişikliklərin edilməsidir. Belə əsaslı dəyişikliklər eksperiment kimi mövcud vergi qanunlarında fərqlənən vergi konsepsiyalarının işlənib hazırlanması və onların praktikada tətbiq edilməsi zərurətini şərtləndirir. Bir neçə belə konsepsiya işlənib hazırlanır, onlar qiymətləndirilir və ən optimal hesab olunanı seçilir. Bu konsepsiya bir il müddətinə qanunda vergi eksperimenti kimi elan edilir. Bir il keçdikdən sonra isə bu yenilik yenidən qiymətləndirilir. Praktikada eksperimentin müvəffəqiyyətli olması təsdiq edilərsə, o, qanunvericilik şəklində təsdiq edilməsi üçün müvafiq orqanlara təqdim edilir və Vergi Məcəlləsində müvafiq dəyişiklik kimi təsdiq edilir.

Vergi islahatları aparılarkən, bir qayda olaraq, vergilərin tutulmasının əsas prinsipləri dəyişdirilmir. Bu prinsiplər (ədalətlilik, neytrallıq, sadəlik və səmərəlilik) vergi qanunvericiliyində aparılması nəzərdə tutulan bütün dəyişikliklərin hamısına şamil edilir.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin özünü büruzə verməsi üçün kifayət qədər vaxt tələb olunur. Qısa bir

müddət ərzində bu dəyişikliklərin nəticə verəcəyini gözləmək düzgün deyil. Qarşılarına vergiqoymanı optimallaşdırmaq vəzifəsini qoymuş islahatçılar bütün bu faktları nəzərə almalıdırlar.

Vergi islahatları vasitəsilə iqtisadiyyatın stabilləşdirilməsi üzrə səmərəli fəaliyyəti aparmaq arzusunda olan dövlətlər üçün vergi ekperimentinin yalnız məzmunu deyil, həm də onun vaxtında və sürətlə həyata keçirilməsi çox əhəmiyyətlidir. Yubanmaq ona gətirib çıxarar ki, iqtisadiyyatda böhran vəziyyəti dərinləşər və həyata keçirilən eksperiment nəzərdə tutulan səmərəni verməz.

Vergitutma sistemindəki dəyişikliklərin vaxtında aparılması nəticəsində asılı olaraq ortaya çıxan problemləri aşağıdakı beş qrupda cəmləşdirmək olar:

- vergi siyasətinin dəyişdirilməsi zərurətinə vaxtında gəlinməməsi:
- vergi eksperimentinin aparılmasında olan geriliklər:
- vergi eksperimentinin istiqamət və məzmununun düzgün müəyyənləşdirilməməsi və eksperimentin gedişinə dəyişikliklər edilməsində gecikmələr;
- vergi islahatlarından gözlənilən səmərənin gec əldə edilməsi;
- reallığın düzgün qiymətləndirilməməsi və vergi ilə bağlı digər maliyyə-təsərrüfat normalarına yanlış düzəlişlərin edilməsi.

Vergi qanunlarının fəaliyyətinin mənfi simptonlarma hökumətin dərhal reaksiya verməsi çoxlu sayda amillərdən asılıdır. Bu amillərdən ikisi daha çox əhəmiyyət kəsb edir:

- islahatçıların iqtisadi cəhətdən zəruri olan vergi islahatlarının aparılmasına peşəkarcasına hazır olmaları;
- iqtisadiyyatın bu dəyişiklikləri qəbul etməyə hazır olması.

İqtisadiyyatın vergi qanunvericiliyində aparılan dəyişikliklərə necə reaksiya verəcəyini qabaqcadan müəyyənləşdirmək çox mürəkkəb bir prosesdir. Bir-birini istisna edən iki reaksiya mümkündür:

-birinci reaksiya: iqtisadiyyat ona təklif edilmiş vergi stimullarını və qadağa sanksiyalarını qəbul edir. Bu zaman iqtisadiyyata investisiya qoyuluşunun həcmi artacaq, xəlvəti iqtisadiyyatdan leqal iqtisadiyyata kapital axını artacaq.

-İkinci reaksiya: biznes tez bir zamanda bir vergi sığınacağını qanunvericilikdə qadağan olmayan digər vergi sığınacağı ilə əvəz edəcək.

Bu dilemmanı tam həll etmək hələ ki. heç bir dövlətə müyəssər olmamışdır.

Vergi islahatlarının müvəffəqiyyətliyi adətən, onun həyata keçirilməsi ilə bağlı olan itkilərin az olması dərəcəsi ilə qiymətləndirilir. Qiymətləndirmənin daha bir meyarı isə qanun qəbul edilərkən qarşıya qoyulmuş məqsədlərə nə dərəcədə nail olunmasıdır. Buna görə də hər bir yeni vergi islahatı növbəti islahata doğru hərəkətin başlanğıcıdır.

İslahatlar zamanı keçid iqtisadiyyatlı dövlətlər daha böyük çətinliklərlə üzləşirlər. Vergi islahatlarının aparılmasına zərurətin artması hər şeydən əvvəl onunla əlaqədardır ki, bazara keçid şəraitində ölkə iqtisadiyyatı dərin böhran vəziyyəti keçirir. Dövlət gəlirlərinin əsas mənbəyi olan istehsal sahəsi tənəzzüldə olur. Əhalinin gəlirləri az olduqda büdcəyə ödənişlərin də səviyyəsi aşağı olur. Buna görə də dövlət vergilərin səviyyəsini qaldırmadan, iqtisadiyyatın dirçəlməsinə nail olmaq üçün maliyyə vəsaiti axtarışı problemi ilə rastlaşır.

Ona görə də Azərbaycan Respublikası da daxil olmaqla keçid iqtisadiyyatlı ölkələrdə vergi islahatları aparılarkən 3 əsas prinsipi nəzərə almaq lazımdır:

- ölkənin sosial-siyasi vəziyyətindən çıxış edərək onun özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması;
- dövlətin iqtisadiyyata ən az ağrılı şəkildə vergi müdaxiləsinin formalarının axtarılıb tapılması; (Bu zaman dövlətin vergi nəzarəti və vergi qanunvericiliyinin pozulmasına görə vergi sanksiyaları sərtləşdirilməlidir).
- bazar iqtisadiyyatına keçid şəraitində maliyyə ehtiyatlarının axtarılıb tapılması.

Vergitutma sahəsində islahatlar həyata keçirilərkən bu prinsiplərdən çıxış edilməsi gözlənilən səmərənin əldə edilməsinin əsas şərtidir.

Vergitutma nəzəriyyəsi vergi islahatlarının iki qrup prinsiplərini nəzərdə tutur. Birinci qrup prinsiplərə «vergi islahatlarının hərəkətinin ideal dövlətlərarası resepti» adlanan prinsiplər aid edilir. Bu prinsiplərin məzmunu hələ çox-çox

İllər əvvəl iqtisadi fikrin klassikləri tərəfindən şərh edilmişdir. Bu prinsiplər vergi islahatlarını istiqamətləndirir. Bu elə bir istiqamətdir ki, ona doğru hərəkət ölkənin sosial-siyasi və iqtisadi inkişaf səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Bu prinsiplər barədə iqtisadi fikri A.Smit, D.Rikardo, A.Vaqner və s. kimi görkəmli nümayəndələri öz əsərlərində yazmışlar.

İkinci qrup prinsipləri vergi islahatlarını həyata keçirən ayrılıqda götürülmüş hər bir ölkənin müəyyən etdiyi prinsiplər təşkil edir. Öz məzmununa görə bu prinsiplər qrupu yekcins deyildir. Bu qrupun özü də öz növbəsində iki alt qrupa bölünür.

Birinci alt qrupun prinsiplərini vergitutmanın klassik variantına daha çox uyğun gələn sabit vergi sistemli ölkələr tətbiq edirlər. İkinci alt qrup prinsipləri isə öz vergi sistemlərini beynəlxalq standartlara və inkişaf etmiş sosial yönümlü bazar iqtisadiyyatına uyğun olaraq qurmaq istəyən ölkələr əsas kimi götürürlər.

Bu və ya digər vergilərə üstünlük verilməsindən asılı olaraq milli vergitutmanın xüsusiyyətləri müəyyənləşdirilir. Bu və ya digər vergilərin daxil edilməsinin elmi cəhətdən əsaslandırılması, onların hesablanması və ödənilməsi şərtlərinin müəyyənləşdirilməsi, vergi qanunvericiliyinin pozulmasına görə vergi məsuliyyəti tədbirlərinin təyin edilməsi milli vergi sisteminin kamilliyini xarakterizə edir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən demək olar ki, bu ölkələrdə vergi islahatları aşağıdakı prinsiplərə əsaslanaraq həyata keçirilmişdir:

1. Aşağı dərəcəli vergi sisteminin yaradılması, iqtisadi tədqiqatların göstərdiyi kimi, vergi sistemində baş verən bütün əyintilər məhz vergi dərəcələrinin son həddinin kəmiyyəti ilə bağlıdır.

2. Vergidən yayınmanın müxtəlif sxemləri əsasən vergi dərəcəsinin mütərəqqiliyi və kapitalın müxtəlif dərəcələrlə vergiyə cəlb edilməsi ilə bağlı olur. İslahatçıların hesablamalarına görə vergi dərəcələrinin son həddinin səviyyəsinin aşağı salınması vergidən yayınmanın və onlardan ümumiyyətlə qaçmağın cəlbediciliyini azaldır.

Gəlirlərin vergiyə cəlb edilməsinin müxtəlif recimlərinin zəiflədilməsi vergi qanunvericiliyinin kobud surətdə pozulması

hallarının qarşısını alır və onlarla bağlı olan cəza tədbirlərinin də sayının xeyli aşağı düşməsinə səbəb olur. Beləliklə də gəlirlərin leqallaşdırılması cəhdləri artır, münbit investisiya mühiti formalaşır.

3. Vergi sisteminin «yaxşı» hesab edilən vergilərdən formalaşdırılması. «Yaxşı» vergi dedikdə, son nəticədə bu verginin kimin ödəyəcəyinin əvvəlcədən məlum olması nəzərdə tutulur.

Məsələn, ABŞ-da korporativ gəlir vergisi «pis» vergi kimi təyin olunmuşdur. Çünki bu verginin ağırlığı istehlakçıların və səhmdarların üzərinə düşür, kapital yığımı və investisiya fəaliyyətinə maneçilik törədir. Müəssisələrin gəlirlərinin səviyyəsinin aşağı olduğu hallarda onlardan bu verginin tutulması heç də məqsədəuyğun deyildir. Əgər bu vergi iqtisadi cəhətdən inkişaf etmiş bir ölkədə pis hesab olunursa, deməli, keçid iqtisadiyyatlı ölkələr üçün o ümumiyyətlə qeyri-məqbuldur.

4. Vergi sistemindəki dəyişikliklərin mahiyyəti sıravi vergi ödəyicisi üçün başa düşülən olmalıdır. Vergi Məcəlləsinin mürəkkəbliyindən çıxış edərək ona zəruri düzəlişlərin edilməsi vergi ödəyicilərini müəyyən çətinliklərlə üzləşdirir. Onlar qanunun tələblərinə əməl etdiklərini, hərəkətlərinin düzgün olduğunu bilmək istəyirlər. Buna görə də vergi islahatlarının əsas prinsiplərindən biri onun aşkarlıq şəraitində həyata keçirilməsi və vergi ödəyiciləri arasında bu istiqamətdə geniş izahat işinin aparılmasıdır.

5. Vergi islahatları barədə xəbərdarlıq edilməsi. Bəzən sahibkarlar vergi qanunvericiliyinə edilən dəyişikliklər barədə cari maliyyə ili ərzində, kapitalları müəyyən sahələrdə yerləşdirdikdən, maliyyə və ticarət sövdələşmələri bağladıqdan sonra xəbər tuturlar.

6. Bu cür vergi islahatlarından dəyən zərər yalnız biznes sahəsində deyil, həm də büdcəyə vergi daxilolmalarının həcmində də öz əksini tapır. Biznes sahəsindəki itkilər elə büdcənin itkiləri deməkdir. Sahibkarlar tərəfindən bağlanan müqavilələr, adətən, bir neçə ili əhatə etdiyindən vergi islahatları müsadirə xarakteri daşımalıdır.

7. Vergi islahatları həyata keçirilərkən qarşıya çoxlu sayda vəzifələr qoyulmamalıdır. Məsələn, vergi sisteminə ağır fiskal

tələblər daxil etmək və paralel olaraq qarşıya biznes fəaliyyətinin stimullaşdırılması, gəlirlərin artırılması, vergidən yayınmanın qarşısına maneələr çəkilməsi, yerli istehsalçılar üçün əlverişli mühitin yaradılması və s. kimi vəzifələrin qoyulması son nəticədə ona gətirib çıxaracaq ki, qarşıya qoyulmuş bu vəzifələrin heç birinə istənilən səviyyədə nail olunmayacaq.

8. Növbəti vergi islahatlarına başlayarkən, bu islahatlar nəticəsində hansı səmərənin əldə ediləcəyini qabaqcadan dəqiq təsəvvür etmək, islahatların qarşısında duran vəzifələrin optimallıq şərtini müəyyən etmək lazımdır.

Hər hansı bir vergi islahatı həyata keçirilərkən, bir qayda olaraq ortaya aşağıdakı suallar çıxır:

- vergi sistemini sadələşdirməyin elə bir üsulu varmı ki, çox şeyləri qurban vermədən onun nəzərəçarpacaq dərəcədə iqtisadi səmərəliliyinə nail olmaq mümkün olsun;

- vergi islahatları nəticəsində cəmiyyətin müəyyən uduşlar əldə etməsinə baxmayaraq, bu cür islahatlar çox nadir hallarda onların konseptual əsaslarının ilkin məzmunu nöqteyi- nəzərindən optimal olur. Köhnə sistemdən yeni sistemə keçidin elə üsulları mövcuddurmu ki, bu zaman nisbətən az sayda şəxslərin maraqlarına xələl gətirilmiş olsun?

Bu cür üsulları aşkar edib müəyyənləşdirməklə, sosial maraqların bütün kompleksini nəzərə almaqla islahatları həyata keçirmək olar;

- vergi sisteminə adətən gəlir əldə etməklə bağlı olmayan məqsədlərə nail olunması üçün nisbətən səmərəli vasitə kimi baxılır. Bunun üçün, məsələn, iqtisad elminə çoxdan məlum olan xarici amillərin doğurduğu səmərəsizliyi yüngülləşdirən ənənələrə müraciət etmək lazımdır. Əgər vergi sisteminin sadələşdirilməsi tənzimləyici vergilərdən imtina edilməsinə gətirib çıxarırsa, onlardan istifadə etmək qarşıya qoyulan məqsədlərə nail olunmasına imkan yoxdursa, bunun başqa vasitələri mövcuddurmu?

Vergi islahatlarının müvəffəqiyyətli olması bu məsələlərin vaxtında və düzgün həll edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

Vergi islahatları həyata keçirilərkən dövlət xərclərinin maliyyələşdirilməsi perspektivləri barədə məsələnin həlli ciddi əhəmiyyət kəsb edir. Bu məsələ özünü yerli vergitutmada daha

qabarıq büruzə verir. Vergi islahatları qarşısında həmişə belə bir sual durur: yerli xərcləri və dövlət xərclərini necə maliyyələşdirməli - vergilər, yoxsa borc öhdəlikləri hesabına? Borclar və vergilərin optimal vəhdətinin tapılması mürəkkəb bir məsələdir. Bir qayda olaraq, öz ərazilərində iri vergi ödəyicilərinin az olması səbəbindən yerli büdcələrin vergi mənbələri məhduddur.

Ona görə də yerli orqanlar üçün borca müraciət etmək daha asandır. Ancaq borcları qaytarmaq zərurəti olduğundan, burada da imkanlar məhduddur. Buna görə də vergi islahatları həyata keçirilərkən ortaya yeni bir vəzifə çıxır: vergi fed- eralizminin hüquqi təmin edilməsi. İnkişaf etmiş ölkələrin belə məsələləri həll etməkdə kifayət qədər təcrübəsi var. Beləliklə, vergi islahatlarının həyata keçirilməsi prinsiplərinin seçilməsi yalnız vergitutmanı optimallaşdırmaq prinsipinə əsaslanır, həm də ölkədə islahatların iqtisadi və sosial-siyasi imkanlarına əsaslanır.

Vergi sistemində aparılan islahatların yuxarıda qeyd olunan konsepsiyaları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu zaman qarşıda duran əsas vəzifə bu və ya digər vergi konsepsiyasını formalaşdırarkən nədən çıxış etmək müəyyənləşdirilməsidir. Əsas kimi mövcud vergi sistemini götürmək və onun altsistemlərində müəyyən dəyişikliklər aparmaq olar. Bu zaman praktiki olaraq ölkədəki mülkiyyət münasibətləri, dövlət quruluşunun prinsipləri, maddi və maliyyə ehtiyatlarının bölüşdürülməsi sistemi dəyişməz olaraq qalacaqdır.

Vergi islahatlarının əsas məqsədinə - mülkiyyətçilərin və dövlətin maraqlarının maksimum mümkün tarazlığına nail olunmasına çatmaq üçün yalnız vergitutma sisteminin qurulmasının təşkilati-iqtisadi prinsiplərini təkmilləşdirmək deyil, həm də vergi sisteminin idarəetmə mexanizminin və ayrı-ayrılıqda götürülmüş hər bir verginin hesablanması texnikasını təkmilləşdirmək lazımdır.

İqtisadiyyatda bazar islahatlarının həyata keçirilməsi səmərəli vergitutma sistemi yaratmadan mümkün deyildir. Bu sistem iqtisadiyyatın tənzimlənməsində, büdcə gəlirlərinin formalaşdırılmasında, sosial yönümlü iqtisadiyyatlı bütün ölkələrdə inflyasiyanın qarşısının alınması və qiymət artımının məhdudlaşdırılmasmda dövlət maraqlarının əsas daşıyıcısıdır.

Təkrar istehsal prosesinin iştirakçılarının maraqlarını ifadə etməklə vergi sistemi onların tarazlığını və ictimai tərəqqini təmin edir.

Vergi münasibətləri yenidən bölüşdürücü xarakterli münasibətlər olduğundan, ictimai tərəqqi onların inkişaf səviyyəsindən asılıdır. Vergi münasibətlərinin təkmilləşdirilməsi bütün hökumətlərin fəaliyyətinin ən çətin sahəsidir.

Beləliklə, vergitutmanın təkmilləşdirilməsi möhkəm iqtisadi bazisin yaradılması və stabil ictimai inkişafa nail olunması ilə sıx surətdə bağlıdır.

Aparıcı Qərbi Avropa ölkələrinin İkinci Dünya müharibəsindən sonrakı dövrdə ağır iqtisadi vəziyyəti onları iqtisadi vəziyyətlərini dirçəltmək üçün vergi islahatları aparmağa sövq edən əsas şərtlərdən biri idi. Bu ölkələrin hökumətləri sənayenin üstünlük verilən sahələrini maliyyələşdirmə üçün vergi sistemi vasitəsilə milli gəlirin fəal surətdə yenidən bölüşdürülməsini həyata keçirməyə başladılar. O dövrün iqtisadi siyasətinin əsas vəzifəsi vergi mexanizmləri vasitəsilə istehsalın və elmi-texniki fəaliyyətin prioritet istiqamətlərində xüsusi sahibkarlığın stimullaşdırılması idi.

Qərb ölkələrinin ötən əsrin 50-70-ci illərindəki vergi siyasətlərinin təhlili demək olar ki, sənayenin bütün sahələrində görünməmiş, elmi-texniki tərəqqiyə nail olmağa imkan verən bir neçə universal vergi mexanizmlərini qeyd etməyə imkan verir. Bunlar əsasən aşağıdakılardır:

- sürətli amortizasiya mexanizminin daxil edilməsi. Bu, korporasiyaların vergiyə cəlb olunan gəlirlərinin həcmini azaltmaqla yanaşı, onlara dövriyyə vəsaitlərini yenidən investisiyalara yönəltməyə imkan verirdi;
- mənfəətin yenidən investisiyaya yönəldilməsi zamanı investorlara vergi güzəştlərinin verilməsi;
- faydalı qazıntıların çıxarılması ilə məşğul olan müəssisələrə vergi güzəştlərinin verilməsi;
- sahələr üzrə (məsələn, dəmiryol nəqliyyatı, aviasiya sənayesi və s.) vergi güzəştlərinin verilməsi;
- investisiya vergi kreditinin daxil edilməsi;
- elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə vergi güzəştlərinin tətbiq edilməsi.

Bütün bunların nəticəsində ötən əsrin 50-ci illərində yeni

elmi-texniki istiqamətlər sürətlə inkişaf etməyə başladı. Bu isə, öz növbəsində, istehsalın sahə strukturunun köklü surətdə dəyişməsinə səbəb oldu. Bu işlər əsasən aşağıdakılar idi:

- əmək vasitələrinin inkişafında yeni bir mərhələ yarandı. Kompleks avtomatlaşdırmanın elektron texnikası ilə vəhdəti nəticəsində avtomat xətlər, proqramla idarə olunan dəzgahlar və s. istehsala tətbiq edildi;
- getdikcə baha başa gələn təbii xammalın sintetik materiallarla əvəz edilməsi kimya sənayesinin inkişafına, onun əsas xammal təchizatçısına çevrilməsinə təkan verdi;
- yeni sahələrin (elektrotexnika, aviasiya və s.) inkişafı elmi-texniki tərəqqinin sürətləndirilməsinə səbəb oldu;
- atom energetikasının yaranması atom enerji maşınqayırmasının da yaradılması zərurətini ortaya çıxardı.

Elmi-texniki tərəqqinin geniş vüsət alması iqtisadiyyatda əsaslı keyfiyyət və struktur dəyişikliklərinə səbəb oldu. Material və maliyyə ehtiyatlarının məhdudluğu aparıcı Qərb dövlətlərinin hökumətlərini ümumi daxili məhsulun yenidən bölüşdürülməsində sərt siyasət yürütmək məcburiyyəti qarşısında qoyurdu.

Belə ki, bir iqtisadi şəraitdə mütərəqqi gəlir vergisinin tətbiq edilməsi vergi yükünün cəmiyyətin imkanlı təbəqəsinin üzərinə keçirilməsinə və dövlətin maliyyə qüdrətini daha kəskin sosial məsələlərin həllinə yönəldilməsinə imkan verdi. Bundan başqa, korporativ mənfəət vergisinin səviyyəsinin yüksək olmasına baxmayaraq, müxtəlif sahələrə güzəştlər verilir, istehsalın genişləndirilməsinə imkan verən sürətli amortizasiya siyasəti həyata keçirilirdi. Belə bir vergi siyasəti nəticəsində, məsələn, ABŞ-da korporasiyaların mənfəətinin məbləği 1950-ci ildə 33,9 milyard dollardan 1969-cu ildə 85,1 milyard dollara çatdı.

70-ci illərin əvvəllərində inflyasiya prosesinin artması, 1973-cü ildə neft böhranı və s. amillər iqtisadi artım sürətinin aşağı düşməsinə səbəb oldu. Bu isə inkişaf etmiş ölkələri öz iqtisadi siyasətlərinə yenidən baxmağa sövq etdi.

80-ci illərin əvvəllərində, demək olar ki, inkişaf etmiş bütün dövlətlərdə irimiqyaslı vergi islahatlarının aparılmasına başlanıldı. Bu islahatların həyata keçirilməsini zəruri edən əsas

amillər aşağıdakılar idi:

- iqtisadiyyatın dövlət tənzimlənməsi üsullarının liberallaşdırılması siyasətinin fəallaşması;
- təhlükəli miqyas alan büdcə kəsirlərinin azaldılması cəhdləri;
- Qərbi Avropa ölkələrində vergi sistemlərini uyğunlaşdırmaq istəyi:
- inflyasiya nəticəsində vergi yükünün xeyli artması.

Nəzərdə tutulan islahatların qarşısında duran əsas vəzifələr aşağıdakılardan ibarət idi:

- vergi sisteminin sadələşdirilməsi;
- vergitutmanın prinsiplərinin təkmilləşdirilməsi;
- vergi güzəştlərinin ixtisar edilməsi;
- vergi qanunvericiliklərində olan boşluqlarm doldurulması;
- vergi sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi.

Qeyd etmək lazımdır ki, bu islahatlar tədricən və mərhələmərhələ həyata keçirilirdi. Məsələn, ABŞ-da vergi islahatları iki mərhələdə - 1981 və 1986-cı illərdə həyata keçirildi. Böyük Britaniyada islahatlara 1979-cu ildə başlanıldı və on ildən çox bir dövrü əhatə etdi. AFR-də islahatlar üç mərhələdə - 1986, 1988 və 1990-cı illərdə aparıldı. İsveçdəki 1991-ci il islahatlarına beş il. Yaponiyadakı 1988-ci il islahatlarına isə 15 il hazırlıq görüldü.

İnkişaf etmiş ölkələrdə həyata keçirilən vergi islahatlarının əsas istiqamətlərinə nəzər salaq.

ABŞ. Vergi islahatları haqqında qanun vergi qanunvericiliyinin liberallaşdırılmasma və bazar qüvvələrinin dövlətin himayəsindən azad edilməsinə yönəldilmişdi. Bu islahatlarda şirkətlərin təsərrüfat qərarlarının qəbul edilməsində dövlətin tənzimləyici təsirinin məhdudlaşdırılması və sahəsindən asılı olmayaraq, eyni gəlirlərə eyni vergilərin təyin olunması prinsipi elan edilmişdi. İslahatların gedişində aşağıdakılar həyata keçirildi:

- korporativ verginin dərəcəsinin liberallaşdırılması;
- gəlir vergisi sisteminin liberallaşdırılması;
- vergitutma bazasının genişləndirilməsi;
- fiskal sistemin sadələşdirilməsi;

- əhalinin imkanlı təbəqələrinə vergi öhdəliklərini azaltmağa imkan verən güzəştlərin ləğv edilməsi:
- vergiyə cəlb edilməyən minimumun səviyyəsinin yüksəldilməsi;
- vergi qanunvericiliyindəki boşluqlarm doldurulması.

Bütün bunların nəticəsi olaraq korporasiyaların mənfəət vergisinin dərəcəsi 46 faizdən 39 faizə, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə 25 faizlik vergi güzəşti 20 faizə endirildi, investisiya vergi krediti ləğv edildi, gəlir vergisinin dərəcələrinin sayı 14-dən 4-dək azaldıldı.

Böyük Britaniya. 1984-cü ildə korporativ verginin dərəcəsi 52 faizdən 35 faizə endirildi və şirkətlərə fəaliyyətlərinin birinci ilində 100% güzəşt verildi. Büdcə itkilərini azaltmaq üçün investisiya subsidiyası ləğv edildi. Böyük Britaniyada vergi islahatları «Aşağı dərəcəli vergilər iqtisadiyyatı səmərəli edir» devizi altında keçirilirdi. Gəlir vergisinin maksimal dərəcəsi 60% endirildi. Amortizasiya normalarına yenidən baxıldı, korporasiyalara elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərcləri heç bir məhdudiyyət qoyulmadan istehsal xərclərinin tərkibinə daxil etmək hüququ verildi.

Böyük Britaniyada fərdi investorlar üçün xeyli mobil vergi güzəştləri sistemi mövcuddur. Mənfəətinin məbləği müəyyən edilmiş səviyyədən aşağı olan şirkətlər mənfəət vergisini daha aşağı dərəcələrlə ödəyirlər. Dividendlərdən tutulan vergi şirkətlərin vergiyə cəlb edilməsi ilə bağlıdır. Dividend ödənilməsi şirkətlərə mənfəət vergisi şəklində ödədikləri verginin üçdə biri məbləğində vergi kreditindən istifadə etmək imkanı verir. Aparılan bu vergi islahatları ölkədən gəlirlərin çıxarılması problemini həll etməyə və vergi emiqrasiyasının neqativ nəticələrini aradan qaldırmağa imkan verdi.

AFR. 1986-cı ildən başlayaraq bir neçə mərhələdə aparılan islahatların əsas devizi belə idi: «Yüksək vergi dərəcələri və çoxsaylı istisna hallarının olmasındansa, aşağı vergi dərəcələrinin və azsaylı güzəştlərin olması daha yaxşıdır». Aparılan islahatların birinci (1986-cı il) və ikinci (1988-ci il) mərhələlərində əsas diqqət əhalinin vergiyə cəlb edilməsinin forma və üsullarının təkmilləşdirilməsinə, üçüncü mərhələdə (1990-cı il) isə korporativ vergilərin fəaliyyət dairəsinin dəyişdirilməsinə yönəldilmişdi.

Almaniyanın Federal Maliyyə Nazirliyi yanında yaradılmış Elmi Şura kapital qoyuluşlarını stimullaşdırmaq məqsədilə korporasiyaların vergi yükünün yüngülləşdirilməsinin bir neçə variantını işləyib hazırladı:

-istehsal təyinatlı investisiyalara və elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə yönəldilmiş investisiyalara vergiyə cəlb olunmayan əlavənin tətbiq edilməsi;

-korporativ verginin dərəcəsinin aşağı salınması;

-vergi strukturunun dəyişdirilməsi, yəni gəlir və mənfəətdən tutulan vergilərin dərəcələrini aşağı salmaqla istehlaka tətbiq edilən vergilərin, ilk növbədə, ƏDV-nin yüksəldilməsi.

AFR-də şirkətlərin vergiyə cəlb edilməsi səviyyəsi mənfəətin bölüşdürülməsi və bölüşdürülməyən hissələrinin nisbətindən asılıdır. 1994-cü ildə bölüşdürülən mənfəət üçün vergi dərəcəsi 36 faizdən 30 faizə, bölüşdürülməyən mənfəət üçün vergi dərəcəsi isə 50 faizdən 45 faizə endirildi.

AFR-də aparılan vergi islahatlarının əsas istiqamətlərindən biri də əhalinin, ələlxüsus uşaqlı ailələrin vergi yükünün azaldılması idi. Bununla əlaqədar olaraq, vergiyə cəlb olunmayan minimumun məbləği artırıldı, gəlir vergisinin maksimal dərəcəsi aşağı salındı.

Beləliklə, inkişaf etmiş ölkələrdə aparılan vergi islahatlarının təhlili bir sıra ümumiləşdirmələr etməyə imkan verir.

Gəlir və mənfəət vergiləri sahəsində aparılan islahatlar nəticəsində bu vergilərin dərəcələri aşağı salınmaqla bərabər, onların vergitutma bazası genişləndirildi və xeyli miqdarda vergi güzəştləri ixtisara salındı.

Korporativ vergi dərəcələrinin aşağı salınması inkişaf etmiş ölkələrin iqtisadiyyatında investisiya fəallığının yüksəlməsinin əsas stimulu oldu. «Bərabər gəlirə bərabər vergi» prinsipi əsasında istehsalçılar arasında vergi yükünün ədalətli bölüşdürülməsi sahibkarlıq subyektlərinin qərarlarına vergi siyasətinin neytral təsirini təmin etdi.

Bu halı qiymətləndirərkən qeyd etmək lazımdır ki, büdcənin gəlir strukturunda korporativ verginin xüsusi çəkisinin azalması müəyyən dərəcədə bu ölkələrin hökumətlərinin yürütdükləri vergi siyasətinin mütərəqqiliyi ilə xarakterizə olunur, çünki bu hal investisiyalaşdırma imkanlarını artırır.

İstehsalçıların öz gəlirlərini idarəetmə hüquqlarını genişlən

dirməklə bərabər, dövlət strukturları korporativ vergidən iqtisadiyyatın tənzimlənməsi və investisiya prosesini stimullaşdırmaq aləti kimi istifadə etməkdən heç də tamamilə imtina etməmişdilər. İnvestisiya güzəştlərinin ixtisarı və ləğvi ilə paralel olaraq, istehsalın elmi-texniki inkişafının sürətləndirilməsinə yönəldilmiş yeni güzəştlər nəzərdə tutulurdu.

Ötən əsrin 80-90-cı illərinin vergi islahatları zamanı əksər ölkələrdə vergi güzəştlərinin tətbiq dairəsi daraldıldı. İslahatlar xüsusi investisiya güzəştlərinin ləğvini, sürətli amortizasiya normasının azaldılmasını, investisiya vergi kreditinin aradan qaldırılmasını nəzərdə tuturdu. Bunun da nəticəsində investisiyanın vergiyə cəlb edilməsi istiqamətində dəyişiklik baş verdi. Elmi-tədqiqat, təcrübə-konstruktor işlərinə kapital qoyan investorlar üçün vergi güzəştləri sistemi nəzərdə tutuldu.

Beləliklə, ötən əsrin 80-90-cı illərinin vergi islahatlarının gedişində istehsalın elmi-texniki inkişafının yeni mərhələsində bazar iqtisadiyyatının vergi tənzimlənməsi siyasətinə vahid konseptual yanaşma təşəkkül tapmış oldu və həmçinin, vergilərdən müasir təsərrüfat sisteminin makroiqtisadi tənzimləyicisi kimi istifadə edilməsinin prioritet istiqamətləri müəyyənləşdirildi.

Ümummilli liderin ölkəmizdə sosial yönümlü iqtisadiyyatın yaradılması istiqamətində məqsədyönlü şəkildə həyata keçirdiyi işlər vergitutmanın mövcud vəziyyətinə xüsusi diqqət yetirilməsini tələb edirdi. Bu zaman nəzərdə tutulurdu ki, vergilər yalnız büdcənin balanslaşdırılması aləti deyil, həm də ölkənin xalq təsərrüfatının bütün sahələrinin inkişafı üçün güclü stimul olmalıdır.

Azərbaycan Respublikasının vergi sistemində aparılan islahatların əsas məqsədi yeni istehsal-mülkiyyət şəraitində ölkə iqtisadiyyatının bütün sahələrinin potensial imkanlarından istifadənin səmərəliliyini artırmaqdan, onların dinamik inkişafım təmin etməkdən, kiçik və orta sahibkarlığın formalaşmasına, ümumən iqtisadi sistemdə işgüzarlığı, çevikliyi, təşəbbüskarlığı təşviq etməklə, bütövlükdə sosial-iqtisadi inkişafa şərait yaratmaqdan ibarət olmuşdur.

Keçid dövründə vergi sisteminin formalaşması bazar mexanizmi ilə inzibati sərəncamvermə mexanizminin qarşılıqlı sin

tezi ilə müşayiət olunmuşdur.

Azərbaycan Respublikasında iqtisadi siyasətin tərkib hissəsi olan vergi islahatları aşağıdakı başlıca prinsiplərə əsaslanır:

- ümumi məqsədyönlülük, yəni vergi sisteminin qurulmasında və səmərəliliyinin artırılmasında onun iqtisadi inkişafa məcmu təsirindən çıxış edilməsi;
- sadəlik, yəni vergilərin müəyyən edilməsi və onların yığılması sahəsində hər cür bürokratik maneələrin aradan qaldırılması, tətbiq olunan çoxsaylı hesabat formalarının sayının azaldılması və müəssisələrin mühasibat bölmələrinin işindəki gərginliyin azaldılması;
- fiskal səmərəlilik, yəni dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin vergi daxilolmalarından dəfələrlə az olması, əks dövlətin əsas xərclərinin maliyyələşdirilməsinə vəsait çatışmazlığının labüdlüyü;
- vergiləri ödəməkdən yayınma meyillərinə sədd çəkilməsi, yəni bu və ya digər verginin təibiqi və onun yığılması qaydalarının müəyyən edilməsi zamanı onun ödənilməsindən yayınmanın və beləliklə də iqtisadiyyatın və bütövlükdə cəmiyyətin kriminallaşmasınm qarşısının alınması üçün müvafiq normativ-hüquqi bazanın hazırlanması və onun tətbiqi;
- universallıq, yəni vergi dərəcələrinin və gəlirlərin bölüşdürülmə normativlərinin maksimum universallığının təmin edilməsi, müxtəlif kateqoriyalı vergi ödəyicilərinə, sahələrə və fəaliyyət növlərinə vergitutma məqsədi ilə yanaşma müxtəlifliyinin təmin edilməsi;
- ictimai faydalı fəaliyyət növlərinin inkişafının stimullaşdırılması və zərərli fəaliyyət növlərinin qarşısının alınması, yəni səmərəli vergi sistemi qurmaqla istehsal təyinatlı investisiya fəallığının və iqtisadi aktivliyin artırılması hesabına cəmiyyət qarşısında duran problemlərin həll edilməsinin, ekoloji proqramların həyata keçirilməsinin, ətraf mühit və insan sağlamlığı və fəaliyyəti üçün təhlükə törədən fəaliyyət növlərinin qarşısının yüksək vergi müəyyən etməklə alınmasının təmin edilməsi;
- büdcənin və vergi ödəyicilərinin gəlirlərinin inflyasiyadan müdafiəsi, yəni büdcənin maraqları çərçivəsində inflyasiya amilinin nəzərə alınması, vergi ödəyicilərinin müflisləşməsinin

VƏ vergiyə cəlb olunan bazanın azalmasının qarşısının alınması, vergi ödəyicilərinin hüquqlarının qorunmasının maksimum təmin edilməsi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında həyata keçirilən vergi siyasəti və ölkədə aparılan vergi islahatları Azərbaycan Respublikasında ölkənin təsərrüfat mexanizminin fəaliyyətini təmin edən, dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verən, ümumiyyətlə, bazar iqtisadiyyatına keçidin bütün tələblərinə cavab verən vergi sisteminin yaradılmasına gətirib çıxardı.

**iqtisadiyyatın vergi tənzimlənməsi**

iqtisadi tərəqqi və

# VERGİ

siyasəti

**Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.**

**Heydər Əliyev**

Zəngin iqtisadi və idarəçilik təcrübəsinə malik olan ulu öndər bilirdi ki, inzibati-amirlik sistemindən fərqli olaraq, bazar iqtisadiyyatı şəraitində stimullaşdırmanm iqtisadi metodları həlledici əhəmiyyət kəsb etdiyindən onlara geniş yer verilməlidir. Məhz bu məqsədlə də o, iqtisadiyyatın tənzimlənməsi prosesində vergi mexanizmlərindən istifadə edilməsinin zəruri olduğunu ön plana çəkdi. Bütün üstün cəhətlərinə baxmayaraq, bazar iqtisadiyyatı cəmiyyətin və hər bir vətəndaşın maraqlarını nəzərə almaqla sosial və iqtisadi prosesləri avtomatik olaraq tənzimləmək iqtidarında deyil.

o, gəlirin sosial cəhətdən ədalətli bölüşdürülməsini təmin etmir, hər bir vətəndaşın işləmək hüququna zəmanət vermir, ətraf mühitin və əhalinin aztəminatlı hissəsinin qayğısına qalmır.

Bir qayda olaraq, xüsusi mülkiyyətə əsaslanan biznes yüksək mənfəət gətirməyən, lakin cəmiyyət və dövlət üçün həyati əhəmiyyət kəsb edən sahələrə və layihələrə öz kapitalını yönəltməkdə o qədər də maraqlı olmur. Bütün bunların qayğısına dövlət qalmalıdır.

Dövlətin əsas vəzifəsi ölkədə qayda-qanunun, milli təhlükəsizliyin təmin edilməsidir ki, bunlar da sahibkarlığın inkişaf etdirilməsinin əsasıdır. Bu nöqteyi-nəzərdən dövlətin üzərinə aşağıdakı funksiyalar qoyulur;

- Hüquqi bazanın yaradılması. Məlumdur ki, hüquqi baza olmadan iqtisadiyyat və bütövlükdə cəmiyyət normal inkişaf edə bilməz. Dövlət mülkiyyət hüququna zəmanət verən, sahibkarlıq fəaliyyətini tənzimləyən və s. qanunları hazırlayır və qəbul edir. Hüquqi bazanın köməyi ilə dövlət sahibkarlıq subyektləri arasındakı münasibətləri tənzimləyir.

- Ölkədə qanunçuluğun və milli təhlükəsizliyin təmin edilməsi. Dövlət hər bir vətəndaşın, bütövlükdə cəmiyyətin və bazar iqtisadiyyatının bütün subyektlərinin hüquq və təhlükəsizliyini təmin etməlidir. Əgər dövlət həmin funksiyanı normal yerinə yetirmirsə, bu, sahibkarlıq fəaliyyətinə öldürücü təsir göstərir.

- İqtisadiyyatın sabitləşdirilməsi. İqtisadiyyatın sabitləşdirilməsinin təmin edilməsi üçün dövlət ixtiyarında olan bütün vasitə və üsullardan istifadə etməlidir. Əgər dövlət iqtisadiyyatın sabitləşdirilməsinə nail ola bilmirsə, bu həm iqtisadiyyata, həm sahibkarlıq fəaliyyətinə, həm də sosial vəziyyətə çox mənfi təsir göstərər.

- Sosial müdafiənin təmin edilməsi. Dövlət aktiv sosial siyasət həyata keçirməlidir. Sosial siyasətin mahiyyəti bütün işləyən əhalinin minimum əmək haqqı ilə, işsizlərin işsizliyə görə müavinətlə, əlil və qocaların pensiya ilə və s. təmin edilməsidir. Bu siyasəti həyata keçirməklə, dövlət özünün bütün vətəndaşları üçün minimum yaşayış səviyyəsini təmin edir, cəmiyyətdə sosial gərginliyin yaranmasına yol vermir.

- Rəqabətin müdafiə edilməsi. Bazar iqtisadiyyatı şərai

tində rəqabət əsas tənzimləyici alətlərdən biridir. Rəqabət iqtisadiyyatın bütün sahələrində tərəqqinin əsasını təşkil edir, istehsalçıları istehsal etdikləri məhsulun keyfiyyətini yüksəltməyə, onun istehsalına çəkilən xərcləri azaltmağa, istehsala yenilikləri tətbiq etməyə sövq edir. Buna görə də dövlətin əsas funksiyalarından birini rəqabətin qorunması təşkil edir.

Yalnız müəyyən şərait yarandığı zaman dövlət iqtisadiyyata müdaxilə etməlidir. Makroiqtisadi tənzimlənmənin əsas vasitələrindən biri fiskal siyasətdir. Fiskal siyasət dedikdə, dövlət xərclərinin və vergitutmanın səviyyəsinin dəyişdirilməsi istiqamətində dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin məcmusu başa düşülür. Dövlət xərcləri dedikdə isə dövlətin saxlanılmasına və dövlət satınalmalarına çəkilən xərclər nəzərdə tutulur.

Dövlət fiskal siyasət vasitəsi ilə iqtisadi proseslərə onların gedişatını tənzimləmək məqsədi ilə daim müdaxilə edir. Bu müdaxilə dövlət büdcəsinin gəlir hissəsinin formalaşdırılması məqsədilə vergitutma sahəsində, milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, iqtisadi artımın, əhalinin məşğulluğunun, pul dövriyyəsinin sabitləşdirilməsinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin məcmusudur.

Fiskal siyasət milli iqtisadiyyata həm faydalı, həm də kifayət qədər ağrılı təsir göstərə bilər. Dövlət maliyyəsinin sabit iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynaması fiskal siyasətin işlənib hazırlanmasını və ardıcıl olaraq həyata keçirilməsini tələb edir.

Dövlətin həyata keçirdiyi fiskal siyasət aşağıdakı ictimai məqsədlərə cavab verməlidir:

- iqtisadiyyatda dövri tərəddüdlərin hamarlaşdırılması;
- iqtisadi artım sürətinin yüksəldilməsi;
- əhalinin tam məşğulluğuna nail olunması;
- inflyasiyanın mülayim sürətinə nail olunması.

Fiskal siyasətin əsas alətləri isə aşağıdakılardır:

- müxtəlif növ vergilər və vergi dərəcələri ilə manipulyasiya edilməsi;
- transfert ödənişlər;
- dövlət xərclərinin digər növləri.

Fiskal siyasətin alətləri iqtisadiyyata müxtəlif cür təsir göstərir. Dövlət satınalmaları dövlətin məcmu xərclərinin əsas

elementlərindən biridir. Dövlət satınalmaları məcmu xərclərin səviyyəsinin artmasına səbəb olur.

Dövlət xərclərinin daha bir komponenti də transfert ödənişlərdir. Transfert ödənişlər dövlət xərclərinin yenidən bölüşdürülməsinin bir forması olmaqla, əhaliyə pensiya, müavinət və sair şəklində verilən əvəzsiz dövlət ödənişidir. Transfert ödənişlər əhalinin gəlirlərini artırmaqla istehlak tələbatına dolayısı yolla təsir göstərir. Transfert ödənişlər ümumi milli məhsulun tərkibinə daxil edilmir, şəxsi əldə olan gəlirlərdə nəzərə alınır. Şəxsi istehlakın səviyyəsi milli gəlirin səviyyəsindən deyil, əldə olan gəlirlərin səviyyəsindən asılıdır.

Vergilər məcmu xərclərə mənfi təsir aləti rolunu oynayır. İstənilən vergilər əldə olan gəlirin məbləğini azaldır. Əldə olan gəlirin azalması isə, öz növbəsində yalnız istehlak xərclərinin azalmasına deyil, eyni zamanda yığımların da səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Fiskal siyasətin aşağıdakı tipləri fərqləndirilir:

- diskret fiskal siyasət;
- avtomatik fiskal siyasət.

Fiskal siyasətin aşağıdakı növləri fərqləndirilir:

- ekspansionist (stimullaşdırıcı);
- restriksionist (qarşısnı alan).

Diskret siyasət zamanı dövlət ölkənin iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün məqsədyönlü şəkildə vergiqoymanı və büdcə xərclərini tənzimləyir. İqtisadi tsiklin müxtəlif fazalarında bu tənzimlənmənin səviyyəsi müxtəlif olur. Belə ki, iqtisadi böhranlar zamanı dövlət öz xərclərini artırır, vergilərin səviyyəsini azaldır. Bütün bunlar da alıcılıq tələbatının genişlənməsinə gətirib çıxarır. İstehsalda artım inflyasiya ilə müşayiət olunduqda isə dövlət öz xərclərini azaltmaqla və vergilərin səviyyəsini yüksəltməklə işgüzar fəallığın qarşısını alır.

İqtisadi tənəzzül zamanı isə məcmu tələbi stimullaşdırmaq üçün diskret fiskal siyasət yolu ilə dövlət xərclərinin həcmini artırmaqla və ya vergilərin səviyyəsini aşağı salmaqla məqsədyönlü şəkildə büdcə kəsiri yaradılır.

Dövlət xərclərinin stimullaşdırıcı təsir göstərməsi üçün onlar vergi daxilolmaları hesabına maliyyələşdirilməməlidirlər. Vergi dərəcələrinin artımı işgüzar fəallığa olan stimulu

azaldır, bu isə istehsalın həcminin aşağı düşməsinə səbəb olur. Buna görə də dövlət xərclərinin artımı bir qayda olaraq büdcə kəsiri ilə müşayiət olunur.

Beləliklə, istehsalın tənəzzülü dövründə öz xərclərini artırmaqla və inflyasiya ilə müşayiət olunan iqtisadi yüksəliş dövründə öz xərclərini azaltmaqla, dövlət iqtisadi böhranları yüngülləşdirir, milli istehsalın həcminin inkişafmaa nail olur.

Avtomatik fiskal siyasət məcmu gəlirin dövri tərəddüdləri nəticəsində dövlət xərclərinin, vergilərin və dövlət büdcəsinin saldosunun avtomatik olaraq dəyişməsidir. Avtomatik fiskal siyasət iqtisadi yüksəliş dövründə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq artmasını, iqtisadi tənəzzül zamanı isə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq azalmasını nəzərdə tutur. Bu dəyişikliklər «quraşdırılmış özütənzimlə- yicilərin» təsiri ilə baş verir.

Quraşdırılmış özütənzimləyici - dövlətin iqtisadi siyasətində dəyişiklik etmədən istehsalın və məşğulluğun səviy- yələrindəki tərəddüdləri azaltmağa imkan verən bir mexanizmdir. Belə avtomat tənzimləyicilər aşağıdakılardır:

- iqtisadi yüksəliş dövründə məcmu tələbin qarşısını alan proqressiv vergi sistemi. Belə ki, əhalinin gəlirləri artdıqca bu gəlirlər daha yüksək dərəcə ilə vergiyə cəlb olunurlar. Bu isə məcmu tələbin qarşısını alır. İqtisadi tənəzzül nəticəsində gəlirlər azaldıqda isə vergi dərəcələrinin aşağı salınması əldə olan gəlirin artmasma səbəb olur. Bunun da nəticəsində məcmu tələbin stimullaşdırılması baş verir.
- iqtisadi tənəzzül dövründə işsizlərin sayının artması nəticəsində işsizliyə görə ödənilən müavinətlərin və digər sosial ödənişlərin həcmi artır. İqtisadi yüksəliş zamanı isə işsizliyin səviyyəsi aşağı düşür, bu isə, öz növbəsində, avtomatik olaraq həmin ödənişlərin həcminin azalmasına gətirib çıxarır.

Avtomat fiskal siyasətin əsas üstünlüyü ondadır ki, iqtisadi şəraitin azacıq dəyişməsi nəticəsində quraşdırılmış özütənzim- ləyicilər yubanmadan işə düşürlər.

Avtomat fiskal siyasətin çatışmayan cəhəti isə odur ki, o, dövri tərəddüdləri yalnız hamarlayır, onları tamamilə aradan qaldıra bilmir.

Məqsədindən asılı olaraq, fiskal siyasət ekspansionist və restriksionist ola bilər. Ekspansionist siyasətə bəzən stimullaşdırıcı siyasət də deyirlər. İstehsalın tənəzzülü dövründə dövlət xərclərinin həcminin artırılması və vergi dərəcələrinin aşağı salınması zəruridir. Uzunmüddətli dövrdə vergi dərəcələrinin aşağı salınması iqtisadi artımın stimullaşdırılmasına səbəb olur. Məsələn, inkişaf etmiş ölkələrdə ötən əsrin 80-ci illərində vergi dərəcələrinin aşağı salınması ilə müşayiət olunan vergi islahatları zamanı məhz belə olmuşdur.

İnflyasiyanın sürətinin aşağı salınması üçün isə restriksionist fiskal siyasət həyata keçirilir. Restriksionist siyasətə bəzən «qarşısını alan» siyasət də deyirlər. Bu siyasət dövlət xərclərinin azaldılması və vergi dərəcələrinin yüksəldilməsi yolu ilə həyata keçirilir. Qısamüddətli dövrdə restriksionist siyasət məcmu tələbi azaltmağa imkan verir və bununla da tələbin inflyasiyasının aşağı salınmasına kömək edir. Uzunmüddətli dövrdə isə restirksionist siyasət istehsalın tənəzzülünə və işsizliyin artımına gətirib çıxara bilər.

Vergi tənzimlənməsi vergi mexanizminin və dövlət vergi menecmentinin ən dinamik və mobil elementlərindən biridir. Vergi öhdəliklərinin yerinə yetirilməsinin gedişatma operativ müdaxilənin iqtisadi tədbirlər sistemi onun əsasını təşkil edir. Vergi tənzimlənməsinin üsulları elmi cəhətdən əsaslandırılmış vergi konsepsiyasının tərkib hissəsidir.

Əksər ölkələrdə vergi münasibətlərinin tənzimlənməsinə prinsipial yanaşmalar əsas qanunvericilik sənədi olan Vergi Məcəlləsi ilə müəyyən edilir. Vergi tənzimlənməsi ərazilərin, təsərrüfat subyektlərinin, əhalinin sosial qruplarının iqtisadi maraqlarının kəsişdiyi çox mürəkkəb bir sahədir. Dövlət maliyyəsinin əsasını vergilər təşkil etdiyindən onlara iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementi kimi baxılmalıdır.

Bir qayda olaraq, büdcə gəlirlərinin vergi tənzimlənməsi müxtəlif üsullarla həyata keçirilir və büdcənin gəlir və xərclərini balanslaşdırmaq məqsədini güdür. Vergi tənzimlənməsinin üsulları arasındakı fərqi konkret vergi növünün özünəməxsus xüsusiyyətləri və dövlətin qarşısında duran vəzifələr müəyyən edir.

Vergi tənzimlənməsinin məzmunu və məqsədi vergitutma

proses obyektiv olaraq zəruridir və onun nəticəsi istifadə edilən üsulların iqtisadiyyatın həqiqi vəziyyətinə adekvatlığın- dan asılıdır. Vergi tənzimlənməsi üsullarından istifadə edilməsi vergilərin tənzimləyici funksiyasından maksimal dərəcədə istifadə etməyə maneçilik törədən fiskal funksiya ilə bağlı ziddiyyətlərlə müşayiət olunur. Vergi tənzimlənməsindən istifadə edilməsi üçün başlanğıc şərt təkrar istehsal prosesinin gedişatına dövlət müdaxiləsinin iqtisadi cəhətdən məqsədə- uyğunluğudur.

İqtisadi inkişaf prosesini təmin etmək və böhran hallarını müvəffəqiyyətlə aradan qaldırmaq üçün hər bir ölkənin hökuməti iqtisadiyyata dövlət təsiri sistemində olan bütün üsullardan istifadə edir. İkinci Dünya müharibəsindən sonrakı dövrdə iqtisadi inkişafın üç əsas modelindən istifadə edilirdi ki, onların hər birində iqtisadiyyatın dövlət tənzimlənməsinə və bu prosesdə vergilərin roluna yer ayrılırdı.

Bu modellərdən birincisi «liberal» modeldir. Milli iqtisadiyyatın inkişafının liberal strategiyası daha ardıcıl olaraq ABŞ və Böyük Britaniya kimi dövlətlərin hökumətləri tərəfindən həyata keçirilir. Bu ölkələrin hökumətləri iqtisadiyyat subyektlərinə sosial və iqtisadi intizamı saxlamaq üçün minimal zəruri hədd daxilində təsir göstərirlər, bütün qalan hallarda isə güvənirlər. Vergi yığımlarının həcmi isə elə minimal həcmdə müəyyənləşdirilir ki, o, dövləti özünə xas funksiyaları yerinə yetirmək üçün kifayət edəcək həcmdə maliyyə ehtiyatları ilə təmin etsin.

İkinci model «planlı-inzibati iqtisadiyyat» modelidir. Onun əsas xüsusiyyəti dövlət tənzimlənməsinin səviyyəsinin yüksək olması, praktiki olaraq bütün müəssisələrin dövlətə məxsusluğu və onların inzibati-amirlik üsulu ilə idarə edilməsidir. İqtisadi inkişafın bu modelində vergilərin rolu çox cüzidir. Hüquqi şəxslərin mənfəətinin hər bir müəssisə üçün fərdi olaraq müəyyənləşdirilən normativdən artıq hissəsi dövlət büdcəsinə alınırdı.

Üçüncü modeli isə şərti olaraq «sürətli inkişaf strategiyası» modeli adlandırmaq olar. Bu modelin İkinci Dünya müharibəsindən sonra Yaponiyada yaradıldığı güman edilir. Bu model çərçivəsində daha yüksək artım potensialı olan

sahələrin müəyyənləşdirilməsində hökumətin rəhbər rolunu nəzərdə tutan üsullar geniş yayılmışdır. Sürətli inkişaf strategiyasını əsas tutan ölkələrin vergi siyasəti üçün dövlətin iqtisadiyyata təsirinin səmərəliliyinin yüksəldilməsinə xidmət edən məqsədli vergi güzəştlərinin sayının çox olması xarakterikdir. Bundan başqa, vergi yükünün əsas ağırlığı şirkətlərdən fiziki şəxslərin üzərinə keçirilir. Göründüyü kimi, sürətli inkişaf strategiyasını əsas tutan ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsində vergilərin rolu kifayət qədər yüksəkdir.

Yuxarıdakı hər üç modeldə bir cəhət eynidir ki, hətta liberallığı əsas götürən ölkələrdə belə, iqtisadiyyatın dövlət tənzimlənməsi mövcuddur. İqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin ona xas olan iqtisadi funksiyaları yerinə yetirməsi ilə bağlıdır. Bu funksiyalardan daha əhəmiyyətliləri aşağıdakılardır:

- iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinə imkan verən qanunvericilik bazasının yaradılması;
- iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin edilməsi və Milli istehsalın müdafiəsi;
- gəlirlərin və milli sərvətin ədalətli yenidən bölüşdürülməsi prosesinin təmin edilməsi;
- milli iqtisadiyyatın strukturunun optimallaşdırılması;
- iqtisadi dövrlərin milli iqtisadiyyata, iqtisadi artımın stimullaşdırılmasma təsirinin hamarlaşdırılması.

Dövlətin yuxarıda sadalanan bütün funksiyaları bu və ya digər dərəcədə vergitutma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdə öz əksini tapır.

Dövlət tənzimlənməsi üsullarını şərti olaraq birbaşa və dolayı üsullara ayırmaq olar. Birbaşa üsullar hakim-sərən- camverici münasibətlərə əsaslanır. Vergitutma sahəsində siyasətin də aid olduğu dolayı üsullar isə müəyyən fəaliyyət sahələrində iqtisadi maraqların yaradılması və ya bu maraq- lann aradan qaldırılmasını nəzərdə tutur.

Məqsədindən asılı olaraq, vergi tənzimlənməsi üsulları dörd qarşılıqlı əlaqəli sahəyə bölünür:

- büdcə-vergi balanslaşdırılması;
- vergi güzəştləri sistemi;
- inzibati təsir;

- sanksiya tədbirləri.

Vergi tənzimlənməsi sistemində birinci qrup üsullar xüsusi yer tutur. Transfertlər, subsidiyalar, subvensiyalar, dotasiyalar, büdcə kreditləri və digər vasitələrlə yerli büdcələrin gəlir və xərcləri arasında balansa nail olunur. Vergilərin müxtəlif səviyyəli büdcələrə daxil olması balansın gözlənilməsində mühüm rol oynayır.

İnzibati təsir üsullarından istifadə edilməsi isə dövlətin müəyyən iqtisadi proseslərə nəzarətini təmin etmək məqsədini güdür.

İqtisadiyyatın vergi tənzimlənməsinin əsas problemi vergi dərəcələrinin optimallaşdırılmasıdır. Bu prosesin nəzəri mahiyyəti vergilərin fiskal və tənzimləyici funksiyaları arasında nisbi tarazlığa nail olunmasıdır. Optimal vergi sisteminin qurulması iqtisadi cəhətdən əsaslandırılmış vergi dərəcələrindən asılıdır. Burada vergi yığımlarının kritik həddi aşması həm gəlirlərin, həm də büdcə daxilolmalarının kəskin surətdə azalmasına səbəb olan Laffer effekti fəaliyyət göstərir. Optimal vergi sisteminin qurulması vergi dərəcələrinin iqtisadi cəhətdən əsaslandırılmış həcmindən asılıdır.

Vergi tənzimlənməsinin mühüm üsulları kimi vergi güzəştləri və vergi sanksiyaları çıxış edirlər. Bu altsistemlərin optimal şəkildə bir-birinə uyğunlaşdırılması vergitutmanm çevikliyini, son nəticədə isə vergi siyasətinin səmərəliliyini təmin edir. İnvestisiya proseslərinin, xarici iqtisadi fəaliyyətin vergi stimul- laşdırması iqtisadiyyatın strukturunun yenidən qurulmasına müsbət təsir göstərir. Güzəşt və sanksiyalar sistemi vasitəsilə cari vergi düzəlişləri zərurətini təkrar istehsal proseslərinin dinamik xarakteri tələb edir. Çox vaxt mövcud iqtisadi reallıq qanunvericilik qərarının qəbul edilməsi anından əhəmiyyətli dərəcədə fərqlənir.

İqtisadi cəhətdən əsaslandınimış güzəştlər sistemi vasitəsilə həyata keçirilən vergi tənzimlənməsi yeni rəqabətə davamlı məhsul buraxılışı zamanı, texniki proseslərin modernləşdirilməsi zamanı yaranan maliyyə itkilərini kompensasiya edən strateji xarakterli qarşılıqlı əlaqəli vergi güzəştləri kompleksidir. Vergi güzəştləri sisteminə bir sıra güzəştlər aiddir. Bunlara misal olaraq, avans ödənişlərin ləğv edilməsini, verginin ödənilmə müddətinə möhlət verilməsini, vergi öhdəliyinin

azaldılmasını və s. göstərmək olar.

Dünya praktikasında tənzimləmə məqsədi ilə vergi güzəştlərindən istifadənin bir sıra prinsipləri işləyib hazırlanmışdır. Bu prinsiplər əsasən aşağıdakılardan ibarətdir:

- vergi güzəştlərinin tətbiqi seçim xarakteri daşımır;
- investisiya güzəştləri yalnız dövlət investisiya proqramlarının və istehsalın müəyyən edilmiş həcminin yerinə yetirilməsini təmin edən vergi ödəyicilərinə verilir;
- vergi güzəştlərinin tətbiq edilməsi dövlətin iqtisadi maraqlarına zərər vurmamalıdır;
- vergi güzəştlərinin tətbiqi qaydası qanunla müəyyən edilir.

İqtisadiyyatın dövlət vergi tənzimləməsinin digər mühüm elementi vergi sanksiyalarıdır. Vergi sanksiyaları sisteminə cərimələr, penyalar və s. daxildir. Vergi sanksiyaları tənzimləmə prosesində ikili rol oynayır. Əvvəla onlar vergi öhdəliyinin yerinə yetirilməsini təmin edir, çünki bu öhdəlikləri yerinə yetirməyənlərə sanksiyalar tətbiq olunur, digər tərəfdən isə təsərrüfat subyektlərini öz fəaliyyətlərində təsərrüfatçılığın daha səmərəli formalarından istifadə etməyə istiqamətləndirir.

Beləliklə, vergi tənzimlənməsinin əsas alətlərinə nəzər yetirərkən qeyd etmək olar ki, öz xarakterinə görə iqtisadiyyatın vergi tənzimlənməsi stimullaşdırıcı və qarşısını alan ola bilər.

Vergi tənzimlənməsinin üsulları işlənib hazırlanarkən onun sosial nəticələrinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda investisiyaların vergi stimullaşdırılması sistemi və onun geniş təkrar istehsal prosesi ilə əlaqələndirilməsi əsas diqqət obyektidir.

Vergi tənzimlənməsinin ən perspektivli üsullarından biri investisiya vergi kreditidir. Kredit verilən investisiya istiqamətləri əsasən aşağıdakılardır:

- ixracı əvəz edən istehsal sahələri;
- elmi-tədqiqat, təcrübə-konstruktor işlərinin aparılması üçün avadanlıqlar;
- iqtisadi ehtiyacların ödənilməsi üçün avadanlıqlar, sənaye robotları, texniki informasiya sistemləri və s.

Belə kreditlərin verilməsi investisiya proseslərinə operativ

düzəlişlər etmək imkanı verir. Ancaq onların reallaşdırılması üçün investisiya vergi kreditinin verilməsi barədə müqavilənin şərtlərinin hüquqi təminat mexanizmi yaradılmalıdır. Nəzərdə tutulur ki, vergi kreditləri, ilk növbədə, ixrac üçün işləyən istehsal sahələrinə və dövlətin sosial yönümlü investisiya pro- qramlannı həyata keçirən istiqamətlərə verilməlidir. Bu işlərin həyata keçirilməsi üçün dövlət tərəfindən uzunmüddətli və dayanıqlı xarakter daşıyan xüsusi hüquqi təminatlar verilməlidir.

Müasir şəraitdə vergi tənzimlənməsi mexanizmlərinin inkişafının əsas şərtlərindən biri fərdi vergi güzəştlərinin sayının azaldılması hesabına vergi tənzimlənməsinin optimal-laşdırılmasıdır. Vergi güzəştlərinin yeganə sahibi dünya bazarında rəqabət qabiliyyətli məhsul istehsalçısıdır. Vergi güzəştləri verilməsinin əsas şərti istehsalçıların bazara daxil olmasının start vəziyyətini müəyyənləşdirən amillərdir. Bu amillər istehsalçının yerləşdiyi ərazi, həmin ərazinin təbii-iqlim şəraiti və sairdir. Dövlətin vergi siyasəti onlara mövcud iqtisadi potensialdan müstəqil surətdə istifadə etmək imkanı verməklə, ərazilərin inkişafının iqtisadi şəraitini tarazlaşdırmağa yönəldilməlidir.

Bazar iqtisadiyyatının inkişafına təsiri nöqteyi nəzərindən vergilərin rolunun öyrənilməsi makroiqtisadi səviyyədə təsərrüfat münasibətlərinin dövlət tənzimlənməsi mexanizmində vergilərin dörd əsas funksiyanı yerinə yetirdiyini söyləməyə əsas verir. Bu funksiyalar aşağıdakılardır:

- fiskal;
- stabilləşdirici;
- tənzimləyici;
- birləşdirici.

Fiskal funksiya vergilərin əzəli funksiyasıdır və vergiqoyma nəzəriyyəsində kifayət qədər öyrənilmişdir. Bütün tədqiqatçılar tərəfindən bu funksiya konkret şəxslərin və təsərrüfat subyektlərinin gəlirlərinin bir hissəsinin dövlətin xeyrinə özgəninkiləşdirilməsi kimi şərh edilir.

Vergilərin tənzimləyici funksiyasından dövlət öz iqtisadi siyasətində daim fəal surətdə istifadə edir. Bir-birinin ardınca həyata keçirilən vergi islahatları dövlətin sahibkarlıq fəaliyyətinin inkişafına təsir göstərmək cəhdinə əyani sübutdur.

Vergitutmanın birləşdirici funksiyası dövlətin xarici ticarətin və xarici iqtisadi əlaqələrin inkişafına iqtisadi təsiri sahəsində tənzimləyici funksiyanın bir istiqaməti kimi ötən əsrin sonlarında ortaya çıxmışdır. Onun meydana çıxmasına əsas səbəb müasir mərhələdə dünya təsərrüfat sisteminin inkişafının ən səciyyəvi xüsusiyyəti ilə, yəni milli iqtisadiyyatların qarşılıqlı asılılıq proseslərinin güclənməsi və təsərrüfat həyatının hərtərəfli beynəlmiləlləşməsi ilə bağlıdır. Vergilər ərazi, təsərrüfat və siyasi maraqlarla bir-biri ilə bağlı olan dövlətlər üçün vahid iqtisadi məkanın formalaşmasının bir alətinə çevrilir.

Təcrübədə vergilərin birləşdirici funksiyası ölkələr arasında gömrük maneələrinin, ikiqat vergiqoymanın aradan qaldırılması barədə iki və çoxtərəfli sazişlərin bağlanması yolu ilə həyata keçirilir. Bu proses milli vergi sistemlərinin uyğunlaş- dırılması istiqamətində işləri sürətləndirir.

Avropa və dünya bazarında vergitutmanın vəziyyətinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, hər bir ölkənin vergitutma sahəsindəki problemlərinə dünya birliyinin vergi siyasətinin inkişafı ilə qarşılıqlı əlaqədə baxılmalıdır. Vergilərin birləşdirici funksiyası milli vergi siyasəti işlənib hazırlanarkən digər ölkələrdəki vergi iqlimi, vergi dərəcələri kimi xarici amillərin nəzərə alınmasının zəruriliyində özünü büruzə verir.

Vergilərin stabilləşdirici funksiyası öz inkişafını vergi sistemlərinin cəmiyyətdə sosial sabitliyi təmin etmək vəzifəsində tapmışdır. XX əsrin ortalarında iqtisadçılar və politolo- qlar arasında belə bir fikir formalaşmışdı ki, səmərəli sosial müdafiə şəbəkəsinin yaradılması inqilabların qarşısını alır, bazar iqtisadiyyatının həyat qabiliyyətli olmasını təmin edir. Bu fikrin tərəfdarları öz arqumentlərini əksər Avropa ölkələrindən fərqli olaraq, çar Rusiyasında əhalinin kasıb təbəqələrinin sosial müdafiəsini təmin edən dövlət proqramının olmaması nəticəsində onlarda radikal hərəkatlara simpatiyanın artması ilə izah edirdilər.

Amerika tarixçisi R. Payps yazırdı ki, Rusiyadakı inqilabdan sonra Lenin Avropanın digər ölkələrini analoji inqilaba ruhlandırmaq üçün çox qüvvə sərf etdi, lakin müvəffəqiyyət qazanmadı. Fəhlələr heç də hökuməti devirməyə cəhd et

mirdilər, çünki əldə etdikləri müavinət və pensiyaları ilə risk etmək istəmirdilər.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində vətəndaşların iqtisadi çətinliklərdən müdafiəsini təmin edən sosial müdafiə şəbəkələri mövcuddur. Sosial müdafiə tədbirlərinə işsizliyə görə müavinətlərin verilməsi, aztəminatlı ailələrə pulsuz tibbi xidmətin göstərilməsi və s. daxildir. Sosial müdafiə proqramları şəbəkəsinin mahiyyəti cəmiyyətdə gəlirlərin yenidən bölüşdürülməsinə gətirib çıxarır. Bunların əsasında birinə ödənilmək üçün digərindən vergi tutulur. Müasir cəmiyyətdə sosial stabilliyi təmin etməyin əsas vergi aləti gəlirlərdən tutulan vergilərdir.

XX əsrin ikinci yarısını iki dövrə bölmək olar ki, bu dövrlərdə vergi siyasətinin xarakteri və vergi vasitələrinin köməyi ilə dövlətin bazar iqtisadiyyatına müdaxiləsinin üsulları kəskin surətdə dəyişmiş oldu.

Birinci dövr İkinci Dünya müharibəsindən sonrakı 50- 70-ci illəri əhatə edir. Sənaye cəhətdən inkişaf etmiş ölkələr öz iqtisadi siyasətlərini Keyns nəzəriyyəsinə əsaslanan bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin prinsiplərinə uyğun olaraq qurmağa başladılar. Vergilərin tənzimləyici funksiyası isə öz əksini dövlətin iqtisadiyyatın inkişafının prioritet sahələri hesab etdiyi istehsal sahələrinin, sosial siyasətin xeyrinə ümumi daxili məhsulun yenidən bölüşdürülməsi mexanizminin təmin olunmasında tapırdı.

XX əsrin son 25 ilini əhatə edən dövr isə neokonservativ irəliləyiş dövrü adlanır. Bu dövr iqtisadiyyatın idarə edilməsinin Keyns üsullannm böhranından sonra başlamışdır.

Dövlət tənzimlənməsi nəzəriyyəsi və praktikasında makroiqtisadi siyasətin, ilk növbədə, iqtisadiyyatın büdcə və vergi tənzimlənməsi mexanizmlərinin əsaslı surətdə dəyişdirilməsinə yönəldilmiş qlobal dəyişikliklər müşahidə olunmağa başlandı. Ötən əsrin 80-90-cı illərindəki islahatların gedişində, praktiki olaraq bazar iqtisadiyyatının vergi tənzimlənməsinin yeni konsepsiyası yaradılmış oldu.

Bazar iqtisadiyyatının vergi tənzimlənməsinin müasir modelinin əsas prinsipləri ötən əsrin 70-ci illərinin sonları, 80-ci illərinin əvvəllərindən başlayaraq formalaşmışdır. Məhz bu dövrdə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə bazar iqti

sadiyyatının tənzimlənməsi üsullarının istiqaməti dəyişdi, dövlət müdaxiləsinin ekstensiv genişlənməsinə sədd çəkildi. Təsərrüfat fəaliyyətinin tənzimlənməsinin və rəqabətin stimullaşdınlmasınm bazar mexanizmlərinə üstünlük verilməyə başlandı.

Beləliklə, 80-90-cı illərin islahatları zamanı istehsalın elmi-texniki inkişafının müasir mərhələsində bazar iqtisadiyyatının vergi tənzimlənməsi siyasətinə konseptual yanaşma təşəkkül tapdı. Həmçinin, müasir təsərrüfat sistemlərinin makroiqtisadi tənzimləyicisi kimi vergilərdən istifadə edilməsinin prioritet istiqamətləri müəyyənləşdirildi.

Hal-hazırda biznes fəallığının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün vergi nəzəriyyəsi və praktikasının aşağıdakı istiqamətlərinə daha çox diqqət yetirilir.

1. Sahibkarların və əhalinin həm istehsal, həm də elmi-texniki sahələrdə investisiya fəallığının stimullaşdırılması məqsədilə vergi üsullarının təkmilləşdirilməsi.

Xüsusi şirkətləri investisiya qoyuluşlarına stimullaşdıran vergi güzəştləri ötən əsrin 50-60-cı illərindən başlayaraq geniş təşəkkül tapmışdır. Vergi güzəştləri mexanizmindən geniş şəkildə istifadə edilməsi elmi-texniki tərəqqinin sürətləndirilməsinə, ixracın həcminin artırılmasına, eimtutumlu sahələrin investisiyalaşdırılmasına üstünlük verilməsinin təmin edilməsinə, məşğulluğun artırılmasına və digər sosial-iqtisadi problemlərin həllinə dövlətin təsirinin əsas amili oldu.

Bütün Qərb ölkələrində korporativ vergilərin tutulması zamanı istifadə edilən güzəşt sisteminin əsas elementləri demək olar ki, eynidir: maşın və avadanlığın sürətli amortizasiyası, investisiya vergi krediti, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə kapital qoyuluşlarının artımının stimullaşdırılması.

Sürətli amortizasiya sistemi əsas kapitalın dövretmə sürətinin, investisiyaların ictimai istehsal sahələri üzrə bölüşdürülməsinin dövlət tənzimlənməsinin əsas alətlərindən birinə çevrildi. Bunun mahiyyəti avadanlığın xidmət müddətindən asılı olaraq, artırılmış amortizasiya əmsallarından istifadə edilməsidir.

Sürətli amortizasiya sistemi ilk dəfə 1954-cü ildə ABŞ-da iqtisadiyyatın ayrı-ayrı prioritet təşkil edən sahələrində tətbiq olundu. Ötən əsrin 60-cı illərinin əvvəllərindən başlayaraq

Qərbi Avropa ölkələri də sürətli amortizasiyanı tətbiq etməyə başladılar.

1962-ci ildə ABŞ-da, sonrakı illərdə isə demək olar ki, iqtisadi cəhətdən inkişaf etmiş bütün ölkələrdə investisiya vergi krediti tətbiq edilməyə başlandı. İnvestisiya vergi krediti mahiyyətinə görə xüsusi biznesin kapital qoyuluşunun dövlət tərəfindən maliyyələşdirilməsi, məzmununa görə isə vergi güzəştidir. O, sahibkarları köhnəlmiş avadanlıqları yeniləşdirməyə və ya avadanlıq parkını genişləndirməyə investisiya qoyuluşuna stimullaşdırır. İnvestisiya vergi krediti bir qayda olaraq, avadanlığın dəyərinin müəyyən faizi kimi hesablanır və müəssisənin mənfəət vergisinin məbləğindən çıxılır.

İnvestisiya vergi krediti əsas fondlarının yeniləşməsinin və genişləndirilməsinin stimullaşdırılmasının səmərəli bir vasitəsidir. Heç şübhəsiz, bu güzəşt yeni mütərəqqi avadanlığın alınması və istismarını, yeni texnologiyaya keçilməsini təşviq edirdi.

Ötən əsrin 50-ci illərinin ortalarından başlayaraq, ABŞ-da tədqiqat işlərinin həyata keçirilməsinə vergi güzəştləri tətbiq olunmağa başlandı. Bu, əsasən, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərclərin vergiyə cəlb edilən gəlirdən çıxılması yolu ilə həyata keçirilirdi. Ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq, bu güzəşti Qərbi Avropa ölkələri də tətbiq etməyə başladılar.

2. Dövlət büdcəsinin doldurulmasının səmərəli mənbəyi kimi istehlak vergilərinin, ilk növbədə, əlavə dəyər vergisinin fəaliyyət dairəsinin ardıcıl olaraq genişləndirilməsi.

Vergi siyasətinin bu sahələri arasında müəyyən bir əlaqə mövcuddur. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr istehsal və elmi-texniki xarakterli investisiyaların həcminin artırılmasını stimullaşdırmaqla və dolayı vergi sistemində islahatlar aparmaqla büdcənin gəlir strukturunda korporativ vergilərin xüsusi çəkisinin azaldılması siyasətini ardıcıl olaraq həyata keçirirlər. Səciyyəvi haldır ki, son on beş il ərzində iqtisadiyyatın liberallaşdırılması, bazarın özü-özünü tənzimləməsi və fərdi təşəbbüsün stimullaşdırılması kursu elə bu iki istiqamət- dəki vergi siyasətinin hesabına təmin edilir.

3. Vergi strukturunda daha bir mühüm dəyişiklik - vergi dərəcələrinin ardıcıl olaraq aşağı salınması siyasəti ilə paralel

olaraq vergi güzəştlərinin ixtisar edilməsi yolu ilə əhali və şirkətlərin vergiyə cəlb olunan gəlirlərinin hesablanma bazasının genişləndirilməsidir.

Gəlirlərin vergiyə cəlb olunmasının neytrallığının ardıcıl olaraq yüksəldilməsinin əsasında istehsalın elmi-texniki inkişafının müasir formalarının universallığı və sahələrarası xarakteri durur.

Belə ki, 50-70-ci illərdə əsas məqsədin istehsalın prioritet sahələrinin inkişafına yönəldilməsi milli iqtisadiyyatın stabil inkişafını və beynəlxalq aləmdə öncül mövqeyə nail olunmasını təmin edirdisə, bu zaman istehsalın bu sahələrində yüksək artımı stimullaşdıran çoxsaylı vergi güzəştlərindən istifadə edilməsi təbii və qaçılmaz idi. Bu zaman bir sahəyə vergi güzəştlərinin verilməsi digər sahələrdə vergi yükünün ağırlaşmasına gətirib çıxarırdı. İstehsalın elmi-texniki inkişafının prioritetlərinin dəyişilməsi ilə sahibkarlıq fəaliyyətinin bütün sahələrində texniki yeniləşmənin və investisiyalara maliyyə axınının daim təmin edilməsinin maksimum stimullaşdırılması vəzifələri ortaya çıxdı.

Bu problemin həllinə gəlirlərin böyük hissəsini vergi ödəyicilərində saxlamaqla və onları bu vəsaitləri investisiyaya yönəltməyə həvəsləndirməklə nail olmağa çalışırdılar. Əgər şirkətlərin gəlirlərinin vergi bazası ardıcıl olaraq genişləndirilirdisə, şəxsi gəlirlərin vergitutma bazasının genişləndirilməsi gəlirin hesablanma metodologiyasının dəyişdirilməsi ilə müşahidə olunurdu.

4. İstehsalın beynəlmiləlləşdirilməsi prosesi, kapital miqrasiyası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələrin milli iqtisadiyyatlarının durmadan artan qarşılıqlı asılılığı bu ölkələri vahid vergitutma strukturunun yaradılmasına sövq edirdi. Fiskal sistemlərinin uyğunlaşdırılınası bu ölkələrin xarici iqtisadi siyasətlərinin mühüm tərkib hissələrindən birinə çevrilirdi.

5. Kiçik və orta müəssisələrin geniş yayılması inkişaf etmiş ölkələrin hökumətlərini onların fəaliyyətini stimullaşdıran və vergi yüklərinin ağırlığını yüngülləşdirən kompleks islahatlar həyata keçirməyə sövq etdi.

6. İstehsalın durmadan inkişafı nəticəsində ətraf mühitin

çirkləndirilməsi bu sahədə də tədbirlərin görülməsini tələb edirdi. İnkişaf etmiş ölkələrin hökumətləri «ətraf mühiti çirkləndirən pul ödəməlidir» prinsipini əsas tutaraq, ekoloji vergilər tətbiq etməyə başladılar.

Beləliklə, XX əsrin sonlarında bazar iqtisadiyyatının və biznes fəaliyyətinin tənzimlənməsində vergilərdən bir mexanizm kimi istifadə edilməsi tamamilə yeni forma almış oldu.

Keçmiş SSRİ dövründə ölkə iqtisadiyyatının başında duran bir şəxs kimi, öz zəngin təcrübəsinə əsaslanan ümummilli lider Heydər Əliyev bazar iqtisadiyyatı şəraitində iqtisadi tənzimləmədə vergi mexanizmlərindən istifadə edilməsinin zəruriliyi ideyasını əsas götürdü və tarix bu addımın doğru olduğunu sübut etdi.

iqtisadi tərəqqi və

# VERGİ

siyasəti

**investisiya siyasəti**

**MDB dövlətləri içərisində adambaşına düşən investisiyanın məbləğinə görə Azərbaycan birinci yerdədir. Bu, nəyə görədir? Birincisi ona görədir ki, Azərbaycanda investisiya qoymaq üçün şərait yaratmışıq. Sabitlik, qanunlar, qaydalar - əgər bunlar olmasaydı, ölkəmizə investisiya gəlməzdi... Bunların hamısının nəticəsində Azərbaycana həm xaricdən investisiya gəlir, həm də daxili istehsal daha da çox inkişaf edir.**

**Heydar Əliyev**

1993-cü ildə xalqın tələbi ilə ölkəyə başçılıq etməyə başlayan ulu öndər Heydər Əliyevə öz sələflərindən çox ağır bir iqtisadi miras qalmışdı. Mümkün qədər qısa bir vaxt ərzində ölkə iqtisadiyyatını bürüyən ağır böhranı aradan qaldırmaq, ölkəni siyasi böhrandan çıxarmaq, əhalinin ağır sosial- iqtisadi vəziyyətini yüngülləşdirmək müharibə şəraitinda olan bir ölkənin qarşısında duran mühüm vəzifələrdən idi. İlk baxışdan müşkül görünən bu problemləri Heydər Əliyevin həll edəcəyinə xalq inanırdı və tarix bunu təsdiqlədi. Bu problemlərin həlli, ilk növbədə, böyük maliyyə mənbələrinin

aşkar edilib üzə çıxarılmasını tələb edirdi. Ağır iqtisadi böhran vəziyyətində olan ölkədə bu məsələləri daxili mənbələr hesabına həll etmək qeyri-mümkün idi. Deməli, ölkə iqtisadiyyatına böyük həcmdə xarici sərmayə qoyuluşları tələb olunurdu. Bunun üçün isə əlverişli investisiya mühitinin yaradılması, ölkədə investisiya fəaliyyətinin təşviq edilməsi əsas məsələlərdən biri idi.

Dərin iqtisadi təfəkkürə və fenomenal idarəçilik qabiliyyətinə malik olan ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkədə bu istiqamətdə genişmiqyaslı işlərin həyata keçirilməsinə başlanıldı.

Bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat subyektlərinin inkişafı maddi nemətlərin geniş təkrar istehsalına əsaslanır ki, bu da milli məhsulun və gəlirlərin artırılmasını təmin edir. Bu artımın təmin olunması üçün əsas vasitələrdən biri investisiya fəaliyyətidir ki, bu da özündə investisiya qoyuluşu prinsiplərini, həmçinin, investisiyanın reallaşdırılması üzrə praktiki fəaliyyəti əks etdirir.

İqtisadi inkişafın səviyyəsindən asılı olmayaraq, milli iqtisadiyyata investisiya qoyuluşu problemi həmişə diqqət mərkəzində olan aktual problemlərdən biridir. Bu onunla izah edilir ki, iqtisadiyyatın artım sürətinin təmin olunması, onun sabit səviyyəsinin yaradılması, milli iqtisadiyyatın bütün sahələrinin müvazinətli inkişafının qorunması, əhalinin mənafeyinə cavab verən bazar mühitinin formalaşması bilavasitə daxili və xarici investisiyanın səfərbərliyə alınmasından, onun düzgün istiqamətləndirilməsindən asılıdır.

İnvestisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. Bu mənbə hesabına nəinki, istehsal inkişaf etdirilir, eyni zamanda iqtisadiyyatın strukturunda ciddi sosial yönümlü dəyişikliklərin baş verməsinə səbəb olur. Nəzərə alsaq ki, ümumiyyətlə, investisiya anlayışları məna etibarilə mənfəət almaq məqsədilə həm ölkə daxilində, həm də xaricində tətbiq olunan maliyyə resursudur, onda istər-istəməz onun iqtisadiyyatın, bütün sahələri üzrə tətbiq olunması meyli meydana gəlir. İnvestisiyanın milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə, xüsusən həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sferasına tətbiqi onun uzun və qısamüddətli xarakter daşımasına səbəb olur. Bu baxımdan, tətbiq olunan

İnvestisiya resursları əgər qiymətli kağızların alınmasına yönəldilirsə, o, maliyyə resursu formasını alır.

Əgər sənayeyə, kənd təsərrüfatına, tikintiyə, təhsilə və s. sahələrə kapital qoyuluşu tətbiq edilirsə, o, real investisiya formasını almış olur. Ona görə də milli iqtisadiyyata tətbiq olunan maliyyə və real investisiyaları bir-birindən fərqləndirmək lazımdır. Maliyyə investisiyaları səhmlərə, istiqrazlara və başqa qiymətli kağızlara kapital qoyuluşudur. Belə şəraitdə yalnız transfert əməliyyatları baş verir. Real investisiyalar kapitalın hər hansı iqtisadi sahəyə və ya müəssisəyə qoyuluşudur ki, bunun nəticəsində də yeni kapitalın yaranması, yaxud da mövcud kapitalın artması vaz keçir.

İnvestisiya resursları istehsal vasitələri istehsalını son istehlakçıya çatdırdıqda istifadə olunan maşınları və avadanlıqları, fabrik-zavod, anbar, nəqliyyat vasitələrini və satış şəbəkələrini əhatə edir. Bu istehsal vasitələrinin istehsalı və yığımı prosesi investisiya qoyuluşunu əks etdirir. İnvestisiya resursları istehlak olunan resurslardan onunla fərqlənir ki, əgər birinci şəraitdə istehlak mallarının istehsalına olan tələbat dolayı yolla ödənilirsə, ikinci şəraitdə bu proses birbaşa həyata keçirilir. Belə şəraitdə həm kapitalın, həm də sərvətin artımı prosesi baş verir. İnvestisiya olunan kapital resursları əgər milli gəlirin artırılmasına səbəb olursa, bu zaman gəlirlərin artırılması ilə əhalinin sərəncamına keçən gəlirlərin payı artr ki, bu da sərvət formasında mövcud olur. Deməli, faktiki olaraq öz məzmununa görə investisiyaların maliyyə və real formasından asılı olmayaraq, onlar birbaşa milli sərvətin artırılmasına kömək edən kapitalı ifadə edir. Burada kapital resursu kimi hərəkətdə olan və daim maşınların, avadanlıqların, digər istehsal vasitələrinin alınmasına və bütövlükdə istehsal və xidmətlərin görülməsinin təşkili ilə bağlı sərf olunmuş pul resurslar nəzərdə tutulur.

Yalnız real fəaliyyətdə olan pul resursları iqtisadi resurs formasını almış olur və özlüyündə o, perspektivdə daha çox istehlak etmək imkanı yaradan resurs kimi formalaşır. Göründüyü kimi, investisiya, tətbiq olunması formasından asılı olmayaraq, cəmiyyətin real kapitalının artırılmasına, yəni istehsal vasitələrinin genişləndirilməsinə və onun infrastrukturunun möhkəmlənməsinə imkan yaradır.

Milli iqtisadiyyatın formalaşmasında və inkişafında daxili və xarici investisiyalar mühüm struktur yaradan funksiyalar yerinə yetirir. Milli iqtisadiyyatın istər sahə strukturunun, istərsə də texnoloji və təkrar istehsal strukturunun inkişafı onun hansı sahələrinə vəsait qoyuluşunun tətbiqindən asılıdır.

Bəlli olduğu kimi, xüsusi təyinatlı investisiyalar əsasən gəlir əldə etmək məqsədi daşıyır. Deməli, milli iqtisadiyyatın hər hansı bir sahəsinin mənfəətlilik səviyyəsi həmin sahənin və ya bölmənin investisiya üstünlüyünün səviyyəsini müəyyənləşdirir. Bu baxımdan, sahənin və ya hər hansı iqtisadi bölmənin mənfəətlilik səviyyəsi tətbiq olunacaq investisiyaların üstünlüyünü müəyyən edən mühüm struktur yaradıcı meyarıdır. Ona görə də milli iqtisadiyyatın inkişafında tətbiq olunan investisiyaların təyinatından asılı olaraq onlar müxtəlif mənfəətlilik səviyyəsinə malik olur. Belə ki, dövlət və qeyri- dövlət mənbələrindən tətbiq olunan investisiyalar hər şeydən əvvəl öz sürət dövriyyəsinə görə və mənfəətlilik səviyyəsinə görə fərqlənəcəkdir. Ona görə də investisiyaların qeyri-dövlət mənbələri hər şeydən əvvəl kapitalın sürətli dövriyyəsi ilə seçilən yüksək rentabelli sahələrdir.

Məhz bu amil daxili və xarici investisiyaların həcminə təsir göstərir. İqtisadiyyatın aşağı rentabelli sahələrinə, bir qayda olaraq, investisiyalar, xüsusən də xarici investisiyaların tətbiq olunması səviyyəsi aşağı olur. Lakin buna baxmayaraq investisiyaların tətbiqi və onların həddi milli mənafelərin reallaşması ilə uzlaşmalıdır. Belə ki, həddindən artıq investisiyaların qoyuluşu inflyasiya prosesinin güclənməsinə və iqtisadiyyatın həddindən artıq gərginliyə düçar olmasına səbəb olur.

Digər tərəfdən isə lazım olduğundan az investisiya qoyuluşu deflyasiyaya gətirib çıxarır. Bunu nəzərə alaraq milli iqtisadiyyatın inkişafı və formalaşması ilə əlaqədar həyata keçirilən iqtisadi siyasət tətbiq olunacaq investisiyaların həm xarici, həm də daxili mənbələr hesabına optimal həcmini müəyyənləşdirməlidir. Belə şəraitdə dövlət tərəfindən tətbiq olunan vergi dərəcələri, dövlət xərcləri, pul-kredit və büdcə- vergi sahəsində həyata keçirilən tədbirlərin səmərəli strategiyası ilə milli iqtisadiyyatın miqyası tənzimlənməlidir.

İnvestisiya resurslarının formalaşması və istifadəsi prosesi

milli iqtisadiyyatın mərhələlər üzrə inkişaf prosesini əhatə etməlidir, Milli iqtisadiyyatın inkişafı prosesində investisiyalar mərkəzi rol oynayır və iqtisadi artım sürəti haqqında əvvəlcədən informasiya verir. Milli iqtisadiyyatın investisiya prosesi vasitəsilə inkişaf etdirilməsi milli gəlirin yüksəldilməsinə səbəb olur, bir sıra əmtəə və xidmətlər üzrə olan tələbatı ödəməklə rəqabət qabiliyyətli məhsulların istehsalına səbəb olur. Belə şəraitdə milli gəlirin həm yığım, həm də istehlak fondlarına yönəldilən vəsaitlərin həcmi artır. Bu prosesin fasiləsizliyinin təmin olunması yığım və istehlak fondlarına yönəldilən vəsaitlərdən səmərəli istifadə olunmasını tələb edir.

Milli gəlirin artımı hesabına yaranmış investisiyalar bir qayda olaraq daxili investisiyaların maliyyə mənbəyini təşkil edir. Milli gəlir hesabına yaranmış investisiyalar həm yığım, həm də gəlir formasını alaraq bir tərəfdən öz artımlarına, digər tərəfdən isə geniş təkrar istehsalı şərtlən-dirməklə milli iqtisadiyyatın miqyasının artmasına səbəb olur. Bu zaman investisiyalar nə qədər səmərəli tətbiq olunarsa milli gəlirin artım sürəti bir o qədər yüksək olar, nəticədə isə istehlaka yönəldilən yığımın həm mütləq, həm də nisbi həcmi yüksələr. Qeyd etmək lazımdır ki, investisiyaların kifayət qədər yüksək səmərəliliyinə nail olunması milli iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun artımını təmin etmiş olur.

Yığıma və istehlaka ayrılan vəsaitlər arasındakı uyğunluğun səmərəlilik meyarı iqtisadiyyatın inkişaf səviyyəsi əsasında ölkə əhalisinin yaşayış vasitələri ilə təmin olunması dərəcəsidir. Bu baxımdan, yığımla istehlak arasında uyğunluğun qurulmasında optimallıq meyarı kimi iqtisadi inkişaf səviyyəsi göstəricisinə ilk növbədə diqqət vermək lazım gəlir. Yığımın hər iki cəhəti - istehsal yığımı və qeyri-istehsal yığımı əlaqəli halda olsalar da, hər halda iqtisadi artıma birbaşa təsir göstərən amil kimi istehsal yığımına nisbi üstünlük verilməlidir. Səmərəlilik meyarı nöqteyi-nəzərindən istehsal yığımını tədqiq etdikdə, ilk növbədə onun norması haqqında ilkin dəqiqləşdirmələr aparmalıdır. Xüsusilə istehsal yığımı normasının minimal və maksimal hədlərinin qurulmasına diqqət verilir. Bu ona görə lazımdır ki, yığımın ölçüsü istehsalın və tələbatın artımına uyğun gələ bilsin.

İstehsal yığımının minimal həddində adambaşına düşən

milli gəlir dəyişməz qalır. Buna görə də istehsal yığımı norması müntəzəm olaraq minimal həddən yuxarı olmalıdır. İstehsal yığımı normasının minimal həddi nəzərdə tutur ki, mənfəətin ümumi kütləsi istehsalın maddi amillərinin geniş təkrar istehsalına sərf edilir, istehlak fondu isə dəyişməz qalır. Belə halda ölkədə işçilər özlərinin əmək qabiliyyətini geniş təkrar istehsal etmək üçün zəruri olan vasitələri ala bilmirlər.

Buna uyğun olaraq, istehsal yığımı norması mənfəətin kütləsinə bərabər ola da bilməz. Əks halda, ................................ istehsalın bütün amillərinin inkişafını təmin etmək olmaz. Başqa sözlə, əgər mənfəətin bütün kütləsi istehsalın maddi amillərinin geniş təkrar istehsalına istiqamətləndirilirsə, onda əhalinin əmək qabiliyyətinin təkrar istehsalı mənbələrindən olan sosial vəsaitləri artmayacaqdır. Beləliklə, dövlət təhsilin, səhiyyənin, mədəniyyətin və elmin inkişaf etdirilməsi üçün zəruri olan qeyri-istehsal yığımını yarada bilməyəcəkdir.

İqtisadiyyatın inkişafına sərf edilən vəsaitlərdən istifadə səmərəliliyi nə qədər yüksək olarsa, yığımın hər bir vahidi hesabında daha çox hazır məhsul və milli gəlir yaradılacaq, eyni ilə iqtisadi inkişafın nəzərdə tutulan səviyyəsinə nail olmaq üçün bir o qədər az vaxt və vəsait tələb olunacaqdır. Belə şəraitdə yığım normasının ixtisar edilməsi tələb ediləcək və əksinə, yığımın səmərəliliyin azalması şəraitində yığım normasının artırılması zəruriliyi yaranar.

Yığımın səmərəliliyinin yüksəlməsi və əmək məhsuldarlığının artımı şəraitində istehsal amilləri özünün əvvəlki səviyyəsində iqtisadiyyatın artım tempinə təsir edə bilir. Yığım vəsaitinin eyni bir ölçüsündə istehsal amillərinin səmərə- liliyi-nin yüksəlməsi natural formada daha çox istehsal və istehlak etməyə imkan verir. Əmək məhsuldarlığının artımı yalnız canlı əməyə qənaət hesabına deyil, eyni zamanda texnika ilə silahlanmanın keyfiyyət artımı hesabına da arta bilir. Belə hallarda yığım resursları əhəmiyyətli dərəcədə arta bilir. Əmək məhsuldarlığı başlıca olaraq texnikadan səmərəli istifadə əsasında artır. İstehsalın son nəticələri nə qədər çox artırsa, əhalinin istehlakmın təmin edilməsi imkanları bir o qədər geniş olur. Bütün hallarda əmək məhsuldarlığının yüksəlməsi yığım resurslarını artırır və bununla birlikdə istehsalın miqyasının böyüməsinə təsir edir.

İnvestisiyalar milli iqtisadiyyatın inkişafına uzunmüddətli perspektiv dövr ərzində təsir etməklə, eyni zamanda, həm əhalinin məşğulluq səviyyəsinə, həm də gəlirlərin əldə olunması səviyyəsinə birbaşa təsir göstərir. Təkcə bunu belə bir misal ilə izah etmək olar ki, əgər kənd təsərrüfatı sahəsinə investisiyalar azalarsa, onda bu sferada məşğul olanlar arasında işsizlik artacaq, eyni zamanda onların məcmu gəlirləri də aşağı düşəcəkdir. Deməli, bu sferada çalışanların nəinki başqa sahələrdə istehsal olunan mallara və xidmətlərə olan tələbatları azalır, eyni zamanda əhalinin bu sahənin məhsullarına olan tələbatı da ödənilməmiş qalacaqdır. Nəticədə həm bu sahədə, həm də bu sahə ilə bağlı olan digər sahələrdə məşğulluq səviyyəsi aşağı düşəcək və bütövlükdə gəlirlərin azalması meyli müşahidə olunacaqdır. Bundan başqa, kənd təsərrüfatı sferasının investisiyanın azalması həmin sahəyə xidmət göstərən hasil və emalın ayrı-ayrı sahələrinə də mənfi təsir göstərəcəkdir.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın inkişafında heç də hər cür tətbiq olunan investisiya qoyuluşu mütərəqqi hal oynamır. Belə ki, milli iqtisadiyyatın nisbətən perspektivsiz sektorlarına investisiya qoyuluşu onun milli iqtisadiyyatın formalaşmasındakı perspektiv rolunu diqqət mərkəzində saxlamağı tələb edir. Bəzi hallarda investisiyalar haqqında qərarlar qəbul edən təsərrüfat, idarə orqanları, sadəcə olaraq, hansı məhsulun milli iqtisadiyyatın inkişafında daha sərfəli olacağını düzgün müəyyənləşdirə bilmədikdə, bütövlükdə iqtisadi strategiyanın da düzgün istiqamət üzrə formalaşmamasma səbəb olacaqdır. İqtisadi strategiyaya uyğun gəlməyən iqtisadi inkişafda mühüm rol oynamayan sahələr üzrə düşünülməmiş investisiyaların tətbiqi vəsaitlərin dağıdılmasına səbəb olacaqdır. Çünki milli iqtisadiyyatın inkişafına səbəb olmayan layihələr üzrə vəsaitlərin xərclənməsi əslində bu resursların gələcək baxımından səmərəsiz istifadəsi deməkdir. Milli iqtisadiyyatın sabit artım sürətinə nail olunması üçün investisiyalar bir qayda olaraq təsərrüfatın ən yüksək səmərə verən və milli mənafe baxımından fayda verə biləcək sahələrinə yönəldilməlidir. Deməli, investisiya bazarı daim çevik və hərəkətdə olmalıdır.

İnvestisiyaların tətbiqində iqtisadi mühitin yaradılması

əsasən onu iqtisadiyyatın durğun sahələrindən daha perspektiv sahələrə keçirməklə əlaqədar olmalıdır. İnvestisiyalardan gələn gəlirlərdə bir qayda olaraq, daim fərqlər mövcud olacaqdır. Bu zaman istehsal təyinatlı sahələrə yönəldilən investisiyalardan əldə olunan gəlirlər buna alternativ olan xidmət sferasına olan qoyuluşlar üzrə gəlirlərdən çox olmalıdır. Bu prosesin baş verməsi üçün istehsal təyinatlı investisiyalar üçün risk etmə səviyyəsi olduqca aşağı olmalıdır.

Uzun və qısamüddətli tətbiqi formasından, eləcə də daxili və xarici maliyyələşmə mənbələrindən asılı olmayaraq, investisiyalar dövlət tərəfindən tənzimlənməlidir və onların tətbiqi ilə əlaqədar təminat mexanizmi fəaliyyət göstərməlidir. Bu mexanizm istehsal olunacaq məhsulların yüksək rəqabət qabiliyyəti ilə hüdudlanmalıdır.

Transformasiya mərhələsində işgüzar fəallığın yüksəldilməsi, özəl sərmayələrin canlandınlması çox mühüm, eyni zamanda həlli mürəkkəb olan məsələdir. Burada həm makroiqtisadi, həm də hüquqi-təşkilati və institusional problemlərin həlli son dərəcə mühüm rol oynayır. Bu mənada, hər bir iqtisadi strategiyanın uğuru milli iqtisadiyyatda investisiya fəaliyyətinə əlverişli mühitin yaradılmasından həlledici dərəcədə asılıdır.

İnvestisiyaların ölkədə yüksək iqtisadi artım tempini təmin edə biləcək səviyyədə saxlanılması iqtisadiyyatda yaradılan işgüzar mühitin keyfiyyətindən və xarakterindən bilavasitə asılıdır. Əlverişli işgüzar mühit, qənaətbəxş investisiya iqlimi iqtisadiyyata özəl daxili və xarici investisiyaların cəlb olunmasına və bu da öz növbəsində uzunmüddətli iqtisadi sabitliyi təmin etməyə, məşğulluğu artırmaqla əhalinin sosial rifahının yüksəldilməsinə imkan verir.

İnvestisiya siyasəti əsaslı vəsait qoyuluşunun əsas istiqamətlərinin həlledici sahələrində cəmləşdirilməsi üzrə tədbirləri müəyyən edən təsərrüfat qərarlarının məcmusudur. İnvestisiya vasitəsilə ictimai istehsalın planlı inkişaf sürətinə nail olunur, iqtisadiyyatın tarazlığı və səmərəliliyi təmin olunur, məsrəflərin hər manatına görə çox məhsul və milli gəlir artımına şərait yaradır.

Məlumdur ki, investisiyalar makroiqtisadiyyatda ikili rol oynayır. Birinci, investisiyalar xərclərin böyük və dəyişkən

KZAvtv

komponenti olduğuna görə, investisiyalann kəskin artması və ya azalması məcmu tələbə kəskin təsir göstərə bilər, məcmu tələbin dəyişməsi isə, öz növbəsində istehsala və məşğulluğa təsir göstərəcəkdir. İkinci, investisiyalar kapital yığımına səbəb olur. Avadanlıq və tikililərin artımı ölkənin potensial istehsalını genişləndirir və uzun müddətə iqtisadi artımı təmin edir.

Beləliklə, investisiyalar ikili rol oynayırlar: qısamüddətli dövrdə istehsala məcmu tələblə təsir göstərməklə və uzunmüddətli dövrdə kapitalın yaranmasının potensial istehsala və məcmu təklifə təsir göstərməsi yolu ilə. Aydındır ki, kapital əsas istehsal amillərindən biridir. Yəni bu elə resursdur ki, məhsul istehsalında mühüm əhəmiyyət kəsb edir.

İnvestisiyalar həm pul, həm də real kapitala qoyulmuş vəsaitlərdir. Bu pul vəsaitləri kreditlərə, qiymətli kağızlara, daşınar və daşınmaz əmlaka, intellektual mülkiyyətə və digər dəyərli sahələrə qoЗmlan vəsaitlər şəklində həyata keçirilə bilər. Real kapitala qoyulan investisiyalar (onlan çox zaman kapital əmələ gətirən və ya qeyri-maliyyə aktivlərinə qoyulan investisiyalar adlandırırlar) əsas kapitalın təkrar istehsalına və bərpasına səbəb olur. Adətən, investisiyalar haqda danışanda, məhz bu növ investisiyalar nəzərdə tutulur. İnvestisiyaların bu şəkildə müəyyən olunması iqtisadi səciyyə daşıyır.

İnvestisiya qoyuluşunda birbaşa və portfel investisiyaları daha böyük əhəmiyyət kəsb edir. Kapitalın qoyulma məqsədinə görə bölgüsü investisiya qoyuluşu sahəsində böyük praktik əhəmiyyətə malikdir. Bu bölgüyə əsasən birbaşa investisiyalar və portfel investisiyaları mövcuddur.

Birbaşa investisiyalar elə kapital qoyuluşudur ki, investora kapital qoyulmuş obyekt üzərində nəzarət imkanı verir. Birbaşa investisiyalar uzun müddətə iqtisadi maraq əldə etmək məqsədilə həyata keçirilir. Bu investisiyalar əsasən şəxsi sahibkar kapitalı ilə əlaqədardır.

Portfel investisiyaları xarici qiymətli kağızlara qoyulan kapitaldır. Bu investisiyalar investora kapital qoyulmuş obyekt üzərində real nəzarət hüququ vermir.

Kapitalın bu cür bölgüsü əsasən hər bir konkret ölkədə investisiya və bank qanunvericiliyində öz əksini tapır. Məsələn, «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası

Qanununun 2-ci maddəsində investisiya fəaliyyətinin aşağıdakı növləri göstərilib.

- Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilən özəl investisiya fəaliyyəti;
- Dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən dövlət investisiya fəaliyyəti;
- xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilən xarici investisiya fəaliyyəti;
- Azərbaycan Respublikasının və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri və dövlətlər tərəfindən həyata keçirilən birgə investisiya fəaliyyəti.

Birbaşa investisiyaların idxal və ixrac səbəbləri müxtəlifdir. Əsas məsələ investisiyanın elə bir ölkədə və elə bir sahədə yerləşdirilməsidir ki, o, maksimum mənfəət versin. BMT-nin iqtisadi xidmət orqanlarının himayəsi altında keçirilən tədqiqatlar birbaşa investisiyaların idxal və ixracının spesifik səbəblərini müəyyən etmişdir. Birbaşa investisiyaların ixrac olunmasının aşağıdakı səbəbləri göstərilmişdir.

Texnoloji liderlik. Firmanın elmi-tədqiqat və konstruktor-layihə işlərinə çəkdiyi xərc nə qədər yüksəkdirsə, birbaşa investisiyaların həcmi bir o qədər böyükdür və əksinə.

Elmi-tədqiqata çəkilən xərclərlə birbaşa investisiyaların ixracı arasında asılılığın olması artıq əksər ölkələrin təcrübəsində özünü göstərib.

İşçi qüvvəsinin ixtisaslaşmasında olan üstünlük. Bu, adətən, işçilərin əmək haqqının orta səviyyəsi ilə müəyyən edilir. Firmada əmək haqqının səviyyəsi nə qədər yüksəkdirsə, firma bir o qədər çox birbaşa investisiya ixrac edir və əksinə, əmək haqqının səviyyəsi nə qədər aşağıdırsa, firma bir o qədər az həcmdə birbaşa investisiya ixrac edir.

Reklamda üstünlük. Bu, beynəlxalq marketinqdə toplanmış təcrübə ilə ifadə olunur. Firmanın reklam xərcləri nə qədər yüksəkdirsə, onun birbaşa investisiya ixracı da bir o qədər yüksək olur.

İqtisadiyyatın həcmi. Firmanın daxili bazarda istehsal

həcmi nə qədər yüksəkdirsə, birbaşa investisiyaların həcmi də yüksək olacaqdır.

Təbii resurslarla təmin olunma. Firmanın hər hansı bir təbii resursa olan tələbatı yüksəkdirsə, o, məhz bu resurs ilə zəngin olan ölkəyə daha çox birbaşa investisiya qoyacaqdır.

Nəqliyyat xərclərinin azaldılması məqsədilə istehsal müəssisəsinin istehlakçıya yaxın ərazidə tikilməsi, idxal maneələrindən ötüşmək üçün xarici ölkə ərazisində istehsalın təşkili və s. birbaşa investisiya ixracının səbəbləri kimi göstərilə bilər.

Birbaşa investisiyaların idxal olunma səbəbləri isə yuxarıda deyilənlərlə, demək olar ki, üst-üstə düşür. Bununla belə, birbaşa investisiyaların idxal olunmasının özünəməxsus, spesifik səbəbləri də vardır. Bunlar arasında aşağıdakıları göstərmək olar.

Kapitala olan tələb. Firmanın kapitala olan tələbi nə qədər yüksəkdirsə, firma bir o qədər çox birbaşa investisiya idxal edəcək.

Milli filialların sayı. Firmanın ölkə daxilində olan bölmələrinin sayı çox olduqca, onun birbaşa investisiya idxalı da yüksək olacaqdır.

İstehsal xərcləri. İstehsal xərclərinin səviyyəsi aşağı olduqca, birbaşa investisiyaların idxal səviyyəsi yüksək olacaqdır.

Daxili bazarın qorunma səviyyəsi. Kapitalın idxalı mal idxalına alternativ olduğundan, daxili bazarın gömrük və digər vasitələrlə qorunma səviyyəsi yüksək olduqca, birbaşa investisiyaların idxalı da yüksək olacaqdır.

Bazarın ölçüsü. Daxili bazarın ölçüsü nə qədər böyükdürsə, birbaşa investisiyalara olan tələb də bir o qədər yüksəkdir.

Hal-hazırda xarici investorların əksəriyyəti öz investisiya qoyuluşlarını daxili mənfəətlilik normasının 20 faizdən yüksək olduğu layihələrə yönəldirlər. Bununla bərabər müasir Qərb nəzəriyyəçiləri MDB-yə daxil olan ölkələr üzrə mənfəətlilik normasının 25-40 faiz intervalında olduğu ölkələrdəki layihələrin reallaşdırılmasına investisiya qoyuluşlarını yönəltməyi məqsədəmüvafiq hesab edirlər. Bu, əsasən, həmin ölkələrdə siyasi, iqtisadi və hüquqi risklərin yüksək olması ilə

bağlıdır.

Təcrübə göstərir ki, investorlar, bir qayda olaraq, siyasi və iqtisadi stabilliyin olduğu ölkələrdə işləməyə üstünlük verirlər. Digər tərəfdən, potensial investor bilir ki, ölkə etibarlı olduqca, yüksək mənfəətlilik norması əldə etmək ehtimalı bir o qədər aşağı olur. Məsələn, ABŞ investisiya qoyuluşları nöqteyi-nəzərindən ən etibarlı ölkə hesab olunur. Ancaq investorların Azərbaycanda neft hasilatından bir ildə əldə etdikləri gəlir təqribən ABŞ-da 8-10 il ərzində əldə edilən gəlirə bərabərdir.

Ölkənin investisiya qoyuluşu nöqteyi-nəzərindən cəlbediciliyini xarakterizə edən əsas faktor investisiya mühitidir. Ölkə iqtisadiyyatına öz kapitalını qoyan xarici sahibkarların nöqteyi-nəzərindən investisiya mühiti ölkədəki vəziyyətdir.

İnvestisiya mühiti risk faktorları adlanan çoxlu sayda elementlərin məcmusundan ibarətdir. Bu elementləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- siyasi amillər;
- iqtisadi amillər;
- sosial amillər;
- qlobal amillər;

Sxematik olaraq bunu şəkil 2-də olduğu kimi əks etdirmək olar.




Şəkil 2. lnvc.stisiya mühiti və ona təsir edən amillər.

Yuxanda sadalanan risk amilləri qrupları xarici sahibkar üçün öz kapitalını yerləşdirmək istədiyi ölkədəki şəraiti əks etdirir. Xarici sahibkar nöqteyi-nəzərindən bu amillər onun xarici ölkədə rastlaşdığı müxtəlif növ riskləri xarakterizə edir.

Risk dedikdə, potensial investorun yerləşdirdiyi vəsaiti itir

məsi ehtimalı başa düşülür.

Ölkənin geosiyasi mövqeyi, ölkədəki siyasi rejim, aparılan siyasət, siyasi sabitlik, dövlətin iqtisadiyyata müdaxilə səviyyəsi, beynəlxalq razılaşmaların şərtlərinə əməl edilməsi və s. amillərə aid edilir.

Müstəqillik əldə olunandan bəri Azərbaycanda investisiyaya dair bir sıra mühüm qanunverici aktlar, qanunlar qəbul edilmişdir. Lakin biznesin indiki inkişaf səviyyəsi şəraitində qanunvericilik mühitinə yeni tələblər də meydana çıxır və qanunların yeniləşməsinə ehtiyac yaranır. Bu mənada, investisiya fəaliyyətinin inkişaf mərhələlərindən asılı olaraq, ölkədə qanunverici baza elə bir təkmil səviyyəyə çatdırılmalıdır ki, sərmayədar investisiya iqlimini qiymətləndirərkən artıq qanunvericilik riskinin olmamasını tam yəqin edərək, strateji qərarların qəbul edilməsində tərəddüd etməsin.

Bu baxımdan, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş investisiya siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinin ana bazisi aşağıdakı meyarlarla izah olunur:

- qiymətli kağızlar üzrə aydın və güclü qanunvericiliyin olması;
- bazar infrastrukturunun yüksək inkişaf səviyyəsi;
- kontrakt öhdəliklərinin yerinə yetirilməsi sahəsində çoxlu təminatların olması;
- milli qiymətli kağızların yüksək likvidliyi;
- qiymətli kağızlar üzrə həyata keçirilən beynəlxalq sövdələşmələrin baha başa gəlməsi və s.

Mərkəzi planlaşdırma və bölgü sisteminin bazar münasibətlərinə əsaslanan sistemə köklü transformasiyası prosesində müəyyən səhvlər, obyektiv iqtisadi, siyasi, sosial qüsurların mövcudluğu və bəzən tənzimləyici hüquqi aktların bir-biri ilə ziddiyyət təşkil etməsi əlverişli investisiya mühitinin formalaşması prosesində başlıca maneələr idi.

Azərbaycanın dövlət müstəqilliyini əldə etdikdən sonra keçdiyi bütün sosial-iqtisadi inkişaf yoluna nəzər salsaq, vəziyyətin kökündən dəyişməsinin iki mərhələsini görmək çətin deyil: birinci mərhələ (1991-1993-cü illər) - iqtisadiyyatın və əhalinin rifah səviyyəsinin hiperinflyasiya ilə müşayiət olunan fəlakətli şəkildə aşağı düşməsi nəticəsində ölkənin dərin

İqtisadi tənəzzülü və iqtisadiyyatın tam idarəolunmazlığı; ikinci mərhələ (1994-2000-ci illər) - makroiqtisadi sabitliyin təmin olunması, strukturun yenidən qurulması və ölçülüb- biçilmiş iqtisadi islahatlar siyasəti aparılması sayəsində iqtisadiyyatın və əhalinin rifah səviyyəsinin dinamik inkişafı.

Şübhəsiz, bu inkişaf mərhələsində qazanılmış sosial-iqtisadi nailiyyətlərin hamısı bütünlüklə ictimai-siyasi sabitliyi təmin etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adı ilə bağlıdır. Sabitlik yaradılmadan ümummilli və məqsədyönlü iqtisadi islahat proqramlannı həyata keçirmək mümkün olmazdı.

Ona görə də ölkədə investisiya mühitinin hüquqi əsaslarının təkmilləşdirilməsi, normativ-hüquqi bazasının sadələşdirilməsi, qanunvericilikdə olan boşluqlarm və ziddiyyətlərin aradan qaldırılması tələb olunurdu. Belə ki, 15 yanvar 1992-ci ildə təsdiq edilmiş «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsinə baxmayaraq, tətbiqi mexanizmi həmin dövr üçün mövcud iqtisadi-siyasi vəziyyət ilə əlaqədar olaraq mümkün deyildi. Bu mənada, investisiya fəaliyyəti ilə məşğul olmaq istəyənlər ölkədə qanunverici baza təkmil səviyyədə olmadığından, investisiya iqlimini qiymətləndirərkən qanunvericilik riskinin olmasını tam yəqin edərək, strateji qərarların qəbul edilməsində tərəddüd edirdilər.

Həmin dövr üçün səciyyəvi olan iqtisadi, siyasi və sosial vəziyyət qısaca olaraq aşağıdakı kimi xarakterizə olunur. 1992-1993-cü illərdə sosial gərginliyi aradan qaldırmaq üçün mütəmadi olaraq görülən tədbirlər - əmək haqqının vaxtaşırı 2-3 dəfə artırılması, minimum əməkhaqqı səviyyəsinin müəyyən edilməsi, çoxsaylı güzəştlərin tətbiqi və s. respublikanın real imkanları ilə uzlaşdırılmadığından inflyasiyanı daha da sürətləndirirdi. Ölçülüb-biçilməmiş xəzinə və pul siyasəti üzündən maliyyə-bank və xarici ticarət fəaliyyəti sahələrində ciddi problemlər meydana çıxdı.

Belə bir vəziyyətdə investisiya fəaliyyətinin tənzimlənməsi baxımından hər hansı bir qanunun tətbiqi və onun faydalılıq əmsalının tərkib komponentlərinin effektivliyi mümkün deyildi. Bu şəraitdə ölkənin daxili resurslar hesabına idarə olunması mümkün deyildi. Xarici investisiya qoyuluşlarının da

bu cür riskli siyasi və iqtisadi şəraitdə təşviq edilməsi olduqca mürəkkəb hal idi. Çünki, hər şeydən əvvəl, xarici investorlar öz seçimində risk amilini ön planda tutur. Belə ki, müasir dövrdə birbaşa investisiyaların əhəmiyyəti o dərəcədə artmışdır ki, artıq onlar siyasi xarakter daşımağa başlamışdır. Bu baxımdan, investor ölkədəki siyasi mühiti daim izləyir.

Həm öz ölkəsində, həm də investisiya qoyulan ölkədə investora dövlət təminatının verilməsi mühüm əhəmiyyət kəsb edir. Öz ölkəsinə investisiya cəlb olunmasında maraqlı olan hər bir dövlət bu işlə ciddi məşğul olmalıdır. İnvestor bilməlidir ki, təbii fəlakət, müharibə və digər fors-major hadisələr nəticəsində onun qoyduğu investisiya məhv olarsa, dövlət bu vəsaiti ona qaytaracaqdır. Həmin dövr üçün səciyyəvi olan xaos və hiperinflyasiya vəziyyətində isə bu kimi amillər diqqət xaricində idi.

İkiqat vergiqoymanın aradan götürülməsi, investora diplomatik və administrativ dəstəyin verilməsi də birbaşa investisiyalara stimul verən amillərdəndir. Həmin illərdə bu sahəyə, demək olar ki, diqqət yetirilməmişdi.

1991-1993-cü illərdə investisiya fəaliyyəti ilə bağlı təkmil qanunvericilik bazası olmadığından, Azərbaycan Respublikasında başlıca problemlər aşağıda qeyd olunanlardan ibarət idi.

İnstitusional problemlər. İnvestisiya fəaliyyəti üçün ən ciddi problemlərdən biri biznesin tənzimlənməsi üzrə olan nöqsanlar və bürokratik əngəllər, vahid qanunvericilik bazasının olmaması, süründürməçiliyin mövcudluğu, müəssisələrin qeydiyyatı mexanizmlərinin mürəkkəbliyidir. Müəssisələrin qeydiyyata alınmasının hüquqi proseduru təkmil olmadığından, həmin dövr üçün mövcud prosedur neqativ halların ortaya çıxmasına şərait yaradırdı.

İnfrastruktur problemləri. İnfrastruktur sahələrinin zəif inkişafı xarici investisiya qoyuluşlarına öz mənfi təsirini göstərirdi. İnfrastruktur xidmətlərinin keyfiyyətinin aşağı olması Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmaq üçün əsas maneələrdən biri idi. Həmin illərdə rabitə, nəqliyyat sahələrində əsaslı dəyişiklik olmadığından və bu sahələrin demək olar ki, tam iflic vəziyyətində olması bir sıra infrastruktur sahələrində, xüsusilə enerji, yol, su təchizatı

sahələrində mövcud olan problemlər öz kəskinliyi ilə inkişaf etməkdə olan investisiya mühitinin formalaşmasına mane olurdu. İnfrastrukturun günün tələblərindən xeyli geridə qalması investisiya fəaliyyətinin genişlənməsi imkanlarını daraldır və əlavə xərcləri artırırdı.

Maliyyə sektoru üzrə problemlər. Ölkədə bank sektoru, demək olar ki, olmadığından və yaxud spekulyativ məqsədlərlə fəaliyyət göstərdiyindən bir sıra ciddi maneələrlə qarşılaşırdılar. Buraya maliyyə vəsaitlərinin adekvat əldə etmə imkanı, investisiya kreditləri və təminatlar daxildir. Xüsusilə qeyri-neft sektorunda olan investorlar, kiçik və orta həcmli müəssisələr fəaliyyətə başlayanda maliyyə vəsaitlərinin əldə edilməsi problemi ilə qarşılaşırlardılar. Həm hüquqi, həm də iqtisadi cəhətdən likvidliyi olmayan bu sektor investisiya mühiti üçün yararlı deyildi.

Vergi sistemi ilə bağlı problemlər. Təkmil vergi qanunvericiliyi sisteminin olmaması, pərakəndəliyin hökm sürməsi, vergi yükünün ağırlığı, vergi qanunlarının mürəkkəbliyi, vergi orqanlarının sərt tədbirləri investorları ən çox narahat edən və onların fəaliyyətini əngəlləyən problem idi. Həmçinin, vergi inzibatçılığının qənaətbəxş olmaması və dövlət strukturları arasındakı qeyri-mütəşəkkillik əlverişli investisiya mühitinin qarşısını alır və investisiya qoyuluşlarının iqtisadi risklilik dərəcəsini yüksəldirdi.

Rəqabət mühiti və inhisarçılıq. Həmin dövr üçün Azərbaycanda sağlam, bərabərhüquqlu rəqabət mühiti formalaşmamışdı. Belə ki, mövcud olmuş qeyri-stabil iqtisadi vəziyyət qeyri-ədalətli rəqabəti yaratmaqla işgüzar fəaliyyətə qarşı ciddi problem yaradırdı. İlk növbədə, əmtəə və xidmət bazarlarında inhisarçılıq meyilləri güclənmiş və müxtəlif sahələr üzrə qanunvericilik bazasının forrmalaşmaması yerli və xarici investorları investisiya fəaliyyətindən uzaqlaşdırmışdı. Eyni zamanda, sərbəst bazar mexanizminin əsas şərti olan informasiya sisteminin formalaşdırılması həyata keçirilməmişdi.

Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi altında hazırlanan və 1995-ci ildə qəbul edilən «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu investisiya fəaliyyətinin hüquqi bazasını təşkil etdi. Həmin qanunda qeyd edilir ki, mülkiyyət formasından asılı olmayaraq bütün in

vestorların hüquqlarının müdafiəçisi dövlətdir. Dövlət orqanlarının və vəzifəli şəxslərin mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş investisiya fəaliyyəti subyektlərinin müqavilə münasibətlərinə müdaxilə et-məsinə yol verilmir. Məlum olduğu kimi, investisiya fəaliyyəti investorların müəyyən məqsədlər üçün investisiya qoyuluşlan ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan bütün fəaliyyətin məcmusu hesab edilir və dövlət tərəfindən tənzimlənir.

Beləliklə, mülkiyyət və təsərrüfatçılıq fəaliyyətindən asılı olmayaraq, investisiya qoyuluşları ölkədə mövcud qanunvericilik aktlarına tam uyğun formada tənzimlənir. Odur ki, dövlət ölkədə sosial-iqtisadi inkişafı tənzimləmək, xalq təsərrüfatında lazımi proporsiyaların yaradılmasını təmin etməklə investisiya qoyuluşlarından və habelə investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadəni ciddi surətdə tənzimləməlidir. Şübhəsiz ki, hər hansı istehsal və sosial sahələrin yaradılması, yenidən qurulması, genişləndirilməsi, habelə məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşlarından və xüsusilə də ondan əldə edilmiş gəlirlərdən səmərəli istifadə olunmasını tələb edir. Bu baxımdan, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Odur ki, indiki müstəqillik və bazar iqtisadiyyatı şəraitində xarici ölkələrin marağına və milli iqtisadiyyatın inkişafına tam uyğun olaraq, investisiya fəaliyyətini daha da dərinləşdirmək tələb edilir. Belə bir şəraitdə investisiya fəaliyyətinin dövlət tənzimlənməsi və idarə edilməsi müasir reallıqdan irəli gəlir.

Xarici investorların normal fəaliyyətini tənzimləmək üçün geniş tədbirlər həyata keçirilməlidir. Daha doğrusu, xarici investisiya fəaliyyətinin stimullaşdırılması sahəsində dövlət iqtisadi mexanizmdən, xüsusilə güzəştli vergi sisteminin, sürətli amortizasiya, qiymətqoyma siyasətinin həyata keçirilməsi və s. iqtisadi vasitələrdən daha fəal və çevik istifadə edilməsini təmin etməlidir.

Bütün bunlarla yanaşı, dövlət investisiya fəaliyyətinin tənzimlənməsində iqtisadi mexanizmlərdən daha fəal istifadə etməlidir. Bu mexanizmlərə əsasən aşağıdakılan aid etmək olar:

- vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin

- kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən əsas fondların sürətli amortizasiyası yolu ilə. Amortizasiya üzrə güzəştlər ayrı-ayrı iqtisadi sahələr, əsas fondların və avadanlığın müxtəlif növləri və elementləri üçün dəyişkən və fərqli müəyyən edilə bilər.
- ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya, subsidiya büdcə borclarının verilməsi;
- dövlət norma və standartlarının müəyyənləşdirilməsi;
- antiinhisar tədbirlərinin görülməsi;
- mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi;
- torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;
- qiymətqoyma siyasətinin həyata keçirilməsi;
- investisiya layihələrinin ekspertizasının keçirilməsi və s.

Həmçinin, investisiya fəaliyyətinin dövlət tənzimlənməsinə dövlət investisiyasının idarə olunması, habelə investisiya fəaliyyəti şərtlərinin tənzimlənməsi və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarət daxildir.

Beləliklə, respublikada milli iqtisadiyyatın dirçəlməsində və onun inkişafında investisiya qoyuluşları, bir tərəfdən, bazar iqtisadiyyatının mahiyyətindən və habelə ölkənin zəngin yeraltı sərvətlərə malik olmasından, digər tərəfdən, respublikada bu geniş strateji məqsədlərə çatmaq üçün lazımi vəsaitin olmaması xarici investorların respublikaya cəlb edilməsini zərurətə çevirmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında bu istiqamətdə ölkə iqtisadiyyatında əhəmiyyətli keyfiyyət dəyişiklikləri aparıldı. Belə ki, investisiya siyasətinin formalaşmasına diqqət daha da artırıldı, investisiya qoyuluşları vasitəsilə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində əhəmiyyətli keyfiyyət dəyişiklikləri həyata keçirildi.

Dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin imzalanması nəticəsində milyardlarla dollar həcmində xarici sərmayələrin Azərbaycan iqtisadiyyatına cəlb edilməsi ulu öndər Heydər Əliyevin uğurlu investisiya siyasətinin təntənəsi oldu.

Bu müqavilə Azərbaycanı dünya iqtisadi sisteminə qovuşduran tarixi hadisə idi. Praktiki olaraq, bütün beynəlxalq

İqtisadi və maliyyə-bank təsisatları ilə daha sıx əməkdaşlıq yaratmaq və inkişaf etdirmək üçün önəmli addım atıldı.

1994- cü ildə "Əsrin müqaviləsi" adlanan tarixi razılaşmanın imzalanması iqtisadi potensialın dövlət quruculuğu prosesinə cəlb edilməsinə imkan verən unikal layihələrin həyata keçirilməsini təmin etdi. Bu layihələr Azərbaycanı nəinki iqtisadi kataklizmlərdən qurtarmış oldu, eyni zamanda, onu regionun real iqtisadi və siyasi güc mərkəzinə çevirdi. İndi geriyə nəzər salarkən, "Əsrin müqaviləsi"nin Azərbaycana hansı xeyirlər gətirdiyini görməmək, sadəcə, mümkün deyildir. Yeni neft strategiyasının uğurlu nəticələri təkcə vətəndaşların sosial rifahının təmin olunmasını yox, həm də dövlətin tarixi əsaslarının möhkəmləndirilməsini həyata keçirməyə şərait yaratmış oldu. Kimin necə qiymətləndirməsindən asılı olmayaraq, bu, bir faktdır ki, ölkənin taleyini təhlükələrdən sığor- talayan bu hadisə Azərbaycanda əldə edilmiş nailiyyətlərin əsasını təşkil edirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu müqavilənin tarixi əhəmiyyətini olduqca yüksək qiymətləndirirdi: "Biz bu müqaviləni imzalamaqla Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdik. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük neft şirkətləri arasında əlaqə yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir".

Dünyanın ən iri neft şirkətlərinin (ABŞ-ın ''Amoko", "Unokal", "Pennzoil", Böyük Britaniyanın bp, "Remko", Norveçin "Statoil", Rusiyanın "Lukoyl", Türkiyənin "Türk Petrol", Səudiyyə Ərəbistanının "Delta") iştirak etdiyi bu müqavilə 1994-cü il dekabrın 12-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə mindi. Azərbaycan Prezidenti hələ 1994-cü ilin fevral ayının 4-də "Azərbaycan dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" sərəncam imzalamışdı. Bu sərəncamda dənizdəki karbohidrogen ehtiyat-

larinin ölkənin ümumi mənafeləri çərçivəsində istismarını sürətləndirmək üçün müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyi, xarici neft şirkətləri və beynəlxalq konsorsiumlarla əlverişli müqavilələrin bağlanması üçün effektli tədbirlərin görülməsinin vacibliyi göstərilirdi. Sərəncam neft və qaz yataqlarının işlənilməsinin əsas prinsiplərini müəyyənləşdirdi.

Azərbaycan Prezidenti Heydər Əliyevin 14 sentyabr 1994- cü il tarixli fərmanı "Əsrin müqaviləsi"nin imzalanmasının hüquqi əsaslarını müəyyənləş-dirən ən mühüm dövlət sənədlərindən biri oldu. Bu fərmanda müqavilənin imzalanması üçün hazırlanmış saziş layihəsi müsbət qiymətləndirilir və göstərilirdi ki, Azərbaycan belə bir layihəyə imza ata bilər.

Həmin saziş layihəsində yataqların işlənilməsi üçün tələb olunan investisiyaların 80 faizinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə müqaviləni imzalayacaq konsorsium tərəfindən qoyulacağı göstərilmişdi. Sazişin qüvvəyə minməsindən sonra ilkin neftin 18 ay ərzində çıxarılması nəzərdə tutulurdu. Bundan başqa, imzalanacaq müqavilədə əsas yataqlarda neft hasilatına 48 aydan gec olmamaq şərti ilə başlanması da ümdə prinsiplərdən biri kimi təsbit olunmuşdu. Sənəddə o da qeyd olunurdu ki, Azərbaycan neftinin dünya bazarına səmərəli yolla çıxarılmasını təmin edən neft kəmərinin tikintisinə 54 ay ərzində start verilməlidir. Bu prinsiplər imzalanacaq sazişin əsas öhdəlikləri idi.

Layihədə Azərbaycanın hansı mənbələr hesabına gəlir əldə edəcəyi də dəqiq şəkildə öz əksini tapmışdı. Belə ki, sənəddə respublikanın gəlirlərini üç mənbədən - təbii ehtiyatların mülkiyyətçisi kimi, yataqların işlənilməsinə investisiya qoyulmasından və konsorsiumun gəlirlərinin 25 faizinin dövlət büdcəsinə keçirilməsindən əldə olunduğu göstərilirdi. Bu müddəaların sənəddə öz əksinin tapması gəlir neftinin 80 faizinin Azərbaycana çatmasını təmin edirdi. Bundan başqa, neftlə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində dəyərləndirilən səmt qazı da Azərbaycana verilirdi. Sazişin əhatə etdiyi 90 milyard kubmetr həcmində ehtiyatlara malik azad qaz yataqlarının istismarı hüququ da məhz Azərbaycan tərəfinə qalırdı.

Müqavilə layihəsində konkret mərhələlərdə yerinə yetirilməsi nəzərdə tutulmuş bütün işlərin dəqiq müddətləri də

göstərilmişdi. Qeyd edək ki, “Əsrin müqaviləsi”nin qüvvədə olduğu 30 il ərzində respublikamızın neft və qaz sənayesinə 60 milyard dollardan çox sərmayə qoyulması nəzərdə tutulmuşdur.

Elə həmin il dekabrın 2-də “ Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, ’’Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “Amoko Kaspian Si Petrolium Limited” ,”Bi-Pi Ek- sploreyşn (Kaspian Si) Limited”,“Delta Himir Xəzər Limited”, ”Den Horske Stats Olyeselskap A.C.”, ’’Lukoyl Səhmdar Cəmiyyəti“, ’’MakDermott-Azərbaycan İNK”, “Penzoil Kaspian Korporeyşn”, “Remko Xəzər Eneji Limited”, “Türkiyə Petrolleri A.O.”, “Unokal Xəzər Limited” arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə” Azərbaycan Respublikasının Qanunu təsdiq edildi.

Qanunda sazişin əhatə etdiyi məsələlərin Azərbaycan qanunvericiliyində tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığı, karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığı göstərilirdi. ARDNŞ ilə xarici neft şirkətlərinin birləşdiyi konsorsium arasında imzalanmış müqavilənin təsdiqlənməsi və həyata keçirilməsini nəzərdə tutan xüsusi qanun qəbul edilməsi ehtiyacı da məhz bundan irəli gəlirdi. Milli Məclis tərəfindən qəbul edilmiş qanunda sazişin Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğu, bundan başqa, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının tələblərinə cavab verdiyi qeyd olunurdu.

Sözügedən qanunla 1994-cü il noyabrın 15-də respublika hökumətinin təminatı və öhdəlikləri barədə sənəd qəbul və təsdiq edildi. Qanunun 3-cü maddəsində göstərilir ki, o, qüvvəyə mindikdən sonra “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “Amoko Kaspian Si Petroleum Limited”, “Bi-Pi Ek- sploreyşn (Kaspian Si) Limited” ,“Delta Himir Xəzər Limited”, ”Den Horske Stats Olyeselskap A.C.” , ’’Lukoyl

"Səhmdar Cəmiyyəti", "MakDermott-Azərbaycan İNK", "Penzoil Kaspian Korporeyşn", "Remko Xəzər Eneji Limited", "Türkiyə Petrolleri A.O.", "Unokal Xəzər Limited" arasında saziş" və 1994-cü il noyabrın 15-də imzalanmış Azərbaycan Respublikasının təminat və öhdəlikləri barədə sənəd qanun olur.

Sözügedən sənədlər sazişdə konkret şəkildə göstərilmiş başqa hallar istisna edilməklə və sazişin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikasında müddəaları bu sazişə və təminatlar barədə sənədə uyğun gəlməyən və ya zidd olan hər hansı başqa mövcud və ya qəbul olunacaq qanundan, fərmandan, yaxud inzibati sərəncamdan üstün tutulur. Bu o demək idi ki, Azərbaycan Respublikası bu sazişə və öhdəliklər haqqında sənədə əməl edəcəyinə tam təminat verir və bu mövqeyini hüquqi formada ifadə etməkdən çəkinmir. Milli Məclisin qəbul etdiyi qanunda bu cür ciddi təminatın öz əksini tapması neft ehtiyatlarının istismarında iştirak edən xarici şirkətləri tam qətiyyətlə və əminliklə sazişin müddəalarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə səfərbər etdi.

Sənədə həmçinin belə bir müddəa da daxil edilmişdi ki, bu qanun qüvvəyə mindikdən sonra sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilən bütün digər hüquq və vəzifələr ləğv edilir. Qəbul edilən qanun saziş iştirakçılarına, xarici şirkətlərlə imzalanmış müqavilənin müddəalarına uyğun olaraq, neft-qaz əməliyyatları aparmaq üçün müstəsna səlahiyyətlər verdi.

Bu Qanunla Nazirlər Kabineti, bütün nazirliklər və dövlət orqanları tərəfindən sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün iştirakçılara və Birgə Əməliyyat Şirkətinə lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyaların verilməsinin təmin olunması təsbit edildi. Bu maddənin əsas məqsədi "Əsrin müqaviləsi"nə qoşulmuş şirkətlərin Azərbaycanda qanun çərçivəsində sərbəst və maneəsiz fəaliyyətinə şərait yaratmaqdan ibarət idi. Çünki yalnız bu halda sazişdən irəli gələn vəzifələrin effektli şəkildə həllinə nail olmaq mümkün idi.

Bu Qanun "Əsrin müqaviləsi"nə tərəflərin razılığı olmadan və müqavilənin şərlərindən kənar hər hansı əlavə və dəyişik

liklər ehtimalını istisna edirdi. Qanunla sazişə hər hansı əlavə və düzəlişlər, ya da dəyişikliklər edilməsi və ya onun öz qüvvəsini itirməsi yalnız tərəflərin yazılı razılığı əsasında, yaxud sazişin özünün şərtlərinə uyğun olaraq həyata keçirilə bilər.

1995- ci il aprel ayının 12-də ARDNŞ ilə Türkiyənin "Türkiyə Petrolleri A.O." şirkəti arasında alqı-satqı haqqında müqavilə imzalandı. Həmin müqaviləyə görə, ARDNŞ ''Əsrin müqaviləsi" pay iştirakı hüquqlarının 5 faizini maliyyələşdirməyi öhdəsinə götürmüş, ARDNŞ isə "Türkiyə Petrolleri A.O." şirkətinə satmağı, sonuncu da, öz növbəsidə, ARDNŞ- dən satın almağı öhdəsinə götürmüşdür.

Bu müqavilə və ona düzəlişlər, kontrakt hüquqlarının verilməsi haqqında sənəd, tədiyə məhsulunun verilməsi haqqında müqavilə, habelə verilmə müqaviləsinin "Türkiyə Petrolleri İnterneyşnl Limited" şirkətinə yenidən verilməsi haqqında sənəd imzalandıqdan sonra Azərbaycan Prezidentinin müvafiq fərmanı əsasında qüvvəyə mindi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra istehsal olunacaq neftin dünya bazarlarına çıxarılması üçün yollar axtarmaq lazım gəldi. O dövrdə müxtəlif variantlar təklif olunur və bununla bağlı Azərbaycana ciddi təzyiqlər edilirdi. Lakin ümummilli lider Heydər Əliyevin qətiyyəti və cəsarəti bütün təzyiqlərin nəticəsiz qalmasını təmin etdi. Azərbaycan karbohidrogen ehtiyatlarını istismarı məsələsində olduğu kimi, bu ehtiyatlarının ixracı ilə bağlı problemlərin həllində də öz maraqlarının etibarlı şəkildə həyata keçirilməsinə tərəfdar olduğunu bəyan etdi və sona qədər bu mövqeyinə sadiq qaldı.

1995- ci il dekabrın 29-da Azərbaycan Prezidenti "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən çıxarılan ilkin neftin ixracına dair sənədlərin bəyənilməsi və təsdiq olunması haqqında" sərəncam imzaladı. Bu sərəncam Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", ''Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişə uyğun olaraq ilkin neft hasilatına və ixrac olunmasına dair layihəni təsdiq etdi. İlkin neftin şimal istiqamətində ixrac olunmasına aid boru kəmərinin ötürmə

qabiliyyəti və istismarı barədə sazişin, razılaşmanın əsaslarının və nəqletməyə yardım haqqında müqavilə layihəsinin hazırlanmasından sonra artıq neftin ixracına dair hüquqi məsələlər, demək olar ki, həll olundu. Azərbaycan Prezidentinin sərəncamı ilə bu sənədlər təsdiqləndi və qanun qüvvəsinə mindi.

1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı. Beləliklə də, Bakı-Novorossiysk kəməri 1997-ci ilin oktyabrında fəaliyyətə başladı və bu, ilkin neftin dünya bazarına çıxarılmasına imkan yaratdı.

1997-ci ilin martında yenə da Qara dənizə çıxmaq şərti ilə neftin Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqli haqqında Azərbaycanla Gürcüstan arasında razılaşma əldə edildi və 1999-cu ildə bu kəmər də fəaliyyətə başladı. Lakin Azərbaycan, eləcə də onun tərəfdaşları neftin nəqlinin çoxvariantlılığına üstünlük verirdilər.

1998-ci il 20 oktyabr tarixli Ankara Bəyannaməsində Azərbaycan, ABŞ, Türkiyə, Qazaxıstan və Gürcüstan liderləri "Əsrin müqaviləsi"ndən əldə ediləcək neftin Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə nəqlinə tərəfdar olduqlarını rəsmən elan etdilər. 1999-cu ildə İstanbul sammitində tərəflər bununla bağlı razılaşmaya imza atdılar. 2002-ci ilin 18 sentyabrında isə Bakıda keçirilmiş təntənəli mərasimdə 2,94 milyard dollar dəyərində olan bu misilsiz neft kəmərinin tikintisinin bünövrəsi qoyuldu.

Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Bakıda Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlər imzalandı. Bu, artıq layihənin reallaşması prosesində sonuncu mərhələ idi. Azərbaycan Prezidenti imzalanma mərasimindəki çıxışında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ölkəmiz üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha vurğuladı:

"Bu gün layihənin maliyyələşməsi istiqamətində mühüm bir addım atılır. Beynəlxalq maliyyə qurumları bu layihəyə öz dəstəyini vermiş olurlar. Dünyanın aparıcı maliyyə qurumları tərəfindən verilən bu dəstək həm Bakı-Tbilisi-Ceyhan layihəsi, həm də gələcəkdə digər layihələr üçün böyük əhəmiyyət kəsb edir. Bu gün bizim birgə fəaliyyətimizin, elə bil ki, son

mərhələsidir, son nöqtəsidir. Bu uğurlar yalnız bizim hamımızın vahid komanda kimi fəaliyyət göstərəcəyimiz təqdirdə mümkün idi. Bu da baş verdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə bp şirkətinin rəhbərliyi və liderliyi nəticəsində bu vahid komanda qarşıda duran bütün məsələlərə nail oldu. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, burada əməkdaşlıq öz bariz nəticələrini verir. Bu müqavilələrin icrasında çətinliklər də az deyil, qarşımızda süni şəkildə yaradılmış maneələr də az deyildi. Çətin vəziyyətdə, xüsusilə, 1994-1996-cı illərdə müqavilələr üçün real təhlükə yaranmışdır. Amma Azərbaycan rəhbərliyinin və şəxsən Prezident Heydər Əliyevin qətiyyəti, beynəlxalq neft şirkətlərinin inamı və dünya ictimaiyyətinin dəstəyi bizə imkan verdi ki, bütün bu çətinliklərə baxmayaraq, istəyimizə nail ola bilək. Bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqının milli maraqları qorunur və heç kim, heç bir qüvvə bizi bu yoldan çəkindirə bilməz".

Nəhayət, 2006-cı ilin iyul ayının 13-də Türkiyənin Ceyhan terminalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyənin Prezidenti Əhməd Necdət Sezər və Baş naziri Rəcəb Tayyib Ərdoğanın, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin, Amerika Birləşmiş Ştatlarının energetika nazirinin müavini Kley Sellin, bp şirkətinin prezidenti lord Con Braunun iştirakı ilə bir zamanlar çoxlarına inanılmaz bir layihə kimi görünən, ümummilli lider Heydər Əliyevin gərgin əməyinin nəticəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılış mərasimi keçirildi. Təntənəli mərasim təkcə bölgənin deyil, bütün dünyanın diqqət mərkəzində oldu.

Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimini tarixi gün adlandırdı. O, 1994-cü ildə "Əsrin müqaviləsinin" imzalanması ilə böyük neft siyasətinin başlandığını vurğulayaraq qeyd etdi: "Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırır".

Bu gün Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan neftin dünya bazarına ixracına başlandığını bildirən dövlətimizin başçısı ölkəmizin ilk dəfə Xəzərin neft

hasilatına xarici investorları cəlb etdiyini vurğuladı. Azərbaycanın neft ölkəsi kimi tanındığını deyən Prezident İlham Əliyev 1994-cü ildən həmin şöhrətin yenidən qayıtdığını, bunun da Azərbaycanın iqtisadi inkişafına xidmət etdiyini bildirərək dedi: "Azərbaycanda gedən iqtisadi inkişaf artıq hamımız tərəfindən görünür. Keçən il iqtisadiyyat 26 faiz, bu ilin beş ayında, təxminən, 40 faiz artmışdır. Bütün bu nəticələrin təməli məhz 1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulmuşdur".

"Əsrin müqaviləsi"nin Azərbaycanın iqtisadi və siyasi cəhətdən çətin durumda olduğu dövrə təsədüf etdiyini xatırladan İlham Əliyev həmin dövrdə xarici investorları inandırıb Azərbaycana cəlb etməyin böyük müdriklik tələb etməyini də vurğuladi: "Azərbaycanın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı-Tbilisi-Ceyhan neft kəmərinə inam o qədər də böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayanlar var idi, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi".

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uzunluğu 1767 kilometrdir. Onun 443 kilometri Azərbaycan, 248 kilometri Gürcüstan və 1076 kilometri Türkiyə ərazisindən keçir, bp (30,1% iştirak payı), ARDNŞ (25%), "Unocal" (8,9%), "Statoil" (8,71%), TPAO (6,53%), "İtochu" (3,4%), "Amerada Ness" (2,36%), ENİ (5%), "Conoco Phillirs" (2,5%), "İnpex" (2,5%), "Total" (5%) BTC-nin səhmdarlarıdır.

Qeyd olunan faktlar bir daha göstərir ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə etibarlı zəmin yaradan hüquqi mexanizmlər dəqiq şəkildə müəyyənləşdirildi. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan 20-dən çox neft müqaviləsi imzalamışdır ki. həmin sənədlərdə ölkəmizin

maraq və mənafeləri nəzərə alınmış, həmçinin razılaşmalardan irəli gələn vəzifələrin yerinə yetirilməsinin konkret hüquqi mexanizmləri və qanuni çərçivələri göstərilmişdir. Bütün bunlar isə müqavilələrin etibarlılığına və iştirakçılar tərəfindən yerinə yetiriləcəyinə hüquqi təminat yaradır.

Dünyanın nəhəng neft şirkətlərini Azərbaycana sərmayə yatırmağa stimullaşdıran əsas amillərdən biri də onlar üçün əlverişli vergi mühitinin yaradılması olmuşdur. Hələ Vergi Məcəlləsinin layihəsi hazırlanarkən ulu öndərin birbaşa tövsiyələri əsasında məcəlləyə bu məsələlərlə bağlı xüsusi müddəalar daxil edildi. Belə ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 4.5-ci maddəsinə əsasən Azərbaycan Respublikasında xüsusi vergi rejimi tətbiq edilə bilər. Xüsusi vergi rejimi dedikdə müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

Vergi Məcəlləsinin 2.7-ci maddəsində isə qeyd edilir:

“Bu Məcəllə qüvvəyə minənədək və ya o, qüvvəyə mindikdən sonra qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda bu Məcəllədə və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir”.

Azərbaycan Respublikası ərazisində hasilatın pay bölgüsü üzrə Sazişlər əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün “Mənfəət vergisi haqqında”, “Xarici subpodratçılarm vergiyə cəlb olunması haqqında”, “Fiziki şəxslərin vergiyə cəlb olunması haqqında”, “İdxal və ixrac vergiləri haqqında” Protokollarla tənzimlənən. Vergi Məcəlləsindən fərqli üstünlüklərə malik olan xüsusi rejimli vergitutma mexanizminin nəzərdə tutulması zəngin neft-qaz yataqlarının mənimsənilməsinin sürətləndirməsində mühüm rol oynadı.

Bu özünü onda göstərdi ki, Azərbaycan Respublikası ərazisində karbohidrogen fəaliyyətini həyata keçirən xarici subpodratçı şirkətlər gördükləri iş və xidmətlərə görə əldə etdikləri gəlirlər üzrə yalnız müəyyən faiz dərəcəsi ilə (saziş

şərtlərindən asılı olaraq) ödəniş mənbəyində tutulan mənfəət vergisinin ödəyiciləridirlər və digər vergiləri ödəməkdən azaddırlar. Neft sazişləri üzrə podratçı tərəf sayılan xarici şirkətlərin karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirlər isə həmin sazişlərə müəyyən olunan dərəcələrlə yalnız mənfəət vergisinə cəlb olunmalıdır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən kifayət qədər sadə və ziddiyyətsiz vergi rejimi ilə hazırda yüzlərlə müəssisə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın müxtəlif ölkələrindən olan şirkətlər arasında 2003-cü ilə kimi imzalanmış və hal-hazırda qüvvədə olan hasilatın pay bölgüsü haqqında sazişlərin siyahısı və hər bir saziş üzrə mənbədən tutulan vergi dərəcələri, hesabatları barədə məlumatlar cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Hasilatın pay bölgüsü haqqında sazişlərin siyahısı və hər bir saziş üzrə mənbədən tutulan vergi dərəcələri, hesabatları

| № | Sazişlərin adı | Xarici subpodratçılardan ödəmə mənbəyində tutulan vergilər | Karbohidrogen fəaliyyəti ilə əlaqədar alınmış gəlirlər haqqında illik hesabatlar |
|---|---|---|---|
| 1 | **Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinliyində yerləşən hissəsinin birgə işlənməsi haqqında neft hasilatının pay bölgüsü haqqında Saziş.** | 5% | Nəzərdə tutulmayıb |
| 2 | **Xəzər dənizinin Azərbaycan sektorunda Kürdaşı Dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş.** | 8% | 3 aydan sonra məsuliyyət subpodratçılara keçir |

| | | | |
|---|---|---|---|
| | Xazar dənizinin Azərbaycan sektorunda Araz, Alov və Şərq Perspektiv strukturlarının daxil olduğu kəşHyyat blokunun kəşfiyyatı, İşlənməsi və hasilatın pay bölgüsü haqqında Sazis | 8% | Nəzərdə tutulmayıb |
| Azər- 4 | Xəzər dənizində D-222 perspektiv baycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatm pay bölgüsü | 8% | Nəzərdə tutulmayıb |
| | Xəzər dənizinin Azərbaycan sektorunda İnam perspektiv stn^turunun daxil olduğu Dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqmda Sazis | 8% | 6 aydan çox olan müqavilələrə əsasən və 100000 S-dan çox olduqda subpo- dratçı ümumi vergi |
| | Azərbaycan Respublikasında Zığ və Hövsan neft yataqlanmn daxil olduğu blokun bərpası, reabilitasiyası, | 6,75% | Subpodratçı illik mənfəət bəyannaməs i təqdim |
| | Azərbaycan Respublikasmda Mişovdağ və Kələməddin neft yataqlarının daxil olduğu blokun bərpası, kəşHyyau, işlənməsi və hasilatın pay bölgüsü haqqında | 7,5% Ticarət əlavəsindən | İşlənmə proqramının təs- diqindən əvvəl subpodratçı illik mənfəət bəyan- naməsi təqdim |
| | Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv strukturunun daxil olduğu Dəniz blokunun kəşfiyyatı, | 6,25% | Nəzərdə tutulmayıb |
| | Azərbaycan Respublikasmda Kürsəngi və Qarabağlı neft yataqlanmn daxil olduğu blokım reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqmda | 8% | 6 aydan yuxan olan müqavilələr üzrə subpodratçı ümumi vergi qanunvericiliyi |
| 10 | Azərbaycan Respublikası cənub-qərbi Qobustanın Şıxzəyirli, Şeytanud, Bür- gOt, Donquzduq, Nardaran, tIxıcı, Qərbi Hacıvəli, Sündi, Şərqi Hacıvəli, Turağay, Kınızıdağ, Qərbi Duvam, Duvannı, Solaxay və Daşgil yataqlanmn daxil olduğu üç blokun kəşfiyyatı, | 8% | Nəzərdə tutulmayıb |

| | | | |
|---|---|---|---|
| | Azərbaycan Respublikasında Padar sahəsi və ona bitişik perspektiv strukturunun daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatən pay bölgüsü haqqında Saziş. | 7,5% | İşlənmə proqramınm təsdiqindən əvvəl subpodratçı illik mənfəət bəyannaməsi təqdim edir. |
| | Xəzər dənizinin Azərbaydan sektorunda Zəfər və Məşəl perspektiv strukturunun 12 daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatm pay bölgüsü haqqmda Saziş. | 7,5% Ticarət əlavəsindən 30% | İşlənmə proqramımn təsdiqindən əvvəl Subpodratçı illik mənfəət bəyannaməsi təqdim edir. |
| 13 | Xəzər dənizinin Azərbaycan sektorunda Oğuz dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş. | 8% | Nəzərdə tutulmayıb |
| 14 | Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqmda Saziş. | 8% | Nəzərdə tutulmayıb |
| 15 | Xəzər dənizinin Azərbaycan sektorunda Naxçıvan perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında | 8% | Subpodratçı illik mənfəət bəyannaməsi təqdim edilir. |
| 16 | Xəzər dənizinin Azərbaycan sektorunda Atəşgah, Yanan Tava və Muğan Dəniz perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və | 8% | 6 aydan yuxan olan müqavilələr üzrə subpodratçının ümumi vergi qanunvericiliyi ilə cəlb edilir. |
| 17 | Xəzər dənizinin Azərbaycan sektorunda Lənkəran-Talış və Talış-Dəniz perspektiv strukturunun daxil olduğu blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü | 8% | Nəzərdə tutulmayıb |
| 18 | Azərbaycan Hökuməti və Bakı-Tbilisi- Ceyhan Əsas İxrac Boru Kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin | 0% | Nəzərdə tutulmayıb |
| 19 | Azərbaycan Respublikasında Pirsaat neft yatağı və ona bitişik sahələrin daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlən- məsi və hasilatın pay bölgüsü haqqında | 6,75% Ticarət əlavəsindən 27% | Subpodratçı illik mənfəət bəyan- naməsi təqdim |

Heydər Əliyev iqtisadi kursunun nəticəsi kimi, 1994-2003- cü illər ərzində iqtisadiyyata investisiya qoyuluşu sürətlə artmışdır. Belə ki, 1994-cü ilə nisbətən 2003-cü ildə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu 12 dəfə artaraq 3626 mln. dollara çatmışdır. 1994-2003-ci illərdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların həcminin dinamikasını cədvəl 2-də müşahidə etmək olar:

**Cədvəl 2.**

**1994-2003-cü illərdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların həcmi (mln. ABŞ dolları)**

| lUər | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla) *o cümlədən:* | 303 | 544 | 932.5 | 1694.5 | 1932.2 | 1571 | 1441.4 | 1561.8 | 2796.6 | 3626 |
| Xarici investisiyalar | 150 | 375.0 | 621.0 | 1307.3 | 1472 | 1091.1 | 927 | 1091.8 | 2234.9 | 2912 |
| *xüsusi çəkisi, %* | *49.5* | *68.9* | *66.6* | *77.1* | *76.2* | *69.5* | *64.3* | *69.9* | *79.9* | *80.3* |
| Daxili investisiyalar | 153 | 168.9 | 311.5 | 387.2 | 460.2 | 479.9 | 514.4 | 470 | 561.7 | 714 |
| *xüsusi çəkisi, %* | *50.5* | *31.0* | *33.4* | *22.9* | *23.8* | *30.5* | *35.7* | *30.1* | *20.1* | *19.7* |

Bu illər ərzində ölkə iqtisadiyyatına bütün mənbələr üzrə investisiya qoyuluşlarında xarici investisiyaların xüsusi çəkisi daim artmışdır. Belə ki, 1994-cü illə müqayisədə 2003-cü ildə bu göstəricinin xüsusi çəkisi 49,5 faizdən 80,3 faizə yüksəlmişdir.

Bu, ilk növbədə, ümummilli liderin əlverişli investisiya mühiti yaradılması sahəsində gərgin əməyinin, həm də xarici investorların və maliyyə qurumlarının onun uzaqgörən siyasətinə inamının nəticəsidir.

1994-2003-cü illərdə ölkə iqtisadiyyatına qoyulan 12182 milyon dollar həcmində xarici investisiyaların 10614 milyon dollarını və ya 87,1 faizini birbaşa investisiyalar, 1568 milyon dollarını və ya 12,9 faizini isə maliyyə kreditləri təşkil etmişdir.

Birbaşa xarici investisiyaların isə 8151,4 milyon dolları və ya 76,7 faizi neft sektorunun inkişafına yönəldilmişdir. 1994-2003-cü illər ərzində birbaşa xarici investisiyaların sektorlar üzrə bölgüsü cədvəl 3-də əks olunmuşdur:

Cədvəl 3.

**Birbaşa xarici investisiyaların sektorlar üzrə bölgüsü (mln.ABŞ dollları)**

| İllər | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Birbaşa xarici investisiyalar | 150 | 218 | 540 | 1155 | 1430 | 937 | 680 | 900 | 2024 | 2580 |
| o cümlədən: nell sektoru | 22 | 139.8 | 416 | 780 | 894 | 545 | 546.1 | 820.5 | 1693 | 2297 |
| qeyri-neft sektoru | 128 | 78.2 | 124 | 375 | 536 | 392 | 133.9 | 79.5 | 331 | 283 |

Cədvəl 3-dən göründüyü kimi, birbaşa xarici investisiyaların əksər hissəsi neft sektoruna yönəldilmişdir. Bu amildə ümummilli liderin bilavasitə rəhbərliyi altında həyata keçirilən uğurlu neft strategiyası əhəmiyyətli rol oynamışdır.

Qeyri-neft sektorunda investisiya qoyuluşlarında əsasən daxili mənbələr üstün rola malik olmuşlar. Bu sektora cəlb olunan daxili investisiyaların ümumi investisiyalarda payı 70 faizdən yuxarıdır.

Cədvəl 4.

**Qeyri-neft sektoruna yönəldilən cəmi investisiyalar (mln. ABŞ dolları)**

| İllər | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qeyri-neft sektoruna investsiyalar | 281 | 247.1 | 435.5 | 762.2 | 998.2 | 871.9 | 648.3 | 549.5 | 892.7 | 997 |
| 0 cümlədən: daxili | 153 | 168.9 | 311.5 | 387.2 | 460.2 | 479.9 | 514.4 | 470 | 561.7 | 714 |
| xarici | 128 | 78.2 | 124 | 375 | 538 | 392 | 133.9 | 79.5 | 331 | 283 |

Neft sektoruna cəlb olunan investisiyalar hazırda yüksək iqtisadi artımı təmin etməklə yanaşı, iqtisadiyyatın disproporsional inkişafı üzrə də problem yaratmır. Neft sektoruna xarici investisiya axınının başladığı illərdən indiyə qədər neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi 3 dəfəyə yaxın artmışdır. Neft sektorunun sıçrayışlı inkişafı fonunda isə qeyri-sahələrin inkişafının olduqca yüksək olması iqtisadiyyatın ümumi strukturunun mütənasib inkişafını şərtləndirməkdədir. İqtisadiyyatın proporsional inkişafı isə iqtisadi artımın sabitliyi və makroiqtsiadi stabilliyin davamlılığı üçün münbit şərait yaradır.

investisiyaların proporsional qoyuluşu iqtisadiyyatın diversifikasiya olunma vəziyyətini xeyli yaxşılaşdırmışdır. Ölkədə iqtisadiyyatın diversifikasiya olunması vəziyyəti xüsusi «diversifikasiya indeksi» vasitəsilə qiymətləndirilir. Diversifikasiya indeksi - istehsal olunan məcmu məhsulun həcminin kvadratının ayrı-ayrı sahələrdə istehsal həcminin kvadratları cəminə nisbəti kimi hesablanır.

Bu indeksin ən aşağı həddi vahiddir. İndeksin vahidə bərabər olması istehsalın yalnız bir sahəyə əsaslandığını göstərir. İndeksin yuxarı həddi isə hesablamada istifadə edilən sahələrin sayma bərabərdir. Bu isə iqtisadiyyatın bütün sahələrinin bərabər həcmə malik olduğunu göstərir.

Göstərilən metodika ilə Azərbaycan Respublikasında iqtisadiyyatın diversifikasiyasmın qiymətləndirilmiş vəziyyəti araşdırma obyekti olan dövrdə şəkil 3-də göstərildiyi kimi olmuşdur.




Şəkil 3. I995-2003-CÜ illər ərzində iqtisadiyyatın diversifikasiyası vəziyyəti

Araşdırılan dövrdə 1998-ci ilə qədər iqtisadiyyatın diversifikasiyasmın yaxşılaşması, ilk növbədə, tikinti, ticarət və xidmət sektorunun inkişafı və yüksək iqtisadi fəallığın 7 əsas sahə üzərində həyata keçirildiyini göstərir. Sonrakı illərdə isə neft və tikinti sektorunda sıçrayışh artımın baş verməsi istehsalın əsas hissəsinin yayıldığı sahələrin sayının genişlənməsi ilə nəticələnmişdir. 2002-ci ildən sonrakı illərdə isə neft sektorunda artımın da geniş vüsət alması diversifikasiya indeksinin daha yuxarıya doğru meyil etməsinə səbəb ola bilər.

1996- cı ildən başalayaraq aparılmaqda olan genişmiqyaslı islahatlar ölkədə iqtisadi artımın bərpa olunmasını,

səviyyəsinin yüksəldilməsini və bu iqtisadi inkişafın ölkənin bütün regionlarına yayılmasını təmin etdi.

1994-2003-cü illərdə investisiya fəaliyyətinin inkişafının tənzimlənməsinin əsas istiqamətlərindən biri kimi dövlət dəstəyinin aydın strategiyası müəyyən edildi, bu strategiya çərçivəsində müvafiq tədbirlər həyata keçirildi. Bu məqsədlə ilk növbədə dünya təcrübəsində bu sahədə mövcud vasitələr öyrənildi, yerli xüsusiyyətlər nəzərə alınmaqla bu təcrübənin tətbiqi mexanizmi işlənib hazırlandı.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu investisiya siyasəti nəticəsində sonrakı illərdə də ölkə iqtisadiyyatına yönəldilən həm bütün mənbələr üzrə xarici investisiyaların, həm də birbaşa xarici investisiyaların həcmi ilbəil artmaqda davam etmişdir, (şəkil 4, şəkil 5)




Şəkil 4. Birbaşa xarici investisiyalar




Şəkil 5. Cəmi xarici investisiyalar

Bu gün biz böyük qürur hissi ilə deyə bilirik ki, ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin böyük müvəffəqiyyətlə həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamız artıq investisiya ixrac edən bir ölkəyə çevrilmişdir.

iqtisadi tərəqqi və

**biznes fəaliyyəti**

VE

# ERGİ

siyasəti

**ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir.**

**Heydər Əliyev**

199I-Cİ ildə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yeni iqtisadi münasibətlərin formalaşdırılması məsələsi ən mühüm vəzifələrdən biri kimi qarşıda dururdu. Hələ SSRİ-nin süqutu ərəfəsində bu məsələ kifayət qədər aktual xarakter kəsb etməyə başlamışdı. Lakin SSRİ-də kifayət qədər mürəkkəb xarakter daşıyan həmin prosesi reallaşdırmaq üçün ciddi baza mövcud deyildi. Bir tərəfdən, ölkənin özünün ictimai quruluşu buna imkan vermirdi, digər tərəfdən, bu keçidi gerçəkləşdirmək üçün real şərait yox idi. İqtisadi böhranın getdikcə sürətlənməsi.

İdarəetmədə və ümumiyyətlə, ölkədə mövcud olan ciddi qüsurlar bu istiqamətdə islahatların aparılması üçün imkan yaratmırdı.

Müstəqilliyin əldə olunmasından sonrakı dövrdə Azərbaycanda hakimiyyətdə olan qüvvələr də yeni dövrün tələblərinə uyğun islahatlar apara bilmirdilər. Məsələnin mürəkkəbliyi onda idi ki, Azərbaycan həm yeni ictimai formasiyaya keçid dövrünü yaşayırdı, həm də müstəqilliyin sosial-iqtisadi dayaqlannı möhkəmləndirmək kimi mühüm bir vəzifəni həll edirdi. Bu iki proses bir-biri ilə paralel şəkildə həyata keçirilməli idi. İslahatlara başlamaq üçün isə real şərait yaranmamışdı. İctimai-siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda amansız mübarizələr, cəmiyyətin özünün maddi-texniki resursları yeni iqtisadi münasibətlərin tətbiqi üçün xeyli problem yaradırdı.

Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin qurulmasına mane olan amillər kifayət qədər çox idi: Ermənistanın Azərbaycana qarşı birbaşa hərbi təcavüzü nəticəsində işğal olunmuş torpaqlardan bir milyona qədər insanın məcburi köçkün vəziyyətinə düşməsi, sənaye istehsalında ümumi tənəzzülün dərinləşməsi, iri müəssisələrin fəaliyyətinin dayandırılması, işsizliyin artması, son dərəcə destruktiv büdcə, pul-kredit siyasəti, inflyasiyanın dərinləşməsi və s.

Belə bir şəraitdə ümummilli lider Heydər Əliyev ölkədə bazar iqtisadiyyatını formalaşdırmaq istiqamətində gərgin işə başladı. O bəyan etdi ki, ölkənin iqtisadiyyatının inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etməlidir.

Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi sahibkarlıq sektorudur. Bu sektorun inkişaf etdirilməsinin əsas şərtlərindən biri müvafiq qanunvericilik bazasının olmasıdır. Ulu öndərin hakimiyyətə qayıdışına qədər sahibkarlığın qanunvericilik bazasının formalaşdırılması istiqamətində görülən yeganə iş Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu idi.

Bu qanuna uyğun olaraq, Azərbaycan Respublikasında qanun çərçivəsində həyata keçirilən bütün sahibkarlıq formalarına icazə verilir, mülkiyyət və təşkilati-hüquqi formalardan asılı olmayaraq bütün sahibkarlıq formalarının hüquq

bərabərliyi təmin edilir. Sahibkarlıq fəaliyyətinə məhdudiyyət yalnız dövlət səlahiyyətinə aid olan məsələlərdə (qanunvericiliyə riayət, ölkənin və vətəndaşların təhlükəsizliyi və müdafiəsi) yol verilir. Dövlət hakimiyyət və idarəetmə orqanlarına mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olaraq, bu və ya digər sahibkarlıq növünə üstünlük qazandıran qərarlar verilməsi qadağan edilir.

1992-ci ildə Sahibkarlığa Kömək Milli Fondu yaradılsa da, 2002-ci ildə onun yeni əsasnaməsi və vəsaitinin istifadəsi haqqında qaydalar təsdiq edildi.

Lakin bunlar ölkədə sahibkarlığın sivil şəkildə inkişaf etdirilməsi üçün kifayət etmirdi.

Ölkə iqtisadiyyatında sabitliyə nail olduqdan sonra ulu öndər özəl bölmənin inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikasında sahibkarlığın hüquqi bazasının formalaşdırılması istiqamətində gərgin fəaliyyətə başladı.

İqtisadi inkişaf prioriteti olaraq bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan, sahibkarlığın, özəl mülkiyyətin, sağlam rəqabət əsasında fəaliyyət göstərən özəl təşəbbüsün əsas rol oynadığı, dövlətin yalnız tənzimləyici və strateji inkişaf funksiyalarını həyata keçirdiyi iqtisadi münasibətlərin formalaşdırılması üçün zəruri addımların atılmasına başlanıldı. Çünki xüsusi mülkiyyət, azad sahibkarlıq və sağlam rəqabətə əsaslanan sərbəst iqtisadi münasibətlər sisteminə keçid bilavasitə mülkiyyət münasibətlərinin kökündən dəyişdirilməsi, iqtisadiyyatın liberallaşdırılması məsələlərini zəruri edirdi.

Sahibkarlıq fəaliyyətinin hüquqi bazasının formalaşması istiqamətində atılan ən mühüm addım ölkə Prezidenti Heydər Əliyevin bilavasitə müəllifi olduğu Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında sahibkarlıq hüququnun təsbit edilməsi oldu.

Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizdə sahibkarlıq fəaliyyəti hüququ vətəndaşların konstitusional, fundamental hüquqlarının tərkib hissəsi kimi təsbit olundu. Eyni zamanda, əsas Qanunda dövlət tərəfindən sahibkarlıq fəaliyyətinə təminatlar verilməsi, bu sahədə inhisarçılıq və haqsız rəqabət kimi maneələrin qarşısının alınması tələbləri

Özünün ifadəsini tapdı.

Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə görə, hər kəs müəyyən edilmiş qanunlar çərçivəsində, öz imkanlarından, bacarığından və əmlakından sərbəst şəkildə istifadə edərək müstəqil şəkildə və ya digərləri ilə birlikdə sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan olunmayan iqtisadi fəaliyyətin digər növləri ilə məşğul ola bilər.

Ötən əsrin 90-cı illərinin ortalarında özəl sektorun fəaliyyətinin qanunvericilik bazasının yaradılması məqsədilə "Səhmdar cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu, "Girov haqqında" Azərbaycan Respublikasının Qanunu və bu kimi digər qanunlar qəbul edildi.

Sahibkarların hüquqlarının gerçəkləşdirilməsində və onlar arasında əlaqələrin hər hansı bir sahibkarlıq və siyasi fəaliyyət subyektindən asılı olmayan ümumi «oyun qaydalarına» tabe olmasında rəqabət mexanizminin formalaşdırılması və qorunması həlledici əhəmiyyətə malikdir. Bunun əsasında belə bir prinsip dayanır ki, birinin varlanması başqasının hesabına olmamalıdır, birinin varlanması başqasının varlanmasına maneə törətməməlidir, birinin varlanması başqasının varlanmasına şərait yaratmalıdır. Zahirən fəlsəfi ehkamları andıran bu müddəalar bazar əlaqələrinin inkişafının daxili məntiqini və bunun əsasında formalaşan iqtisadi qanunvericilik təcrübəsini əks etdirir.

Bu nöqteyi-nəzərdən 1995-ci ildə ölkə Prezidentinin təsdiq etdiyi "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu mühüm əhəmiyyətə malik idi. Bu Qanun haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən etdi, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla həyata keçirilməsinə hüquqi zəmin yaratdı, bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadəyə görə məsuliyyətini müəyyən etdi.

İqtisadi sferada əsas vəzifələrdən biri inzibati plan sistemindən imtina edib bazar iqtisadiyyatı münasibətlərini inkişaf etdirmək idi. İqtisadiyyatda, demək olar ki, dövlət sektorunun

İnhisarçı olduğu bir şəraitdə, təbii ki, bu mümkün deyildi və ona görə də özəl mülkiyyətin, sahibkarlığın inkişafı üçün şərait yaradılması tələb olunurdu.

Lakin ölkənin istehsal və xidmət sahələrinin, demək olar ki, hamısının cəmləşdiyi dövlət sektorundakı müəssisələrin fəaliyyətini bərpa etmədən iqtisadi inkişafdan söhbət gedə bilməzdi. Dövlətin bu müəssisələrin işini canlandırmaq üçün investisiya imkanlarının olmadığı bir şəraitdə, yeni texnologiyalar gətirilmədən və mütərəqqi idarəetmə metodları tətbiq etmədən bu vəzifələri həyata keçirmək faktiki olaraq mümkün deyildi. Bundan əlavə, ənənəvi satış bazarlarının itirilməsi, xammal və resurs imkanlarının məhdudlaşması nəinki bu müəssisələrdə istehsalın bərpa olunmasını, hətta bir çox hallarda bazar iqtisadiyyatı amilləri nəzərə alınmaqla profilinin dəyişdirilməsini tələb edirdi. Bütün bu amillər səmərəsiz idarə olunan, aşağı məhsuldarlıqlı, zərərlə işləyən və ya işləməyən dövlət müəssisələrinin dövlətsizləşdirilməsi zərurətini yaratmışdı.

1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən «Azərbaycan Respublikasında 1995- 1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»nın təsdiq edilməsi ilə ölkəmizdə özəlləşdirmə prosesinə start verildi.

Özəlləşdirmə dövlətin mülkiyyət hüququnun dəyişməsi formasıdır. Özəlləşdirmə bazar yönümlü dövlət müəssisələrinin (yəni bir sıra strateji obyektlər istisna olmaqla) və ona məxsus xidmət sahələrinin tamamilə və ya qismən şəxsi mülkiyyətə verilməsi prosesidir.

Özəlləşdirmədə əsasən iki üsuldan istifadə edilir: standart və qeyri-standart. Hərrac, tender, birbaşa və qismən kapitalla satış üsulları standart üsula, çek, vauçer, sertifikat və kuponlar tətbiq edilmə ilə özəlləşdirmə qeyri-standart üsula aid edilir.

Özəlləşdirmə prosesində ölkə əhalisinin geniş kütlələrinin iştirakı üçün özəlləşdirmə payları (çekləri) dövriyyəyə buraxıldı, əmək kollektivlərinin özəlləşdirmədə güzəştli iştirakı üçün müvafiq normativ əsaslar təmin edildi.

Proqramın əsas vəzifəsi təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, xalq

təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadi prosesə bütün növ istifadə olunmamış ehtiyatların cəlb edilməsi, iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılmasından ibarət idi.

Özəlləşdirmə üzrə I Dövlət Proqramının əsas məqsədləri aşağıdakılar idi:

- iqtisadiyyatın liberallaşdırılması, xüsusi mülkiyyətçilər təbəqəsinin və azad sahibkarlığın inkişaf etdirilməsi;
- istehsalın səmərəliliyinin və milli gəlirin artımının həlledici amili kimi mülkiyyətin rasional strukturunun yaradılması;
- iqtisadiyyatın strukturunun yenidən qurulması, inhisarsızlaşdırma və rəqabət mühitinin formalaşdırılması zəminində iqtisadi səmərəliliyin yüksəldilməsi;
- müəssisələrə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi;
- əhalinin həyat səviyyəsinin və sosial rifahının yaxşılaşdırılması.

Birinci özəlləşdirmə proqramı özəlləşdirmənin əsas məqsədlərini, prioritetlərini, üsullarını, mərhələ və müddətini müəyyən edirdi. Sənəd özəlləşdirmənin iki əsas istiqamətdə aparılmasını nəzərdə tuturdu: kiçik müəssisələrin özəlləşdirilməsi, orta və iri müəssisələrin özəlləşdirilməsi. Proqrama əsasən, kiçik müəssisələrin özəlləşdirilməsi onların pullu hərraclarda satılması, orta və iri müəssisələrin özəlləşdirilməsi isə onların səhmdar cəmiyyətlərinə çevrilməsi yolu ilə həyata keçirilirdi.

I Dövlət Proqramında özəlləşdirilən dövlət müəssisələrinin səhmlərinin satışı üçün aşağıdakı üsullar nəzərdə tutulmuşdu:

- əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış;
- hərraclar vasitəsilə satış;
- kommersiya müsabiqələri vasitəsilə satış;
- qeyri-kommersiya investisiya müsabiqələri vasitəsilə satış;
- başa çatdırılmamış obyektlərin, ləğv olunan və ləğv olunmuş obyektlərin ənilakmm (aktivlərinin) satışı;
- icarəyə götürülmüş əmlakın alınması;

- əmlakın icarədara satılması.

Həmişə olduğu kimi, bu dəfə də xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əhalinin sosial rifahı üstün tutulmuş və dövlət müəssisələrində işləyən və uzun müddət işləmiş əmək kollektivi üzvlərinin, bütünlükdə ölkə vətəndaşlarının dövlət əmlakının özəlləşdirilməsi prosesindən kənarda qalmaması, onlann bu prosesə fəal surətdə cəlb edilməsi ön plana çəkilmişdir. Buna görə də özəlləşdirmə proqramı hazırlanarkən bu sahədə bir çox xarici ölkələrin təcrübəsi öyrənildi və nəzərə alındı. Nəticədə, Azərbaycanda özəlləşdirmənin qarışıq modeli tətbiq edilərək, dövlət əmlakının bir hissəsinin əmək kollektivi üzvlərinə və ölkə vətəndaşlarına əvəzsiz verilməsi qərara alındı.

Bu məqsədlə 25 mart 1996-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət özəlləşdirmə payları (çekləri) haqqında" Əsasnamə təsdiq edildi və "Azərbaycan Respublikasında dövlət özəlləşdirmə paylarının (çeklərinin) dövriyyəyə buraxılması haqqında" Fərman imzalandı. Fərmana əsasən dövriyyəyə dəyəri özəlləşdiriləcək dövlət əmlakının 65 faizinə bərabər olan 32 milyon özəlləşdirmə çeki buraxıldı.

Əsasən kiçik dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsini əhatə edən birinci proqramın yerinə yetirilməsi dövründə orta və iri müəssisələrin özəlləşdirilməsi də həyata keçirilmişdir. Doğrudur, özəlləşdirmənin birinci mərhələsi bir sıra səbəblərə görə proqramda müəyyən olunmuş müddətdə başa çatdırılmadı. Bununla belə, özəlləşdirmənin birinci mərhələsində əsasən məişət xidməti, ticarət və ictimai iaşə obyektləri, çörək mağazaları və çörək istehsalı müəssisələri, yanacaqdoldurma məntəqələri, nəqliyyat vasitələri özəlləşdirilmişdir.

Özəlləşdirmənin birinci mərhələsinin nəticələrini ümumiləşdirərkən qeyd etmək lazımdır ki, bu mərhələdə ölkə əhalisində özəlləşdirmə prosesinin dönməzliyinə inam yarandı, geniş mülkiyyətçilər sinfi yarandı, idxal mallarını əvəz edən məhsulların istehsalına başlanıldı, qeyri-neft sektoruna əhəmiyyətli investisiyalar cəlb olundu, bir çox dayanmış müəssisənin fəaliyyəti bərpa olundu, yeni iş yerləri açıldı.

2000-ci ilin avqust ayında "Dövlət əmlakının özəlləşdiril

məsi haqqında" Azərbaycan Respublikası Qanununun və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nm qüvvəyə minməsi ilə özəlləşdirmənin ikinci mərhələsinə start verildi.

II Dövlət Proqramının əsas məqsədləri aşağıdakılar idi:

- «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsini həyata keçirmək;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək;
- bazar münasibətlərinin iqtisadi əsası kimi, özəl mülkiyyətçilər təbəqəsini genişləndirmək;
- iqtisadiyyata investisiyalar, o cümlədən xarici investisiyalar cəlb etmək yolu ilə onun inkişafına nail olmaq;
- dövlət əmlakını dövlət özəlləşdirmə çeklərinə satmaqla özəlləşdirmə prosesinə əhalinin maksimum geniş təbəqələrini cəlb etmək;
- I Dövlət Proqramı çərçivəsində özəlləşdirmə üçün açıq elan edilmiş müəssisə və obyektlərin özəlləşdirilməsini başa çatdırmaq.

II Dövlət Proqramında dövlət əmlakının özəlləşdirilməsi üçün aşağıdakı üsullar nəzərdə tutulmuşdu:

- dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi;
- özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı;
- dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı;
- dövlət əmlakının hərraclar vasitəsilə satışı;
- dövlət əmlakının investisiya müsabiqələri vasitəsilə satışı;
- icarəyə verilmiş dövlət əmlakının satışı;
- dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.

Özəlləşdirmənin birinci mərhələsinin nəticələri göstərirdi ki, özəlləşdirmənin ilk illərində özəlləşdirilən müəssisələrin fəaliyyətinin lazımi səviyyədə dəstəklənməməsi səbəbindən bir çox hallarda istehsalın bərpası, yeni iş yerlərinin açılması üzrə proqnozlar reallaşmamışdır. Buna səbəb bəzən özəlləşdirilmiş

müəssisələrin özəlləşdirilənə qədər yığılıb qalmış kreditor və vergi borcları və digər amillər idi. Ona görə də 2000-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müvafiq fərman və sərəncamları ilə özəlləşdirilmiş müəssisələrin fəaliyyətinin dəstəklənməsi və sahibkarlığın inkişafı məqsədilə zəruri qərarlar qəbul edildi. Bu baxımdan, artıq özəlləşdirilən müəssisələrin fəaliyyətinin dəstəklənməsi, restrukturizasiyası və sağlamlaşdırılmasma xüsusi önəm verilməyə başlandı. Bu sahədəki tədbirlər özəlləşdirilən müəssisələrə vergi və digər güzəştlərin edilməsi, güzəştli şərtlərlə kreditlər, enerji və qazla təmin olunması, dövlətə olan borcların silinməsi və digər məsələləri əhatə edərək, müəssisələrin özəlləşdirilmədən sonra fəaliyyətinin bərpa olunması üçün zəruri şərtlərin yaradılmasına yönəldildi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi özəlləşdirmə prosesinin sürətləndirilməsində xüsusi əhəmiyyət kəsb etdi.

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləş-dirilməsinin II Dövlət Proqramı"nda əvvəllər qüvvədə olan normativ-hüquqi sənədlərdən fərqli olaraq, xarici investorların özəlləşdirmədə iştirakı üçün daha əlverişli şərait yaradıldı.

İkinci Dövlət Proqramında sağlamlaşdırma tədbiri kimi, müəssisələrin özəlləşdirmədən qabaq idarəetməyə verilməsi də nəzərdə tutulurdu. Belə ki, böyük idarəçilik təcrübəsi olan, investisiya qoymaq, nou-hau cəlb etmək iqtidarında olan sərmayəçini cəlb etmək üçün müəssisə uzunmüddətli idarəetməyə verilir, daha sonra həmin müəssisənin özəlləşdirilməsi bu və ya digər üsulla həyata keçirilir.

1999- cu ildə Mülki Məcəllənin qəbul edilməsi ilə respublikamızda sahibkarlıq fəaliyyətinin mülki əlaqələr sisteminin qanunvericilik bazası formalaşmış oldu.

Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən, hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu

əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan hüquqi şəxslər kommersiya hüquqi şəxsləri, fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçılar arasında bölüşdürməyən hüquqi şəxslər isə qeyri-kommersiya hüquqi şəxsləri hesab olunur.

Göründüyü kimi, kommersiya təşkilatları bir sıra xarakterik əlamətlərə malik olurlar. Bu xaratkerik əlamətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- hüquqi şəxs hesab edilir;
- fəaliyyətin əsas məqsədi - mənfəət əldə edilməsidir;
- mülki hüquqlara malikdir və qanunvericiliklə qadağan olunmayan istənilən fəaliyyət növünün həyata keçirilməsi üçün mülki məsuliyyət daşıyır.

Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə, yəni lisenziya əsasında məşğul ola bilərlər.

Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər.

Hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılırsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər.

Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi hüquqi şəxsin təsis sənədidir. Hüquqi şəxsin nizamnaməsində hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə

edilməsi qaydası, habelə onun ləğvi qaydası müəyyənləşdirilir.

Hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır.

Sahibkarlıq fəaliyyəti əsasən aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

- fəaliyyət növünə görə;
- mülkiyyət formasına görə;
- mülkiyyətçilərin sayma görə;
- təşkilati-hüquqi formasına görə;
- təşkilati-iqtisadi formasına görə və s.

Fəaliyyət növünə görə sahibkarlıq fəaliyyətinin əsasən istehsal, kommersiya, maliyyə və məsləhət xidməti növləri fərqləndirilir.

Mülkiyyət formasına görə müəssisənin mülkiyyəti xüsusi mülkiyyət, dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti və qarışıq mülkiyyət formasında ola bilər. Mülkiyyətin kimə məxsus olmasından asılı olmayaraq, dövlət mülkiyyət hüququnun həyata keçirilməsinə heç bir məhdudiyyət qoya bilməz.

Mülkiyyətçilərin sayından asılı olaraq, sahibkarlıq fəaliyyəti fərdi və kollektiv ola bilər. Fərdi sahibkarlıqda mülkiyyət bir fiziki şəxsə aid olur. Kollektiv sahibkarlıq fəaliyyəti zamanı isə mülkiyyət hər birinin müəyyən payı olmaqla bir neçə subyektə məxsus olur.

Sahibkarlıq fəaliyyətinin əsas təşkilati-iqtisadi formaları konsern, assosiasiya, konsorsium, sindikat və karteldir.

Konsern çoxsahəli səhmdar cəmiyyətidir və özünə münasibətdə törəmə hesab olunan şirkətlərin səhmlərinin nəzarət paketlərini əldə edir. Öz növbəsində, törəmə şirkətlər də digər səhmdar şirkətlərinin səhmlərinin nəzarət paketini əldə edə bilərlər.

Assosiasiya, eyni zamanda, digər qurumlara daxil ola bilən iqtisadi cəhətdən müstəqil müəssisə və təşkilatların könüllü birlik formasıdır. Assosiasiya yaradılmasının əsas məqsədi elmi-texniki, istehsal, iqtisadi və digər məsələlərin birgə həllidir.

Konsorsium birgə iri maliyyə əməliyyatı həyata keçirmək məqsədi ilə sahibkarların birləşməsidir. Belə birlik iri həcmli layihələrə vəsait qoymaq imkanı verir və məsuliyyət bütün iştirakçılar arasında bölüşdürüldüyündən, risk amilinin

təsirini nəzərəçarpacaq dərəcədə azaldır.

Sindikat artıq rəqabəti aradan qaldırmaq üçün məhsul satışı məqsədi ilə eyni bir sahədə fəaliyyət göstərən sahibkarların birliyidir.

Kartel bir sahənin müəssisələri arasında məhsul və xidmətin qiyməti, satış bazarlarının bölüşdürülməsi, istehsalın ümumi həcmində payın bölüşdürülməsi barədə razılaşmadır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətinin əsas təşkilati-hüquqi formaları aşağıdakılardır:

- təsərrüfat ortaqlıqları və cəmiyyətləri:
- kooperativlər.

Təsərrüfat ortaqlıqları aşağıdakı formalarda yaradılır:

- tam ortaqlıq:
- kommandit ortaqhğı.

Ortaqlıq o halda tam ortaqlıq sayılır ki. onun iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığm öhdəlikləri üzrə onlara mənsub olan əmlakla məsuliyyət daşıyırlar.

Tam ortaqlığm iştirakçıları ortaqlığm öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

Kommandit ortaqhğı elə bir ortaqhqdır ki, ortaqlığm adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığm öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı, ortaqlığm fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığm sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı - maya qoyanı (kommanditçisi) vardır.

Kommandit ortaqlığında iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığm öhdəlikləri üzrə onların məsuliyyəti Mülki Məcəllənin tam ortaqlıq iştirakçıları haqqında qaydaları ilə müəyyənləşir. Şəxs yalnız bir kommandit or- taqhğında tam ortaq ola bilər. Tam ortaqlığm iştirakçısı kommandit ortaqlığında tam ortaq ola bilməz. Kommandit ortaqhğmdakı tam ortaq tam ortaqlığm iştirakçısı ola bilməz. Kommandit ortaqlığında idarəetməni tam ortaqlar həyata keçirirlər.

Təsərrüfat cəmiyyətləri aşağıdakı formalarda yaradıla

bilər:

- məhdud məsuliyyətli cəmiyyət;
- əlavə məsuliyyətli cəmiyyət;
- səhmdar cəmiyyəti.

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət məhdud məsuliyyətli cəmiyyət sayılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. Cəmiyyət öz iştirakçılannın üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.

Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının sayı qanunvericiliklə müəyyənləşdirilmiş həddi (50 nəfəri) keçməməlidir. Əks halda o, bir il ərzində səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

Məhdud məsuliyyətli cəmiyyətin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.

Məhdud məsuliyyətli cəmiyyət səhmdar cəmiyyətinə çevrilə bilər, bu halda məhdud məsuliyyətli cəmiyyət yenidən yaradılmış hesab olunur.

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət əlavə məsuliyyətli cəmiyyət sayılır. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiär məsuliyyət daşıyırlar. İştirakçılardan biri müflis olduqda cəmiyyətin öhdəlikləri üzrə onun məsuliyyəti, əgər cəmiyyətin nizamnaməsində məsuliyyətin bölünməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, qalan iştirakçılar arasında onların mayalarına mütənasib surətdə bölünür.

Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır. Səhmdar cəmiyyətləri açıq və ya qapalı tipli səhmdar cəmiyyətləri formasında yaradılır.

Səhmdar cəmiyyətlərinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə

bildikdə, o, açıq səhmdar cəmiyyəti adlanır.

Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti qapalı səhmdar cəmiyyətidir.

Səhmdar cəmiyyəti bir şəxs tərəfindən təsis edilə bilər. Qapalı tipli səhmdar cəmiyyətinin təsisçiləri olan hüquqi və ya fiziki şəxslərin say həddi 50-dən artıq olmamalıdır. Dövlət əmlakına sərəncam vermək hüququna malik idarəetmə orqanlarının təsis etdikləri səhmdar cəmiyyətlərində təsisçilərin sayma məhdudiyyət qoyulmur, hətta onlar yeganə təsisçi də ola bilərlər.

Səhmdar cəmiyyətinin nizamnamə fondu səhmlərin satışı vasitəsilə formalaşır. Nizamnamə fondunun həcmi cəmiyyətin nizamnaməsində göstərilir. Fondun məbləği yalnız səhmdarların ümumi yığıncağının qərarı ilə dəyişdirilə bilər. Bunun üçün isə yığıncağın çağırılması zamanı nizamnamə fondunun dəyişdirmə məbləği, üsulu, səbəbi, yeni buraxılacaq səhmlərin nominal dəyəri, miqdarı, ümumi məbləği və səhmlərə abunə yazılışı haqqında məlumatlar verilməlidir. Bu, o hallarda mümkündür ki, əvvəl buraxılmış bütün səhmlərin nominal dəyərindən az olmamaq şərti ilə ödənilmiş olsun (əmlak verilməsi yolu ilə artırılması halları istisna olmaqla).

Nizamnamə fondunun artırılması yeni səhmlərin buraxılması, istiqraz vərəqələrinin səhmlərə dəyişdirilməsi və səhmlərin nominal dəyərlərinin artırılması yolu ilə həyata keçirilir. Nizamnamə fondunun azaldılması səhmlərin nominal dəyərinin azaldılması, yaxud dövriyyədən çıxarılıb ləğv edilməsi yolu ilə həyata keçirilir. Ləğv edilmiş səhmlər bir il ərzində ləğv edilmədikdə onlar etibarsız sayılır və paylar geri qaytarılır. Cəmiyyətin zərərinin ödənilməsi üçün səhm buraxmaq qadağandır. Elan olunmuş nizamnamə fondunun məbləği bir il müddətində formalaşdırılır və cəmiyyət səhmlərini dövlət qeydiyyatından keçirməlidir.

Nizamnamə kapitalı əsasən üç funksiyanı yerinə yetirir:

- cəmiyyətin təsərrüfat fəaliyyətini təmin edən ilkin kapitaldır;
- nizamnamə kapitalı hər bir səhmdarın cəmiyyətdə iştirak payını müəyyən edir;
- cəmiyyətin üçüncü şəxs qarşısında olan öhdəliklərinin

Ödənilməsinə təminat verir.

Səhmdar cəmiyyətlərinin digər kommersiya təşkilatlan ilə müqayisədə üstün və çatışmayan cəhətlərinə nəzər salaq.

Üstün cəhətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- ortaqlıqlarda iştirakçı öz payını digər iştirakçıların razılığı olmadan verə bilməz, açıq tipli səhmdar cəmiyyətlərinin səhmləri isə sərbəst surətdə satılır;
- səhmin sahibləri səhmdar cəmiyyətinin borclarına görə heç bir məsuliyyət daşımırlar, son nəticədə onlar yalnız cəmiyyətdə olan pay qoyuluşlarını itirə bilərlər;
- səhmdar cəmiyyətləri öz səhmdarlarından asılı olmayaraq fəaliyyət göstərirlər;
- səhmdar cəmiyyətləri asanlıqla müxtəlif sayda investor cəlb edir və nəticədə o, çoxlu sayda səhm sahiblərinin mülkiyyətində olur;
- səhmdar cəmiyyəti nizamnamə fondunu artırmaq və öz fəaliyyətini genişləndirmək üçün səhmdarların vəsaitlərini cəlb etmək imkanına malikdir və bu vəsaitlər cəmiyyətin tamamilə ləğv edilməsi halı istisna olunmaqla geri qaytarılmır, çünki səhmlər cəmiyyət tərəfindən geri alınmır, yalnız digər səhmdarlara satılır;
- müəssisənin əmək kollektivinin cəmiyyətin səhmlərini almaqla onun mülkiyyətçisinə çevrilməsi üçün real imkanları olur.

Səhmdar cəmiyyətlərinin digər kommersiya təşkilatları ilə müqayisədə çatışmayan cəhətləri əsasən aşağıdakılardan ibarətdir:

- məhdud məsuliyyət. Səhmdar cəmiyyətləri borclarına görə öz əmlakı ilə məsuliyyət daşıyırlar. Bu amil iəs banklar tərəfindən verilən kreditlərin həcminə öz təsirini göstərir;
- ikiqat vergitutma. Səhmdar cəmiyyətinin mənfəəti səhmdara çatana kimi, ikiqat vergidən keçir. Birincisi, səhmdar cəmiyyəti ilin yekununa görə mənfəət vergisi ödəyir, sonra isə səhmdarlara dividend hesablananda həmin dividendlərdən vergi tutulur.

Belə ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 122.1-ci maddəsinə əsasən, rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcəsi ilə vergi tutulur.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalına qoyuluşu təsdiq edən, cəmiyyətin idarə edilməsində iştirak və dividendlər şəklində bölüşdürülmüş gəlirə sahiblik hüququ verən qiymətli kağıza səhm deyilir. Bir sözlə səhm səhmdar cəmiyyətində mülkiyyət vahidi kimi çıxış edir.

Səhm üzərində sahiblik hüququnun dəyişməsi cəmiyyətin tipindən asılıdır. Açıq tipli səhmdar cəmiyyətinin səhmdarları öz səhmlərini qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhdudiyyətsiz sata bilərlər. Qapalı tipli səhmdar cəmiyyətinin səhmdarları isə öz səhmlərini digər şəxslərə yalnız cəmiyyətin üzvlərinin əksəriyyətinin razılığı ilə sata bilərlər. Belə razılıq alınmadığı halda, səhmdar öz pay qoyuluşunu geri götürmək hüququna malikdir.

Səhm bölünməzdir. Bir səhmin bir neçə sahibi olduqda onlar cəmiyyət qarşısında bir şəxs kimi çıxış edirlər.

Səhmlər adlı və təqdimedənə olur. Adlı səhmlərin hərəkəti, onlarla aparılan əməliyyatlar emitent (səhmi buraxan) tərəfindən qeydiyyat kitabında qeydə alınır. Fiziki şəxslər ancaq adlı səhmlərin sahibi ola bilərlər.

Səhmlərin dəyər növlərini qeyd edək:

Bazar dəyəri. Səhmlərin qiymətli kağızlar bazarında alış- satış qiyməti həmin dəyəri ifadə edir. Səhmin bazar dəyərini formalaşdıran amillər aşağıdakılardır:

1. İnvestorların səhmdar cəmiyyətinə münasibəti.
2. Səhmdar cəmiyyətinin əldə etdiyi mənfəət.
3. İllik ödənilən dividendlər.
4. Ümumi makroiqtisadi vəziyyət.

Likvidasiya dəyəri. Səhmdar cəmiyyəti ləğv edildiyi zaman cəmiyyətin aktivlərinin satışı ilə öhdəliklərin yerinə yetirilməsindən sonra qalan pul vəsaitlərinin səhmdarlar arasında səhmlərin payına uyğun bölüşdürülən vəsaiti ifadə edir.

Balans dəyəri. Səhmdar cəmiyyətinin xitam edilməsi ehtimalında bütün aktivlərin satışı və öhdəliklərin ləğv edilməsi balans dəyəri ilə həyata keçirilməsi zamanı hər bir səhmdara çatası məbləği ifadə edir. Bu dəyəri müəssisənin maliyyə hesabatından hesablamaq olar.

Alınma dəyəri. Bəzi hallarda səhmlər səhmdar cəmiyyətləri tərəfindən onların gələcəkdə geri alınması hüququ ilə buraxılır. Səhmdar cəmiyyətinin bu halda öz səhmləri üçün

ödəyəcəyi məbləğ alınma dəyərini göstərir.

Nominal dəyər. Bu dəyər şərti vahiddir, çünki buraxılan səhm çox az hallarda nominal dəyəri ilə satılır. Lakin nominal dəyər mühasibat uçotunda çox istifadə olunur, belə ki, bütün səhmlərin nominal dəyərinin məbləği nizamnamə kapitalının həcmini göstərir.

Səhmlərin dövriyyəyə buraxılması emissiya adlanır. Dövriyyəyə buraxılan səhmlərin dövlət qeydiyyatı müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Səhmdar cəmiyyəti iki növ səhm buraxır: adi və imtiyazlı.

İmtiyazlı səhmlərin sahibləri (nizamnamədə başqa hal nəzərdə tutulmayıbsa) səsvermə hüququna malik deyillər. Səhmdar cəmiyyətinə xitam verildikdə imtiyazlı səhmlərin sahibləri qarşısında olan öhdəliklər adi səhm sahiblərindən qabaq yerinə yetirilir. Bu növ səhmlərin sahibləri əvvəlcədən müəyyən edilmiş faizlə dividend almaq hüququna malikdirlər.

İmtiyazlı səhmlərin buraxılmasına səbəb aşağıdakılar ola bilər:

- əlavə maliyyələşmə mənbəyinə ehtiyac;
- bir adi səhmə düşən illik dividendlərin faizlərini azaltmamaq üçün adi səhmin əvəzinə imtiyazlı səhmin buraxılması və s.

Dünya praktikasında istifadə edilən imtiyazlı səhmlərin növlərini nəzərdən keçirək:

a) Dividend almaq hüququna görə kumulyativ və qeyri-kumulyativ;

Əgər il ərzində dividendlərin bölüşdürülməsi haqqında qərar qəbul edilmirsə, qeyri-kumulyativ imtiyazlı səhmlərin sahibləri dividend almırlar. Kumulyativ imtiyazlı səhmlər üzrə dividendlər isə bu halda akkumulyasiya edilərək (yəni toplanaraq), dividend elan ediləcək yeni hesabat dövründə nəzərə alınır, bir sözlə, dividend faizi deponentləşir.

b) Əlavə dividend almaq hüququ verən və belə hüquq verməyən səhmlər;

c) Konvertasiya oluna bilən və konvertasiya oluna bilməyən;

Konvertasiya oluna bilən imtiyazlı səhm sahibləri istədik

ləri hallarda imtiyazlı səhmləri adi səhmlərə dəyişə bilərlər. Qeyd etmək lazımdır ki, bazarda adi səhmin qiymətinin artması bu növ imtiyazlı səhmin bazar qiymətini, demək olar ki, proporsional olaraq qaldırır.

ç) Geri çağırıla bilən imtiyazlı səhmlər.

Qızıl səhm imtiyazlı səhmin bir növü kimi, bəzi növ müəssisələrin özəlləşdirilməsi prosesində onların fəaliyyət istiqamətlərinin dəyişdirilməsinə yol verməmək və qiymətli kağızın sahibinə səhmdarların ümumi yığıncağında səhmdar cəmiyyətinin nizamnaməsinin dəyişdirilməsi və ona əlavələrin edilməsi, səhmdar cəmiyyətinin yenidən təşkili və xitamı, əmlakının satışı və özgəninkiləşdirilməsi və s. bu kimi qərarların qəbul edilməsində “veto" hüququ verir. Qızıl səhm girov və ya trasta qoyula bilməz, səhmlərin satışı isə onların buraxılması haqqında qərar qəbul etmiş dövlət orqanının icazəsi ilə mümkündür. Qızıl səhm satılanda və ya özgəninkiləşdiriləndə adi səhmlərə konvertasiya olunur, onun sahibinə əvvəl verilmiş hüquqlar isə qüvvədən düşmüş olur.

Səhmlərə abunə yazılışı zamanı qiymətli kağızın sahibi səhmin dəyərini razılaşdırılmış qiymətə müəyyən edilmiş müddət ərzində ödəməyi öz öhdəsinə götürür.

Qapalı tipli səhmdar cəmiyyətinin səhmləri təsisçilər arasında bağlanmış müqaviləyə əsasən əldə edilir. Açıq tipli səhmdar cəmiyyətində səhmlərə abunə yazılışı təsisçilər tərəfindən təşkil edilərək, satışı bilavasitə özü, yaxud bank və birja vasitəsilə həyata keçirir.

Səhmlərə abunə yazılışı haqqında məlumat kütləvi informasiya vasitələrində elan olunmalıdır. Elanda mütləq cəmiyyətin adı, ünvanı, fəaliyyətinin müddəti, nizamnamə fondunun həcmi, səhmlərin nominal dəyəri, miqdarı, səhmdarlara verilən hüquqlar, səhmlərə abunə yazılışının başlanacağı və qurtaracağı tarix, təsis konfransının keçiriləcəyi ünvan və tarix göstərilməlidir.

Səhmlər üzrə dividendlər səhmdar cəmiyyəti tərəfindən bütün vergilər və digər məcburi ödənişlər ödəndikdən sonra sərəncamda qalan mənfəət hesabına ödənilir. Dividendlər ödənildikdə, onlar ilk növbədə imtiyazlı səhmlər, sonra isə adi səhmlər üzrə ödənilir. Hər bir səhmdar malik olduğu səhmin və ya müvəqqəti səhm şəhadətnaməsinin dəyərinə uyğun

cəmiyyətin illik mənfəətindən dividend alır. Hər səhmə düşən dividendin məbləği illik ümumi yığıncaqda müəyyən edilir. Dividendlər həmçinin rüblər üzrə ödənilə bilər.

Kooperativ fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədi ilə yaradılır.

Qeyri-kommersiya hüquqi şəxsləri aşağıdakı formalarda yaradıla bilər:

- ictimai birliklər;
- fondlar;
- hüquqi şəxslərin ittifaqları.

İctimai birlik dedikdə, təsis sənədlərində göstərilən məqsədə çatmaq üçün ümumi maraq və mənafe əsasında birləşən bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü və özü-özünü idarə edən qeyri-kommersiya təşkilatı başa düşülür.

Fond üzvlüyü əsaslanmayan, fiziki və (və ya) hüquqi şəxsin könüllü əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatdır.

Kommersiya təşkilatları özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədi ilə ittifaqlar yarada bilərlər. Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə, belə ittifaq Mülki Məcəllə ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir, həmçinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər.

Qeyri-kommersiya təşkilatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər.

İttifaqın iştirakçıları özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayırlar. İttifaqın təsisçilərinin (iştirakçılarının) ona verdikləri əmlak ittifaqın mülkiyyətidir. Bu əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər

üçün istifadə edir.

İttifaq öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır. İttifaqın iştirakçıları onun öhdəlikləri üçün nizamnamədə nəzərdə tutulan miqdarda və qaydada subsidiär məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, ölkədə xarici investisiyalı müəssisələr öz fəaliyyətlərini birgə müəssisələr, daimi nümayəndəlik və daimi nümayəndəlik yaratmadan xarici dövlətin rezidentinin bölməsi formasında həyata keçirirlər.

Azərbaycan Respublikasında qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəliyi həmin şəxslərin istənilən 12 ay ərzində Azərbaycan Respublikasında üst-üstə 90 gündən az olmayaraq bilavasitə və ya müvəkkil edilmiş şəxs vasitəsilə tam və ya qismən sahibkarlıq fəaliyyətini həyata keçirdiyi yerdir.

Daimi nümayəndəlik, əsasən, aşağıdakıları əhatə edir, amma bunlarla məhdudlaşdırılmır:

- idarəetmə yerini;
- bölməni;
- kontoru;
- filialı və agentliyi;
- tikinti və təmir meydançaları, quraşdırma və ya yığma obyektləri, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyəti göstərilməsini;
- təbii ehtiyatların kəşfiyyatı, işlənməsi və çıxarılması üzrə yerlər, istifadə olunan qurğular və ya meydançalar, qazma avadanlığı və ya gəmilər, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyəti göstərilməsini;
- qeyri-rezident fiziki şəxsin sahibkarlıq fəaliyyəti üçün istifadə etdiyi bazanı (yeri);
- müxtəlif məsləhət xidməti üzrə yerləri;
- Azərbaycan Respublikası ərazisində digər sahibkarlıq növlərinin həyata keçirildiyi istənilən hər hansı iş yerlərini;
- qeyri-rezident müəssisələrin və ya qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi funksiyalarını həyata keçirən, onların adından fəaliyyət göstərən, onların adından müqavilələri hazırlamaq və ya bağlamaq səlahiyyətlərinə malik olan və adətən belə səlahiy

yətləri həyata keçirən şəxsləri;

- malların istehsal və ya təqdim edildiyi, işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yeri.

Aşağıdakı fəaliyyət növləri daimi nümayəndəlik vasitəsi ilə həyata keçirilən fəaliyyət sayılmır:

- qeyri-rezident müəssisəsinin özünə məxsus malların və məmulatların müstəsna olaraq saxlanması və ya nümayiş etdirilməsi;
- qeyri-rezident müəssisəsinin özünə məxsus olan malların və məmulatların ehtiyatlarının digər şəxs tərəfindən emal və sonradan Azərbaycan Respublikasından ixrac edilməsi məqsədi ilə saxlanması;
- qeyri-rezident müəssisəsinin yalnız özü üçün malların alınması və ya məmulatlarını toplanması;
- qeyri-rezident müəssisəsinin özü üçün hər hansı digər hazırlıq və ya yardımçı xarakterli fəaliyyət göstərməsi;

Bütün bunlarla yanaşı, öz dərin iqtisadi təfəkkürünə əsaslanan ulu öndər qeyd edirdi ki, özəl sektorun inkişaf etdirilməsi, ölkədə sivil bazar münasibətlərinin formalaşması üçün həm də əlverişli biznes mühiti yaradılmalıdır.

Biznes - son nəticədə konkret fəaliyyət növündə bazarın iqtisadi subyektləri arasında həyata keçirilən əmtəələr və xidmətlər mübadiləsi ilə bağlı olan məsələlərin həllinə yönəldilən işgüzar fəallıqdır. Biznes müxtəlif sferalarda fəaliyyət nəticəsində mənfəət (gəlir) əldə etmək məqsədilə həyata keçirilir.

Biznes ayrı-ayrı şəxslər, müəssisələr və təşkilatlar tərəfindən təbii resursların hasili, istehsalı, emalı, əmtəələrin əldə edilməsi və satışının təşkili, və ya digər malların, xidmətlərin və pul vəsaitinin müqabilində xidmətlərin göstərilməsi və s. üzrə həyata keçirilə bilər. Başqa sözlə, biznes gəlir gətirən hər hansı məşğuliyyəti, işi ifadə edir.

Biznes subyekti kimi bazarda azad fəaliyyət göstərən fiziki şəxslər (fərdi mülkiyyət sahibləri) və hüquqi şəxslər (müəssisə kapitalının mülkiyyət sahibi və ya sahibləri) çıxış edirlər. Təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün borc kapitalından istifadə edən fiziki və ya hüquqi şəxslər, habelə epizodik olaraq kommersiya sövdələşmələrində iştirak edən qeyri-sahibkarlıq təşkilatları və müəssisələri də biznes subyekti kimi çıxış edə bilərlər.

“Biznes” anlayışı “sahibkarlıq” anlayışı ilə sıx bağlıdır. Bəzən onları sinonim kimi də işlədirlər, lakin bu anlayışların məzmunu arasında əhəmiyyətli fərqlər mövcuddur.

Biznes - sahibkarlıq anlayışına nisbətən daha geniş anlayışdır, çünki mənfəət (gəlir) götürməyə yönəldilmiş hər hansı fəaliyyət sferasında birdəfəlik kommersiya sövdələşməsinin həyata keçirilməsi də biznes fəaliyyətinə aiddir.

Resurslardan daha səmərəli olan yeni istifadə üsullarının tapılması, çeviklik, daima yeniləşmə istəyi sahibkarlığın başlıca xüsusiyyətidir. Sahibkarlıq yeniliksiz, yaradıcılıq axtarışı olmadan mümkün deyildir və məhz bununla sahibkarlıq adi biznesdən fərqlənir.

Biznes anlayışı sahibkarlıq anlayışından təkcə məzmununa görə deyil, həm də iştirakçıların tərkibinə görə də fərqlənir. Çünki o, bazar iqtisadiyyatının bütün iştirakçıları arasındakı münasibətləri əhatə edir və təkcə biznesmenlərin deyil, həm də istehlakçıların, muzdlu işçilərin, dövlət quruluşlarının fəaliyyətini özündə birləşdirir.

Sahibkarlıq biznesin daim innovasiyaya və innovasiya mühitinin yaradılmasına yönəldilən hissəsidir. Sahibkar fəaliyyəti bəzi biznes növündən fərqli olaraq, daimi əsasda həyata keçirilir, sistemli, sabit, təşkil olunmuş təsərrüfatçılığa malik olur, gələcək inkişafa və genişlənməyə meyillidir. Bu isə təşkilati və maliyyə problemlərinin müvəffəqiyyətlə həll edilməsini, mənfəətin artırılmasını, müəssisənin davamlı inkişafını, onun səmərəli fəaliyyətini təmin edə biləcək texnoloji, resurs və digər imkanlarının aşkar edilməsini, müəssisədə istehsalın rentabelliyinin yüksəldilməsi məqsədi ilə yeni fəaliyyət sferasına qoşulmanı nəzərdə tutur.

Sahibkarlığın mahiyyəti bazardakı qeyri-müəyyənlik şəraitində kapital, əmlak, patent hüququ və digər resurslar şəklində olan mülkiyyətdən ən sərfəli istifadə imkanlarını tapmaqda və bu imkanları təcrübədə həyata keçirməkdədir.

Biznes fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti öz aralarında hüquqi, iqtisadi və digər münasibətlərə girən, iqtisadi cəhətdən sərbəst bazar təsərrüfatı subyektlərinin mövcudluğunu nəzərdə tutur.

Biznes iştirakçıları tədqiqatçılar tərəfindən adətən 4 qrupa bölünür.

Birinci qrupa - sahibkarlar, yəni iqtisadi və hüquqi cavabdehlik daşıyaraq, müəyyən riskləri gözə alaraq işgüzar fəaliyyətlə məşğul olan şəxslər, habelə sahibkarlar kollektivi daxil edilir. Bu qrupa daxil edilən biznes iştirakçılarının işgüzar marağı məhsul (əmtəə, xidmətlər) istehsal etmək və satmaq vasitəsilə qazanc əldə etməkdir. Öz fəaliyyətləri prosesində onlar öz aralarında, habelə biznesin digər iştirakçıları ilə qarşılıqlı işgüzar münasibətlərə girirlər və nəticədə biznesin sahibkarlıq sferasını yaradırlar. Bu sfera özündə 3 komponenti: məhsul istehsalı, kommersiya (ticarət) və kommersiya vasitəçiliyini birləşdirir. Biznesə təkcə kommersiya kimi baxmaq düzgün deyil. Biznes, hər şeydən əvvəl, hər bir milli iqtisadiyyatın özülünü təşkil edən istehsaldır.

İkinci qrupa - məhsula fərdi və kollektiv tələbatçılar daxil edilir. Bu qrupun biznes iştirakçılarının işgüzar marağı, yəni əmtəə və xidmətlərin əldə edilməsi, məhsul istehsalçıları və satıcıları ilə əlaqələr yaradılması vasitəsi ilə həyata keçirilir. Bu zaman sahibkarların qazancı mənfəət, tələbatçıların qazancı onların istəklərini təmin edən əmtəə və xidmətlərdir. Bu qrup özlərinin istehlak maraqlarını həyata keçirərək biznesin istehlak sferasını yaradırlar.

Üçüncü qrupa - öz əmək fəaliyyətlərini icarə, kontrakt və digər əsaslarla həyata keçirən işçilər, habelə onların həmkarlar ittifaqları daxil edilir. Bu qrupun biznes iştirakçılarının işgüzar maraqları - gəlir əldə etmələri, müəssisələrdə əmək fəaliyyəti göstərmək vasitəsilə həyata keçirilir. Öz maraqlarını həyata keçirərək, bu iştirakçılar qrupu əmək biznesi sferasını yaradırlar.

Dördüncü qrupa - sövdələşmələrin bilavasitə iştirakçıları olduqları zaman dövlət orqanları, təşkilatları daxil edilir (sahibkarlara dövlət sifarişi vermək, sifarişlər yerinə yetirildiyi zaman qiymətləri, güzəştlərin tərkibi və miqdarını müəyyən etmək). Belə hallarda dövlət orqanları biznesin digər iştirakçılarının tam hüquqlu tərəfdaşları sayılırlar. Bu qrupun işgüzar marağı bütövlükdə dövlətin və ayrı-ayrılıqda bütün vətəndaşların tələbatlarını ödəmək məqsədi ilə elmi-texniki, elmi-istehsal, ictimai və başqa sahələr üzrə ümumdövlət proqramlarının həyata keçirilməsidir. Bu iştirakçılar son nəticədə dövlət biznes sferasını yaradırlar.

Biznesin məqsədləri kifayət qədər uzun müddət ərzində müəssisənin öz fəaliyyəti zamanı çatmaq istədiyi əsas nəticələrdir. Biznesin məqsədləri onun fəaliyyət xarakterindən, inkişaf səviyyəsindən və vəziyyətindən asılı olaraq müxtəlif ola bilər. Bu məqsədlərdən ən əsasları aşağıdakılardır:

- mənfəət (gəlir) əldə edilməsi;
- biznesin inkişaf etdirilməsi üçün zəruri vəsaitin yığılması;
- cəmiyyətə zəruri əmtəələrin hazırlanması və xidmətlərin göstərilməsi;
- istehlakçıların tələbatlarının optimal şəkildə ödənilməsi;
- işçilərə öz biliklərini, bacarıqlarını reallaşdırmaq imkanlarının yaradılması.

Biznes məqsədlərinə uyğun olaraq, konkret məsələlər qoyulur və onlar qarşılıqlı surətdə əlaqələndirilir. Biznesin məqsədi fəaliyyətin bu və ya digər istiqamətini müəyyən edir, qoyulan məsələ bu məqsədin kəmiyyət, keyfiyyət və vaxta görə həllini nəzərdə tutur.

Biznesin mənfəətə (gəlirə) istiqamətlənməsi əmtəə və xidmətlərə tələbatın doldurulmadığı sahələri aşkar etməyi şərtləndirir və nəticədə kapitalın mənfəətin daha çox olduğu sahələrə axınını təmin edir, istehsalın yeni, mütərəqqi sferalarının inkişafına həvəsləndirir.

Biznesin formaları sahibkarın əsas fəaliyyət sferalarını müəyyən edir. Bir qayda olaraq, istehsal, kommersiya və maliyyə biznesləri fərqləndirilir (cədvəl 5). Bu fəaliyyət növləri nisbətən müstəqil olsalar da, bir-birinin tərkib hissələri ola bilərlər.

**Cədvəl 5.**

**Biznesin növləri və onların əsas xüsusiyyətləri**

| № | Biznesin fomnalan | Əsas funksiyaları | Əsas fəaliyyət sahələri |
|---|---|---|---|
| 1 | **İstehsal biznesi** | **Məhsul, əmtəə, xidmət, informasiya və s. istehsalı** | **İstehsal müəssisələri və təşkilatları** |
| 2 | **Kommersiya biznesi** | **Əmtəələrin və xidmətlərin alqı-satqısı** | **Ticarət müəssisələri, əmtəə biıjaları** |
| 3 | **Maliyyə biznesi** | **Pul, valyuta, qiymətli kağızların alqı-satqısı** | **Banklar, fond biıjaları, sığorta və trast şirkətləri** |

İstehsal biznesi bütün biznes növləri içində ən çətini və gec gəlir gətirəni hesab olunur (xüsusilə, müasir Azərbaycan şəraitində). Ona görə də sahibkarların əksəriyyəti kommer

siya, ticarət-vasitəçilik sahəsinə üz tuturlar. Lakin ölkədə siyasi durumun sabitləşməsi, bazar iqtisadiyyatının möhkəmlənməsi bu biznes növünün öz layiqli yerini tutmasına yardım edir, çünki məhz bu biznes növü ölkə iqtisadiyyatının inkişafını müəyyən edir.

İstehsal biznesində əmtəə və xidmətlərin istehsalı müəyyənedici rol oynayır. Bunun üçün sahibkar istehsal amillərini: işçi qüvvəsi, istehsal fondları, materiallar və informasiyanı əldə etməli, onlardan səmərəli istifadə üsullarını mənimsəməlidir.

Kommersiya biznesinin məzmununu əmtəə-pul, ticarət-mübadilə əməliyyatları, əsasını alqı-satqı, daha doğrusu, əmtəə və xidmətlərin yenidən satışı təşkil edir. Bu növdə, istehsal biznesində olduğu kimi, məhsul buraxılışı ilə əlaqədar istehsal resursları ilə təmin olunmaq problemi yoxdur. Kommersiya biznesinin qarşısında duran əsas məsələ hansı malların alınması və onların hansı bazarlarda daha sərfəli satıla biləcəyini müəyyən etməkdir. Bu şərtlərin müəyyən edilməsi üçün kommersiya biznesi ilə məşğul olan sahibkar onları maraqlandıran əmtəə və xidmətlər bazarının təhlilinə yönəldilmiş marketinq tədqiqatları aparmalı, bazar konyunk- turunu qiymətləndirməli və proqnozlaşdırmalı, alış və satış qiymətlərini müəyyənləşdirməlidir. Bu biznesin bir istiqaməti də idxal-ixrac əməliyyatlarını həyata keçirməkdir.

Maliyyə biznesi kommersiya fəaliyyətinin bir növüdür. Belə ki, bu biznes növündə alqı-satqı obyekti kimi spesifik əmtəə: pul, valyuta, qiymətli kağızlar çıxış edir. Maliyyə biznesi mürəkkəb biznes hesab edilir və digər biznes növlərinə nisbətən daha məharətlə qurulmuş informasiya təminatına, ən müasir texnika ilə təchizata möhtacdır. Maliyyə biznesi valyuta bazarları, qiymətli kağızlar bazarlarının daima təhlil edilməsini, marketinq tədqiqatlarının həyata keçirilməsini tələb edir.

Biznes formalarının müəyyən meyarlar üzrə də sinifləşdirilməsi həyata keçirilir. Meyar kimi təkrar istehsalın mərhələləri, elmi-texniki tərəqqi, iqtisadi məkan, təsərrüfatın təşkili səviyyəsi götürülür.

Təkrar istehsalın dörd mərhələsi (istehsal, bölgü, tədavül və istifadə) üzrə biznesin aşağıdakı formaları fərqləndirilir:

- istehsal biznesi (əmtəə və xidmətlərin istehsalı);

- tədavül sferasında biznes (kommersiya, topdan və pərakəndə ticarət, birja ticarəti, bank xidmətləri və s.);
- bölüşdürmə və yenidən bölüşdürmə sferasında biznes (kommersiya vasitəçiliyi, əmək birjası və s.);
- istifadə sahəsində biznes (ev təsərrüfatı çərçivəsində xidmətlər).

Elmi-texniki tərəqqi meyarına görə biznesin iki forması fərqləndirilir:

- ənənəvi biznes;
- innovasiya biznesi.

İqtisadi məkan meyarına görə biznesin aşağıdakı formalarını fərqləndirmək olar:

- beynəlxalq biznes;
- milli biznes;
- regional biznes;
- yerli biznes.

Təsərrüfatçılığm təşkili səviyyəsinə görə biznesin aşağıdakı formalarını fərqləndirmək olar:

- makrobiznes (bütövlükdə dövlət, ölkə səviyyəsində);
- mezobiznes (ayrı-ayrı sferalarda, sahələrdə, iqtisadi sektorlarda);
- mikrobiznes (ayrılıqda götürülmüş müəssisədə).

Ümumiyyətlə, biznes bir sistemdir və bu sistemə işgüzar fəaliyyətin subyektləri, biznes infrastrukturu, idarəetmə sistemi, fəaliyyət nəticələri və onların qiymətləndirilməsi daxildir.

Biznesin bir sistem kimi aşağıdakı xüsusiyyətləri vardır:

- məqsədyönlülük;
- bütövlük;
- ziddiyyətinik;
- fəallıq.

Məqsədyönlülük biznes daxilindəki hər bir elementi birləşdirən məqsədə: mənfəət əldə edilməsinə yönəldən istiqamət verir.

Bütövlülük biznesin başlıca məqsədinin: mənfəətin artırılmasının tam həyata keçirilməsi üçün iqtisadiyyatın bütün sferalarını, sektorlarını, ərazilərini zəruri həddə əhatə etməsini nəzərdə tutur. Başqa sözlə, biznes verilən konkret şəraitdə onun üçün həyati əhəmiyyət kəsb edən bütün sferalara azad

daxil ola bilməlidir. Biznesi öz mühiti və əsas əlamətləri (rəqabət, infrastruktur, menecment, marketinq, maliyyə sistemi, hüquqları) olmadan təsəvvür etmək olmaz.

Biznes sistemində inkişaf hər hansı inkişafın mənbəyidir. Biznesdə bir çox ziddiyyətləri; sahibkarlar və muzdlu işçilər, istehsalçılar və istehlakçılar, sahibkarlar və həmkarlar ittifaqları arasında müşahidə etmək mümkündür. Normal şəraitdə bütün bu ziddiyyətlər biznesin inkişafına xidmət edir.

Fəallıq xüsusiyyəti biznesin ictimai sistemlər, insan fəaliyyəti ilə sıx əlaqəli ictimai bir təzahür olduğunu göstərir. İşgüzar adamların fəallığı adətən cəmiyyətin səviyyəsinin yüksəlməsində, ölkənin ümummilli məhsulunun həcmində, əhalinin yaşayış səviyyəsində, ölkənin iqtisadi gücündə özünü göstərir.

Miqyasından asılı olaraq, kiçik, orta və iri biznes fərqləndirilir. Azərbaycanda müəssisələrin sadalanan kateqoriyalarından birinə aid edilməsi üçün meyar kimi müəssisənin ümumi dövriyyəsi əsas götürülür.

Kiçik biznes bütün dünyada, o cümlədən Azərbaycanda çox dinamik inkişaf edir. Bu, onların bazar tələbatına operativ və çevik reaksiya verməsləri ilə bağlıdır. Kiçik biznesin özünəməxsus üstünlükləri mövcuddur:

- əhalinin maddi və maliyyə ehtiyatlarının müxtəlif biznes növlərində səmərəli istifadəsinə imkan verir;
- az maddi vəsait yatırmaqla yeni iş yerlərinin açılmasına və ölkədə işsizlik probleminin həllinə kömək edir;
- yeni texnika və texnologiyaların tətbiqi üçün çox çevikdir;
- bazarda rəqabət mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Orta biznes daxili konyunkturdan asılıdır, öz qrupu daxilində, habelə iri daxili və xarici kapitalla mübarizə aparmağa məcburdur.

İri biznes əsasən ölkənin iqtisadi və texniki gücünü nümayiş etdirir. İri miqyaslı istehsal əsasən kütləvi, nisbətən eynicinsli tələbata, standart məhsulların böyük partiyalarla istehsalına meyillidir.

Məlumdur ki, sahibkarlıq fəaliyyətinin hər hansı bir növü müəyyən mülkiyyət formasına əsaslanır. Öz növbəsində, mülkiyyət forması biznesin uyğun təşkilati formalarını

müəyyənləşdirir.

Azərbaycanda tədricən aşağıdakı iqtisadi vahidlər təşəkkül tapmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarında qeydə alınmışdır:

1. Dövlət mülkiyyəti
2. Qeyri-dövlət mülkiyyəti

onlardan:

2.1. Xüsusi mülkiyyət.
2.2. Kollektiv mülkiyyət.
2.3. Bələdiyyə mülkiyyəti.
2.4. Xarici mülkiyyət.
2.5. Qarışıq mülkiyyət.

Digər ölkələrin ümumdövlət statistikalarında müəssisələr mülkiyyət formalarına görə müxtəlif formalarda qeydə alınırlar. Məsələn, ABŞ-ın ümumdövlət statistikasında bu sinifləş- dirmə aşağıdakı kimi aparılır:

1. Fərdi mülkiyyətdə olan müəssisələr.
2. İki və ya daha çox şəxsin mülkiyyətində olan müəssisələr (tərəfdaşlıq).
3. Səhmdar müəssisələri (və ya şirkətləri).

Hər bir iqtisadi inkişaf dövrünün özünəməxsus biznes konsepsiyası işlənib hazırlanır. Biznes konsepsiyası müxtəlif biznes formaları və meyarları əsasında formalaşdırılır və müəyyən dövrdə hər hansı dövlətdə aktual olan biznes növləri və onların keyfiyyəti üzrə sistemləşdirilmiş nəzəri müddəalardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin ölkə iqtisadiyyatının yüksəldilməsi üçün işləyib hazırladığı bir sıra proqramlar bütövlükdə ölkədə və o cümlədən ayn-ayrı regionlarda biznes (sahibkarlıq) fəaliyyətinin gücləndirilməsinə xidmət edir.

Hər hansı bir müəssisə (təşkilat) müəyyən mühitdə fəaliyyət göstərir. Onların hər fəaliyyəti yalnız mühitin imkan verdiyi çərçivədə mümkündür. Müəssisələrin əməliyyatlar həyata keçirdiyi hər bir ölkə öz hüquqi, siyasi və iqtisadi quruluşları, inkişaf səviyyəsi və iqtisadi şəraiti ilə müəyyən biznes mühiti yaradır. Biznes mühitinin xarici və daxili amilləri fərqləndirilir.

Müəssisənin daxili biznes mühiti müəyyən zaman kəsiyində onun fəaliyyəti və inkişafı üçün mövcud potensialı, məhsul (xidmət) istehsalı üçün şəraiti özündə birləşdirir. Bu potensial

fırmadaxili planlaşdırma və idarəetmə vasitəsilə müəssisə tərəfindən tənzimlənə bilir.

Müəssisənin xarici biznes mühiti dedikdə, onun fəaliyyətinə təsir göstərən, daxili potensialım lazımi səviyyədə saxlamağa imkan verən və baş verən dəyişikliklərə müəssisənin ciddi reaksiyasını tələb edən xarici mühitin bütün amilləri nəzərdə tutulur. Ətraf mühitdə konkret müəssisənin fəaliyyətindən asılı olmayaraq, meydana çıxan bütün amillər onun işinə təsir göstərə bilər və ona görə də daim diqqət mərkəzində saxlanılmalı və müəssisələr öz fəaliyyətlərində bu amillərə uyğunlaşmağa çalışmalıdırlar.

Biznesin xarici mühitinin əsas amillər qrupuna, bir qayda olaraq, iqtisadi mühit, siyasi və hüquqi mühit, elmi-texniki mühit, ictimai-mədəni şərait, demoqrafik və təbii-coğrafi mühitlər aid edilir.

Müəssisələrin (şirkətlərin) işinə təsir göstərən ən əsas amillərdən biri hüquqi amildir. Müəssisə rəhbərləri (biznesmenlər) ümumi hüquqi sistem, o cümlədən biznes (kommersiya) hüquqları haqqında müəyyən biliklərə malik olmalıdırlar.

Azərbaycanda biznes fəaliyyətinin təşkili və yerinə yetirilməsi Azərbaycan Respublikasının Konstitusiyasına, Mülki Məcəlləyə, bu sahədə qəbul edilmiş bir çox hüquq sahələrinə və qanunvericilik normalarına əsaslanır.

Hər hansı ölkədə biznes fəaliyyətinin həyata keçirilməsinə ən çox təsir göstərən əsas iki aspekt siyasi və iqtisadi sistemlərdir. Siyasi sistemin əsas məqsədi cəmiyyəti sağlam fəaliyyət göstərən bir orqanizm halına gətirməkdir. Müasir cəmiyyətdə siyasi sistemi iqtisadi sistemdən ayırmaq çox çətindir.

Azərbaycan artıq 17 ildir ki, totalitar rejimdən (bütün keçmiş sovet respublikaları kimi) demokratik üsul - idarə formasına keçmişdir. Demokratik idarəetmə forması istehsal vasitələrində xüsusi mülkiyyətin və bazar iqtisadiyyatının mövcudluğu ilə tamamlanır.

İqtisadi mühit amillərinin öyrənilməsi bir sıra göstəricilərin təhlilini nəzərdə tutur. Bu göstəricilər sırasına aşağıdakılar aid edilir:

- ümumi daxili məhsulun (ÜDM) və ya ümumi milli məhsulun

- İnflyasiya sürəti;
- işsizlik səviyyəsi;
- işçi qüvvəsinin təhsil səviyyəsi;
- əmək məhsuldarlığı;
- vergitutma normaları;
- əmək haqqı səviyyəsi və s.

İqtisadi mühiti öyrənərkən ölkədə iqtisadi inkişafın ümumi səviyyəsi, hasil edilən resursların mövcudluğu, rəqabət münasibətlərinin inkişaf səviyyəsi, əhalinin quruluşu və s. bu kimi amillərə diqqət yetirmək çox vacibdir.

Bütün bu amillər, ilk növbədə, müəssisənin biznes fəaliyyəti ilə məşğul olması üçün nə kimi əhəmiyyət daşımaları nöqteyi-nəzərindən təhlil edilir. Maraq dairəsinə, həmçinin, müəssisə üçün iqtisadi mühitin ayrı-ayrı komponentlərində gizlənən potensial təhlükələrin aşkara çıxarılması da aiddir.

Ümumi daxili məhsul ölkədə iqtisadi vəziyyəti xarakterizə edən ən əsas göstəricidir. Lakin istehsal amillərinin və inkişaf şərtlərinin müxtəlifliyi iqtisadi inkişafı yalnız bir nöqtədən qiymətləndirməyə imkan vermir. Bunun üçün bir sıra əsas göstəricilərdən istifadə edilir:

- ÜDM-in indeksləri;
- əhalinin bir nəfərinə düşən ÜDM;
- əhalinin bir nəfərinə düşən əsas məhsul növlərinin istehsalı (ayrı-ayrı sahələrin inkişaf səviyyəsi);
- əhalinin həyat keyfiyyəti və səviyyəsi;
- iqtisadi səmərəlilik göstəriciləri.

Bazar iqtisadiyyatı şəraitində qiymətlərin artması gəlirin çoxalmasına və sahibkarların istehsalı genişləndirməsinə, əlavə işçi qüvvəsini cəlb etməsinə imkan yaradır. Tənzimlənən inflyasiya prosesi, praktiki olaraq, bütün inkişaf etmiş ölkələrdə mövcuddur (3-5%). Bir sıra iqtisadçılar belə hesab edirlər ki, kiçik ölçülü inflyasiya pul kütləsinin uyğun artımı ilə istehsalın inkişafını stimullaşdıra bilər.

Dövriyyədə olan pulun həcminin artması investisiya fəaliyyətinin güclənməsinə imkan yaradır, biznes fəaliyyətinin genişlənməsini stimullaşdırır. Lakin bu prosesdə müəyyən ziddiyyətlər də mövcuddur. Bir tərəfdən, kapital qoyuluşu artır, digər tərəfdən, istifadə edilməyən kapital öz dəyərinin bir hissəsini itirir. Nəticədə heç də bütün sahibkarlar bu prosesdən

qazanc götürmürlər. İlk növbədə, müasir avadanlıqla təchiz olunmuş, istehsalının təşkili daha mükəmməl olan müəssisələr bu prosesdən xeyir götürə bilərlər. Gözlənilən inflyasiya şəraitində sahibkarlar (istehsalçılar, vasitəçilər) öz təhlükəsizliklərini təmin etmək, itkilərdən qaçmaq üçün qiymətləri qaldırır və bununla inflyasiya prosesinə təkan verirlər.

İnflyasiya prosesinin “pozitiv funksiyası olsa belə, tənzimlənən, zəif inflyasiya da əmək fəaliyyətinə motivləşdirməni azaldır, sahibkarların yığım imkanlarını daraldır, çünki yığılan pullar az bir zamanda dəyərinin bir hissəsini itirir.

İşsizlik probleminin həlli biznes fəaliyyətinin inkişafı ilə birbaşa bağlıdır və bu anlayışlar əks mütənasibdir. Sahibkarlıq fəaliyyəti genişləndikcə işsizlərin sayı azalmağa başlayır. Bu problem bütün ölkələrdə bu və ya digər səviyyələrdə mövcuddur. Bir çox ölkələr müxtəlif zamanlarda yeni iş yerlərinin açılması üçün bir sıra malların idxalına məhdudiyyətlər qoymuşlar.

Biznes insanların əsas baxışlarını formalaşdıran konkret sosial-mədəni tərkibi olan cəmiyyətdə insanların, sahələrin, müəssisələrin tələbatlarını ödəmək üçün həyata keçirilir. Bu reallıqları biznes fəaliyyətində nəzərə almamaq mümkün deyildir. Ona görə də biznesdə müvəffəqiyyət qazanmaq üçün tələbatçılarm hansı amilləri nəzərə alaraq bu və ya digər istehsalçının məhsullarına üstünlük vermələrini, müəyyən sövdələşmələrdə davranış qaydalarını öyrənmək lazımdır.

Bir çox tədqiqatçıların fikirlərini nəzərə alaraq, biznesin sosial-mədəni mühitini bu cür səciyyələndirmək olar:

- insanların dünyagörüşü və işə münasibəti;
- insanların dini baxışları;
- insanların təhsil səviyyəsi;
- insanların istehsal və istehlakda qarşılıqlı münasibətləri və s.

Sosial-mədəni dəyərlərin əsas xüsusiyyəti ondadır ki, onlar həm makromühitə, həm də müəssisənin daxili mühitinə təsir göstərir.

Sosial-mədəni mühiti fərqləndirən bir xüsusiyyət də odur ki, onlar nisbətən yavaş sürətlə dəyişir, lakin müəssisənin əhatə dairəsində bir çox mühüm dəyişikliklərə gətirib çıxarır. Ona görə də müəssisələr mümkün ictimai dəyişmələri çox diqqətlə

İzləməlidir.

Bir sıra tədqiqatçılar biznesin xarici mühitini makro və bilavasitə xarici mühitlərə bölürlər. Biznes fəaliyyətinin bilavasitə xarici mühitinin öyrənilməsi müəssisənin birbaşa qarşılıqlı əlaqədə olduğu xarici mühit elementlərinin təhlilinə yönəldilir.

Bilavasitə əhatə mühitinin öyrənilməsindən məqsəd onların iş profilinin müəyyən edilməsidir. Tələbatçılarm məhsullara, onların keyfiyyətinə, qiymətlərinə tələbləri daim dəyişdiyindən, onu optimal şəkildə ödəmək üçün uyğun işlər həyata keçirən istehsalçı-müəssisə müvəffəqiyyət qazana bilər. Neft-maşınqayırma sənayesi məhsullarının alıcılarının profilinin aşağıdakı xarakteristikalarını tərtib etmək olar:

- coğrafi yerləşmə;
- alıcıların məhsula münasibəti.

Alıcıların bu və ya digər istehsalçının analoji məhsulunu seçməsini müəyyənləşdirən amillər vardır ki, təhlil zamanı bunlar aşkarlanmalı və öyrənilməlidir. Bu amillər sırasına aşağıdakıları daxil etmək olar:

- istehsalçının istehlakçıdan asılılıq səviyyəsi ilə istehlakçının istehsalçıdan asılılıq səviyyəsinin nisbəti;
- istehlakçının bir dəfəyə əldə etdiyi məhsulun həcmi;
- istehlakçıya istehsalçı haqqında məlum olan informasiyanın səviyyəsi;
- istehlakçının başqa bir istehsalçıya keçməsinin dəyəri;
- istehlakçının mövcud qiymətlərə münasibəti.

Təchizatçıların təhlili müəssisəni müxtəlif xammal, yarım-fabrikat, enerji, informasiya, maliyyə və bu kimi resurslarla təchiz edən subyektlərin fəaliyyəti səmərəliliyini müəyyən edən aspektlərin aşkar edilməsinə yönəlir. Əgər təchizatçılar böyük rəqabət gücünə malikdirlərsə, müəssisəni özlərindən asılı vəziyyətə sala bilərlər. Təchizatçıların rəqabət gücü aşağıdakı amillərlə müəyyən edilir:

- təchizatçının ixtisaslaşma səviyyəsi;
- təchizatçı üçün başqa müştərilərə keçmə dəyərinin kəmiyyəti;
- istehlakçının müəyyən resursları əldə etmədə ixtisaslaşma səviyyəsi;
- təchizatçının konkret müştəri ilə işləməkdə maraqlılıq

səviyyəsi;

- təchizatçı üçün satış həcminin kəmiyyətinin vacibliyi.

Təchizatçıların öyrənilməsi zamanı birinci növbədə onların fəaliyyətlərini səciyyələndirən aşağıdakı göstəricilərə diqqət yetirmək vacibdir:

- göndərilən məhsulun (müəssisə üçün - resursun) dəyərinə;
- göndərilən məhsulun keyfiyyət təminatına;
- məhsul göndərilməsinin zaman üzrə qrafikinə;
- məhsul göndərilməsi şərtlərinin yerinə yetirilməsində öhdəliklərə riayət edilməsinin səviyyəsinə.

Rəqiblərin, yəni müəssisənin istehlakçılar və resurslar uğrunda mübarizə apardıqları təşkilatların öyrənilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu təhlildən məqsəd, rəqiblərin zəif və güclü tərəflərini öyrənmək və bunun əsasında özünün rəqabət mübarizəsini planlaşdırmaqdır. Rəqib müəssisələr haqqında ümumi məlumatlardan başqa, onların hər biri üzrə aşağıda verilən əsas informasiyalar toplanmalı və təhlil edilməlidir:

1. Rəqib müəssisələrin bazardakı mövqeləri: buraxılan məhsulların satış həcmi, öyrənilən bazarda rəqib müəssisənin ümumi satış həcmində payı.
2. Hər bir müəssisənin buraxdığı məhsulun xarakteristikası: texniki parametrləri, qiyməti, rəqabətə davamlılıq səviyyəsi və s.
3. Rəqib müəssisələrin təklif etdikləri xidmətlərin növü və xarakteri.
4. Rəqib müəssisələr tərəfindən istifadə olunan reklam fəaliyyəti və məhsul satışının stimullaşdırılmasının növləri.
5. Məhsulun nəql edilmə təcrübəsi.
6. Marketinq fəaliyyəti.
7. Hər bir rəqib firmanın maliyyə vəziyyəti və onun bazardakı mövqelərini qorumaq bacarığı, ödəniş qabiliyyəti və yeni istehsalların təşkili üçün imkanları.
8. Rəqiblər tərəfindən aparılan sövdələşmələrin kommersiya şərtləri: qiymətlər, kreditə malgöndərmələr, güzəştlər, malgöndərmə müddəti.

Bir çox müəssisələr bazara yeni daxil olan istehsalçılar tərəfindən mümkün təhlükələrə lazımi diqqət yetirmədiklərindən, rəqabət mübarizəsində onlara uduzurlar. Bu təhlükə

barədə əvvəlcədən fikirləşmək və potensial rəqiblər qarşısında müəyyən maneələr yaratmaq vacibdir. Belə maneələr sırasına istehsalın ixtisaslaşdırılmasmm dərinləşdirilməsi, bölüşdürmə kanalları üzərində nəzarət, rəqabətdə üstünlük verən yerli xüsusiyyətlər və s. aid edilə bilər. Müəssisə potensial rəqibin bazara daxil olmasına hansı sədlərin mane olacağını çox yaxşı öyrənməli və məhz bu səddi qurmalıdır.

İşçi qüvvəsi bazarının təhlili kadrlarla təminat üzrə müəssisə qarşısında duran məsələləri həll etmək üçün onun potensial imkanlarını öyrənməyə yönəldilir. İşçi qüvvəsi bazarı orada zəruri ixtisasa, təhsil səviyyəsinə, yaşa və s. malik kadrların mövcudluğu, işçi qüvvəsinin dəyəri nöqteyi-nəzərindən öyrənilir.

Müəssisələrdə biznesin daxili mühiti - ümumi mühitin təşkilat hüdudları daxilində özünü göstərən hissəsidir. Bu mühit müəssisənin fəaliyyətinə davamlı olaraq bilavasitə təsir göstərir və özündə zavoddaxili planlaşdırma və idarəetmə prosesində tənzimlənə bilən məhsul (xidmət) istehsalı və satışı şəraitinin komponentlərini birləşdirir. Biznesin daxili mühitini xarici mühitindən fərqləndirən əsas cəhət də onların müəssisə tərəfindən tənzimlənə bilməsi, xarici mühit amillərinin dəyişməsinə isə heç bir təsir vasitəsi olmadan öz işində nəzərə almaq məcburiyyətində olmasıdır.

Daxili mühit amillərinə müəssisənin təşkilati və idarəetmə quruluşu, onun məqsəd və vəzifələri, istehsal texnologiyası, işçilərin bacarıq və ixtisas səviyyələri, marketinq fəaliyyəti, maliyyə quruluşu və s. daxildir. Bütün bu amillər qarşılıqlı əlaqədədir və onların birində baş verən dəyişikliklər digərinə müəyyən dərəcədə təsir göstərir.

Müəssisələrin idarəetmə mexanizmləri bütün amillərin qarşılıqlı fəaliyyət göstərərək qarşıya qoyulan məqsədlərə nail olmaq və optimal son nəticələri əldə etməyə yönəldilməlidir. Son nəticənin mənfəət şəklində əldə edilməsi üçün müəssisə öz məqsədlərini aşağıdakı sahələr üzrə formalaşdırmalıdır:

- elmi-texniki: yeni məhsulların işlənib hazırlanması və istehsalda tətbiqi;
- istehsal: texnoloji prosesin təkmilləşdirilməsi və yeni texnologiyalardan istifadə, buraxılan məhsulların keyfiyyətinin dünyada qəbul edilmiş standartlara uyğunlaşdırılması;

- satış: hər bir məhsul növü üzrə mövcud satış bazarlarının qorunub saxlanması və genişləndirilməsi.

Müxtəlif mənbələrdə daxili mühit amilləri müxtəlif səpkidə təqdim edilir. Bəzi tədqiqatçılar marketinq fəaliyyətini, maliyyə səviyyəsini daxili mühit amili kimi görmür, digərləri məqsəd və vəzifələrin formalaşdırılması komponentini nəzərə almır.

Daxili mühit amillərinin ən əsas komponenti bütün daxili və xarici mühit amillərini nəzərə alaraq işlənib hazırlanmış məqsədlər - yəni konkret son nəticələrdir. Bu proses müəssisənin bütün həlqələrinin fəaliyyətini koordinasiya etmək üçün çox güclü bir mexanizmdir.

Daxili mühitin ən mühüm komponentlərindən biri də müəssisənin təşkilatçılıq və idarəetmə komponentləridir. Hazırkı dövrdə müəssisələrdə elə bir təşkilati quruluş yaradılmalıdır ki, müəssisənin baş verən dəyişikliklərə uyğunlaşmasına imkan versin. Daxili mühitin təşkilatçılıq və idarəetmə komponentlərinə kommunikasiya prosesləri, təşkilati quruluş, idarəetmə quruluşu, norma və qaydalar, hüquq və cavabdehliklərin bölüşdürülməsini daxil etmək olar.

Daxili istehsal və texnologiya komponentlərinə məhsulun hazırlanması, tədqiqatların nəticələrinin həyata keçirilməsi, ixtisas bacarığı ilə avadanlıqların uyğunlaşdırılması, maşın parkına xidmət və təchizat məsələlərini aid etmək olar.

Heç bir texnologiya, maliyyə vəsaiti müəssisə kollektivinin uyğun səviyyəsi təmin edilmədən səmərəli ola bilməz. Ona görə də müəssisə rəhbərliyi daxili mühitin çox mühüm faktoru olan insan amilini, kadrların idarə edilməsini daim diqqət mərkəzində saxlamalıdır. Bu cür proseslərə menecerlərlə fəhlələrin qarşılıqlı münasibətləri, kadrların işə cəlb edilməsi, öyrədilməsi və irəli çəkilməsi, əməyin nəticələrinin qiymətləndirilməsi və həvəsləndirilməsi, işçi kollektivində sağlam, işgüzar münasibətlərin yaradılması və s. daxildir.

Müəssisə fəaliyyətinin sabitliyi və inkişafının təmin edilməsinə yönəldilən daxili mühit amillərindən biri olan marketinq fəaliyyəti də daim idarəetmə aparatının diqqətində olmalıdır. Biznes fəaliyyətinə təsir göstərən daxili amillərin marketinq bölümü məhsul və qiymətqoyma strategiyalarının, məhsulun bazara çıxarılması strategiyasının, satış bazarının və bölgü

sisteminin müəyyən edilməsini əhatə edir.

Bütün qeyd edilən biznesin daxili mühit amilləri maliyyə amilləri ilə sıx bağlıdır. Müəssisənin maliyyə institutları ilə münasibətləri onun işinə birbaşa təsir göstərir. Zəruri maliyyə vəsaitlərinin əldə edilməsi imkanları müəssisənin sabit fəaliyyət göstərməsini təmin edir. Hər bir müəssisə likvidliyin lazımi səviyyədə saxlanması və mənfəətlə işləməyin təmin edilməsi, investisiya qoymaq imkanlarının yaradılması üçün öz maliyyə vəsaitini ciddi təhlil etməli və maliyyə mənbələrini müəyyən etməlidir.

Daxili biznes mühitinin dərin və ciddi təhlili idarəetmə qərarlarının qəbul edilməsi üçün çox zəruridir. İqtisadi informasiya - müəssisə daxilində baş verən proseslərin konkret ifadəsidir. Bu informasiya və onun təhlili olmadan müəssisənin səmərəli fəaliyyət göstərməsi və inkişaf etməsi mümkün deyildir.

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının səmərəli inkişafında kiçik sahibkarlıq fəaliyyəti əhəmiyyətli rol oynayır. Kiçik sahibkarlığın inkişafı mülkiyyətin müxtəlif formalarının meydana gəlməsinə və inkişafına, azad rəqabətə və təşəbbüskarlığa, əməyə həvəsin oyadılmasına, yeni ideya və ixtiraların, eləcə də səmərəli təkliflərin istehsalatda reallaşmasına zəmin yaratmaqla, eyni zamanda, inhisarlaşmanın və sosial gərginliyin aradan qaldırılmasına səbəb olur ki, bu da mühüm sosial-iqtisadi problemlərin sürətlə həllinə kömək etmiş olur.

Təsadüfi deyildir ki. dünyanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən müəssisələrin 80-90 faizi, ümumi milli məhsulun 45-50 faizi, bütün işləyənlərin 50-60 faizi və eləcə də yeni yaranan iş yerlərinin 70-80 faizindən çoxu kiçik müəssisələrin payına düşür. Ulu öndərin rəhbərliyi altında Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatların strateji istiqamətlərindən biri də məhz kiçik sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşdırılması olmuşdur.

Kiçik sahibkarlıq müəssisələrinin sosial-iqtisadi əhəmiyyəti ondadır ki, onlar böyük çeviklik göstərərək bazar konyunkturunun dəyişməsinə tez reaksiya verirlər. Bu da kiçik müəssisələrin mobilliyini göstərir. Bu çevikliyi yaradan əsas səbəb isə onların kiçik ölçüdə olmasıdır. Məhz buna görə də

kiçik müəssisələr bazarda sərbəst hərəkət etməklə dəyişməkdə olan məhsul tələbatını ödəməyi öz üzərinə götürür.

Eyni zamanda, həcmcə kiçik olan, bəzən bir sahibkara məxsus müəssisə süründürməçiliyə düçar olmayıb az saylı şəxslər tərəfindən idarə edilir. Ona görə də kiçik müəssisələr iri müəssisələrə nisbətən bazar dəyişikliyi zamanı çevik olur və daha tez müddət ərzində bazara uyğunlaşa bilirlər. Həmçinin kiçik müəssisələr bir çox hallarda yeni sahələrin və yeni bazarların yaradılmasının əsasını qoyurlar.

Onu da qeyd edək ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında kiçik müəssisələr müxtəlif adlar altında fəaliyyət göstərirlər. Belə ki, Almaniyanın iqtisadiyyat elmində kiçik müəssisələr orta müəssisələrdən fərqlənmir və "Mittelştant" adı ilə bu müəssisələrə "orta təbəqə" kimi baxılır, lakin digər ölkələrdə, xüsusilə ABŞ-da və İngiltərədə "kiçik biznes və kiçik firma", Fransada "sənətkarlıq", Latın Amerikasında "kiçik sənaye". Afrikada "kiçik istehsalat", bəzi ölkələrdə "qeyri-formal sektor". Polşada "kiçik biznes", Macarıstanda "kiçik biznes və yardımçı təsərrüfat", yeni müstəqillik əldə etmiş sovet respublikalannın hamısında "kiçik müəssisə, kiçik sahibkarlıq və kiçik biznes" adlandırılır.

Ümumiyyətlə, kiçik müəssisələrə ayrı-ayrı ölkələrdə müxtəlif cür yanaşılır, onun məzmunu, mahiyyəti və fəaliyyət prinsipi fərqlidir. Bu da onların yaradılması məqsədlərinin, fəaliyyət sahələrinin və idarə olunması mexanizmlərinin müxtəlifliyi və tarixi inkişaf prosesinin müxtəlif mərhələlərində yeni xüsusiyyətlər kəsb etmələri ilə izah oluna bilər.

Məsələn, ötən əsrin 90-cı illərində Almaniyada kiçik, orta və iri müəssisələr ayrı-ayrı sahələr üzrə işləyənlərin sayına, satılan əmtəələrin və göstərilən xidmətlərin həcminə görə cədvəl 6-da olduğu kimi təsnifləşdirilirdi.

Cədvəl 6-dan göründüyü kimi, fəaliyyət sahələrində dövriyyə kapitalının spesifik xüsusiyyətləri nəzərə alınmaqla, kiçik biznesi müəyyən edən meyarlar dəqiq dərəcələrə ayrılmışdır. Məsələn, sənayedə dövriyyə kapitalı uzunmüddətli olan sahələrdə kiçik biznesin fəaliyyət göstərməsi üçün böyük ilkin kapital tələb olunur. Məşğul olanların say meyarının belə fərqlənməsi sayəsində kiçik müəssisələrin forması dəyişir.

Cədvəl 6

**Almaniyada müəssisələrin ölyüsü**

| Müəssisələr | Məşğul olanların sayı, nəfər SƏNAYE | Satışın həcmi, mln. marka |
|---|---|---|
| Kiçik | 49-a qədər | 2-yə qədər |
| Orta | 50 - 499 | 2-25 |
| iri | 500 və daha çox | 25 və daha çox |
| | NƏQLİYYAT | |
| Kiçik | 2-yə qədər | 0,1- ə qədər |
| Orta | 3-49 | 0,1 -2 |
| iri | 50 və daha çox | 2 və daha çox |
| | XİDMƏT DAİRƏSİ | |
| Kiçik | 2-yə qədər | 0.1-ə qədər |
| Orta | 3-49 | 0,1-2 |
| iri | 50 və daha çox | 2 və daha çox |
| | TOPDANSATIŞ TİCARƏT | |
| Kiçik | 9- a qədər | 1- ə qədər |
| Orta | 10-199 | 1 -50 |
| iri | 200 və daha çox | 50 və daha çox |
| | PƏRAKƏNDƏ SATIŞ TİCARƏTİ | |
| Kiçik | 2-yə qədər | 0,5-ə qədər |
| Orta | 3-99 | 0,5-10 |
| İri | 100 və daha çox | 10 və daha çox |

Deməli, kapital qoyuluşu firmanın ölçüsünün müəyyən edilməsində mühüm rol oynayır və bu ölçü, ölkələrdən asılı olaraq, şərti xarakter daşıyır.

Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin Nazirlər Kabinetinin 20 aprel 2004-cü il tarixli 57 nömrəli fərmanı ilə müəyyənləşdirilmiş meyarlarının hədləri cədvəl 7-də olduğu kimidir.

Cədvəl 7

**Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyeklləririninmüəyyənləşdirilməsi meyarlarının hədləri**

| İqtisadi fəaliyyət növləri | İşçilərin sayı | İllik dövriyyə |
|---|---|---|
| Sənaye və tikinti<br>Elmi-texniki və konsaltinq xidməti Kənd təsərrüfatı Topdan satış ticarət<br>Parakəndə satış ticarəti, nəqliyyat, xidmət və digər iqtisadi fəaliyyət növləri | <40<br><20<br>< 15<br>< 10<br>< 5 | < 200000 man.<br>< 150000 man.<br>< 100000 man.<br>< 300000 man.<br>< 100000 man. |

Qeyd etmək lazımdır ki, sahibkarlıq subyektinin kiçik sahibkarlıq sektoruna aid edilməsi üçün hər iki göstərici bu sektor üçün müəyyənləşdirilmiş hədlər daxilində olmalıdır.

Yeni fəaliyyətə başlayan sahibkarlıq subyektləri üçün 1 il müddətində yuxarıdakı hədlərlə müəyyən edilmiş işçilərin say meyarı götürülür.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün bu hədlərlə müəyyən edilmiş illik dövriyyə meyarı əsas götürülür.

Kiçik müəssisələr innovasiya prosesində, xüsusilə də elmtutumlu sahələrin inkişafında mühüm rol oynayırlar. Bütövlükdə, ABŞ-m və Yaponiyanın iqtisadiyyatında 14-15 min, Almaniyada isə 8 mindən çox kiçik vençur müəssisələri fəaliyyət göstərir.

Belə ki, kiçik firmalar iri müəssisələrə nisbətən bir nəfər məşğul olan hesabına 4 dəfə çox yenilik yaradır və bir mühəndisə və yaxud tədqiqatçıya isə iri müəssisələrdən iki dəfə az xərc qoyur. Bütün alim və mühəndislərin 94 faizi və elmi- tədqiqat və təcrüb-konstruktor işlərinə qoyulan xərclərin 96 faizi cəmləşən 1 milyon işçisi olan iri korporasiyalarda yeniliklərin sürəti və sayı 31 -ə, kiçik müəssisələrdə isə 36,2-yə bərabər olmuşdur.

Deməli, elmi-texniki tərəqqini inkişaf etdirmək və onun nəticələrini dərhal istehsala tətbiq etmək, yeni ideyaları axtarıb tapmaq və onu işləyib hazırlamaq, bu sahədə yeni texnologiyanı və ya vasitəçiliyi mənimsəmək və ən nəhayət, istehsal və yeni ideyalar, texnologiya və məhsul bazarını mənimsəmək baxımından, kiçik innovasiya müəssisələrinin iqtisadi və sosial əhəmiyyəti böyükdür. Ona görə ki, onların mühitində ideyalar yaranır və bunlar da sonradan elmdə və istehsalda bütöv bir sahənin inkişafı üçün ilkin baza olur.

Bir sıra ölkələrin iqtisadiyyatında fəaliyyət göstərən kiçik və orta müəssisələrin xarici ticarətdə böyük iqtisadi və sosial əhəmiyyəti var. Belə ki, Fransada onlar qeyri-dövlət ixracatının təqribən 50 faizini, o cümlədən işçilərinin sayı 10 nəfərə qədər olan müəssisələrin payı isə 9,5 faiz təşkil edir. İtaliyada isə ixracat fəaliyyətində iştirak edən bütün müəssisələrin 82 faizi kiçik müəssisələrdən ibarətdir.

Qeyd etmək lazımdır ki, ixrac olunan sənaye məhsulunun

Almaniyada və Niderlandda təqribən 40, İtaliyada 25-30. Fransada 20-25, Yaponiyada isə 10-15 faizi kiçik və orta müəssisələrin payına düşür. Bununla bərabər, kiçik və orta müəssisələrin iri firmalara ixrac olunan sənaye məhsullarının komplektləşdirilməsində iştirakını hesaba almaqla, həmin göstərici İtaliyada 60, Fransada 50 və Yaponiyada isə 40 faizə qədər artır.

Göründüyü kimi, kiçik və orta müəssisələrin ölkənin xarici ticarətində böyük rol oynaması həm iqtisadi, həm də sosial əhəmiyyəti baxımından çox faydalıdır. Bununla yanaşı, kiçik və orta müəssisələrin ölkənin ixracat məhsullarında payının artması sosial-iqtisadi problemlərin həll olunmasına, xüsusilə, yeni iş yerlərinin yaranmasına, xarici valyuta daxilolmaları hesabına ölkənin valyuta ehtiyatlarının artmasına və ən başlıcası isə inteqrasiya prosesinin güclənməsinə geniş imkanlar yaradır.

Beləliklə, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən belə qənaətə gəlmək olar ki, kiçik müəssisələr ümumi iqtisadi kateqoriya olmaqla yanaşı, yeni iş yerlərinin yaranmasında, texnologiya və texniki vasitələrin tətbiqində, xarici ticarətin inkişafında, inteqrasiya prosesinin sürətlənməsində, daxili və xarici bazarda istehlakçıların tələbatının onların zövqünə uyğun surətdə dolğun təmin olunmasında, məhsul istehsalının və satışının artmasında, böhran vaxtı meydana çıxan sosial- iqtisadi məsələlərin, xüsusilə də işsizlik problemlərinin aradan qaldırılmasında və s. bu kimi digər problemlərin həllində mühüm rol oynamaqla, son nəticə etibarilə olduqca böyük sosial-iqtisadi əhəmiyyətə malikdir.

Ümumiyyətlə ölkədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi ümummilli liderin daim diqqət mərkəzində idi. Bu məqsədlə o, iki dəfə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Dövlət Proqramı imzalamışdır. 1-ci proqram 1997-2000-ci illəri, 2-ci proqram isə 2002-2005- ci illəri əhatə edirdi.

Kiçik sahibkarlıq subyektlərinin inkişafında ümummilli liderin 1999-cu ilin iyun ayının 4-də imzaladığı “Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanunu olduqca mühüm rol oynadı. Bu Qanuna əsasən, kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin

aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur:

- kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;
- kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf-müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun) vergitutma, statistik və mühasibat hesablarının təqdim edilməsinin, onların fəaliyyətinin lisenziyalaşdırılmasının və istehsal etdikləri məhsulun (işin, xidmətin) sertifikatlaşdırılmasmın sadələşdirilmiş sisteminin tətbiqi;
- kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili.

Qanuna uyğun olaraq kiçik sahibkarlığa kömək aşağıdakı tədbirləri əhatə edir:

- sahibkarlığın normativ hüquqi bazasının təkmilləşdirilməsi;
- mərkəzi, regional və yerli səviyyələrdə kiçik sahibkarlığın inkişafına dəstək verən infrastrukturun yaradılması;
- əhalinin sosial cəhətdən daha az təmin olunan təbəqələrinin, o cümlədən işsizlərin, qaçqınların və məcburi köçkünlərin, əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi;
- kiçik sahibkarlıq həvəsləndirmə sisteminin formalaşdırılması və ona maliyyə köməyinin göstərilməsi;
- kiçik sahibkarlıq strukturlarının inkişafı üzrə tədqiqatların aparılması;
- istehsal yönümlü kiçik sahibkarlığa dövlət himayədarlığının təmin edilməsi.

Məhz bu Qanunda ilk dəfə olaraq kiçik sahibkarlıq subyektlərinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi qüv-

vəyə mindikdən sonra vahid vergi dərəcəsinin tətbiq olunması öz əksini tapdı.

Ulu öndərin bilavasitə rəhbərliyi altında həyata keçirilən bu siyasət kiçik sahibkarlıq subyektlərinin sayının artmasına, onların respublikanın xalq təsərrüfatında rolunun yüksəlməsinə səbəb oldu. Bu deyilənləri cədvəl 8-in göstəriciləri də təsdiq edir.

**Codv.ll 8**

**Qeydo alınmış kiçik müəssisələrin sayı (01 yanvar tarixi)**

| Göstəricilər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| **Kiçik müəssisələrin sayı** | **46975** | **47565** | **49527** | **47211** | 5189 | **55503** |
| **2002-ci ilə nəzərən (%-lə)** | | **101,3** | **105,4** | **100,5** | **110,5** | **118.2** |
| **o cümlədən:** | | | | | | |
| **Kənd təsərrüfatı, ovçuluq və meşəçilik** | **8618** | **8097** | **7865** | **7934** | **8438** | **8573** |
| **Balıqçılıq, balıqyetişdirmə** | **57** | **58** | **67** | **73** | **79** | **83** |
| **Mədənçıxarma sənayesi və karxanaların işlənməsi** | **223** | **259** | **302** | **349** | **433** | **507** |
| **Emal sənayesi** | **4000** | **4174** | **4487** | **4695** | **5041** | **5285** |
| **Elektrik eneıjisi, qaz v? su təchizatı** | **190** | **213** | **212** | **183** | **165** | **164** |
| **Tikinti** | **4105** | **4223** | **4530** | **4830** | **5503** | **5601** |
| **Topdan və pərakəndə satış, avtomobillərin, motosikletlərin,məişət mallan və şəxsi əşyaların təmiri** | **18284** | **18838** | **20165** | **19743** | **2190 5** | **23746** |
| **Mehmanxanalar və restoranlar** | **811** | **848** | **876** | **623** | **670** | **739** |
| **Nəqliyyat, anbar təsərrüfatı və rabitə** | **1086** | **1212** | **1338** | **987** | **1137** | **1360** |
| **Maliyyə vasitəçiliyi** | **728** | **710** | **630** | **383** | **391** | **434** |
| **Daşınmaz əmlakla əməliyyatlar, icarə və kommersiya fəaliyyəti** | **5172** | **5236** | **5428** | **4742** | **5227** | **5600** |
| **Təhsil** | **224** | **229** | **229** | **171** | **238** | **229** |
| **Səhiyyə və sosial xidmətlər** | **869** | **896** | **909** | **661** | **746** | **838** |
| **Digər kommunal, sosial və fərdi xidmətlər** | **2608** | **2572** | **2489** | **1837** | **1920** | **2030** |

Cədvəl 8-dən göründüyü kimi, demək olar ki, əksər fəaliyyət sahələri üzrə kiçik sahibkarlıq subyektlərinin sayının dinamikasında baxılan müddət ərzində nəzərəçarpacaq artım müşahidə olunmaqdadır. Belə ki, 2002-ci ilin 1 yanvar tarixinə ilə müqayisədə 2007-ci il 1 yanvar tarixə kiçik müəssisələrin sayı 18,2 faiz artmışdır. Bu, ilk növbədə, onların fəaliyyəti

üçün dövlət qayğısının nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin “Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında” 7 yanvar 1999-cu il tarixli fərmanı sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin gücləndirilməsinə, sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin səmərəliliyinin yüksəldilməsinə, dövlət orqanları ilə sahibkarlıq strukturları arasında etibarlı və şəffaf əlaqə mexanizminin qurulmasına, sahibkarlıq mühitinin sağlamlaşdırılmasına istiqamətlənmişdi.

Ümummilli lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli “Azərbaycan Respublikasının sahibkarlığın inkişafının dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” fərmanı sahibkarlığın inkişafını sürətləndirən yeni bir mərhələnin əsasını qoydu. Bu fərmanda rəqabətə davamlı istehsal sahələrinin inkişafı, məhsul bolluğunun yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi üçün sahibkarlığın inkişafına dövlət köməyinin daha da artırılmasının vacibliyi qeyd olunmuşdu.

“Azərbaycan Respublikasının sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” fərmanda sözügedən vəzifələrin həyata keçirilməsi üçün müvafiq dövlət və hökumət strukturlarının üzərinə düşən vəzifələr dəqiq müəyyənləşdirilmiş, regionlarda sahibkarlar üçün tətbiq olunan vergilərin aşağı salınmasının zəruriliyi qeyd edilmiş, 2003-2005-ci illərdə sahibkarlığın inkişafına 250 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdu. Fərmanın ən mühüm məqamlarından biri ondan ibarət idi ki, inhisarçılığm mümkün qədər məhdudlaşdırılması məsələsi də burada öz əksini tapmışdı.

28 sentyabr 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” fərman imzaladı. Bu fərman bəzi dövlət orqanları və hakimiyyət strukturları tərəfindən sahibkarlıq fəaliyyətinə müdaxilələrə son qoyulması, qanunsuz yoxlamalar aparılmasının dayandırılması, vergi ödənilməsində yol verilən qüsurların aradan qaldırılması kimi mühüm məsələlərin həllini nəzərdə tuturdu.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində ərzaq

bolluğunun yaradılması mühüm ohomiyyət kəsb edir. Bu isə ilk növbədə kənd təsərrüfatının dinamik inkişafı sayəsində mümkündür. Ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, bu sahənin inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən torpaq islahatı əhəmiyyətli rol oynadı.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və bu sahədə sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə ölkə Prezidenti Heydər Əliyev 27 noyabr 2001-ci il tarixdə "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu imzaladı. Bu Qanuna əsasən;

1. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər 2001-ci il yanvarın 1-dən başlayaraq 3 il müddətinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.

2. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) fiziki şəxslər 2001-ci il yanvarın 1-dən başlayaraq 3 il müddətinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.

Ulu öndərin siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 noyabr 2003-cü il tarixdə "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvədə olma müddətinin daha 5 il uzadılması barədə qərar qəbul etdi.

Həyata keçirilən bu uzaqgörən tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının dinamik artımına nail olundu. Bu gün yerli fermerlər əksər kənd təsərrüfatı məhsullarına olan daxili tələbatı tam ödəyirlər, taxıl kimi mühüm strateji əhəmiyyət kəsb edən məhsula olan tələbatın isə, demək olar ki, 70 faizi daxili istehsal hesabına ödənilir.

Heydər Əliyev ideyalarının davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev sahibkarlığın inkişafı məsələsini daim

diqqət mərkəzində saxlayır, özəl sektorun inkişafına mane olan amillərin müəyyənləşdirilməsi, sahibkarlığın qarşılaşdığı problemlərin həlli üçün işlək mexanizmlərin yaradılması istiqamətində böyük işlər görür. Azərbaycan Prezidenti sahibkarlarla keçirdiyi görüşlərində daim bəyan edir ki, özəl biznesin inkişafına dövlət qayğısının artırılmasını həmişə diqqət mərkəzində saxlayacaq və bu sahədə mövcud problemlərin həlli istiqamətində bütün zəruri tədbirlərin görülməsinə şəxsən özü nəzarət edəcəkdir: “Biz sahibkarları qorumalıyıq. Bu, mənim mövqeyimdir, mənim siyasətimdir”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 dekabr 2003-cü ildə imzaladığı “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə “Azərbaycan Respublikasının Qanunu”nun tətbiq edilməsi haqqında”, “Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə “Azərbaycan Respublikasının Qanununa tətbiq edilməsi haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında” fərmanları ümummilli lider Heydər Əliyevin başladığı bu siyasətin müvəffəqiyyətlə davam etdirildiyini bir daha nümayiş etdirdi.

Qeyd etmək yerinə düşər ki, möhtərəm Prezidentin “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2004-cü il tarixli fərmanında sahibkarlığın inkişafı ilə bağlı əvvəllər qəbul olunmuş qərarların icrasının sürətləndirilməsi, bu işdə qarşıya çıxan maneələrin aradan qaldırılması üçün qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlərin görülməsinin zəruriliyi vurğulanmışdı. Bu fərman həm də dövlət əmlakının özəlləş-dirilməsinin II Dövlət Proqramına uyğun olaraq özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinin özəlləşdiril- məsinin və idarəetməyə verilməsinin sürətləndirilməsini, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılmasını və haqsız rəqabətin qarşısının alınması məqsədilə qanunvericilik çərçivəsində zəruri tədbirlərin həyata keçirilməsini, sahibkarların maliyyə

resurslarına ehtiyacını daha dolğun ödəmək məqsədilə verilən kreditlər üçün girov təminatının təkmilləşdirilməsini nəzərdə tutmuşdur.

Sözügedən fərmandan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi Azərbaycan Prezidentinin özəl sektorun dirçəldilməsinə nə qədər böyük önəm verdiyini bir daha nümayiş etdirir. Təsadüfi deyil ki, cənab İlham Əliyev ən müxtəlif səviyyəli görüşlərdə və nitqlərində həmişə bu məsələyə xüsusi toxunur və bildirir ki, sahibkarlığın inkişafı dövlət üçün prioritet təşkil edən məsələlər sırasında dayanır.

Bununla da, dövlət başçısı ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş prinsip və ideyaları inkişaf etdirir. Çünki ölkəmizdə sahibkarlığın inkişafı məsələsinə ilk dəfə məhz dövlətimizin qurucusu Heydər Əliyev diqqət yetirmişdir və Azərbaycan, özəl sektorun formalaşdırılması da onun tarixi xidmətlərindən biri kimi qiymətləndirilir.

2004-cü ilin fevralında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı'' Prezident İlham Əliyev tərəfindən təsdiq edildi. Bu sənəd ölkəmizin ümumi iqtisadi inkişafını stimullaşdıran konsepsiya kimi qiymətləndirilə bilər. Dövlət proqramında regionlarda sahibkarlığın inkişafı məqsədilə daha əlverişli şəraitin yaradılması üçün görüləcək işlərin dəqiq siyahısı müəyyənləşdirilmişdir.

Proqramda öz əksini tapmış məqsədlərin reallaşdırılması üçün bölgələrdə yerləşən müəssisələrin istehsal fəaliyyəti bərpa edilir, yerli resurslardan istifadənin səmərəsini artırmaqdan ötrü müvafiq tədbirlər həyata keçirilir, regionların inkişafına imkan verən zəruri infrastruktur formalaşdırılır, aqrar sahədə islahatların ikinci mərhələsinin reallaşdırılması sürətləndirilir, sərmayəçilərin fəaliyyətinə əlverişli şərait yaradılır. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi Azərbaycanda özəl sektorun daha sürətli inkişafına nail olmağa imkan verir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər sayəsində özəl sektor dinamik şəkildə sürətlə inkişaf etməkdədir. Bu deyilənləri cədvəl 9-un göstəriciləri də sübut edir.

Cədvəl 9

**Ümumi daxili məhsulun dövlət və qeyri-dövlət sektorları üzrə bölgüsü**

| Göstəricilər | Ölçü vahidi | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsulun həcmi | mlrd. man. | 6,06 | 7,01 | 8,37 | 11,88 | 18,04 | 25,23 |
| Dövlət sektoru üzrə | mlrd. man. | 1,64 | 1,87 | 1,97 | 2,47 | 3,43 | 4,04 |
| Dövlət sektorunun xüsusi çəkisi | % | 27,01 | 26,7 | 23,5 | 20,79 | 19,0 | 16,0 |
| Qeyri-dövlət sektoru üzrə | mlrd. man. | 4,42 | 5,14 | 6,40 | 9,41 | 14,61 | 21,19 |
| Qeyri-dövlət sektorunun xüsusi çəkisi | % | 72,99 | 73,3 | 76,5 | 80,21 | 21,0 | 84,0 |

Cədvəl 9-dan göründüyü kimi, 2002-2007-ci illər ərzində ümumi daxili məhsulun tərkibində özəl sektoru payı dinamik surətdə artmışdır. 2002-ci illə müqayisədə 2007-ci ildə ümumi daxili məhsul istehsalında qeyri-dövlət sektorunun payı 11,1 bənd artaraq 84 faiz təşkil etmişdir. Həmin dövr ərzində özəl bölmədə məhsul, iş, xidmət istehsalının həcmi 4,8 dəfə artaraq 2002-ci ildəki 4,42 milyard manata qarşı 2007-ci ildə 21,19 milyard manat təşkil etmişdir.

Bununla əlaqədar olaraq, həmin dövr ərzində vergi daxilolmalarının tərkibində qeyri-dövlət sektorundan daxilolmaların həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. Bunu cədvəl 10-un məlumatları da təsdiq edir.

Cədvəl 10-dan göründüyü kimi, təhlilin aparıldığı dövr ərzində qeyri-dövlət sektoru üzrə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ilbəil artmışdır. Belə ki, 2002-ci ildə qeyri-dövlət sektoru üzrə vergi daxilolmalarının xüsusi çəkisi cəmi 28 faiz olduğu halda, 2007-ci ildə bu rəqəm 43,2 bənd artaraq 71,2 faiz təşkil etmişdir. Əgər 2002-ci ildə qeyri-dövlət sektorunun ödədiyi vergilərin məbləği 0,258 milyard manat təşkil etmişdisə, 2007-ci ildə onun həcmi 12 dəfədən də çox artaraq 3.21 milyard manat təşkil etmişdir.

Cədvəl 10

**Vergi daxilolmalarının dövlət və qeyri-dövlət sektorları üzrə bölgüsü**

| Göstəricilər | ölçü vahidi | *2002* | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|
| Vergi daxilolmaları | mlrd. man. | 0,679 | 0,823 | 1,01 | 1,43 | 2,72 | 4,54 |
| Dövlət sektoru üzrə vergi daxilolmaları | mlrd. man. | 0,421 | 0,477 | 0,487 | 0,667 | 0,84 | 1,31 |
| Dövlət sektoru üzrə vergi daxilolmalarının xüsusi çəkisi. | % | 62,0 | 57,9 | 48,2 | 46,6 | 30,9 | 28,8 |
| Qeyri-dövlət sektoru üzrə vergi daxilolmaları | mlrd. man. | 0,258 | 0.346 | 0,523 | 0,763 | 1,88 | 3,23 |
| Qeyri-dövlət sektoru üzrə vergi daxilolmalarının xüsusi çəkisi | % | 28,0 | 42,1 | 51,8 | 53,4 | 69,1 | 71,2 |

Beləliklə, əsası ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün sahibkarlıq sektoru iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilmişdir.

**iqtisadi tərəqqi və**

müasir vergi
sistemi

VE

# RGİ

siyasəti

**Hər bir vətəndaş vergi ödəməkdən şərəf duymalıdır.**

**Heydər Əliyev**

Heydər Əliyev şəxsiyyətinin unikallığı həm də onda olmuşdur ki, o, həyatın bütün sahələrinə dair zəngin təcrübəyə, dərin elmi biliyə və xüsusi idarəetmə metoduna malik idi. Azərbaycan Respublikasının vergi sisteminin formalaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması da bilavasitə bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Bu, tarixi bir gerçəklikdir ki, ümummilli liderin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışına qədər Azərbaycanda vergi orqanları fəaliyyət göstərirdi. Lakin bu xidmətin mövcudluğuna baxmayaraq, vergi sistemi mükəmməl deyildi və

vahid vergi siyasəti həyata keçirilmirdi. Məhz Heydər Əliyev vergi sistemini iqtisadi idarəetmənin çox vacib tərkib hissəsi kimi qiymətləndirdi, onu yeni dövrün tələblərinə uyğun fəlsəfi, sosial və hüquqi kateqoriya kimi dəyərləndirdi. Buna görə də Azərbaycanın bu gün malik olduğu vergi sistemi və apardığı vergi siyasəti beynəlxalq qurumlar tərəfindən çox yüksək qiymətləndirilir.

Vergi sistemi anlayışı vergilərin yaranması və inkişafı nəticəsində təşəkkül tapmışdır. Vergilərə vergi ödəyiciləri ilə dövlət büdcəsinin qarşılıqlı maliyyə münasibətləri kimi baxmaq olar. Bu zaman maliyyə ehtiyatlarının dövlət büdcəsində konsentrasiyası baş verir. Vergi sistemi isə bu prosesi onun vəzifə, forma, üsul və prinsiplərini müəyyən etməklə inkişaf etdirir və konkretləşdirir.

Dövlət tərəfindən təyin edilən və dövlət büdcəsinin maliyyə ehtiyatlarının yaradılması məqsədini güdən vergi, yığım, rüsum və digər ödənişlər, həmçinin onların yığılmasının forma, üsul və prinsipləri vergi sisteminin əsasını təşkil edir.

Vergi sistemləri vergilərin sayı, növü və strukturu, tutulma üsulları, dərəcələri və s.-dən asılı olaraq bir-birindən əsaslı surətdə fərqlənirlər. Buna görə də praktikada onlara çoxsaylı milli xüsusiyyətlərə malik müxtəlif formalarda rast gəlinir.

Vergi sistemi ayrıca olaraq götürülmüş bir ölkədə onu bilavasitə formalaşdıran əsas elementlərin qarşılıqlı əlaqəli məcmusudur. Bu elementlər aşağıdakılardır:

- vergi qanunvericiliyi sistemi və prinsipləri;
- vergi siyasətinin prinsipləri;
- vergilərin təyin edilməsi qaydaları;
- vergilərin növləri və elementləri;
- vergilərin büdcə üzrə bölüşdürülməsi qaydası;
- vergi orqanları sistemi;
- vergi nəzarətinin forma və üsulları;
- vergilərin hesablanması və ödənilməsi qaydaları.

Müasir vergi sistemi sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla bazar münasibətləri tələblərinə əsaslanmalıdır. O, büdcə gəlirlərinin yığılmasını təmin etməli, əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölüşdürülməsi xüsusiyyətlərini nəzərə almaqla, bütövlükdə və xalq təsərrüfatının ayrı-ayrı sahələrində istehsalın tənzim

lənməsi üçün şərait yaratmalıdır

Vergi münasibətləri yenidən bölüşdürücü xarakterli olduğundan ictimai tərəqqi xeyli dərəcədə bu münasibətlərin inkişaf səviyyəsindən asılıdır. İqtisadiyyatda bazar münasibətlərinin formalaşdırılması istiqamətində islahatların həyata keçirilməsi səmərəli vergitutma sistemi yaratmadan mümkün deyildir. Vergi münasibətlərinin təkmilləşdirilməsi bütün dövlətlərin fəaliyyətinin ən vacib, eyni zamanda, mürəkkəb sahələrindən hesab olunur. Sosial yönümlü bazar iqtisadiyyatlı bütün ölkələrdə vergi sistemi iqtisadiyyatın tənzimlənməsində, büdcə gəlirlərinin formalaşmasında, qiymət artımının məhdudlaşdınlmasında, inflyasiyanın qarşısının alınmasında dövlət maraqlarının əsas daşıyıcısı kimi çıxış edir. Vergi sistemi təkrar istehsal prosesinin iştirakçılarının iqtisadi maraqlarını ifadə etməklə, onların tarazlığını və bununla da ictimai tərəqqini təmin edir.

Bütün bunlar vergi sisteminin nəzəri və praktiki məsələlərinin hərtərəfli araşdırılmasının vacibliyini ön plana çəkir. Optimal vergi sisteminin qurulması vergitutmanın metodoloji və metodiki əsaslarına yenidən baxılmasını tələb edir. Vergilər yalnız proqnozlaşdırılmış büdcənin təmin edilməsi aləti deyil, həm də iqtisadiyyatın inkişafının güclü stimuluna çevrilməlidir.

Onlar iqtisadi münasibətlərin təkmilləşməsinə, maraqların tarazlaşmasına, paritet əsaslarla mülkiyyətin bütün formalarının inkişafına kömək etməlidir.

İstənilən iqtisadi qanun iqtisadi münasibətlərin fəaliyyətinin əsas prinsiplərini müəyyən etdiyindən, o, dövlətin və cəmiyyətin cari tələblərinə uyğunlaşdırılmamalı, dövlətin perspektiv maraqlarından asılı olmalıdır. İqtisadi qanunlar ictimai inkişafın fundamental tendensiyasını əks etdirir. Vergi sistemi iqtisadiyyatın inkişaf prosesinə təsir edən bölüşdürücü münasibətlərin qanunauyğunluqlarından çıxış edərək qurulmalıdır. Vergitutma təlimi iqtisadi qanunauyğunluqları dərk edərək vergi sisteminin fəaliyyətinin prinsiplərini müəyyən edir, ayrı-ayrı vergi ödənişlərinin hesablanması metodikasını təklif edir.

Müasir vergi sisteminin əsas prinsipləri kimi aşağıdakıları qeyd etmək olar:

- hər bir hüquqi və fiziki şəxs mövcud qanunvericilik çərçivəsində vergi ödəməlidir;

- vergilər cəmiyyətin və dövlətin inkişafının maliyyə təminatı məqsədini güdməlidir;

- vergilər siyasi, ideoloji, etnik və bu kimi digər meyarlardan asılı olmayaraq tətbiq edilməlidir.

Milli vergi sistemləri fərqli olduqlarından onların əsasında duran iqtisadi, hüquqi və ləşkilati prinsiplər də bir-birindən fərqlənir.

Vergi sisteminin strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsidir.

Vergi sisteminin strateji inkişaf istiqamətləri vergitutma ağırlığının əmək, innovasiya və investisiya fəaliyyətindən neqativ ekoloji və sosial nəticələrə səbəb olan fəaliyyət növlərinə yönəldilməsini təmin etməlidir.

Vergi sistemi dövlətin vergi siyasətinin aşağıdakı xüsusiyyətlərini özündə əks etdirməlidir:

1. Mövcud vergi dərəcələrinin radikal aşağı salınması yolu ilə iqtisadiyyatın inkişafını ləngidən destruktiv amillər (inflyasiya, iqtisadi artım tempinin aşağı düşməsi, işsizlik, "gizli" iqtisadiyyatın xüsusi çəkisinin artması və s.) ilə mübarizə;

2. Təklif iqtisadiyyatının nəzəri müddəalarına əsaslanaraq, vergi dərəcələrinin aşağı salınması;

3. Ölkədə əlverişli vergi mühitinin yaradılması, əmanətlərin və investisiyanın artırılmasının stimullaşdırılmasınm təmin edilməsi.

Vergilərin tənzimləyici funksiyasından və vergi dərəcələrinin aşağı salınmasının müsbət təsir vasitələrindən istifadə edilməklə:

- əmək və sahibkarlıq fəaliyyətində aktivliyə stimul yaradılmalı;

- istehsal həcmi artırılmalı və əmək məhsuldarlığı yüksəldilməli;

- gəlirin vergiyə cəlb edilməsi aşağı salınmaqla istehlak həcmi maksimum dərəcədə artırılmalı;

- dövlət büdcəsindən daha səmərəli istifadə edilməsi nəticəsində dövlət gəlirləri artırılmalı (milli gəlirin artırılması hesabına);

- iqtisadiyyata dövlət müdaxiləsinin səviyyəsi məhdud

laşdırılmalı;

- qiymətlər və inflyasiyanın səviyyəsi aşağı salınmalı;
- leqal və "gizli" iqtisadiyyatın nisbəti birincinin xeyrinə dəyişdirilməlidir.

Vergi sisteminin strukturu mərkəzi aparat və bilavasitə ona tabe olan vergi orqanlarından ibarət vahid mərkəzləşdirilmiş sistemdir. Zaman və məkan meyarlarından asılı olmayaraq vergi sisteminin strukturu vergi ödəyicisi və vergi orqanlannm əlaqələri ilə ifadə olunan vergi münasibətlərinin təməlini təyin etməli və mütəmadi olaraq vergi sisteminin təkmilləşdirilmə- sinə şərait yaratmalıdır.

Vergi sisteminin strukturu aşağıdakı iqtisadi-funksional və təşkilati-hüquqi prinsiplər əsasında qurulmalıdır.

İqtisadi-funksional prinsiplərə aşağıdakılar daxildir:

- vergi qanunlarının sabitliyi, dayanıqlığı və əks - təsirinin olmaması;
- universal vergitutmaya nail olunması;
- vergilərin alınmasının birdəfəliliyi;
- vergitutmanm neytrallılığı, şəffaflığı və etibarlılığı;
- vergi hüququnun bütün subyektləri üçün vergi yükü gərginliyinin bərabərliyi;
- vergitutmanm funksiyaları arasında nisbi bərabərliyin təmin olunması;
- iqtisadi maraqların nisbi bərabərliyinin təmin olunması;
- vergi idarəetməsinin repressiv cəzalandırma hallarına yol verilməməsi.

Təşkilati - hüquqi prinsiplərə aşağıdakılar daxildir:

- mərkəzləşdirmə:
- vahidlik.

Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində vergi sistemində meydana çıxan vergi hüququ münasibətlərinin tənzimlənməsində mükəmməl normativ hüquqi bazanın olması mühüm rol oynayır.

Vergi sisteminin normativ-hüquqi bazası dedikdə, qanunların və bu qanunlara uyğun olaraq qəbul edilmiş normativ- hüquqi aktların məcmusu başa düşülür. Ölkənin vergi sisteminin normativ-hüquqi bazası, ilk növbədə, konstitusiya hüququna, sonra isə mülki, inzibati, cinayət və maliyyə hüquqlarına istinad etməlidir. Vergi sisteminin normativ-

hüquqi bazası funksional sistem kimi aşağıdakı funksiyaları yerinə yetirməlidir:

- vergilərin müəyyən edilməsi;
- vergilərin tutulması və ödənilməsi qaydalarının müəyyən edilməsi;
- vergi ödəyicilərinin və dövlət vergi xidməti orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrinin müəyyən edilməsi;
- vergi qanunvericiliyinin pozulmasına görə vergi məsuliyyəti tədbirlərinin və onların tətbiqi qaydalarının müəyyən edilməsi.

Vergi sisteminin ən vacib atributlarından biri onun normativ-hüquqi bazasının sabitliyidir ki, bu da sahibkarlığın inkişafı və xarici investorların cəlb edilməsi üçün əlverişli şərait yaradılmasına imkan verir.

Vergi sisteminin normativ-hüquqi bazası yaradılarkən aşağıdakı prinsiplər rəhbər tutulmalıdır:

1. Bütün təsərrüfat subyektlərinin və vətəndaşların qanun qarşısında hüquq bərabərliyi;
2. Vergi ödəyicilərinin bəzi kateqoriyalarına verilən vergi imtiyazlarının qanunla təsdiq olunması;
3. Vergi siyasətinin sabitliyi və ardıcıllığı;
4. Vergi şəffaflığının təmin olunması;:
5. Proqressiv vergitutma formalarına üstünlük verilməsi;
6. Vergi xidməti orqanlarının qeyri-qanuni hərəkətlərinə yol verilməməsi.

Vergi sisteminin təkmilləşdirilməsində və onun müasir tələblərə uyğun səviyyəyə çatdırılmasında informasiya təminatının böyük rolu vardır.

Vergi sisteminin informasiya təminatı o vaxt yüksək səviyyədə təşkil olunmuş hesab edilə bilər ki, vergi sistemində istifadə olunan məlumatlar aşağıdakı xüsusiyyətlərə malik olsun:

- operativlik;
- dürüstlük;
- qənaətbəxşlik.

Vergi sisteminin informasiya təminatının müasir tələblərə uyğun səviyyəyə çatdırılması istiqamətində mühüm addımlardan biri bu sistemin tamamilə kompüterləşdirilməsidir. Belə ki, vergi və tədiyələr üzrə daxilolma və hesabatlar haqqında

məlumatların tez bir zamanda toplanması və işlənməsi, habelə bu məlumatların nəzarət və analitik təhlillər üçün mərkəzi vergi orqanına operativ ötürülməsini təmin etmək məqsədi ilə vergi orqanlarında Vahid İnformasiya Sistemi yaradılmalıdır. Bunun üçün aşağıdakı işlərin vahid layihə əsasında həyata keçirilməsi məqsədəuyğundur:

- yerli vergi orqanlarında aparılan bütün uçot və hesabat işlərinin yeni proqram sistemlərindən istifadə etməklə avtomatlaşdırılması;
- qlobal kompüter şəbəkəsi vasitəsilə bu məlumatların mərkəzi aparata operativ ötürülməsinin, operativ nəzarətin və analitik təhlilin təmin edilməsi;
- mərkəzi vergi orqanlarının iqtisadi qurumlarla informasiya təminatı sahəsində inteqrasiyasının və qarşılıqlı məlumatlar mübadiləsinin həyata keçirilməsinin təşkili.

Vergi sistemində idarəetmə bazar iqtisadiyyatının tələblərinə, ictimai-siyasi həyatda aparılan demokratikləşmə proseslərinə uyğun qurulmalı, onun planlaşdırma, əlaqələndirmə, tənzimləmə, nəzarət və s. funksiyaları yeni məzmun və formalarda tətbiq olunmalıdır.

İdarəetmənin əsas məqsədi elə funksional idarəetmə modelinin yaradılmasından ibarət olmalıdır ki, inzibati funksiyaların bölüşdürülməsi öz-özünə nəzarəti təmin etsin, yəni hər bir mütəxəssisin yerinə yetirdiyi funksiya həm də digər funksiyanı yerinə yetirən əməkdaş üçün nəzarəti həyata keçirsin.

Eyni qayda ilə yeni strukturda elə daxili audit sisteminin qurulması nəzərdə tutulmalıdır ki, həm bütövlükdə vergi sistemi, həm də ayrı-ayrılıqda əməkdaşların fəaliyyəti maliyyə hesabatı ilə əhatə olunsun və eyni zamanda vergi orqanlarının vergi ödəyiciləri, vergi agentləri və onların səlahiyyətli nümayəndələri ilə aparmalı olduğu vergi siyasətinin həyata keçirilməsi təmin olunsun.

Dövlət idarəetmə orqanları ilə büdcə-vergi, pul-kredit sferaları və dövlət müəssisələri, eyni zamanda, dövlət və özəl sektorlar arasındakı idarəetmə funksiyalarının sərhədlərinin müəyyən edilməsi və məhdudlaşdırılması xüsusi mexanizmlə tənzimlənməlidir.

Yeni funksional idarəetmə modeli vergi sistemində dövlət

siyasətinin həyata keçirilməsini, vergi sisteminin və vergi ödəyicilərinin fəaliyyətinin vergi qanunvericiliyinə uyğun tənzimlənməsini, vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunun və vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sisteminin təşkilini, dövlət və özəl sektorların fəaliyyəti üçün bərabər şəraitin, xarici və yerli investisiyaların cəlb olunması üçün əlverişli vergi mühitinin yaradılmasını təmin etməlidir.

İqtisadiyyatın infrastrukturunun kökündən dəyişməsi, kiçik və orta müəssisələrin iqtisadiyyatda aparıcı rol oynaması, qarışıq iqtisadiyyatın rəqabət sisteminin formalaşması səviyyəsindən və meyillərindən asılı olaraq, istehsal profillərinin tez-tez dəyişməsi vergi sistemini çevik təfəkkürə malik, təşəbbüskar və işgüzar kadrlarla, xüsusilə də iqtisadçı, mühasib və hüquqşünas ixtisasları üzrə iş təcrübəsinə və təşkilatçılıq qabiliyyətinə malik mütəxəssislərlə təmin olunmasını tələb edir.

Kadr siyasətinin əsasım təşkil edən məşğulluq, təhsil, əmək haqqı, istehsal münasibətləri və maddi rifah siyasətində ədalətlilik, bərabərlik və ardıcıllıq əsas götürülməlidir.

Vergi sisteminin inkişafından asılı olaraq kadr tələbatı proqnozlaşdırılmalı, tələbata uyğun olan mütəxəssis hazırlığının cari və perspektiv strukturu və həcmi müəyyən edilməlidir.

Vergi sisteminm kadr təminatı mövcud kadr potensialının ixtisasının artırılması və yenidən hazırlanması yolu ilə həyata keçirilməlidir.

Bu tədbirlərin həyata keçirilməsi güclü maddi-texniki bazaya əsaslanmalıdır.

Vergi sisteminin maddi-texniki bazası, ilk növbədə, dövlət büdcəsinin vəsaitləri hesabına formalaşır. Odur ki, büdcə vəsaitlərindən istifadə zamanı səmərəlilik prinsipi əsas götürülməlidir. Yəni mövcud büdcə təxsisatı çərçivəsində vergi sisteminin funksiyalarını yerinə yetirməsi üçün zəruri bazanın təşkili təmin olunmalıdır.

Maddi-texniki bazanın digər maliyyələşdirmə mənbəyi vergi orqanlarının maddi həvəsləndirmə və inkişaf fondunun vəsaitləridir. Bu fondun vəsaitləri əsasən büdcə təxsisatları vasitəsilə həyata keçirilə bilməyən tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur və vergi orqanları tərəfindən dövlət

büdcəsi gəlirlərinin vaxtında və tam daxil olmasının təmin edilməsindən asılı olaraq formalaşır.

Maddi-texniki bazanın düzgün təşkili aşağıdakıları təmin etməlidir:

- vergi orqanlarının səmərəli idarəetmə strukturunun saxlanılması;
- vergi xidməti əməkdaşları üçün stasionar avtomatlaşdırılmış iş yerlərinin yaradılması;
- vergi orqanlarının əməkdaşları tərəfindən səyyar tədbirlərin həyata keçirilməsinin operativliyinin və səmərəliliyinin təmin edilməsi;
- vergi orqanlarının struktur bölmələrinin digər müvafiq dövlət orqanları ilə informasiya mübadiləsinin və vahid informasiya bazasının təşkili;
- kadr hazırlığı və onların ixtisasının artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- vergi maarifləndirilməsi, təbliğatı və reklamının təşkili üçün şəraitin yaradılması;
- vergi xidməti əməkdaşlanm maddi təminatı, həvəsləndirilməsi və onların sosial-mədəni inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- vergi xidməti əməkdaşlarının pensiya təminatı.

Maddi-texniki baza vergi orqanlarının xarici əlaqələrinin təşviqi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, habelə mübadiləsi üçün şəraiti təmin etməlidir.

İqtisadi bazisin imkan və tələblərinə maksimum uyğun gələn vergi sisteminin qurulması konkret bir dövrə uyğun gələn vergi mexanizmlərinin yaradılması üçün əsasdır. Elmi cəhətdən əsaslandırılmış vergitutma konsepsiyasının və konkret vergi mexanizmlərinin yaradılması çətin və xeyli vaxt tələb edən bir prosesdir.

Vergitutma sisteminin təkmilləşdirilməsi möhkəm iqtisadi bazanın yaradılması ilə qırılmaz surətdə bağlıdır. Bu istiqamətdə islahatların həyata keçirilməsi vergi sisteminin strukturunun təkmilləşdirilməsinə, onun tədricən iqtisadi artımın bir amilinə çevrilməsinə gətirib çıxarır.

Vergi sistemi bir sıra iqtisadi göstəricilərlə xarakterizə olunur. İqtisadi göstəricilərə, ilk növbədə, vergi yükü aid edilir. Qeyd etmək lazımdır ki, optimal qurulmuş vergi sistemi, bir

tərəfdən, dövlətin maliyyə ehtiyatlarına olan tələbatını ödəməli, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır. Buna görə də vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür. Elmi cəhətdən sübut edilmişdir ki, səmərəli vergi sistemi vergi ödəyicilərinin gəlirlərinin 30 faizindən çoxunun tutulmasına imkan verməməlidir. Bir sıra ölkələrin, məsələn, İsveçin vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyicisi öz gəlirinin 50 faizindən çoxunu dövlət büdcəsinə ödəyir. Lakin burada heç bir ziddiyyət yoxdur, çünki əksər ölkələrdə vergi ödəyicilərinin öz gəlirləri hesabına həll etdikləri sosial-iqtisadi xarakterli məsələləri bu ölkələrdə dövlət öz hesabına həll edir. Beləliklə, maraqlar balansı gözlənilmiş olur.

Digər iqtisadi göstərici xarici və daxili ticarətdən əldə olunan vergi gəlirlərinin nisbətidir. Əsasən hazır məhsul ixrac edən yüksək inkişaf etmiş ölkələrdə ixrac rüsumları cüzidir, büdcəyə əsas daxilolmalar ölkədaxili ticarətin vergiyə cəlb olunması hesabına baş verir. İnkişaf səviyyəsi aşağı olan ölkələrdə isə ixrac olunan xammala və idxal olunan hazır məhsullara tətbiq edilən gömrük rüsumları və vergilərin hesabına xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin payı yüksək olur.

Vergi sistemini xarakterizə etmək üçün istifadə edilən daha bir iqtisadi göstərici birbaşa və dolayı vergilərin nisbətidir. Bu nisbət ölkənin inkişaf səviyyəsindən asılıdır, çünki dolayı vergilərin yığılması vergi aparatının inkişafını tələb etmir.

Birbaşa vergilərin strukturu da vergi sisteminin iqtisadi göstəricisi kimi çıxış edir. İqtisadi cəhətdən inkişaf elmiş ölkələr üçün gəlir vergisinin, əmlak vergisinin xüsusi çəkisinin yüksək olması xarakterikdir.

Azərbaycan uzun illər ərzində SSRİ-nin tərkibində olduğundan, onun müstəqil vergi sistemi olmamışdır. Sovet İttifaqında vergilərə ideoloji mənada sosialist dövlətinə yad olan element kimi baxırdılar. Hesab edilirdi ki, dövlət sektorunda yaradılan xalis gəlir tamamilə dövlətə məxsus olduğundan vahid sosialist mülkiyyəti çərçivəsində dövlət müəssisələri ilə dövlət arasında heç bir vergi münasibəti ola bilməz.

Rəsmi ideologiya vergi münasibətlərinin mümkünlüyünü inkar etdiyindən, mənfəətdən əsas ödənişlər «ayırmalar» adlanırdı. Məsələn, 1989-cu ildə SSRİ-də yaradılan 268,2 milyard manatlıq mənfəətin 98,7 faizi dövlət müəssisələrində yaradılmışdı və onun da cəmi 36 faizi büdcəyə köçürülmüşdü. Mənfəətin alınması müxtəlif fondlara ayırmalar şəklində baş verirdi.

Yenidənqurma və təsərrüfatçılığın yeni mexanizmlərinə keçid SSRİ-də vergitutmanın dirçəlməsinə səbəb oldu. 1980-ci illərin ikinci yarısından başlayaraq müxtəlif mülkiyyət formalı müəssisələr yaranmağa başladı. Bu isə vergilərə əvvəlki baxışlardan imtina edilməsini tələb edirdi.

14 iyul 1990-cı il «Müəssisə, birlik və təşkilatlardan vergilər haqqında» SSRİ Qanunu qəbul edildi və bu qanun 1991-ci il 1 yanvar tarixindən qüvvəyə mindi. Həmin qanuna əsasən, 1991-ci ildən müəssisələrin vergiyə cəlb edilməsinin əsasını mənfəət vergisi təşkil edirdi. Onun maksimal dərəcəsi 45 faiz həddində müəyyənləşdirilmişdi ki, bunun da 22 faizi İttifaq büdcəsinə daxil olmalı idi. Ayrı-ayrı vergi ödəyiciləri üçün verginin dərəcəsi müxtəlif idi. Məsələn, dövlət ixtisaslaşmış və kommersiya bankları üçün 55 faiz, nizamnamə fondunda xarici iştirakçının payının 30 faizdən çox olduğu birgə müəssisələr üçün 30 faiz müəyyənləşdirildi.

Ümumiyyətlə, bu qanun ölkədə bir sıra vergi münasibətlərini tənzimləyən ilk normativ sənəd idi. Lakin çox keçmədi ki, SSRİ dağıldı və yeni müstəqil dövlətlər yarandı. Beləliklə, müstəqillik əldə edən Azərbaycan Respublikası özünün vergi sistemini yaratmaq məcburiyyətində qaldı.

Azərbaycan Respublikasının müasir vergi sistemi əsaslı iqtisadi dəyişikliklər və bazar münasibətlərinə keçid dövrü olan 1991-1992-ci illərdən başlayaraq təşəkkül tapmışdır. Vergi münasibətlərinin hüquqi tənzimlənməsi təcrübəsinin olmaması, qanunvericiliyin hazırlanması üçün ayrılmış vaxtın az olması, ölkədəki iqtisadi və sosial böhran onun təşəkkül tapmasına bilavasitə öz təsirini göstərmişdir. Ölkənin vergi sisteminin qısa müddət ərzində qurulmasını zəruri edən əsas şərtlərdən biri də 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi nəticəsində büdcənin gəlir hissəsini formalaşdırmaq zərurəti idi.

Bazar iqtisadiyyatına keçid şəraitində məqsədyönlü və ardıcıl iqtisadi siyasətin həyata keçirilməsində, ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi xidməti orqanlarının rolu böyükdür. Azərbaycan Respublikasında bu xidmət bazar münasibətlərinin tənzimlənməsində və dövlət büdcəsinin mədaxil hissəsinin formalaşmasında vergilərin rolunun artması ilə bağlı olaraq, vergilərin tam və vaxtında səfərbər edilməsi, hüquqi və fiziki şəxslər tərəfindən vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə 1990-cı ilin iyul ayında Maliyyə Nazirliyinin tərkibində yaradılmışdı.

1991-ci ilin oktyabr ayının 14-də vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədilə bu xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarıldı və müstəqil orqan - Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi yaradıldı.

Bir qədər irəli gedib qeyd etmək lazımdır ki, sonralar ulu öndərin rəhbərliyi ilə Azərbaycan Respublikasının vergi sistemi yenidən təşkil edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli «Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması haqqında» fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edildi, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam həcmdə yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradıldı.

1991- ci ilin sonuna kimi əsas vergi qanunları - mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər və s. haqqında qanunlar qəbul edildi və beləliklə də, demək olar ki, ölkənin vergi sistemi formalaşmış oldu.

1992- ci il 21 iyul tarixində qəbul edilmiş «Dövlət vergi xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu dövlət vergi xidməti orqanlarının strukturunu, onların hüquq və vəzifələrini müəyyən etdi. Azərbaycan Respublikasının vergi

sistemi yaradılarkən xarici ölkələrin təcrübəsindən geniş istifadə edilmişdir. Məhz buna görə də öz strukturu və quruluş prinsiplərinə görə o, dünya iqtisadiyyatında geniş yayılmış vergitutma sistemlərinə uyğun gəlir. Azərbaycan Respublikasının vergi sisteminin əsas elementləri xarici ölkələrin vergi qanunvericiliyinin sadəcə köçürülməsi deyildir və milli xüsusiyyətlər nəzərə alınmaqla formalaşdırılmışdır.

Yeni yaradılan vergi sisteminin əsas elementi Azərbaycan üçün yeni olan əlavə dəyər vergisi idi. Bu vergi aksiz vergisi ilə birlikdə dövriyyə vergisini əvəz etmiş oldu. Bunun da nəticəsində dolayı vergilər birbaşa vergilərə nisbətən böyük üstünlük əldə etmiş oldu. Dolayı ödənişlər sisteminin daxil edilməsi vergi daxilolmalarının qiymətlərin səviyyəsinin dəyişməsindən mütənasib asılılığı hesabına iqtisadiyyatın maliyyə sağlamlaşdırılması məqsədini güdürdü. Ancaq qiymətlərin liberallaşdırılması şəraitində bu yeni vergi istehlak mallarının və xidmətlərin qiymətlərinin yüksəlməsinə səbəb oldu və yalnız fiskal funksiyanı yerinə yetirirdi.

1990-cı illərin birinci yarısında yüksək inflyasiya və iqtisadiyyatda əsaslı struktur dəyişiklikləri şəraitində büdcəyə zəruri maliyyə ehtiayatlarmm toplanılmasmı təmin etməklə, vergi sistemi, demək olar ki, öz funksiyalarını yerinə yetirirdi. Bununla bərabər, bazar islahatlarının dərinləşməsi ilə əlaqədar vergi sistemində ortaya çıxan çatışmazlıqlar, onun iqtisadiyyatda baş verən dəyişikliklərə uyğun gəlməməsi özünü açıq- aydın büruzə verirdi.

Bununla əlaqədar olaraq, ölkə başçısı Heydər Əliyevin bilavasitə rəhbərliyi altında 1995-ci ildə "Əmlak vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Mədən vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1996-cı ildə "Müəssisə və təşkilatların mənfəət vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Torpaq vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qəbildən olan digər qanunlar qəbul edildi.

Vergi münasibətlərinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının bilavasitə tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti bir sıra Qərarlar verdi. Bunlara misal olaraq. Nazirlər Kabinetinin "Nəzarət kitabçası haqqında" 2 mart 1999-cu il tarixli, "Vergi ödəyicilərinin uçotunun tək

milləşdirilməsi barədə" 19 dekabr 1996-cı il tarixli, "Mənfəət vergisinin ödənilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirən subyektlər haqqında" 31 mart 1997-ci il tarixli, "Müəssisə və təşkilatların avans vergi məbləğlərinin hesablanması və ödənilməsi haqqında" 1 may 1997-ci il tarixli, "Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən bəzi xərclərin tənzimlənməsi haqqında" 3 iyul 1997-ci il tarixli, "Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlb edilməsi haqqında" 16 aprel 1997-ci il tarixli, "Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasına nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında" 18 iyul 1995-ci il tarixli qərarlarını göstərmək olar.

Ümumiyyətlə Respublikamızda vergi sisteminin təşəkkül tapdığı ilk dövrlərdə tətbiq edilən normativ aktları aşağıdakı xronoloji ardıcıllıqla düzmək olar:

1. "Dövlət vergi xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ilk dəfə 1992-ci il iyul ayının 21-də qəbul edilmişdir. Həmin Qanun əsasında dövlət mərkəzi idarəetmə orqanları sisteminə Baş Dövlət Vergi Müfəttişliyi də əlavə edilmişdir. Bu Qanuna 14 aprel 1994-cü ildə, 10 iyun 1996-cı ildə dəyişikliklər edilmiş və 13 iyun 1997-ci il tarixli qərarla yeni təlimat hazırlanmışdır.

2. "Dövlət vergi xidməti orqanlarının vəzifəli şəxslərinin intizam məsuliyyəti haqqında Nizamnamə" 25 avqust 1992-ci il tarixli, 286 saylı Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.

3. "Dövlət vergi xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi qaydalarına dair Təlimat" BDVM- nin 1 dekabr 1992-ci il tarixli 8 №-li əmri ilə təsdiq edilmişdir.

4. "Dövlət vergi xidməti orqanları tərəfindən vergi ödəyiciləri olan hüquqi və fiziki şəxslərdə sənədli təftişin aparılması qaydaları haqqında Təlimat" BDVM-nin 15 yanvar 1993-cü il tarixli 10 №-li əmri ilə təsdiq edilmişdir.

5. "Vergi ödəyicilərində yoxlamaların aparılması Qaydaları" 18 iyul 1996-cı ildə təsdiq edilmişdir.

6. "Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu 24 dekabr 1996-cı ildə

qəbul olunmuşdur. Bu Qanuna 1997-ci ildə 2 dəfə, l998-ci ildə isə bir dəfə dəyişiklik edilmişdir.

7. “Müəssisələrin və təşkilatların mənfəət vergisinin hesablanması və büdcəyə ödənilməsi qaydaları haqqında Təlimat” BDVM-nin 15 iyul 1997-ci il tarixli 6 №-li əmri ilə təsdiq edilmişdir.

8. “Xarici hüquqi şəxslərin mənfəətinin və gəlirlərinin vergiyə cəlb edilməsi haqqında Təlimat” BDVM-nin 1 avqust 1997- ci il tarixli A-9 №-li əmri ilə təsdiq edilmişdir.

9. “Pərakəndə ticarət, ictimai iaşə və məişət xidməti sahəsində fəaliyyət gəlirlərindən (hasilatdan) verginin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat” 15 aprel 1997- ci ildə təsdiq olunmuşdur.

10. “Əlavə dəyər vergisi haqqında” Azərbaycan Respublikasının Qanunu 31 dekabr 1991-ci ildə qəbul olunmuşdur. Bu Qanuna 1992-1997-ci illərdə bir sıra dəyişiklik və əlavələr edilmişdir.

11. “Əlavə dəyər vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat” BDVM-nin 31 iyul 1997-ci il tarixli 8 №-li əmri ilə təsdiq edilmişdir.

12. “Aksizlər haqqında” Azərbaycan Respublikasının Qanunu 31 dekabr 1991-ci ildə qəbul olunmuşdur. Bu Qanuna 1994-1997-ci illərdə bir sıra dəyişiklik və əlavələr edilmişdir.

13. “Aksizlərin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat” BDVM-nin 16 sentyabr 1995-ci il tarixli 15 №-li əmri ilə təsdiq edilmişdir.

14. “Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında” Azərbaycan Respublikasının Qanunu 24 iyun 1992-ci ildə qəbul olunmuşdur. Bu Qanuna 1994-1998-ci illərdə 6 dəfə dəyişiklik və əlavələr edilmişdir.

15. “Əmlak vergisi haqqında” Azərbaycan Respublikasının Qanunu 24 mart 1995-ci ildə qəbul olunmuşdur. Bu Qanuna 1996- cı ildə dəyişiklik və əlavələr edilmişdir.

16. “Müəssisələrin əmlakının orta illik dəyərinin müəyyən edilməsi Qaydası” Nazirlər kabinetinin 1997-ci il 17 mart tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmişdir.

17. “Müəssisələrin əmlakına verginin hesablanması və ödənilməsi qaydası haqqında Təlimat” BDVM-nin 26 avqust 1997- ci il tarixli 10 №-li əmri ilə təsdiq edilmişdir.

18. "Fiziki şəxslərin əmlakına verginin hesablanması və ödənilməsi qaydası haqqında Təlimat" BDVM-nin 20 iyul 1995-ciil tarixli 17 №-li əmri ilə təsdiq edilmişdir.

19. "Torpaq vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu 24 dekabr 1996-cı ildə qəbul olunmuşdur.

20. "Torpaq vergisinin dərəcələri haqqında" Nazirlər Kabinetinin 14 may 1997-ci il tarixli 43 -li qərarı qəbul edilmişdir.

21. "Mədən vergisi haqqında" Azərbaycan Respublikasının Qanunu 24 mart 1995-ci ildə qəbul olunmuşdur. Bu Qanuna 24 dekabr 1996-cı ildə dəyişiklik və əlavələr edilmişdir.

22. "Mədən vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat" BDVM-nin 04 yanvar 1996-ci il tarixli əmri ilə təsdiq edilmişdir.

23. "Dövlət Yol Fondu haqqında" Azərbaycan Respublikası Qanunu 16 fevral 1994-cü ildə qəbul olunmuşdur. Bu Qanuna 13 iyun 1995-ci ildə və 1 iyul 1997-ci ildə dəyişiklik və əlavələr edilmişdir.

Lakin görülmüş bütün bu işlər vergi sisteminin əsaslarını deyil, ayn-ayn məhdud sahələrini əhatə edirdi. Bütün bunların nəticəsində 90-cı illərin sonlarında Azərbaycan Respublikasında formalaşmış vergi sistemi onun ayrı-ayrı elementlərinin mükəmməl olmaması səbəbindən, iqtisadi inkişafa əngəl törədirdi.

Qanuna riayət edən vergi ödəyicilərinin üzərinə düşən ağır vergi yükü, vergi güzəştlərinin çoxluğu, gəlir və vergilərin gizlədilməsi üçün çoxlu sayda boşluqların olması ölkədə azad rəqabət qanunlarının pozulmasına və gizli iqtisadiyyatın inkişafına şərait yaradırdı.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsinin zəruriliyi ondan irəli gəlirdi ki, əsası hələ keçmiş sovet rejimində qoyulmuş mövcud vergi sistemi yeni iqtisadi şəraitə tam uyğunlaşmırdı, bəzi hallarda bazar münasibətlərinin inkişafına maneçilik törədir və süni əngəllər yaradırdı. Vergi qanunvericiliyində olan sistemsizlik, bu qanunvericiliyə edilmiş çoxsaylı dəyişiklik və əlavələr, çoxsaylı qanunlar, təlimatlar və digər normativ hüquqi sənədlər arasında olan ziddiyyətlər vergi qanunvericiliyini mürəkkəbləşdirmiş və onda müəyyən boşluqların yaranmasına gətirib çıxarmışdı.

Bütün bunları nəzərə alaraq ölkə başçısı Heydər Əliyev

tərəfindən Nazirlər Kabinetinin 1998-ci ilin noyabr ayında keçirilmiş geniş iclasında ölkənin Vergi Məcəlləsinin qısa müddətdə hazırlanaraq qəbul olunması respublika hökumətinə, iqtisadi orqanların rəhbərlərinə ən vacib vəzifə kimi tapşırıldı. Həmin iclasdakı yekun nitqində dahi öndər demişdir:

"Qısa bir müddətdə Vergi Məcəlləsinə Nazirlər Kabinetində baxılmalıdır, mənə təqdim edilməlidir, biz bu Vergi Məcəlləsini Milli Məclisə təqdim etməliyik və onun qəbul olunmasına nail olmalıyıq. Bu, çox vacibdir."

Odur ki, 1999-cu ilin iyun ayından etibarən ölkə başçısının bu göstərişi əldə rəhbər tutularaq, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanması vergi sistemində aparılan islahatların ən prioritet istiqaməti hesab edildi və bu vəzifənin yerinə yetirilməsi üçün geniş tədbirlər proqramı həyata keçirilməyə başlandı. Bu məqsədlə mövcud vergi qanunvericiliyinin tətbiqi vəziyyəti təhlil edildi, orada olan boşluqlar, ayrı-ayrı qanunlar arasındakı ziddiyyətlər aşkar edildi, sahibkarlığın və biznes fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılmasını, bazar münasibətlərinin sabit inkişafını təmin edə biləcək dövlət vergi siyasətinin istiqamətləri müəyyənləşdirildi. Eyni zamanda, sivil ölkələrin vergi qanunvericiliyi, bu sahədə onların vergi orqanlarının qabaqcıl və səmərəli iş metodları öyrənildi, bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə vergi siyasətinin düzgün müəyyənləşdirilməsinə kömək məqsədilə beynəlxalq maliyyə təşkilatlarının, ilk növbədə, Beynəlxalq Valyuta Fondunun tövsiyələri nəzərdən keçirildi və respublikanın iqtisadi, milli xüsusiyyətləri və digər reallıqları nəzərə alınmaqla, tətbiq olunması imkanları araşdırıldı.

Bundan başqa. Vergi Məcəlləsinin layihəsinin hazırlanması prosesinə respublikanın bütün əlaqədar təşkilatları, iqtisadçı mütəxəssislər, alimlər cəlb edildi, onların bu işdə səmərəli iştirakının təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirildii. Bu məqsədlə Vergilər Nazirliyində daimi fəaliyyət göstərən Məsləhət-Məşvərət Şurası yaradıldı. Tərkibinə vergi sahəsində təcrübəsi olan yüksək ixtisaslı mütəxəssislər, qabaqcıl alimlər, müvafiq nazirlik, baş idarə, birlik və ictimai təşkilatların məsul işçiləri, Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici auditor şirkətlərinin, işgüzar dairələrin.

kütləvi informasiya vasitələrinin nümayəndələri daxil edilən bu Şuranın ötən dövr ərzində əsas vəzifəsi vergi qanunvericiliyində mövcud olan problemlərin aradan qaldırılmasına. vergitutmanm qanunvericilik normativ-hüquqi bazasının təkmilləşdirilməsinə və s. aid təkliflərin hazırlanması və baxılmasından, bu sahədə vergi orqanları ilə vergi ödəyiciləri, ictimai təşkilatlar və birliklər arasında konstruktiv qarşılıqlı əlaqələrin yaradılmasından ibarət idi.

Vergilər Nazirliyinin Maliyyə Nazirliyi və digər iqtisadi orqanlarla birgə həyata keçirdiyi məqsədyönlü fəaliyyəti nəticəsində, qısa müddətdə beynəlxalq standartlara və eyni zamanda, ölkənin iqtisadi şəraitinə uyğun sənədin — Azərbaycan Respublikası Vergi Məcəlləsinin layihəsi hazırlandı və müzakirə olunmaq üçün 1999-cu ilin oktyabr ayında Milli Məclisə təqdim edildi.

Vergi Məcəlləsinin layihəsi Milli Məclisdə bir neçə oxunuşda müzakirə edildi və hər dəfə daha da təkmilləşdirilərək,
2000- ci ilin iyul ayında qəbul olundu. Azərbaycan Respublikası Prezidentinin imzaladığı 11 iyul 2000-ci il tarixli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Vergi Məcəlləsi təsdiq edildi və
2001- ci ilin yanvar ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutuldu.

Qeyd etmək lazımdır ki. Vergi Məcəlləsinin tətbiqi böyük sayda normativ sənədlərin hazırlanmasını, habelə müvafiq təbliğat və maarifləndirmə işlərinin aparılmasını tələb edirdi. Tələb olunan normativ sənədlərin siyahısı Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2000-ci il tarixli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" fərmanı ilə müəyyənləşdirildi və onların qısa müddətdə hazırlanmasının təmin edilməsi respublika hökumətinə tapşırıldı. Bununla əlaqədar. Nazirlər Kabineti 18 sentyabr 2000-ci il tarixli 19İs saylı sərəncam qəbul etdi və Vergi Məcəlləsinin tətbiqi ilə bağlı zəruri nor

mativ sənədlərin layihələrinin hazırlanması və lazımi hazırlıq işlərinin aparılması üçün Vergilər, Maliyyə, İqtisadi İnkişaf, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə, Dövlət Statistika, Dövlət Gömrük komitələrinə və s. müvafiq göstərişlər verdi.

Yuxarıda adları çəkilən fərman və sərəncamlarla Vergi Məcəlləsinin tətbiqi ilə bağlı 22 normativ sənədin hazırlanması Vergilər Nazirliyinə, 11 sənədin hazırlanması isə digər dövlət icra orqanlarına tapşırıldı.

Azərbaycan Respublikası Prezidentinin fərmanının və Nazirlər Kabinetinin sərəncamının icrasının təmin edilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən müvafiq əmrlər verildi, Vergi Məcəlləsinin tətbiqi ilə bağlı nazirliyin tədbirlər proqramına müvafiq düzəliş və əlavələr edildi. Vergi Məcəlləsinin layihəsinin Milli Məclisdə müzakirəsi ərəfəsində Vergilər Nazirliyi tərəfindən onun tətbiqi ilə bağlı zəruri tədbirlər proqramının həyata keçirilməsinə başlanıldı. Belə ki. Məcəllənin tətbiqi ilə əlaqədar qüvvədən düşəcək və hazırlanması zəruri olan yeni normativ sənədlərin siyahısı müəyyən edildi, görüləcək hazırlıq işləri müəyyənləşdirildi, onların konkret icraçılan və icra müddətləri göstərilməklə iş planı təsdiq olundu.

Vergi Məcəlləsi təsdiq edildikdən sonra onun tətbiqi ilə əlaqədar olaraq, Vergilər Nazirliyinin aparıcı mütəxəssislərindən ibarət işçi qrup yaradıldı və müvafiq təlimat, qayda, metodiki göstəriş və digər normativ sənədlərin layihələrinin hazırlanması ona tapşırıldı.

Vergi Məcəlləsi və onun tətbiq edilməsi ilə bağlı hazırlanan normativ-hüquqi sənədlər işçi qrupda müzakirə edildi və qarşıya çıxan mübahisəli məsələlər, qanunvericilikdə olan boşluqlar Benyəlxalq Valyuta Fondunun ekspertləri ilə müzakirə edilərək, həlli yolları axtarıldı.

Normativ sənədlərin işlənib hazırlanması sahəsində kompleks tədbirlərin mərkəzləşdirilmiş və əlaqəli şəkildə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin nəzdində daxili imkanlar hesabına yeni idarə - Qanunvericilik və metodologiya idarəsi yaradıldı.

Eyni zamanda. Vergi Məcəlləsinin tətbiqi ilə bağlı hazırlıq

İşlərinin respublikanın aidiyyatı nazirlik, komitə və baş idarələri ilə əlaqələndirilməsi məqsədilə Vergilər Nazirliyinin, habelə Maliyyə, Ədliyyə nazirliklərinin və digər aidiyyatı orqanların mütəxəssislərindən, elm və iş adamlarından ibarət Əlaqələndirmə Komissiyası yaradıldı.

Vergi Məcəlləsinin tətbiqi ilə əlaqədar hazırlanması zəruri olan normativ sənədlərin icrası üç mərhələdə həyata keçirildi. Birinci mərhələ normativ sənədlərin Vergilər Nazirliyinin müvafiq idarə və şöbələrində hazırlanaraq, Qanunvericilik və metodologiya idarəsində fəaliyyət göstərən işçi qrupa təqdim edilməsini, ikinci mərhələ bu sənədlərin işçi qrupda müzakirə olunmasını və ekspertizadan keçirilərək Əlaqələndirmə Komissiyasına təqdim edilməsini, üçüncü mərhələ isə onların Əlaqələndirmə Komissiyasında müzakirə edilməsini əhatə edirdi.

Əlaqələndirmə Komissiyasının iclaslarında müzakirə olunan normativ sənədlər və vergi bəyannamələri formaları. Komissiyada tutulan irad və təkliflər nəzərə alınmaqla, yenidən işlənir və razılaşdırılmaq üçün Nazirlər Kabinetinin sərəncamında göstərilən müvafiq nazirlik və komitələrə göndərilirdi. Həmin nazirlik və komitələrlə əlaqə yaradılır və sənədlərin operativ razılaşdırılması, eləcə də yerli vergi orqanlarından, xarici şirkətlərdən və auditor təşkilatlarından alınan təkliflərin ümumiləşdirilib nəzərə alınması istiqamətində işlər aparılırdı.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2000-ci il tarixli fərmanının icrası ilə əlaqədar olaraq. Vergi Məcəlləsinin tətbiq edilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanları və Nazirlər Kabinetinin qərarları ilə aşağıdakı sənədlər təsdiq edildi:

- Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilmiş şəxsdən maliyyə sanksiyalarının alınması Qaydaları;
- Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə;

- Vergi orqanlarının vəzifəli şəxslərinə xüsusi rütbələrin verilməsi, həmin rütbələrdən məhrum edilməsi və xüsusi rütbələrlə bağlı digər məsələlər;
- Vergi orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələrinə uyğun olaraq xüsusi geyim forması və fərqlənmə nişanları;
- Kommersiya sirri ilə bağlı münasibətləri tənzimləyən qanun;
- Kommersiya (vergi) sirri təşkil edən məlumatları müəyyən edən dövlət hakimiyyəti orqanlarının və onlann vəzifəli şəxslərinin siyahısı;
- Vergi ödəyicisinə eyniləşdirmə nömrəsinin verilməsi və tətbiq edilməsi Qaydası;
- Vergi ödəyicisinin vahid dövlət reyestrinin aparılması Qaydaları;
- Əlavə dəyər vergisi ödəyicilərinin dövlət reyestrinin apanl-ması Qaydaları;
- Binalar üzrə əmlak vergisinin hesablanması Qaydaları;
- Aksiz markası ilə markalanmah olan markalanmamış malların siyahıya alınması və məsul saxlanmaya qoyulması Qaydaları;
- Malın (işin, xidmətin) bazar qiymətinin müəyyən edilməsi Qaydaları;
- Səyyar vergi yoxlaması zamanı əşyaların nümunə kimi götürülməsi Qaydaları;
- Birbaşa və dolayı qiymətləndirmə metodlarının tətbiq edilməsi Qaydaları;
- Vergi ödəyicisi tərəfindən verginin hesablanması üçün zəruri olan hesabat məlumatlarının verilmədiyi hallarda, verginin əlaqəli məlumata əsasən hesablanması Qaydası;
- İcarəyə götürülmüş əsas vəsaitlər üzrə təmir xərclərinin gəlirdən çıxılması Qaydası;
- Xronometraj metodu ilə müşahidə aparılması Qaydaları;
- Gəlirdən çıxılmalı olan təmir xərclərinin məhdudlaşdırılan hədləri;
- Əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alınmayan vergi agenti tərəfindən əlavə dəyər vergisi məqsədləri üçün qeydiyyatdan keçməyən qeyri-rezidentə ödənməli olan məbləğdən əlavə dəyər vergisinin tutulması və ödənilməsi Qaydaları;

- Hüquqi şəxslərdən vergilər üzrə borcların və faizlərin alınması Qaydaları;

- Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması Qaydaları;

- Aksizli mallar üçün aksizlərin dərəcələri;

- Xarici hüquqi şəxsin əldə etdiyi mənfəəti birbaşa müəyyən etmək mümkün olmadığı hallarda, mənfəətin hesablanması Qaydaları;

- Ümumi qaydalara əsasən vergitutma bazasının müəyyənləşdirilməsi çətin olan sahələr üzrə əlavə dəyər vergisinin hesablanması qaydaları;

- Vergi orqanlarının maddi həvəsləndirmə və inkişaf fondundan istifadə Qaydaları;

- Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları;

- Fiziki şəxslərin gəlir vergisindən azad olunan kompensasiya xarakterli ödəmələrin siyahısı;

- Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin siyahısı;

- Ezamiyyə xərclərinin normaları;

- Köhnəlməyə məruz qalmayan aktivlərin siyahısı;

- Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydaları;

- Kadastr qiymət rayonları və ona daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları;

- Hasil edilmiş neftin və qazın texnoloji prosesə əlaqədar quyuya geri vurulma normativləri;

- Vergi ödəyicilərinin siyahıya alınmış əmlakının açıq hərraclarda satılması Qaydaları.

Bundan əlavə. Vergilər Nazirliyi vergi yoxlaması aktının forması və onun tərtib edilməsinə dair tələbləri, vergi ödəyicisinin uçota alınmaq üçün ərizəsinin və vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin formalarını, əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyat haqqında ərizənin formasını, əlavə dəyər vergisi ödəyicisinin qeydiyyat bildirişinin formasını və digər sənədləri hazırladı və təsdiq etdi.

Göründüyü kimi, qısa bir müddət ərzində respublikada

vergi qanunvericiliyi bazasının təkmilləşdirilməsi sahəsində xeyli iş görüldü, vergi qanunvericiliyinin bütün aspektlərini özündə birləşdirən, dünya standartlarına cavab verən, elmi cəhətdən əsaslandırılmış və təkmil bir sənəd olan Vergi Məcəlləsi və onun tətbiqi ilə bağlı zəruri normativ-hüquqi sənədlər hazırlandı və təsdiq edildi.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2001-ci ilin yanvar ayının 1-dən tətbiq olunmağa başladı.

Respublikamızda iqtisadi islahatların həyata keçirilməsi yolunda həqiqətən öz mahiyyəti etibarilə vergi münasibətlərinin konstitusiyası hesab edilən bu qanunvericilik sənədinin qəbul edilməsi ilə bütünlükdə vergi sisteminin sistemli və kompleks şəkildə nəzərdən keçirilməsi baş verdi. Vergi Məcəlləsi, praktik olaraq, vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı münasibətlərindən tutmuş, orada baxılan bütün vergilərin hesablanması və ödənilməsi qaydalarmadək, mühüm məsələlərin hamısını tənzimləyən yeganə sənəddir.

Vergi Məcəlləsinin qəbul edilməsi ölkədə iqtisadi islahatların inkişaf etdirilməsində həqiqətən tarixi bir hadisə oldu. Bu Məcəllənin qəbul edilməsi ilə ölkənin vergitutma sisteminə yenidən baxılmış oldu.

Vergi Məcəlləsinin qəbul edilməsi nəticəsində ölkədə əvvəllər fəaliyyətdə olan bəzi vergilər ləğv edildi, dövlət və yerli vergilər arasında dəqiq sərhəd müəyyənləşdirildi, bir sıra yeni vergilər daxil edildi. Bütün bunlar təsərrüfatçılıq şəraitinin keyfiyyətcə dəyişməsinə səbəb oldu.

Vergi Məcəlləsinin qəbul edilməsi ölkədə vergitutma prosesini tənzimləyən norma və qaydaları sistemləşdirməyə imkan verdi. Vergi Məcəlləsi qəbul edilənə qədər vergitutmanın vahid qanunvericilik və normativ bazası yox idi, ölkədə bu sahədə yüzlərlə normativ sənəd fəaliyyətdə idi. Vergi Məcəlləsinin qüvvəyə minməsi ilə bütün bu aktlar öz hüquqi qüvvəsini itirmiş oldu.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi sisteminin, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi sə

nunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2 hissədən, 17 fəsildən, 221 maddədən ibarətdir. Vergi Məcəlləsinin birinci hissəsi «Ümumi hissə» adlanır və 7 fəsildən ibarətdir. Vergi Məcəlləsinin ikinci hissəsi isə «Xüsusi hissə» adlanır və 10 fəsildən ibarətdir.

Vergi Məcəlləsinin birinci fəsli vergilər haqqında qanunvericiliyi xarakterizə edən və Azərbaycan Respublikasının vergi sistemini təyin edən ümumi müddəalardan ibarətdir. Bu fəsildə vergilərin müəyyən edilməsinin və tutulmasının əsaslan, Azərbaycan Respublikasının vergi sistemi, Azərbaycan Respublikasında vergitutmanm formaları, vergilərin növləri, vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları, vergilərin müəyyən edilməsinin əsas şərtləri. Vergi Məcəlləsində istifadə edilən əsas anlayışlar müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin ikinci fəslində vergi ödəyiciləri və vergi agentinin hüquq və vəzifələrindən bəhs edilir.

Vergi Məcəlləsinin üçüncü fəslində vergi orqanlarının fəaliyyətinin hüquqi əsasları, onların hüquq və vəzifələri, vergi orqanlarının digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri əks etdirilmişdir.

Vergi Məcəlləsinin dördüncü fəsli vergi nəzarəti və onun həyata keçirilməsi məsələlərinə həsr olunmuşdur. Bu fəsildə vergi nəzarətinin formaları, vergi ödəyicilərinin uçota alınma qaydaları, bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri, kameral və səyyar vergi yoxla-malarının və operativ vergi nəzarətinin aparılması qaydaları, səyyar vergi yoxlaması zamanı həyata keçirilən hüquqi hərəkətlər, səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi qaydaları, vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının alınması qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin beşinci fəsli vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirlərindən bəhs edir. Bu fəsildə vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin ümumi əsasları, vergi qanunvericiliyinin po-zulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən hallar, vergilərin vax-

tında ödənilməməsinə və hesabatların vaxtında verilməməsinə görə tətbiq edilən məsuliyyət tədbirləri, banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarına tətbiq olunan maliyyə sanksiyaları, vergi orqanları və onların vəzifəli şəxslərinin məsuliyyəti əks etdirilmişdir.

Vergi Məcəlləsinin altıncı fəslində vergi orqanlarının qərarlarından. onların vəzifəli şəxslərinin hərəkətlərindən şikayət verilməsi, vergi orqanlarında şikayətə baxılması qaydaları müəyyənləşdirilir.

Vergi Məcəlləsinin yeddinci fəsli vergilərin ödənilməsi üzrə ümumi qaydalara həsr olunmuşdur. Bu fəsildə vergi borclarının alınması, vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi, vergi hesabatının verilməsi, vergi öhdəliyinin yerinə yetirilməsi, vergi orqanları tərəfindən vergilərin hesablanması, vergilər üzrə borcların ödənilməsi, əmlakın siyahıya alınması, vergi ödəyicisinin əmlakı hesabına verginin tutulması qaydaları müəyyən edilmişdir.

Vergi Məcəlləsinin səkkizinci fəslində fiziki şəxslərin gəlir vergisinin hesablanması və ödənilməsi qaydaları müəyyənləşdirilir.

Vergi Məcəlləsinin doqquzuncu fəslində hüquqi şəxslərin mənfəət vergisinin hesablanması və ödənilməsi qaydaları müəyyənləşdirilir.

Vergi Məcəlləsinin onuncu fəsli fiziki şəxslərin gəlir vergisi və hüquqi şəxslərin mənfəət vergisinə aid maddələrdir. Bu fəsildə gəlirin əldə edilməsi ilə bağlı olan xərclərdən, amortizasiya ayırmalarından, dividendlərdən, faizlərdən, royaltidən, icarə haqlarından və ödəmə mənbəyində vergi tutulması qaydalarından, gəlirin və xərcin uçotu qaydalarından bəhs edilir.

Vergi Məcəlləsinin on birinci fəsli əlavə dəyər vergisinin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydalarını müəyyənləşdirir.

Vergi Məcəlləsinin on ikinci fəslində aksizlərin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin on üçüncü fəslində mənfəət vergisinin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin on dördüncü fəslində torpaq vergisinin

hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin on beşinci fəslində yol vergisinin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin on altıncı fəslində mədən vergisinin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin on yeddinci fəslində sadələşdirilmiş verginin hesablanması və ödənilməsi, hesabatın verilməsi qaydaları müəyyənləşdirilmişdir.

Vergi Məcəlləsinin əsas məqsədi aşağıdakı mühüm vəzifələrin həyata keçirilməsidir:

- ədalətli, sabit, vahid vergi sisteminin bərqərar olunması, vahid vergi məkanında onun bütün elementlərinin qarşılıqlı əlaqəsinin hüquqi mexanizmlərinin yaradılması;
- sahibkarların və dövlətin balanslaşdırılmış maraqlarının nəzərə alınması;
- vahid vergi hüququ bazasının formalaşdırılması, vergi hüquq pozuntularına görə məsuliyyət sisteminin təkmilləşdirilməsi.

Vergi Məcəlləsi vergi orqanları ilə vergi ödəyiciləri arasındakı qarşılıqlı vergi münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çıxaran bütün prosessual halları nəzərdə tutur.

Vergi Məcəlləsində nəzərdə tutulan vergilərdən başqa, digər növ vergilər tətbiq edilə bilməz. Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri Vergi Məcəlləsində müəyyən edilən dərəcələrdən yüksək ola bilməz. Hər il «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun müzakirəsi zamanı vergilərin dərəcəsi əsaslandırılmış şəkildə aşağı salma bilər. Vergi Məcəlləsinin qəbulu ilə əlaqədar fəaliyyətdə olan vergi qanunvericiliyi qüvvədən düşməklə yanaşı, digər qanunlarla vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda, üstün hüquq Məcəllədə təsbit olunan müddəalara verilir.

Beləliklə, Azərbaycan Respublikasının Vergilər Məcəlləsi dövlət tərəfindən büdcənin mədaxilini formalaşdırmaqla iqtisadiyyata investisiya qoyuluşunu, sahibkarlıq və biznes fəaliyyətini stimullaşdıran, vergi ödəyicilərini daha çox gəlir

əldə etməyə, onları istehsalı daha da genişləndirməyə sövq edən vergi siyasətinin həyata keçirilməsini nəzərdə tutur. Belə siyasət sahibkarlığın və biznes fəaliyyətinin inkişafı üçün daha əlverişli şərait yaratmağa, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə, vergi daxilolmalarının artmasına və son nəticədə əhalinin maddi rifahının daha da yüksəldilməsinə yönəldilmişdir.

Məcəllədə ölkənin vergi qanunvericiliyi sistemləşdirildi, vergi siyasətinin istiqamətləri və vergitutma prinsipləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırıldı.

Bundan başqa, tətbiq olunacaq vergilər elmi surətdə əsaslandırıldı, onların müəyyən edilmə, hesablanma, yığılma və dövlət büdcəsinə köçürülmə qaydaları xeyli sadələşdirildi.

Məlum olduğu kimi, 2001-ci ilin əvvəlindən qüvvəyə minən Vergi Məcəlləsində hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 27 faiz müəyyən olunmuşdur. Müəssisələrin iqtisadi fəallığını daha da stimullaşdırmaq məqsədilə mənfəət vergisinin dərəcəsi 2003-cü ildə 25 faizə, 2004-cü ildə 24 faizə, 2006- cı ildə isə 22 faizə endirilmişdir. Beləliklə, 2001-2006-cı illər ərzində mənfəət vergisinin dərəcəsi 5 faiz - bənd aşağı salınmışdır.

Mənfəət vergisi ilə bağlı aparılan dəyişikliklər digər iqtisadi amillərlə yanaşı, müəssisələrin mənfəətinin artmasına və bu vergi növü üzrə vergitutma bazasının genişlənməsinə səbəb olmuşdur.

2001-2006-cı illər ərzində fiziki şəxslərin gəlir vergisinin dərəcəsində də əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər vergi tutulmayan aylıq gəlirin məbləğinin artırılmasından, dərəcələrin aşağı salınmasından, vergi güzəştlərinin ləğv edilməsindən və s.-dən ibarətdir.

Yeni qəbul edilmiş Vergi Məcəlləsinə əsasən, fiziki şəxslərin gəlir vergisi aylıq və illik gəlirin məbləğindən asılı olaraq 6 pilləli şkaladan ibarət olmaqla, 6 dərəcə, yəni 0%, 12%, 20%, 25%, 30% və 35% dərəcə əsasında hesablanırdı. 2002-ci il yanvarın 1-dən dərəcələrin sayı azaldılaraq 4 dərəcənin, yəni 0%, 12%, 25% və 35% dərəcələrin mövcud olduğu 4 pilləli şkala sisteminə keçilmişdir. 2005-ci il yanvarın 1-dən bu sahədə yenidən dəyişiklik aparılaraq 3 dərəcənin, yəni 0%, 14% və 35% dərəcələrin mövcud olduğu 3 pilləli şkala sistemi tətbiq

olunmağa başlanılmışdır. Ölkədə həyata keçirilən sosial siyasətin istiqamətləri nəzərə alınaraq. 2006-cı ildən etibarən gəlir vergisinin hesablandığı cədvəl daha da sadələşdirilmiş və 2 dərəcənin - 14% və 35% dərəcələrin mövcud olduğu 2 pilləli şkala sisteminə keçilmişdir.

Digər tərəfdən, fiziki şəxslərin gəlir vergisi ilə bağlı aparılan dəyişikliklər çərçivəsində 2004-cü il yanvarın 1-dən fiziki şəxslərin gəlir vergisi üzrə aylıq gəlirin vergi tutulmayan məbləği 100,0 min manatdan 150,0 min manatadək artırılmışdır. 2006- cı il yanvarın l-dən qüvvəyə minən dəyişikliklərə əsasən aylıq gəlirin vergi tutulmayan məbləği anlayışı Məcəllədən çıxarılaraq ayrıca azadolma kimi verilmişdir. Belə ki, 200 manatadək əmək haqqı (gəlir) alanların gəlirinin 30 manatından vergi tutulmur.

Analoji dəyişikliklər hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin illik gəlirlərinə münasibətdə də həyata keçirilmişdir. Belə ki, illik gəliri 2400 manatadək olan fiziki şəxslərin gəliri 360 manat həcmində vergidən azaddır.

Demokratik cəmiyyət quruculuğunda bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin yaradılması əsas amillərdən biridir. Bununla onlar bazar iqtisadiyyatı şəraitində azad rəqabət aparmaq və gəlirlərinə uyğun olaraq dövlət qarşısında vergi öhdəliklərini yerinə yetirmək imkanı əldə edirlər. Odur ki, respublikamızda hüquqi şəxslərlə fərdi sahibkarlar, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsi məqsədilə vahid vergitutma rejiminin tətbiqi çox mühüm əhəmiyyət kəsb edir.

2003-cü il yanvarın 1-nə kimi respublikamızda yalnız hüquqi şəxslər sadələşdirilmiş verginin ödəyiciləri ola bilərdilər. Sadələşdirilmiş verginin tətbiqi dairəsinin genişləndirilməsi, hüquqi və fiziki şəxslər arasında diskriminasiyanın aradan qaldırılması məqsədilə Məcəlləyə müvafiq dəyişikliklər edilmiş və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə də bu verginin ödəyicisi olmaq hüququ verilmişdir.

Digər tərəfdən. 2003-cü il yanvarın 1-dən hüquqi şəxslər kimi, fərdi sahibkarlar da əsas vəsaitlər üzrə amortizasiya ayırmalarını hesablamaq hüququ əldə etmişlər.

Hüquqi şəxslərlə yanaşı, fərdi sahibkarlar təmir xərclərinin gəlirdən çıxmaq hüququna 2004-cü il yanvarın 1-dən malikdirlər.

Son illər səmərəli vergi sisteminin formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində əhəmiyyətli işlər görülməkdədir.

Mütəxəssislərin, iş adamlarının, beynəlxalq maliyyə qurumlarının Azərbaycan Respublikasının Vergi Məcəlləsi haqqında rəyi ondan ibarətdir ki, Vergi Məcəlləsi, ölkədə yaradılmış vergi mühiti azad sahibkarlıq üçün geniş imkanlar yaradır və hazırda respublikada biznesin, sahibkarlığın inkişafı üçün vergi qanunvericiliyində, bütövlükdə vergi sistemində ziddiyyət və maneçilik yoxdur.

Bununla belə, tam ədalətli vergitutmanın bütün incəliklərini özündə birləşdirən vergi sisteminin, vergi qanunvericiliyinin yaradılması, demək olar ki, hələ dünyanın heç bir ölkəsinə müyəssər olmamışdır. Ona görə də vergi qanunvericiliyi mütəmadi olaraq təkmilləşdirilir, onda müəyyən dəqiqləşdirmələr aparılır.

Hazırkı dövrdə Azərbaycan Respublikasının vergi sistemi ölkənin təsərrüfat mexanizminin fəaliyyətini təmin edir, dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verir, büdcə kəsirinin artımının qarşısını alır, ümumiyyətlə, bazar iqtisadiyyatına keçidin bütün tələblərinə cavab verir.

Müasir şəraitdə respublikanın bazar iqtisadiyyatının tələblərinə əsaslanan vergi sisteminin əsas vəzifələri aşağıdakılardır:

- gəlirlərin büdcəyə tam və vaxtında səfərbər edilməsini təmin etmək, əks halda, dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi qeyri-mümkün olar;
- əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin yenidən bölüşdürülməsi və formalaşması xüsusiyyətlərini nəzərə almaqla, istehsal və istehlakın həm xalq təsərrüfatı, həm də onun ayrı- ayrı sahələri üzrə tənzimlənməsi üçün şəraitin yaradılması.

Azərbaycan Respublikasının müasir vergi sistemi yaradılarkən bir sıra çətinliklərlə üzləşilmişdir. Əvvəla o, əsasən fiziki şəxsləri əhatə edən vergi münasibətlərinin zəif inkişafı şəraitində formalaşmışdır. İkincisi, təsərrüfat subyek

tlərinin vergilərə heç də müsbət olmayan münasibəti ciddi uçot və nəzarətin olmasını tələb edirdi. Üçüncüsü, ölkədə dəqiq vergi siyasəti işlənib hazırlanmamışdı. Dördüncüsü, ölkədə vergitutma sahəsində elmi məktəb, təcrübə, demək olar ki, yox dərəcəsində idi.

Lakin ulu öndərin rəhbərliyi altında bu çətinliklər tədricən aradan qaldırıldı, ölkənin vergi sisteminin təkmilləşdirilməsi, inkişaf etmiş ölkələrin vergi sistemlərinə uyğunlaşdırılması istiqamətində əhəmiyyətli işlər görüldü.

Azərbaycan Respublikasının müasir vergi sisteminə aşağıdakı xarakterik əlamətlər xasdır:

- ayrı-ayrı qanunvericilik aktlarına deyil, hüquqi əsasa arxalanır, yəni məcmu ictimai məhsulun bir hissəsinin yenidən bölüşdürülməsi ilə bağlı bütün maliyyə münasibətlərini əhatə edir;
- vahid qaydalar, təsərrüfat subyektlərinin təşkilati-hüquqi formasından asılı olmayaraq, vergilərin hesablanması və öyrənilməsinin vahid mexanizmi əsasında qurulmuşdur;
- vergi ödənişlərinə vergi orqanları tərəfindən vahid nəzarət həyata keçirilir;
- vergi ödəyicilərinə eyni tələb irəli sürür və vergilərin sayının və vergi dərəcələrinin müəyyən edilməsi, vergi güzəştlərinin və onların verilməsi mexanizminin nizama salınması vergilər ödənildikdən sonra qalan vəsaitlərdən istifadə olunmasına müdaxilə edilməməsi yolu ilə gəlirlərin formalaşmasının eyni başlanğıc şərtlərini yaradır;
- vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyaları arasında vergi yükünün ədalətli bölüşdürülməsini təmin edir;
- xarici ölkələrin təcrübəsinin nəzərə alınması beynəlxalq inteqrasiya proseslərinə qoşulmağa imkan verir.

Azərbaycan Respublikasının vergi sistemi digər ölkələrin vergi təcrübəsində işlənib hazırlanmış prinsiplər nəzərə alınmaqla, vergitutmanm klassik prinsipləri əsasında formalaşmışdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə ölkənin vergi sisteminin əsasında aşağıdakı prinsiplər durur:

- vergilər haqqında qanunvericilik vergitutmanm ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır;
- vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır;

- hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir;

- Azərbaycan Respublikasının vahid iqtisadi məkanı pozan (xüsusilə, Azərbaycan Respublikasının ərazisində malların (işlərin, xidmətlərin) və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və ya digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran, yaxud maneə törədən) vergilərin müəyyən edilməsinə yol verilmir;

- heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz;

- vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz;

- mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır;

- Azərbaycan Respublikasının vergiləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir, onların dəyişdirilməsi və ya ləğv edilməsi Vergi Məcəlləsinə dəyişiklik edilməsi ilə həyata keçirilir;

- heç bir şəxsin üzərinə Vergi Məcəlləsi ilə müəyyən edilən vergilərin xüsusiyyətlərinə malik və Vergi Məcəlləsi ilə müəyyən edilməyən, yaxud Vergi Məcəlləsi ilə müəyyən edilən qaydalardan fərqli olaraq müəyyən edilən vergilər ödəmək vəzifəsi qoyula bilməz;

- vergilər haqqında qanunvericilik elə tərzdə formalaşdırılmalıdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin;

- vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir;

- vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməlidir;

- fiziki və hüquqi şəxslərin vergilərə aid normativ hüquqi aktlarla azad tanış olmaq imkanı təmin edilməlidir.

Azərbaycan Respublikasında aşağıdakı vergilər üəyyən

edilir və ödənilir:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Dövlət vergiləri dedikdə, Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur.

Muxtar respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında, Vergi Məcəlləsinə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər nəzərdə tutulur.

Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə. Vergi Məcəlləsində və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur.

Azərbaycan Respublikasında Vergi Məcəlləsinə uyğun olaraq xüsusi vergi rejimi tətbiq edilə bilər. Xüsusi vergi rejimi dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

Dövlət vergilərinə aşağıdakılar aiddir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş vergi.

Muxtar respublika vergilərinə Naxçıvan Muxtar Respublikasında tutulan yuxarıda sadalanan vergilər daxildir.

Yerli vergilər aşağıdakılardır:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Hazırda Azərbaycan Respublikasının dövlət vergi orqanları Vergilər Nazirliyindən və bilavasitə ona tabe olan departamentlərdən, ərazilərdəki vergilər idarələrindən ibarətdir.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturuna Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, Vergilər Nazirliyinin Tədris Mərkəzi, Xüsusi rejimli vergi xidməti Departamenti, Vergi cinayətlərinin ibtidai araşdırılması Departamenti, Bakı şəhəri Vergilər Departamenti, ərazi vergilər idarələri və rayon vergilər şöbələri daxildir.

Vergi sisteminin səmərəli strukturunun formalaşması vergi daxilolmalarının strukturuna, vergilər üzrə proqnoz tapşırıqlarına əməl edilməsi səviyyəsinə də öz müsbət təsirini göstərir. Çünki vergi mühitinin əlverişli olması vergidən yayınma hallarının azalmasına, vergi öhdəliyinə könüllü əməletmə səviyyəsinin yüksəlməsinə səbəb olan əsas amillərdir.

2001-2007-ci illər üzrə dövlət büdcəsinə vergi daxilolmalarının dinamikası cədvəl 11-də əks olunmuşdur.

Cədvəl 11-dən göründüyü kimi, son illər ərzində, demək olar ki, bütün vergi növləri üzrə daxilolmaların dinamikasında nəzərəçarpacaq artım müşahidə edilir. 2005-ci ilə qədər olan dövr ərzində büdcəyə vergi daxilolmaları arasında əlavə dəyər vergisi ən yüksək xüsusi çəkiyə malik olmuşdur. 2005-2007-ci illərdə isə ümumi vergi daxilolmalarında ən böyük xüsusi çəkiyə mənfəət vergisi malik olub. Bu verginin ümumi vergi daxilolmalarındakı xüsusi çəkisi təhlilin aparıldığı son iki il ərzində əvvəlki illərlə müqayisədə 2 dəfədən də çox artaraq 2007-ci ildə 54,5 faiz təşkil etmişdir.

Buna da səbəb «Əsrin müqaviləsi» neft sazişi çərçivəsində fəaliyyət göstərən təşkilatların 2006-cı ilin aprel ayının 1- dən mənfəət vergisini ödəmələri ilə əlaqədardır.

2006-cı illə müqayisədə 2007-ci ildə aksizlər və mənfəət vergisi istisna olmaqla, digər vergilərin xüsusi çəkilərinin azalmasına baxmayaraq, onların hamısının həcmində nəzərəçarpacaq artım müşahidə edilir. 2006-cı illə müqayisədə 2007- ci ildə fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmaların həcmi 43,9 faiz, hüquqi şəxslərin mənfəət vergisi üzrə 78,9 faiz, əlavə dəyər vergisi üzrə 67,7 faiz, aksizlər üzrə 101,5 faiz, mədən vergisi üzrə 23,0 faiz, hüquqi şəxslərin əmlak vergisi üzrə 29,7

faiz, hüquqi şəxslərin torpaq vergisi üzrə 45,9 faiz, sadələşdirilmiş vergi üzrə 57,6 faiz, yol vergisi üzrə 62,8 faiz, dövlət rüsumları üzrə 48,2 faiz, sair daxilolmalar üzrə isə 35,7 faiz artmışdır.

Cədvəl II

**2001-2007-ci illər üzrə vergi daxilolmalarının strukturu (milyon manatla).**

| № | Göstəricilər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Fiziki şəxslərin gəlir vergisi | 94.7 | 109,7 | 150.5 | 221,6 | 319,2 | 412,1 | 593,0 |
| | vergi daxilolmalarında xüsusi çəkisi, %-lə | 16,3 | 16.1 | 18.3 | 22,0 | 22.4 | 15,2 | 13.1 |
| | əvvəlki illə müqayisədə arUmı (+), azalması (-), %-lə | -l.l | 15,8 | 37.2 | 47,3 | 44,1 | 29,1 | 43,9 |
| 2 | Hüquqi şəxslərin mənfəət vergisi | 117,9 | 148.0 | 179.2 | 223,4 | 357.0 | 1374,7 | 2459,4 |
| | vergi daxilolmalarında xüsusi çəkisi, %-lə | 20,3 | 21,8 | 21,8 | 22.2 | 25,0 | 50,6 | 54,1 |
| | əvvəlki illə müqayisədə artımı t-t-). azalması (-), %-lə | -6.1 | 25,5 | 21.1 | 24,7 | 59,8 | 285,1 | 78,9 |
| 3 | Hüquqi şəxslərin əmlak vergisi | 12,5 | 20,0 | 26,6 | 32,2 | 40,4 | 56,1 | 72.8 |
| | vergi daxilolmalarında xüsusi çəkisi, %-lə | 2.1 | 2,9 | 3.2 | 3.2 | 2.8 | 2.1 | 1.6 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | 6,5 | 60,4 | 33,1 | 21,0 | 25.7 | 38,9 | 29,7 |
| 4 | Hüquqi şəxslərin torpaq vergisi | 10,5 | 8,8 | 11.3 | 14.2 | 15,3 | 18,7 | 27,3 |
| | vergi daxilolmalannda xüsusi çəki.si, %-lə | 1,8 | 1.3 | 1,4 | 1.4 | 1.1 | 0,7 | 0,6 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | 56,3 | -16,2 | 28,6 | 25,1 | 7,8 | 22,2 | 45,9 |
| 5 | Yol vergisi | - | - | - | - | 9.2 | 10,4 | 16,3 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | - | - | - | - | 0.6 | 0.4 | 0,4 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | | | | | | 13,0 | 56,7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 6 | Əlavə dəyər vergisi | 149,5 | 215,3 | 267,2 | 281,4 | 346,2 | 400,8 | 672,0 |
| | vergi daxilolmalarında xüsusi çəkisi, %-lə | 25,8 | 31,7 | 32,4 | 28,0 | 24,2 | 14,8 | 14,8 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | 30,7 | 44,0 | 24,1 | 5,3 | 23,0 | 15,8 | 67,7 |
| 7 | Aksiz | 104,6 | 79,5 | 58,4 | 61,3 | 121,2 | 164,1 | 330,6 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 18,0 | 11,7 | 7,1 | 6,1 | 8,5 | 6,0 | 7,3 |
| | əvvəlki illə müqayisədə artımı (-H), azalması (-), %-lə | 421,3 | -24,0 | -26,5 | 5.0 | 97,8 | 35,3 | 101,5 |
| 8 | Mədən vergisi | 47,5 | 50,0 | 56,7 | 97,8 | 53,5 | 100,2 | 123,2 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 8,2 | 7,4 | 6,9 | 9,7 | 3,8 | 3,7 | 2,7 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | -5,7 | 5,3 | 13,4 | 72,5 | -45,3 | 87,3 | 23,0 |
| 9 | Sadələşdirilmiş vergi | 4,1 | 2,5 | 12,6 | 16,4 | 18,8 | 29,6 | 48,2 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 0,7 | 0,4 | 1.5 | 1,6 | 1,3 | 1,1 | 1,1 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | - | -38,3 | 397,6 | 29,6 | 14,9 | 57,4 | 62,8 |
| 10 | Birdəfəlik rüsum | 1.1 | 0,9 | 1,3 | 1,4 | - | - | - |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 0,2 | 0,2 | 0,2 | 0,1 | - | - | - |
| | əvvəlki illə müqayisədə artımı (-H), azalması (-), %-lə | - | -18,2 | 44,4 | 7,7 | - | - | - |
| 11 | Dövlət rüsumu | 15,5 | 20,5 | 23,3 | 27,0 | 35,7 | 33,9 | 50,2 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 2,7 | 3,0 | 2,8 | 2,7 | 2,5 | 1,2 | 1,1 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | -1,4 | 32,4 | 13,5 | 15,7 | 32,4 | -5,0 | 48,2 |
| 12 | Sair daxilolmalar | 21,7 | 24,7 | 36,3 | 28,5 | 111,2 | 114,1 | 154,8 |
| | vergi daxilolmalannda xüsusi çəkisi, %-lə | 3,7 | 3,6 | 4,4 | 2,8 | 7,8 | 4,2 | 3.4 |
| | əvvəlki illə müqayisədə artımı (+), azalması (-), %-lə | -68,4 | 13,8 | 47,0 | -21,3 | 288,8 | 2,6 | 35,7 |

Məlum olduğu kimi respublikaməzən iqtisadiyyatında neft sektorunun rolu ilbəil artır. Neft gəlirlərinin sürətli artımı vergi orqanları qarşısında bu gəlirlərə nəzarəti təkmilləşdirmək, xüsusilə xarici şirkətlərin gəlirləri üzərində effektiv və müasir texnologiyaların tətbiqi ilə nəzarət mexanizmləri işləyib hazırlamaq tələbini qoymuşdur.

2002- 2007-ci illər ərzində neft və qeyri-neft sektorları üzrə vergi daxilolmalarının dinamikası cədvəl 12-də əks olunmuşdur.

**Cadvəl 12**

**2002-2007-ci illər ncfl və qeyri-neft sektorları üzrə vergi daxilolmalarının dinamikası (milyon manatla).**

| Göstəricilər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| Vergi daxilolmaları | 679,9 | 823,4 | 1005,2 | 1427,7 | 2714,7 | 4548,8 |
| o cümlədən | | | | | | |
| Neft sektoru | 322,0 | 379,7 | 84,4 | 542,1 | 1673,7 | 2913,1 |
| xüsusi çəkisi | 48,8 | 46,1 | 38,2 | 28.0 | 61,6 | 64,0 |
| Qeyri-neft sektoru | 347.9 | 443,7 | 620,8 | 885,5 | 1041,0 | 1635,7 |
| xüsusi çəkisi | 51,2 | 53,9 | 61,8 | 62,0 | 38,4 | 36,0 |

Cədvəl 12-dən göründüyü kimi, 2002-2005-ci illər ərzində vergi daxilolmalarında qeyri-neft sektoru üstünlük təşkil etmişdir. 2006 və 2007-ci illərdə isə neft sektorundan vergi daxilolmalarının xüsusi çəkisi artaraq müvafiq surətdə, 61,6 və 64,0 faiz təşkil etmişdir.

Bunun əsas səbəbi 2006-cı ildən başlayaraq «Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» Sazişdə iştirak edən podratçı şirkətlərin mənfəət əldə edərək böyük həcmdə mənfəət vergisi ödəmələridir.

2003- 2007-ci illər ərzində iqtisadiyyatın sahələri üzrə vergi daxilolmalarının dinamikası cədvəl 13-də olduğu kimidir.

Cədvəl 13-dən göründüyü kimi, sahələr üzrə vergi daxilolmaları arasında ən çox paya sahib olan sahə sənaye sektorudur.

Cədvəl 13

**2003-2007-ci illər ərzində iqtisadiyyatın sahələri üzrə vergi daxilolmalarının dinamikası (milyon manatla).**

| Göstəricilər | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| **Vergi daxilolmaları** | **823,4** | **1005,2** | **1427,7** | **2714,7** | **4548,8** |
| **o cümlədən:** | | | | | |
| **-sənaye** | **440,5** | **580,6** | **790,5** | **1570,6** | **2916,6** |
| **xüsusi çəkisi** | **53,5** | **57,8** | **55,4** | **57,8** | **64,1** |
| **- tikinti** | **42,4** | **53,3** | **94,1** | **180,7** | **166,6** |
| **xüsusi çəkisi** | **5,2** | **5,3** | **6,6** | **6,7** | **3,6** |
| **-ticarət və xidmət** | **50,4** | **56,7** | **64,7** | **234,5** | **144,6** |
| **xüsusi çəkisi** | **6,1** | **5,6** | **4,5** | **8,6** | **3,1** |
| **- nəqliyyat** | **106,5** | **47,0** | **70,8** | **66,3** | **105,3** |
| **xüsusi çəkisi** | **12,9** | **4,7** | **4,9** | **2,4** | **2,3** |
| **- rabitə** | **46,2** | **62,5** | **89,5** | **94,4** | **152,0** |
| **xüsusi çəkisi** | **5,6** | **6,2** | **6,3** | **3,5** | **3,3** |
| **- digər sahələr** | **137,4** | **205,1** | **318,1** | **568,2** | **1063,7** |
| **xüsusi çəkisi** | **16,7** | **20,4** | **22,3** | **21,0** | **23,4** |

Belə ki, 2007-ci ildə vergi daxilolmalarında sənaye sektorunun xüsusi çəkisi 64,1 faiz təşkil etmişdir. Bu yeni iş yerlərinin sayının artırılması, ölkə sənayesinin müasir texnologiyalar əsasında yenidən qurulması istiqamətində möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsidir.

Müəyyən iqtisadi amillərin vergi daxilolmalarının həcminə təsirini xarakterizə etmək üçün makroiqtisadiyyatda vergilərin elastiklik əmsalı adlanan göstəricidən istifadə olunur. Bu göstərici vergi sisteminin səmərəlilik göstəricilərindən biridir. Onun qiyməti aşağıdakı düsturla hesablanır:

f = AX AY

burada: E - elastiklik əmsalı;

X - vergi daxilolmalarının ilkin səviyyəsi;

AX - vergi daxilolmalarının artımı;

Y - təsiri öyrənilən amilin kəmiyyəti;

AY- təsiri öyrənilən amilin artımı.

Vergilərin elastiklik əmsalı göstərir ki, müəyyən amilin 1 faiz dəyişməsi nəticəsində vergi daxilolmalarının həcmi neçə faiz dəyişəcək. Bu əmsalın qiyməti vahiddən böyük, kiçik və ona bərabər ola bilər. Əgər vergilərin elastikliyi əmsalı ümumi

milli məhsula nəzərən təyin olunursa və onun qiyməti vahidə bərabərdirsə, bu o deməkdir ki, ümumi milli məhsulda dövlətin vergi gəlirlərinin payı sabit qalır. Əgər bu əmsalın qiyməti vahiddən böyükdürsə, deməli, vergi gəlirləri ümumi milli məhsula nəzərən daha yüksək sürətlə artır. Bu o deməkdir ki, ümumi milli məhsulda vergi daxilolmalarının xüsusi çəkisi yüksəlir. Əgər bu əmsalın qiyməti vahiddən kiçikdirsə, deməli, ümumi milli məhsulda vergi daxilolmalarının xüsusi çəkisi azalır.

Azərbaycan Respublikasında 2001-2007-ci illər üzrə vergilərin elastikliyi əmsalının dinamikası cədvəl-14 də göstərilmişdir.

Cədvol 14

**2001-2007-ci illər üzrə vergilərin elasliklik əmsalı göstəricisinin dinamikası.**

| İllər | Ümumi daxili məhsulun əvvəlki ilə nisbətən artımı | Vergi daxilolmalannın əvvəlki ilə nisbətən artımı | Verginin elastiklik əmsalı |
|---|---|---|---|
| 2001 | 12,66 | 13,55 | 1,07 |
| 2002 | 14,05 | 17,31 | 1,23 |
| 2003 | 17,88 | 21,11 | 1,18 |
| 2004 | 19,36 | 22,08 | 1,14 |
| 2005 | 47,15 | 42,03 | 0,89 |
| 2006 | 41,29 | 90,14 | 2,18 |
| 2007 | 42,24 | 67.56 | 1,60 |

Cədvəl 14-dən göründüyü kimi, 2005-ci il istisna olmaqla, baxılan dövr ərzində Azərbaycan Respublikasında vergilərin elastikliyi əmsalının qiyməti vahiddən yüksək olmuşdur. Həmin müddətdə vergi dərəcələrinin nəinki artırılmadığı, hətta nəzərəçarpacaq dərəcədə aşağı salındığı bir şəraitdə bu, çox müsbət bir hal kimi xarakterizə oluna bilər.

Bunun əsasını da son illərdə vergi sisteminin qanunvericilik bazasınn təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyələrinin artırılması, ölkədə əlverişli vergi mühitinin yaradılması və sivil vergi xidmətinin formalaşdırılması təşkil edir. Bu gün inamla qeyd etmək olar ki, əsasını ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf slrategiya-

sının Ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Respublikasında bazar münasibətlərinə adekvat çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara uyğun vergi sistemi formalaşmışdır.

iqtisadi tərəqqi və

VE

**vergi mühiti**

# RGİ

siyasəti

**özəl sektorun əsas işinə Vergilər Nazirliyi nəzarət etməlidir. Vergilər Nazirliyi yeganə nazirlikdir ki. özəl sektorla əlaqə qurub, vergisini alır.**

**Heydər Əliyev**

Ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafına nail olunmasında, rəqabət şəraitinin yaradılmasında, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində əlverişli vergi mühitini yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu mühit əsasən ölkədə həyata keçirilən vergi siyasətinin məqsəd və vəzifələrindən asılı olur. Vergi-tutma bazasını, vergi dərəcələrini və güzəştlərini təyin etməklə, dövlət ictimai maraqlardan çıxış edərək müəyyən bir istiqamətdə sahibkarlıq fəaliyyətini stimullaşdırmaqla, digər sahələrdə bu fəallığın səviyyəsini aşağı salır. Ümummilli lider Heydər Əliyevin

müəyyənləşdirdiyi vergi siyasətinin əsas qayəsini sahibkarlar üçün əlverişli vergi mühitinin yaradılması təşkil edir.

Optimal şəkildə qurulmuş vergi sistemi, bir tərəfdən, dövlətin maliyyə vəsaitlərinə olan tələbatını təmin etməli, digər tərəfdən isə vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinə olan marağını nəinki azaltmamalı, onu hətta təsərrüfatçılığın səmərəliliyini yüksəltmək üçün daim yollar aramağa sövq etməlidir. Buna görə də vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür.

Məlum olduğu kimi, vergi ödəyicisinin üzərinə düşən vergi yükünün artması nəticəsində əvvəlcə vergi sisteminin səmərəliliyi yüksəlir və öz maksimumuna çatır, sonra isə kəskin surətdə aşağı düşür. Bu zaman büdcə sisteminin itkilərinin yeri doldurulmaz olur, çünki vergi ödəyicilərinin müəyyən hissəsi ya müflisləşir, ya da öz fəaliyyətini dayandırır, digər hissəsi isə ödəməli olduqları vergilərin məbləğinin mini- mallaşdırılmasının qanuni və ya qeyri-qanuni yolunu tapırlar. Sonradan vergi yükünün səviyyəsi aşağı salındıqda belə, dağılmış istehsalı bərpa etmək üçün illər tələb olunur. Bundan başqa, vergidən yayınmanın real yolunu tapan vergi ödəyicisi vergi yığımlarının əvvəlki səviyyəsi bərpa olunduqda belə vergiləri tam həcmdə ödəməyəcək.

Buna görə də vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsi problemi, inkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin vergi sisteminin qurulması və təkmilləşdiril- məsində mühüm rol oynayır.

Beynəlxalq vergitutma təcrübəsi göstərir ki, vergi ödəyicilərindən tutulan vergilər onun məcmu gəlirinin 30-40 faizindən çox olduqda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi azalır, ölkədəki biznes mühiti öz cazibədarlığını itirir. Bununla əlaqədar olaraq, dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir.

Lakin bir çox ölkələrdə vergi yükü göstəricisinin kəmiyyəti yüksəkdir. Məsələn, İsveçdə vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyiciləri özlərinin gəlirlərinin 50% və daha artıq hissəsini dövlət xəzinəsinə ödəyirlər. Bu. heç də onların istehsalın inkişafına marağını azaltmır. Burada heç bir ziddiyyət yoxdur.

Belə ki, başqa ölkələrdə vergi ödəyicilərinin öz gəlirləri hesabına həll etdikləri sosial xarakterli problemləri bu ölkələrdə dövlət öz vəsaitləri hesabına həll edir. Bu isə ağır vergi yükündən narazılığın qarşısına sədd çəkir və maraqlar balansı gözlənilmiş olur.

Adətən, belə fikir irəli sürülür ki, vergi yükü göstəricisinin səviyyəsi nə qədər aşağıdırsa, iqtisadiyyat daha sürətlə və dinamik inkişaf edir. Lakin digər tərəfdən, nəzərə almaq lazımdır ki, vergi yükü dövlətin öz normal fəaliyyətini təmin edə biləcək həcmdə vergilərin büdcəyə daxil olmasını təmin etməlidir.

Elmi ədəbiyyatlarda iqtisadi subyektin vergi yükünün qiymətləndirilməsinin əsasən aşağıdakı üsulları vardır.

1. İqtisadi subyektin vergi yükünün bütün ödənilmiş vergilərin satışdan əldə olunan vəsaitə nisbəti kimi təyin edilməsi.

Bu zaman aşağıdakı düsturdan istifadə olunur:

$$— X\,İ00\,\%$$

Burada: K - vergi yükü;

V - vergilərin ümumi məbləği;

W - satışdan əldə olunan ümumi vəsait.

Bu üsulla hesablanmış vergi yükü göstəricisi satışdan əldə olunan ümumi vəsaitin tərkibində vergilərin payını müəyyən etməyə imkan verir. Bununla belə, bu qaydada təyin edilmiş göstərici satışdan əldə olunan vəsaitin tərkibində vergilərin strukturunu nəzərə almadığından o, vergilərin iqtisadi subyektin maliyyə vəziyyətinə təsirini xarakterizə etmir.

2. Vergi yükünün ödənilən vergilərin vergi mənbəyinə nisbəti kimi təyin edilməsi.

Bu zaman inteqral göstərici kimi bütün vergi ödənişlərinin məbləği ilə iqtisadi subyektin mənfəətinin həcminin müqayisəsi çıxış edir:

$$A - \frac{yv - z - M}{vv - z} X\ 100\% \quad \textbf{və ya} \quad K = \frac{w}{-z - M} \ \textbf{Xİ00\%}$$

Burada: Z - dolayı vergilər istisna olmaqla satılan məhsulun (işin, xidmətin) istehsalına çəkilən xərclər;

M - vergilər ödənildikdən sonra iqtisadi subyektin sərəncamında qalan faktiki, yəni xalis mənfəət.

- iqtisadi subyektin balans mənfəəti.

Bu düstur ödənilmiş vergilərin ümumi məbləğinin iqtisadi subyektin sərəncamında qalan mənfəətdən nə qədər fərqləndiyini göstərir. Vergi yükünün qiymətləndirlməsinə bu yanaşmanın fərqli cəhəti dolayı vergilərin nəzərə alınmamasında və onlara iqtisadi subyektin mənfəətinə təsir edən vergilər kimi baxılmamasmdadır.

Bu üsul iqtisadi subyektin maliyyə vəziyyətinə vergilərin təsirli alətidir, lakin bu zaman dolayı vergilərin təsiri nəzərə alınmır. Ancaq bu vergilər də iqtisadi subyektin mənfəətinin məbləğinə müəyyən dərəcədə təsir göstərir. Ona görə də bu üsulun tətbiqi iqtisadi subyektin vergi yükünə dolayı vergilərin təsirinin qiymətləndirilməsi ilə əlaqədə həyata keçirilməlidir.

Dolayı vergilərin ödəyicisi olan iqtisadi subyekt, qanunvericiliyə uyğun olaraq, onu malın (işin, xidmətin) qiymətinə daxil edir və tamamilə istehlakçının üzərinə qoyur. Ancaq əmtəənin qiyməti ödəniş qabiliyyətli tələbin imkan verdiyi qədər arta bilər.

Əgər dolayı vergilər də nəzərə alınmaqla əmtəənin qiyməti həddindən artıq yüksək olarsa, onda ona olan tələb azalır, çünki alıcıların bir hissəsi onu əvəz edən əmtəəni, digər hissəsi isə başqa istehsalçıların analoji əmtəələrini alır. Buna görə də istehlakçıları saxlamaq üçün iqtisadi subyekt öz mənfəətini azaltmaqla qiymətlərin səviyyəsini saxlamaq məcburiyyətində qalır.

Göründüyü kimi, dolayı vergilər qiymətə və onun nəticəsi kimi, tələbə təsir göstərir. Dolayı vergilərin ağırlığı tələbin xarakterindən asılı olaraq həm alıcıların, həm də satıcıların üzərinə düşür. Əgər əmtəəyə (işə, xidmətə) tələb elastikdirsə, onda satıcı dolayı vergilərin böyük hissəsini ödəməyə məcburdur, çünki qiyməti artırmaqla öz alıcılarını itirə bilər.

Əgər tələb elastik deyildirsə, onda satıcı vergi yükünün böyük bir hissəsini alıcıların üzərinə keçirmək imkanı əldə edir, çünki tələbin əmtəənin (işin, xidmətin) qiymətindən asılılığı zəifdir.

3. Vergi yükünün ödənilən vergilərin iqtisadi subyektin

yaratdığı əlavə dəyərə nisbəti kimi təyin edilməsi.

Əlavə dəyər iqtisadi subyektin gəlirinin mənbəyi olduğundan, vergilər də bu mənbədən ödənilir. Deməli, vergiləri onların ödəniş mənbəyi ilə müqayisə etmək məqsədəuyğun olar. Bu qayda ilə hesablama prosesində alınmış göstərici istehsalın müxtəlif növləri üçün orta vergi yükünü müəyyənləşdirməyə imkan verir, daha doğrusu, müxtəlif iqtisadi subyektlərin vergi yükünün müqayisəsini təmin edir.

Əlavə dəyər - aralıq istehlak (maddi xərclər) çıxılmaqla məhsul və xidmətlərin ümumi buraxılış həcmini ifadə edir. Əgər əlavə dəyəri D ilə işarə etsək, onda

$$D = W - S + Q - G$$

Burada: S - material xərcləri;

Q - satışdankənar əməliyyatlardan daxil olan vəsait;

G - satışdankənar əməliyyatlara çəkilən xərclər (vergi ödənişləri nəzərə alınmadan).

Bu zaman vergi yükü aşağıdakı kimi təyin edilir:

X = -xl00%
D

Bu qayda ilə hesablanan vergi yükü iqtisadi subyektin əlavə dəyərinin dövlət büdcəsinə köçürülən hissəsini müəyyən etməyə imkan verir.

Əlavə dəyərin tərkibinə amortizasiya ayırmaları daxil olduğundan, vergi yükünün əlavə dəyərə nisbətən hesablanması zamanı amortizasiya ayırmalarının payının obyektiv müxtəlifliyi nəzərə alınmır. Məsələn, vergi öhdəliklərinin gərginliyi eyni olan fondtutumlu müəssisədə və bank-kredit xidməti, yaxud kiçik biznes sferasında əlavə dəyərə nisbətən vergi yükünün müəyyən edilməsi tam düzgün və dəqiq olmayacaqdır.

Bu üsulun tətbiqi istehsalın növündən və rentabelliyindən asılı olaraq əlavə edilmiş dəyərdə vergilərin payının kəmiyyət dəyişmələrini müqayisə etməyə imkan verir. Vergi məbləğinin əlavə edilmiş dəyərin məbləği ilə müqayisəsi münasibdir, çünki əlavə edilmiş dəyər iqtisadi subyektin gəlirinin mənbəyidir və onun inkişafını əks etdirən göstəricidir. Vergilər ödənildikdən sonra iqtisadi subyektin sərəncamında qalan əlavə dəyərin məbləğinə əsasən onun sonrakı inkişaf imkanları barədə

mülahizələr yürütmək olar.

4. İqtisadi subyektin vergi yükünü xarakterizə edən mütləq və nisbi vergi yükünün təyin edilməsi.

Mütləq vergi yükü dedikdə, dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına ödənilməli olan vergilər və sosial sığorta ayırmaları, daha doğrusu, təsərrüfat subyektlərinin vergi öhdəliklərinin mütləq kəmiyyəti nəzərdə tutulur. Bu göstəricini müəyyən etmək üçün büdcəyə faktiki vergi ödənişlərini, büdcədənkənar fondlara ödənilən sosial sığorta ayırmalarını və həmçinin bu ödəmələr üzrə yaranan borcları və borclara hesablanan penyaları toplamaq lazımdır. Bu zaman işçilərin əmək haqqından tutulan gəlir vergisinin və sosial sığorta ayırmalarının əmək haqqından tutulan hissəsinin (məsələn, Azərbaycan Respublikasında Dövlət Sosial Müdafiə Fonduna ayırmaların 2 faizi əmək haqqından tutulur) məbləği nəzərə alınmır. Çünki bunların ödəyiciləri həmin müəssisənin işçiləri olan fiziki şəxslərdir, iqtisadi subyekt isə vergi agenti rolunda çıxış edir, yəni onların gəlirindən bu vergiləri tutub dövlət büdcəsinə ödəyir.

Dolayı vergilərin faktiki ödəyicisinin məhsulun (işin, xidmətin) son istehlakçısı olmasına baxmayaraq, vergi yükünün hesablanması zamanı bunlar nəzərə alınmalıdır, çünki qiymətin əmələ gəlməsinin zəruri elementləridir.

Müəssisə tərəfindən dolayı vergilərin ödənilməsi aşağıdakı nəticələrə gətirib çıxarır. Birincisi, istehsal olunan məhsulun qiyməti bu vergilərin məbləği qədər artır. İkincisi, dolayı vergilərin yaratdığı qiymət artımı bu məhsullara olan tələbi azaldır, bunun nəticəsində də satış həcmi və mənfəət aşağı düşür. Üçüncüsü, bir tərəfdən, müəssisələrin dövriyyə vəsaitləri dövriyyədən çıxarılır ki, bu da müəyyən maliyyə çətinlikləri yaradır, digər tərəfdən isə büdcəyə ödənilməli olan əlavə dəyər vergisinin məbləği vergi tutulan dövriyyədən hesablanan əlavə dəyər vergisinin məbləği ilə istehsal və tədavül xərclərinə aid edilən material ehtiyatlarına görə malgöndərənlərə faktiki ödənilən əlavə dəyər vergisinin məbləği arasındakı fərq kimi müəyyən edilir.

Ona görə də büdcəyə ödənilməli olan əlavə dəyər vergisinin məbləği müəssisədə vergi yükünün səviyyəsinin hesablanması zamanı nəzərə alınan vergi ödənişlərinə aid edilməlidir.

Mütləq vergi yükü göstəricisi vergi öhdəliklərinin gərginliyini əks etdirmir. Bu göstərici vergi ödənişlərinin kəmiyyətini ödəniş mənbəyi ilə müqayisə etməyə imkan vermir. Ona görə də nisbi vergi yükü göstəricisindən istifadə edilməsi məqsədəuyğun hesab edilir.

Nisbi vergi yükü dedikdə, onun mütləq kəmiyyətinin yeni yaradılmış dəyərə nisbəti nəzərdə tutulur. Başqa sözlə, nisbi vergi yükü müəyyən vaxt ərzində hesablanmış vergilərin və sosial sığorta ayırmalarının cəmi məbləğinin yeni yaradılmış dəyərdə xüsusi çəkisini ifadə edir. Bu zaman müxtəlif təsərrüfat subyektləri üçün nisbi vergi yükünün müqayisəsi zamanı əlavə olunmuş dəyərin deyil, yeni yaradılmış dəyər göstəricisinin götürülməsi və iqtisadi təhlilin predmetində ümumi daxili məhsulun tərkib hissəsi kimi amortizasiya ayırmalarının nəzərə alınmaması məqsədəuyğun hesab edilir.

Bu metodologiyanın müsbət cəhəti ondan ibarətdir ki, o, mikro və makro səviyyədə nisbi vergi yükü göstəricisinin müəyyən edilməsinə imkan verir. Ən başlıcası isə vergi yükü vergilərin ödəniş mənbəyinə münasibətdə müəyyən olunur. Yeni yaradılmış dəyərdə vergilərin xüsusi çəkisi göstəricisindən müəssisənin maliyyə vəziyyəti və onun işçilərinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə asılıdır. İkincisi, ödənilən vergilər və məcburi sığorta ayırmaları yeni yaradılmış dəyərin formalaşmasında iştirak etmir. İstehsalın material tutumu, işçilərin sayı, məhsulun qiymətində vergilərin məbləği kimi göstəricilər vergi yükü göstəricisini təhrif etmir. Üçüncüsü, vergi yükünün hesablanması zamanı bilavasitə müəssisələr tərəfindən ödənilən vergilər nəzərə alınır. Dördüncüsü, bu metodologiya kifayət qədər əlverişli və sadə olmaqla, konkret müəssisədə vergi ağırlığının hesablanmasının həyata keçirilməsinə imkan verir.

Yeni yaradılmış dəyərə nisbətən hesablanmış nisbi vergi yükü göstəricisi ümumi daxili məhsulun həcminə nisbətən hesablanmış analoji göstəricidən əhəmiyyətli dərəcədə yüksəkdir. Bu da həmin vergi və sığorta ayırmaları məbləğlərinin daha «dar» iqtisadi baza ilə müqayisə edilməsi ilə əlaqədardır. Yeni yaradılan dəyər əlavə dəyərdən amortizasiya ayırmaları çıxılmaqla təyin olunur.

Müəssisə (müəssisələr qrupu, sahə) səviyyəsində yeni yara

dılan dəyər aşağıdakı kimi təyin olunur:

$$Y = W - S - A + Q - G$$

*və va*

$$Y = Ə + F + M + y$$

burada: A - amortizasiya ayırmaları.

Ə - əmək haqqı;

F - sosial sığorta ayırmaları;

Bu zaman təsərrüfat subyektinin nisbi vergi yükü aşağıdakı kimi təyin olunur:

$$A'... = \frac{y +}{E} x100\%$$

Bu üsulun üstünlüyü ondadır ki, o, sahə mənsubluğundan asılı olmayaraq iqtisadi subyektlərin vergi yükünü müqayisə etməyə imkan verir, çünki vergi ödənişləri yeni yaradılmış dəyərlə əlaqələndirilir, vergi yükü isə verginin ödəniş mənbəyinə nəzərən qiymətləndirilir.

Ancaq bu üsul fond tutumu, əmək tutumu, rentabellik kimi göstəricilərin təsirini nəzərə almır və vergilərin sayından, vergi dərəcəsindən və güzəştlərindən asılı olaraq, iqtisadi subyektin işgüzar fəallığının dəyişməsini proqnozlaşdırmağa imkan vermir.

5. Daha bir üsul vergi yükü göstəricisini vergilərin və digər məcburi ödənişlərin sayı, iqtisadi subyektin ödədiyi vergilərin strukturu və tutulması mexanizmi ilə əlaqələndirir.

Bu üsula əsasən, vergi yükü göstəricisi aşağıdakı kimi təyin olunur:

$$Ä' = -xi00\%$$
$$T$$

burada: T - vergilərin ödəniş mənbəyinin həcmidir.

Bu zaman vergilərin ümumi məbləğinə fiziki şəxslərin gəlir vergisi də daxil olmaqla ödənilən bütün vergilər daxil edilir, çünki bütün vergilər iqtisadi subyektin pul vəsaitləri hesabına ödənilir.

Vergilərin ödəniş mənbəyi kimi isə iqtisadi subyektin müxtəlif formada olan gəliri qəbul edilir.

İqtisadi subyektin ümumi vergi yükü göstəricisindən əlavə, ayrı-ayrı vergilərin öz vergi mənbələrinə nisbəti kimi təyin

olunan xüsusi göstəricilər də hesablanır.

Bu göstəricilərin köməyi ilə iqtisadi subyektin sahə mənsubiyyətindən asılı olaraq, optimal vergi yükünü təyin etmək olar. Bu üsul konkret iqtisadi subyekt barədə qiymətli məlumatlar toplamağa imkan verir. Məsələn, əlavə edilmiş dəyərin, mənfəətin hansı hissəsinin vergilər şəklində büdcəyə alındığını göstərir. Bundan əlavə, bu üsul konkret iqtisadi subyektin fəaliyyətinin xüsusiyyətlərini, daha doğrusu, əlavə dəyərdə amortizasiya ayırmalarının, material xərclərinin payını nəzərə almağa imkan verir.

Vergi yükünün hesablanmasına fiziki şəxslərin gəlir vergisinin daxil edilməsi isə mübahisələr doğurur.

6. İqtisadi subyektin vergi yükünü xarakterizə edən ümumiləşdirilmiş və xüsusi göstəricilər.

İqtisadi subyektin vergi yükünü xarakterizə edən ümumiləşdirilmiş göstəricilər aşağıdakılardır:

- müəssisənin gəlirlərinə düşən vergi yükü (KG);
- müəssisənin maliyyə vəsaitlərinə düşən vergi yükü (Ke);
- müəssisənin xüsusi kapitalına düşən vergi yükü (Kx);
- müəssisənin vergi tutulmamış mənfəətinə düşən vergi yükü (KM).

Bu göstəricilər aşağıdakı düsturlarla hesablanır:

A:. =—xl00%
C JfT

*Ke = -xm%* **B**

**A:„ =—xioo%**
***X***

= —Xİ00%
'' ***M***

burada: B - balansın orta illik valyutası;

X - xüsusi kapitalın orta illik məbləği.

İqtisadi subyektin vergi yükünü xarakterizə edən daha konkret və informativ xüsusi göstəricilər ödənilmə mənbəyinə

- maya dəyərinə, satışdan əldə olunan vəsaitə, maliyyə nəticələrinə, xalis mənfəətə görə hesablanır. Bu mənbələrə uyğun olaraq, dörd qrup vergi xərcləri formalaşdırılır. Vergi yükü vergi xərclərinin həmin xərcləri örtən mənbəyə nisbəti kimi təyin olunur.

Yuxarıda deyilənlərə uyğun olaraq, iqtisadi subyektin vergi yükünü xarakterizə edən aşağıdakı xüsusi göstəricilər ayrılır:

- satışa düşən vergi yükü (Ks);
- maya dəyərinə düşən vergi yükü (KL);
- xalis mənfəətə düşən vergi yükü (Kv).

Bu göstəricilər aşağıdakı kimi hesablanır:

*K, =^x\00%*
*w*

*K, =^xm%*
**'■L**

=^xl00%
***F***

*Ky* =^xl00%
***R***

burada: **Vs** - satış hesablarına aid edilən vergi xərcləri;
- satılmış məhsulun (işin, xidmətin) maya dəyərinə aid edilən vergi xərcləri:

L - satılmış məhsulun (işin, xidmətin) maya dəyəri;

VF - maliyyə nəticələri hesablarına aid edilən vergi xərcləri;

F - məhsul (xidmətin, iş) satışından əldə edilən müsbət maliyyə nəticəsi;

**Vv** - xalis mənfəətə aid edilən vergi xərcləri;

R - iqtisadi subyektin xalis mənfəəti.

Bu üsulun üstün cəhəti ondan ibarətdir ki, qarşıya qoyulan idarəetmə məsələsindən asılı olaraq vergi yükünü hesablamağa imkan verir.

Makroiqtisadi səviyyədə də vergi yükünün hesablanmasına müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro

səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri əsasında təyin olunan vergilərin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisinin hesablanması metodikaları məlumdur.

Praktikada ən ümumi şəkildə vergi yükü vergi daxilolmalarının cəminin ümumi daxili məhsulun həcminə nisbətinin faizlə ifadəsi kimi təyin olunur.

Başqa sözlə,

A: = —5^x100%
YDM

Burada: K - vergi yükü;

ÜDM - ümumi daxili məhsul;

V- vergi daxilolmalarının həcmi.

2004- 2007-ci illərdə Azərbaycan Respublikasında vergi yükü göstəricisinin dinamikası cədvəl 15-də əks olunmuşdur.

**Cədvəl 15**

**2004-2007-ci illərdə Azərbaycan Respublikasında vergi yükünün dinamikası.**

| № | Göstəricilər | Ölçü vahidi | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| 1 | Cari qiymətlərlə ümumi daxili məhsul | mlrd .man | 8,37 | 11,88 | 18,04 | 25,23 |
| 2 | Cari qiymətlərlə vergi daxilolmaları | mlrd .man | 1,01 | 1,43 | 2,72 | 4,54 |
| 3 | Vergi yükü | % | 12,0 | 12,0 | 15,02 | 17,99 |

Cədvəldən göründüyü kimi, 2004 və 2005-ci illərdə bu göstəricinin səviyyəsi dəyişməz olaraq qalmış, 2006-cı ildə əvvəlki illərlə müqayisədə 3,02 bənd, 2007-ci ildə isə 2006-cı illə müqayisədə 2,97 bənd yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, baxılan dövr ərzində Azərbaycan Respublikası ərazisində tətbiq olunan vergilərin dərəcələri artırılmamış, heç bir yeni vergi daxil edilməmişdir. Bu artımı əsasən vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması, vergi intizamının səviyyəsinin yüksəldilməsi ilə izah etmək olar.

Azərbaycan Respublikasında vergi yükü göstəricisinin

səviyyəsi barədə daha dolğun məlumat almaq üçün onu Avropa İttifaqının üzvü olan ölkələr üçün anoloji göstəricinin səviyyəsi ilə müqayisə edək (Cədvəl 16).

Codvəl 16

**Avropa İttifaqına üzvü ölkələrdə vergi yükü göstəricisinin səviyyəsi.**

| Ölkələr | Sosial ayırmalar üzrə daxilolmalar nəzərə alınmaqla | Sosial ayırmalar üzrə daxilolmalar nəzərə alınmadan |
|---|---|---|
| **Almaniya** | **40.0** | **23.2** |
| **Avstriya** | **44.3** | **29.8** |
| **Belçika** | **47.2** | **33.3** |
| **Böyük Britaniya** | **37.7** | **30.0** |
| **Çexiya Respublikası** | **36.6** | **21.5** |
| **Danimarka** | **49.9** | **48.7** |
| **Estoniya** | **32.7** | **21.6** |
| **Yunanıstan** | **37.7** | **25.5** |
| **İspaniya** | **35.4** | **23.2** |
| **İtaliya** | **42.1** | **29.4** |
| **Fransa** | **45.3** | **29.0** |
| **Latviya** | **29.1** | **20.3** |
| **Litva** | **28.7** | **20.3** |
| **Lüksemburq** | **41.1** | **29.8** |
| **Malta** | **36.7** | **29.8** |
| **Hollandiya** | **38.8** | **24.8** |
| **Polşa** | **34.3** | **20.3** |
| **Portuaaliva** | **35.6** | **24.3** |
| **Sloveniya** | **39.9** | **18.3** |
| **Finlandiya** | **44.5** | **32.4** |
| **İspaniya** | **51.2** | **37.3** |
| **Avropa İttifaqı üzrə orta** | **39.5** | **27,3** |
| **Azərbaycan** | | **17,9** |

Cədvəllərin müqayisəsindən göründüyü kimi, Azərbaycan Respublikasında vergi yükü göstəricisinin səviyyəsi Avropa İttifaqının üzvü olan ölkələr üçün analoji göstəricinin səviyyəsindən xeyli aşağıdır.

Qeyd etmək lazımdır ki, vergi yükü göstəricisinin səviyyəsinin aşağı olmasının əsas səbəblərindən biri xalq təsərrüfatının ayrı-ayrı sahələrinin vergi ödəməkdən azad

Məsələn, kənd təsərrüfatı məhsulları istehsalına xeyli vergi güzəştləri verilib, lakin bu sahədə istehsal olunan məhsulun həcmi ümumi daxili məhsulun tərkibinə daxil edilib. Bu isə orta statistik vergi ödəyicisi üçün hesablanmış vergi yükü göstəricisinin səviyyəsinin süni surətdə aşağı düşməsinə səbəb olur.

Azərbaycan Respublikası ərazisində hasilatın pay bölgüsü üzrə sazişlər əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün protokollarla tənzimlənən vergi- tutma mexanizmi nəzərdə tutulmuşdur. Bu protokollara əsasən, həmin şirkətlər əldə etdikləri gəlirdən yalnız 5-8% dərəcəsi ilə mənfəət vergisinin ödəyiciləridir və digər vergiləri ödəməkdən azaddırlar.

Beləliklə, bu şirkətlər üçün vergi yükü xeyli yüngüldür, onların hasilatının həcmi isə ümumi daxili məhsulun tərkibinə daxildir. Bu isə orta statistik vergi ödəyicisinin vergi yükünün səviyyəsinin süni surətdə bir qədər də aşağı düşməsinə səbəb olur.

Nəzərə almaq lazımdır ki, vergi yükü göstəricisi yuxarıdakı kimi təyin olunduğu zaman gömrük orqanları tərəfindən yığılan vergilərin (əlavə dəyər vergisi və aksizlər) məbləği və Dövlət Sosial Müdafiə Fonduna ödəmələrin məbləği nəzərə alınmamışdır. Əgər bu ödəmələrin də məbləği nəzərə alınarsa, onda vergi yükü göstəricisinin səviyyəsi xeyli yüksəlmiş olar.

Göründüyü kimi, sosial ayırmalar nəzərə alınmaqla hesablanan vergi yükünün Avropa İttifaqının üzvü olan ölkələr üzrə orta səviyyəsi 39,5 faiz, bu göstərici nəzərə alınmadan isə 27,3 faizdir.

Qeyd etmək lazımdır ki, vergi yükünün yuxarıda qeyd olunan göstəricilərinin tərkibində gömrük ödənişləri də nəzərə alınır ki, bu da öz növbəsində həmin ölkələrin vergi yükünün respublikamızdakı analoji göstərici ilə müqayisədə fərq yaradan amildir.

Vergi dərəcələrinin səviyyəsi də vergi mühitinə təsir edən əsas amillərdən biridir. Ulu öndərin bilavasitə rəhbərliyi altında işlənib hazırlanmış Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 6.3-cü maddəsində qeyd olunur ki, dövlət vergilərinin hər il üçün təsdiq olunan dərəcələri Vergi Məcəlləsində müəyyən edilən dərəcələrdən yüksək ola bilməz.

Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikasında tətbiq olunan vergilərin dərəcələri əksər ölkələrdəki analoji vergilərin dərəcələrindən nəzərəçarpacaq dərəcədə aşağıdır. Bunu cədvəl 16-nın göstəriciləri də təsdiq edir.

**Cədvəl 16**

**Avropa İttifaqına üzvü ölkolərdo bəzi vergilərin dərəcələri.**

| Ölkələr | Gəlir vergisinin dərəcələri | Hüquqi şəxslərin mənfəət vergisinin dərəcələri | Əlavə dəyər vergisinin dərəcələri |
|---|---|---|---|
| Avstriya | 50,0 | 25,0 | 20,0 |
| Belçika | 50 ,0 | 33,0 | 21,0 |
| Çexiya | 32,0 | 24,0 | 19,0 |
| Slovakiya | 19,0 | 19,0 | 19,0 |
| Macarıstan | 36,0 | 16,0 | 20,0 |
| Lüksemburq | 39.0 | 22.0 | 15.0 |
| İtaliya | 39,0 | 27,5 | 20,0 |
| Yunanıstan | 40,0 | 25,0 | 19,0 |
| Fransa | 40,0 | 33,3 | 19,6 |
| Polşa | 40,0 | 19,0 | 22,0 |
| Almaniya | 42,0 | 15,0 | 16,0 |
| Böyük Britaniya | 40,0 | 23,0 | 17,5 |
| İrlandiya | 42,0 | 19,0 | 21,0 |
| İspaniya | 45,0 | 30,0 | 16,0 |
| Finlandiya | 50,0 | 26,0 | 22,0 |
| Portuqaliya | 42,0 | 25,0 | 21.0 |
| Hollandiya | 52 .0 | 23.0 | 19.0 |
| İsveç | 56,0 | 28,0 | 25,0 |
| Orta dərəcə | 41,9 | 24,0 | 19,5 |
| Azərbaycan | 35,0 | 22,0 | 18,0 |

Beləliklə, cədvəl I6-nın məlumatlarından göründüyü kimi Azərbaycan Respublikasında həm fiziki şəxslərin gəlir vergisinin, həm hüquqi şəxslərin mənfəət vergisinin, həm də əlavə dəyər vergisinin dərəcələri iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdəki analoji vergilərin dərəcələrindən aşağıdır. Bu faktın özü əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşən vergi siyasətinin əsas məqsədinin sahibkarlıq sektoru subyektləri üçün əlverişli vergi mühitinin yaradılması olduğuna sübutdur.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin yaradılmasına daha bir sübut belə fəaliyyətlə məşğul olan şəxslərin

sayının ilbəil artmasıdır. 2002-2007-ci illər üzrə respublikada qeydə alınmış hüquqi şəxslərin sayının dinamikası cədvəl 17- də əks olunmuşdur.

**Cədvəl 17**

**Qeydə alınmış hüquqi şəxslərin sayı**
**(1 yanvar tarixə)**

| Göstəricilər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 58623 | 59130 | 61136 | 65109 | 70287 | 74534 |
| 2002-ci ilə nəzərən (%-lə) | | 100,9 | 104,3 | 111,1 | 119,9 | 127,1 |
| | o cümlədən: | | | | | |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 8994 | 8439 | 8125 | 8528 | 8965 | 9087 |
| Balıqqlıq, balıqyetişdirmə | 70 | 71 | 79 | 91 | 96 | 100 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | 282 | 317 | 359 | 422 | 508 | 581 |
| Emal sənayesi | 4386 | 4517 | 4811 | 5167 | 5539 | 5828 |
| Elektrik eneıjisi, qaz və su təchizatı | 350 | 368 | 366 | 349 | 342 | 353 |
| Tikinti | 4428 | 4505 | 4814 | 5337 | 6104 | 6667 |
| Topdan və pərakəndə satış, avtomobillərin,motosikletlərin məişət malları və şəxsi əşyaların təmiri | 1858 0 | 19088 | 20402 | 22016 | 24079 | 25980 |
| Mehmanxanalar və restoranlar | 868 | 894 | 920 | 927 | 975 | 1028 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 1473 | 1571 | 1684 | 1840 | 2009 | 2227 |
| Maliyyə vasitəçiliyi | 821 | 801 | 723 | 769 | 735 | 780 |
| Daşınmaz əmlakla əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 5526 | 5597 | 5798 | 6142 | 6633 | 7013 |
| Dövlət idarə edilməsi və müdafiə, məcburi sosial sığorta | 5434 | 5439 | 5379 | 5468 | 5696 | 5748 |
| Təhsil | 590 | 587 | 586 | 657 | 731 | 767 |
| Səhiyyə və sosial xidmətlər | 1264 | 1296 | 1316 | 1344 | 1430 | 1521 |
| Digər kommunal, sosial və fərdi xidmətlər | 5513 | 5597 | 5729 | 6006 | 6395 | 6802 |
| Toxunulmazlıq hüququ olan təşkilat və orqanlar | 44 | 43 | 45 | 46 | 50 | 52 |

Cədvəl 17-dən göründüyü kimi, baxılan dövr ərzində, demək olar ki. bütün sahələr üzrə hüquqi şəxslərin sayında nəzərəçarpacaq artım müşahidə olunur. Belə ki, 1 yanvar 2002-ci il tarixilə müqayisədə 1 yanvar 2007-ci il tarixinə dövlət qeydiyyatında olan hüquqi şəxslərin sayı 27, 1 faiz artmışdır.

Eyni halı hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin sayının dinamikasında da müşahidə etmək olar. Bu dinamika cədvəl 18-də əks olunmuşdur.

**Codvol 18**

**Qeydo alınmış fiziki şəxslərin sayı**
**(1 yanvar tarixinə)**

| Göstəricilər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 106872 | 128104 | 157986 | 183668 | 209170 | 243479 |
| 2002-ci ilə nəzərən | | 119,9 | 147,8 | 171,9 | 195,7 | 227,8 |
| o cümlədən: | | | | | | |
| Kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq | 3469 | 5313 | 10305 | 15100 | 20318 | 23185 |
| Mədənçıxarma sənayesi və emal sənayesi | 2924 | 3751 | 4925 | 6054 | 7342 | 8153 |
| Elektrik eneıjisi, qaz və su təchizatı | 145 | 153 | 58 | 97 | 73 | 69 |
| Tikinti | 530 | 735 | 730 | 711 | 1329 | 1622 |
| Topdan və pərakəndə satış; avtomobillərin, motosikletlərin məişət mallan və şəxsi əşyalann təmiri | 73332 | 84107 | 99159 | 111329 | 120219 | 119883 |
| Mehmanxanalar və restoranlar | 3458 | 4882 | 6231 | 7568 | 8956 | 10103 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 9444 | 11431 | 14191 | 16484 | 17984 | 43503 |
| Maliyyə vasitəçiliyi | 85 | 131 | 298 | 358 | 400 | 486 |
| Daşınmaz əmlakla əməliyyatlar, icarə və kommersiya fəaliyyəti | 6795 | 9048 | 10502 | 12256 | 13477 | 14399 |
| Təhsil | 146 | 228 | 367 | 432 | 479 | 573 |
| Səhiyyə və sosial xidmətləri | 793 | 922 | 1122 | 1319 | 1352 | 1445 |
| Digər kommunal,sosial və fərdi xidmətlər | 5684 | 7323 | 10015 | 11891 | 17164 | 19980 |
| Muzdlu və təsərrüfat üzrə xidmət | 68 | 80 | 83 | 69 | 77 | 78 |

Cədvəl 18-dən göründüyü kimi, təhlilin aparıldığı dövr ərzində, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən şəxslərin sayı hüquqi şəxslərlə müqayisədə daha yüksək sürətlə artmışdır. Belə ki, 1 yanvar 2002-ci il tarixilə müqayisədə 1 yanvar 2007-ci il tarixinə dövlət qeydiyyatında olan fiziki şəxslərin sayı 2 dəfədən də çox artmışdır.

Yaradılan əlverişli vergi mühiti xüsusi, xarici, bələdiyyə və

qarışıq mülkiyyətdə olan müəssisələrin sayının dinamik şəkildə artmasına səbəb olmuşdur. 2002-2007-ci illər üzrə mülkiyyət növlərinə görə müəssisələrin sayının dinamikası aşağıdakı cədvəldə əks olunmuşdur

**Cədvəl 19**

**Mülkiyyət formasına görə müəssisələrin sayı**
**(1 yanvar tarixinə).**

| Göstəricilər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| Dövlət | 13071 | 12638 | 12138 | 11791 | 11771 | 11666 |
| 2002-ci ilə nəzərən (%-lə) | | 96,69 | 92,86 | 90,21 | 90,05 | 89,25 |
| Bələdiyyə | 2623 | 2658 | 2678 | 2683 | 2751 | 2779 |
| 2002-ci ilə nəzərən (%-lə) | | 101,33 | 102,10 | 102,29 | 104,88 | 105,95 |
| Xüsusi | 40008 | 40773 | 43068 | 47143 | 51956 | 55928 |
| 2002-ci ilə nəzərən (%-lə) | | 101,92 | 107,65 | 117,83 | 129,86 | 139,79 |
| Xarici | 1974 | 2104 | 2266 | 2490 | 2732 | 3006 |
| 2002-ci ilə nəzərən | | 106,59 | 114,79 | 126,14 | 138,40 | 152,28 |
| Qanşıq | 947 | 957 | 986 | 1002 | 1077 | 1155 |
| 2002-ci ilə nəzərən | | 101,06 | 104,12 | 105,81 | 113,73 | 121,96 |

Cədvəl 19-dan göründüyü kimi baxılan dövr ərzində dövlət mülkiyyətində olan müəssisələrin sayı 10,75 faiz azalaraq 13071-dən 11666-ya düşmüşdür. Bunu, əsasən, dövlət əmlakının özəlləşdirilməsi prosesinin davam etdirilməsinin nəticəsi kimi, izah etmək olar.

Bu illər ərzində bələdiyyə mülkiyyətində olan müəssisələrin sayı 5,95 faiz artaraq 2623-dən 2779-a, xüsusi mülkiyyətdə olan müəssisələrin sayı 39,79 faiz artaraq 40008-dən 55928-ə, qarışıq mülkiyyətə əsaslanan müəssisələrin sayı isə 21,96 faiz artaraq 947-dən 1155-ə çatmışdır.

Təhlilin aparıldığı dövr ərzində ən çox artım xarici müəssisələrin sayında baş vermişdir. Belə ki, bu dövr ərzində onların sayı 52,28 faiz artaraq 1974-dən 3006-ya çatmışdır.

Bu artımı bir neçə səbəblə izah etmək olar. Əvvəla, bu, ilk növbədə xarici iş adamlarının və şirkətlərin Azərbaycana olan böyük marağı ilə əlaqədardır. İkincisi, bu marağın reallaşdırılması, iş adamlarının və şirkətlərin Azərbaycanda iş qurmağa təşviq edilməsi üçün əlverişli mühitin olması vacibdir. Ulu öndərin bu istiqamətdə həyata keçirdiyi işlər və bu işlərin

möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində buna nail olmaq mümkün olmuşdur.

Xarici iqtisadi fəaliyyət zamanı şirkətlərin tədricən xarici bazara nüfuz etməsi nöqteyi-nəzərindən, vergi amili nəzərə alınmaqla, kommersiya fəaliyyətinin təşkilinin aşağıdakı formalarını qeyd etmək olar;

- sərhədi keçmədən əmtəə və xidmətlərin ixracı;
- daimi nümayəndəlik yaratmadan xaricdə məhdud şəkildə olma;
- yeni hüquqi şəxs təsis etmədən şirkətin xarici filialının yaradılması;
- xaricdə transmilli şirkətin xüsusi bölməsinin, yəni qrupun firmadaxili strukturuna daxil olan törəmə şirkətin yaradılması;
- xarici holdinq şirkət yaratmaqla, transmilli şirkətin qeyri-rezident törəmə şirkətlərinin bu subholdinqdə birləşdirilməsi;
- hazır xarici şirkətin alınması və onun transmilli şirkətin firmadaxili strukturuna daxil edilməsi;
- müstəqil xarici şirkətlə birgə müəssisənin yaradılması.

Sərhədi keçmədən əmtəə və xidmətlərin ixracı. Əmtəələri ixrac edərkən bütün sazişləri şirkət öz yurisdiksiyasındakı ofisində bağlayır. Ən sadə halda, bir qayda olaraq, mallar FOB şərti ilə yola salınır, yəni malın çatdırılması ilə bağlı bütün xərcləri xarici tərəfdaş öz üzərinə götürür.

Xarici iqtisadi fəaliyyətin bu formasının üstünlüyü ondadır ki, sərhədi keçmədən mal ixrac edərkən şirkət öz ixrac malına tətbiq olunan xarici vergilərdən azad olur. Qeyd elmək lazımdır ki, mal ixrac olunarkən daxili əlavə dəyər vergisi də tətbiq olunmur. Beləliklə, xaricə göndərilmiş malın orada satışından əldə edilmiş mənfəətdən verginin, əlavə dəyər vergisinin və s. ödənilməsinin məsuliyyətini xarici dövlətin rezidenti olan idxalatçı şirkət öz üzərinə götürür.

Lisenziyalaşdırma zamanı milli şirkət öz xarici partnyoru ilə lisenziya sazişi bağlayır və buna uyğun olaraq ticarət mənfəəti deyil, royalti alır. Lisenziyalaşdırma da xaricdə vergiyə cəlb edilən idarə yaratmır. Buna görə də lisenziya verən şirkət xaricdə mənfəət vergisinə və digər vergilərə məruz qalmır. Ancaq lisenziya gəlirləri royalti ödənişləri formasında

xaricə köçürülərkən, ondan ərazi prinsipinə uyğun olaraq royaltinin repatriasiyasına görə vergi tutulur.

Əgər ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılması barədə razılaşmalar olarsa, repatriasiya vergilərini nəzərəçarpacaq dərəcədə azaltmaq, hətta sıfıra endirmək olar. Məsələn, Avropa İttifaqının üzvü olan ölkələrdə royalti onun bir üzvündən digərinə köçürülürsə, ondan repatriasiya vergisi tutulmur.

Daimi nümayəndəlik yaratmadan xaricdə məhdud şəkildə olma. Xarici iqtisadi fəaliyyətin bu forması xarici dövlətin bazarına bilavasitə çıxmağı nəzərdə tutur və vergi planlaşdırması məharəti həmin dövlətin ərazisində şirkətin daimi nümayəndəliyinin yaradılmasına yol verməməyə yönəldilir. Bu zaman fəallığın məhdud səviyyəsi və vergiyə cəlb edilən iştirakdan yayınma nəzərdə tutulur. Ölkə ilə biznesin həyata keçirilməsindən ölkədə biznesin həyata keçirilməsinə keçidin sərhədi xarici dövlətin daxili vergi qanunvericiliyindən, onun interpretasiyasından və həmçinin, ikitərəfli vergi konvensiyalarından asılıdır.

Əgər şirkət xaricdə daimi nümayəndəlik yaratmırsa, qeyri-rezident kimi bilavasitə fəaliyyət göstərmirsə, deməli, onun xarici yurisdiksiyada olması vergiyə cəlb olunmur.

Bəzi hallarda anbarlar, nümayiş zalları, şirkətin müştərilərə servis xidməti göstərən, bazar barədə informasiya toplayan nümayəndəlikləri, marketinq və reklam büroları «daimi nümayəndəlik» anlayışı ilə əhatə olunmur. Buna görə də xarici iqtisadi fəaliyyətin bu forması ilə məşğul olarkən beynəlxalq vergi sazişlərinin uyğun bölmələrinə xüsusi diqqət yetirmək, xarici dövlətdə birbaşa və dolayı vergilərin subyekti olan daimi nümayəndəliyin yaradılmasına gətirib çıxaran fəaliyyət növlərindən yayınmaq lazımdır.

Yeni hüquqi şəxs təsis etmədən şirkətin xarici filialının yaradılması. Filialın yaradılması üçün aşağıdakı prinsiplərə əməl edilməlidir:

- xarici ölkədə qanunvericiliyə uyğun qaydada xarici filial kimi qeydiyyata alınması zəruri olan müəssisə yaradılır. Ancaq bu zaman ayrıca hüquqi şəxs yaradılmır, filialın məqsədi isə transmilli qrupun tərkibində kommersiya fəaliyyətinin həyata keçirilməsidir;

- filialın istehsal binaları və qurğuları olur, tədqiqat və konstrukior layihələri həyata keçirir, yəni baş şirkətin xarici istehsal və xidmət müəssisəsi təşkil edilir;

- filialın fəaliyyəti aid olduğu baş şirkətin rezidenti olan ölkədən maliyyələşdirilir və koordinasiya edilir.

Vergi nöqteyi-nəzərindən, filial iki vergi yurisdiksiyasmın qanunları ilə üzləşir. Birincisi, filial yerləşdiyi ölkənin vergi qanunvericiliyində nəzərdə tutulan vergiləri ödəyəcək. İkincisi isə, bütün zəruri vergilər çıxılmaqla, filialın mənfəəti baş şirkətin yerləşdiyi ölkəyə köçürüləcək, şirkətin ümumi balansına daxil ediləcək və şirkətin gəlirləri rezidentlik yeri üzrə yenidən gəlir vergilərinə cəlb olunacaq.

Belə bir ikiqat vergitutmanı aradan qaldırmaq üçün baş şirkətin məcmu vergiləri hesablanarkən, filialın yerləşdiyi ölkədə ödədiyi vergilərin kreditləşməsindən istifadə etmək olar.

Xarici iqtisadi fəaliyyətin bu formasının müəyyən üstünlüyü ondadır ki, filial yerləşdiyi yurisdiksiyada vergiyə cəlb olunan mənfəətdən məsləhət, marketinq və s. xidmətlər müqabilində baş şirkətə ödədiyi vəsaitləri çıxmaq imkanı əldə edir. Ancaq beynəlxalq vergi sazişlərində bu cür çıxımların mümkün hədləri ayrıca olaraq əks etdirilir.

Filiallar əlavə dəyər vergisi üzrə də müəyyən üstünlüklərə malik olur. Filialın transmilli şirkətin firmadaxili strukturuna daxil olmayan üçüncü şirkətlərlə əməliyyatları əlavə dəyər vergisinə cəlb olunduğu halda, eyni bir transmilli qrupun filial və bölmələri arasındakı əməliyyatlar əlavə dəyər vergisinə cəlb olunmur.

Xaricdə xüsusi bölmənin - törəmə şirkətin yaradılması. Xarici törəmə şirkətin üstünlüyü onun aktivlərinin və apardığı əməliyyatların baş şirkətdən ayrılıqda olmasıdır. Xarici dövlətin rezidenti kimi yaradılan belə törəmə şirkət öz rezidentlik yeri üzrə bütün vergiləri ödəyəcək.

Əgər törəmə şirkət gəlirlərini repatriasiya etməyib yarandığı ölkədə saxlasa, baş şirkətin yerləşdiyi yurisdiksiyadakı vergilərdən yayına bilər. Beləliklə, törəmə şirkətin mənfəətinin ikiqat vergiyə cəlb olunmasından qaçmaq olar.

Ancaq mənfəət gəlir, royalti və faiz şəklində baş şirkətin olduğu ölkəyə köçürüldüyü zaman ikiqat vergitutma olacaq.

Əvvəlcə törəmə şirkətin rezidenti olduğu yurisdiksiyada bu ödənişlərin repatriasiyasına görə vergi tutulacaq, sonra isə törəmə şirkətin kapitalında iştirakdan əldə edilən gəlir baş şirkətin ümumi mənfəətinin tərkibinə daxil edilir və onun rezidenti olduğu ölkədə mənfəət vergisinə cəlb olunur.

Filial və törəmə şirkət vasitəsi ilə xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi formalarının üstün və çatışmayan cəhətlərini cədvəl 20 və 21-də olduğu kimi əks etdirmək olar.

**Cədvəl 20**

**Filial**

| Üstünlükləri | Çatışmazbqlan |
|---|---|
| Qeydiyyatın sadəliyi, ucuz başa gəlməsi, qanunvericilik və inzibati tələblərin minimum olması. | Xarici şirkətin filialı ilə əməliyyatlar bu niiaJı milli şirkətlə eynilə^irmə-diyindən, şirkətin yerli partnyorlan tərəfindən mənfi qarşılanır. |
| Filialın mənfəəti baş şirkətə köçürüldükdə repatriasiya vergiləri tutulmur. | Baş şirkət öz xarici fılialmın bütün öhdəlikləri üzrə tam məsuliyyət daşıyır. |
| Filialın xərclərini və zərərlərini baş şirkətin mənfəətinə aid etmək olar. | Filialın müstəqil balansı yoxdur və kommersiya fəaliyyəti apararkən müstəqil deyil. |
| Filial öz maliyyə hesabatını dərc etdirməli deyil. | Filial ikiqat vergitutmaya məruz qalır. |

**Cədvəl 21**

**Töromo şirkəl**

| Üstünlükləri | Çatışmazbqlan |
|---|---|
| Şirkətin səhmdarlarının məsuliyyəti onlann iştirak payının həcmi ilə məhdudlaşır. | Yaradılması və qeydiyyatı prosesi mürəkkəbdir, baha başa gəlir, uzun müddət tələb edir, inzibati və qanunvericilik tələbləri daha sərtdir. |
| Transmilli qrup daxilində maliyyə cəhətdən sərbəst manevr imkanları var, mənfəət baş şirkətin xeyrinə bölüşdürülmədikdə mənfəəti yenidən investisiyaya yönəlünəklə vergidən qaçmaq olar. | Mənfəətin repatriasiyasma görə vergi tutulur. |
| Müxtəlif ölkələrdə vergi dərəcələri arasında fərq böyükdürsə, transmilli qrupda vergiləri minimallaşdırmaq asandır. | Maliyyə hesabatmm dərc edilməsi zəruridir. |
| Xarici vergilər həmin ölkənin rezidenti olan şirkətlərə tətbiq edilir. | Şirkət ləğv edilərkən kifayət qədər yüksək vergilər tətbiq oluna bilər. |
| Ana şirkət törəmə şirkətin borcları və öhdəliklərinə görə cavab vermir. | Şirkətin fəaliyyət istiqaməti səhmdarların istəklərindən asıb olur. |

Xarici holdinq şirkət yaratmaqla transmilli şirkətin qeyri-rezident törəmə şirkətlərinin bu subholdinqdə birləşdirilməsi. Əgər hər hansı bir ölkənin rezident şirkətinin törəmə şirkətlər şəbəkəsi vardırsa, onda aralıq subholdinq şirkət yaratmaqla transmilli strukturu optimallaşdırmaq olar.

Subholdinq şirkət yaradılmasının üstünlüyü onun bütün fəaliyyətinin qrupun maliyyə vəsaitlərinin köçürülməsinə həsr olunmasıdır. Pul vəsaitlərini köçürən belə şirkət xarici törəmə şirkətlərin gəlirlərini yığır, onları yerləşdiyi ölkədəki hesablarında cəmləyir, sonra isə bu vəsaitləri ya yenidən investisiyaya yönəldir, ya da qrupun baş ana şirkətinin yerləşdiyi ölkəyə köçürür.

Subholdinq, bir qayda olaraq, geniş beynəlxalq vergi sazişləri şəbəkəsi olan və bu cür şirkətlərin fəaliyyətinə müəyyən vergi güzəştləri verən ölkədə yaradılır. Adətən, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan şirkətlər Hollandiya və ya İsveçrədə yaradılır. Bu şirkətlərin fəaliyyətinin mahiyyəti onların köməyi ilə faizlərin, dividendlərin, royalti tipli ödənişlərin repatriasiyası zamanı tutulan vergilərə nəzərə- çarpacaq qənaət edilməsindədir.

Hazır xarici şirkətin alınması və onun transmilli şirkətin formadaxili strukturuna daxil edilməsi. Xarici iqtisadi fəaliyyətin təşkilinin bu formasından artıq yaradılmış şəbəkəyə ehtiyacı olan şirkətlər istifadə edirlər. Onlar hazır xarici şirkəti almaqla, ondan rəqibləri zəiflətmək, qabaqcıl texnologiyaya yol əldə etmək, biznesin diversifıkasiyası üçün istifadə edirlər. Bizim üçün isə hazır xarici şirkətin alınmasının vergi aqibəti daha maraqlıdır.

Hazır xarici şirkət alınmasının aşağıdakı vergi üstünlüklərini qeyd etmək olar:

- şirkətin qeydiyyatı zərurətinin olmaması nəticəsində qeydiyyat yığımlarının ödənilməsi, nizamnamə kapitalının zəruri minimumunun köçürülməsi kimi tələblər yaranmır;
- ödəniş qabiliyyəti olmayan şirkət alarkən onun ödənilməmiş borclarını, həmçinin zərərlərini bütün transmilli şirkətin vergiyə cəlb edilən mənfəəti hesablanarkən nəzərə almaq olar.

Xarici şirkət alarkən həmin yurisdiksiyaya xas olan konkret detallar ortaya çıxır ki, vergi nöqteyi-nəzərindən onlara xüsusi diqqət yetirmək lazımdır. Bunlardan aşağıda

kıları qeyd etmək olar:

- alınmış şirkətin kapitallaşdırılması (yeni qiymətli kağızların emissiyası) həyata keçirilərkən mümkün vergi məsuliyyəti;
- şirkətin mülkiyyətçisi dəyişərkən ödənilməli olan transfert vergiləri;
- dövlət tərəfindən şirkətin fəaliyyətinin məhdudlaşdırılması, o cümlədən vergi məhdudiyyətləri (məsələn, bu müəssisə üçün güzəştli vergi rejiminin ləğv edilməsi);
- bütün qrupun, yeni şirkətin onun tərkibinə daxil edilməsi ilə əlaqədar olaraq, vergi yükünün qiymətləndirilməsi, həmçinin bu şirkətin rezidenti olduğu ərazidə gələcək vergi məsuliyyətinin təyin edilməsi;
- alınmış şirkətin statusunun qiymətləndirilməsi və gələcəkdə onun statusunun dəyişməsinin vergi nəticələri;
- alınmış şirkətin fəaliyyətinin sonradan maliyyələşdirilməsi üsulları.

Şirkət alınarkən, adətən, onun yerləşdiyi ölkənin valyutası ilə borcdan istifadə etmək tövsiyə olunur. Bu borcu baş şirkətin zəmanəti ilə yerli banklardan almaq olar. Bu, valyuta kursunun dəyişməsində yaranan mümkün itkiləri minimal- laşdırmaq üçün edilir. Vergi nöqteyi-nəzərindən isə bu, kurs fərqindən vergi ödəmək zərurətindən qaçmağa imkan verir.

Alqı-satqı, adətən, həmin yurisdiksiyada xüsusi olaraq yaradılmış sövdələşməni rəsmiləşdirən və onu maliyyələşdirən holdinq şirkəti tərəfindən həyata keçirilir. Şirkətin alınması ilə bağlı olan xərcləri, götürülmüş borc üzrə faizləri sonradan alınmış şirkətin mənfəətindən çıxmaq olar. Şirkətin alınması başa çatdıqdan sonra o, transmilli şirkətin strukturuna daxil edilir.

Müstəqil xarici şirkətlə birgə müəssisənin yaradılması. Vergi nöqteyi-nəzərindən birgə müəssisənin yaradılması xarici iqtisadi fəaliyyətin xüsusi forması kimi çıxış edir. Dünya təcrübəsinin göstərdiyi kimi, birgə müəssisə yaradılarkən, əksər hallarda ayrıca vergitutma vahidi - müstəqil hüquqi şəxs yaradılmır. Başqa sözlə, birgə müəssisənin gəliri tərəflərin həmin müəssisədəki iştirak payından asılı olaraq bölüşdürülür, sonra bu gəlir partnyorların gəlir vergisinə cəlb olunan məcmu gəlirinin tərkibinə daxil edilir.

Öz mahiyyətinə və vergi nəticələrinə görə biznesin təşkilinin belə forması iştirakçıları tərəfdaş fiziki şəxslər və ya müxtəlif ölkələrin rezidentləri olan hüquqi şəxslər olan şərikli müəssisə ilə üst-üstə düşür. Bir sıra ölkələrdə birgə müəssisənin ayrıca vergitutma vahidi kimi qeydiyyata alınması praktikasından da istifadə edilir. Ancaq istənilən halda riski və vergi məsuliyyətini müəssisənin təsisçiləri arasında bölüşdürmək mümkündür.

Birgə müəssisəni yalnız transmilli şirkətin firmadaxili strukturuna daxil olmayan üçüncü müstəqil şirkətlərlə yaratmaq mümkündür. Əgər birgə müəssisə hüquqi şəxs deyilsə, onda tərəfdaşların qarşılıqlı münasibətləri belə müəssisənin yaradılması barədə razılaşmanın bağlanması əsasında qurulur.

Vergi nöqteyi-nəzərindən birgə müəssisənin üç əsas forması var:

- konsorsium;
- şərikli müəssisə və ya ortaqlıq;
- birgə fəaliyyət barədə saziş.

Konsorsium hər hansı bir ümumi məsələnin (məsələn, müəyyən layihənin maliyyələşdirilməsi və həyata keçirilməsi) həlli üçün xarici tərəfdaşların birləşməsidir. Konsorsium, adətən, layihənin həyata keçirilməsi müddətinə yaradılır. Bütün işlər yerinə yetirildikdən sonra isə birgə müəssisə fəaliyyətini dayandırır.

Konsorsiumun iştirakçısı olan tərəflər formal olaraq müstəqil hesab edilirlər. Bir sıra ölkələr konsorsiumun müstəqil şirkət kimi qeydiyyatını mümkün hesab edərək, onu ayrıca vergitutma subyekti hesab edir.

Məsələn, İspaniyada konsorsiuma xüsusi olaraq yaradılmış vergitutma vahidi kimi baxıla bilər. Belə bir konsorsium ən azı üç fiziki və ya hüquqi şəxs tərəfindən yaradıla bilər. O, 99 faiz yerli vergilərdən və həmçinin faizlərin və mənfəətin bölüşdürülməsindən tutulan vergilərdən azaddır. Verginin son ödəyiciləri isə belə birgə müəssisəni yaradan iştirakçılardır.

Əksər hallarda şərikli müəssisə və ya ortaqlıq ayrıca vergitutma vahidi hesab olunmur, onun bütün gəlirləri tərəfdaşlar arasında bölüşdürülür və tərəfdaşların gəlirləri gəlir vergisinin

subyekti kimi vergiyə cəlb olunur. Bir sıra ölkələrdə isə şərikli müəssisə və ya ortaqlığa ayrıca vergi ödəyicisi kimi də baxılması mümkün hesab edilir.

Birgə fəaliyyət barədə saziş isə hüquqi şəxs statusu olmayan birgə müəssisənin təşkilidir. Bu zaman xüsusi olaraq qeydiyyata alınan vergitutma subyekti yaradılmır.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyəti həyata keçirməyin formalarının müəyyən ümumi cəhətlərinə baxmayaraq, hər bir ölkədə hər bir fəaliyyət növü üzrə xüsusi vergi qanunları vardır.

Xarici iş adamlarının Azərbaycanda fəaliyyətini təşviq edən əsas amillərdən biri də ölkəmizdə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində ölkə başçısının rəhbərliyi altında həyata keçirilən işlər olmuşdur.

Dünya birliyinin iqtisadi sisteminin inteqrasiyası və xarici iqtisadi fəaliyyətin inkişafı xarici ölkələrin vergi sistemlərinin qarşılıqlı surətdə əlaqələndirilməsi zərurətini yaradır. Ancaq müxtəlif ölkələrdə vergitutmanın bu və ya digər məsələlərinin həllinə yanaşmaların müxtəlif olması, beynəlxalq ikiqat vergitutma ilə bağlı ziddiyyətli vəziyyətlərin yaranmasına gətirib çıxarır.

Beynəlxalq ikiqat vergitutma hər hansı vergi ödəyicisinin eyni bir vergitutma obyektinin iki və daha çox ölkədə eyni zamanda vergiyə cəlb edilməsidir.

Beynəlxalq ikiqat vergitutmaya, bir qayda olaraq, fiziki və hüquqi şəxslərin gəlir və əmlakının vergiyə cəlb edilməsi zamanı rast gəlinir. Onun yaranmasının əsas səbəbi dövlətin suverenliyi prinsipindədir ki, bu da dövlətin öz sərhədləri daxilində yerinə yetirilməsi məcburi olan qanunvericilik aktlarını qəbul etməsi kimi müstəsna hüququnun olmasını nəzərdə tutur. Bunun da nəticəsində hər bir ölkənin milli vergi qanunvericiliyi müəyyən uyğunsuzluqlara gətirib çıxaran özünəməxsus xüsusiyyətlərə malik olur. Məsələn, bir neçə dövlət eyni bir subyekti öz vergi ödəyicisi hesab edir və ya hər hansı bir ölkənin ərazisində yerləşən vergitutma obyekti həm bu, həm də digər bir ölkənin qanunvericiliyinə əsasən vergitutma obyekti hesab olunur.

Beynəlxalq hüquqda beynəlxalq ikiqat vergitutmanı qadağan edən ümumi müddəalar yoxdur. Hər bir dövlət milli vergi

qanunvericiliyinə uyğun olaraq öz ərazisində vergi tutmaq sahəsində müstəsna hüquqa malikdir. Buna görə də praktikada beynəlxalq ikiqat vergitutmanm aradan qaldırılması üçün daxili vergi qanunvericiliyinin uyğun normalan ilə bağlı olan və başqa ölkələrlə razılaşdırılmadan hökumət tərəfindən birtərəfli qaydada həyata keçirilən tədbirlərdən və həm də ikiqat vergitutmanm aradan qaldırılması barədə bağlanmış beynəlxalq sazişlərdən istifadə edilir.

Beynəlxalq ikiqat vergitutmanı aşağıdakı üç yolla tənzimləmək olar.

1. Bütün ölkələr vergitutmanm ya rezidentlik, ya da ərazi prinsipinə əməl etməlidirlər. Rezidentlik prinsipi hüquqi və ya fiziki şəxsin hüquqi ünvanının yerləşdiyi yer üzrə məsuliyyətini nəzərdə tutur. Bu prinsipə əsasən, təsərrüfat subyektinin kommersiya əməliyyatları apardığı bütün yurisdiksiyalarda əldə etdiyi gəlir fiziki və ya hüquqi şəxsin rezidenti olduğu ölkədə gəlir vergisinə cəlb olunur. Ərazi prinsipinə əsasən isə hər hansı yurisdiksiyada əldə edilmiş gəlir elə həmin yurisdiksiyada da vergiyə cəlb olunur. Hər bir ölkə öz vergi suverenliyindən istifadə edərək, bütün mümkün gəlir mənbələri hesabına öz büdcəsinə əlavə vergi gəlirləri cəlb etməyə can atır. Buna görə də rezidentlik və ərazi prinsiplərinin kombinasiyasından istifadə olunur.

**Cədvəl 22**

**Birbaşa vergilər üçün rezidentlik və ərazi prinsiplərinin müqayisəsi**

| Rezidentlik prinsipi | Ərazi prinsipi |
|---|---|
| Vergi ödəyidsinin maddi və sosial vəziyyətinin bütün elementləri nəzərə alımr, belə ki, yalnız vergi ödəyicisinin daimi yerləşdiyi ölkə onun işlərinin vəziyyətmi tam qiymətləndirmək və gəlirlərini ədalətlə vergiyə cəlb etmək imkamna | Vergidən yayınma imkanlan məhduddur, çünki gəlirin yarandığı mənbədə vergi tutulur; ərazi prinsipinin tətbiq edilməsi xalis gəlirə nəzərən məcmu gəlirin izafi vergiyə cəlb olunmasına gətirib çıxarmır. |
| Kapital ixrac edən ölkələr üçün bu prinsip əlverişlidir. | Kapital idxal edən ölkələr üçün bu prinsip əlverişlidir. |
| Bu prinsipə əsasən,korporasiyaların mənfəət vergisi, fərdi gəlir vergiləri, mülkiyyət vergiləri və transferi vergiləri ödənilir. | Bu prinsipə əsasən,gəlü*lərin repatriasiyasına görə (gəlirin xarici rezidentin xeyrinə dividendlər, faizlər və royalti şəlndə bölüşdürülməsi) vergilər ödənilir. |
| Baxılan yurisdiksiyamn rezidentlərinin xaricdə vergitutmadan azad olan bütün gəlirləri vergitutma bazasıdır. | Baxılan ölkədə istifadə edilən və son rezidentliyindən asılı olmayaraq istehsalm bütün amülərindən alınan gəlirlər vergitutma bazasıdır. |

Birbaşa vergilər üçün rezidentlik və ərazi prinsipinin tətbiqinin müqayisəsini yuxarıdakı cədvəl 22-nin köməyi ilə aparmaq olar.

Formal olaraq, rezidentlik prinsipinin tətbiq edilməsində inkişaf etmiş iqtisadiyyatı olan ölkələr daha maraqlıdırlar. Çünki bu prinsip eyni zamanda bir neçə ölkədə fəaliyyət göstərən transmilli şirkətlərin bütün qlobal gəlirlərini vergiyə cəlb etməyə imkan verir. Ərazi prinsipi isə mahiyyətcə transmilli şirkətlərin gəlirlərinin yarandığı ölkələr, başqa sözlə, kapital idxal edən ölkələr üçün xarakterikdir. Bu ölkələrdən dividendlər, faizlər və royalti şəklində gəlirlərin çıxarılması repatriasiya vergilərinin tutulmasına gətirib çıxarır.

Real olaraq isə həm iqtisadi cəhətdən inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olan ölkələr özlərinin vergi suverenliyi hüququndan istifadə edərək hər iki prinsipi tətbiq edirlər. Bu isə beynəlxalq ikiqat vergitutmaya gətirib çıxarır.

Dünya təcrübəsində xalis şəkildə rezidentlik prinsipi fiziki şəxslərin vergiyə cəlb edilməsi üçün xarakterikdir. Fiziki şəxslər ikiqat vergitutmaya məruz qalırlarsa, xarici dövlətlər ya öz qeyri-rezidentlərini fərdi gəlir vergisindən azad edirlər, ya da belə şəxslərin gəlirləri üçün aşağı vergi dərəcələri tətbiq edilir.

Korporasiyalar üçün isə vergitutmanın hər iki prinsipinin tətbiqi xarakterikdir. Rezidentlik prinsipinə əsasən korporasiyaların bütün gəlirləri vergiyə cəlb olunur, ərazi prinsipinə əsasən isə qeyri-rezidentlərdən vergi tutulur.

Bir sıra ölkələr öz rezidentlərinə münasibətdə ərazi prinsipindən istifadə edirlər, yəni rezidentlərinin öz yurisdiksiyalarındakı gəlirlərini vergiyə cəlb edirlər. Rezidentlərin bütün xarici gəlirlərini isə ölkə daxilində vergitutmadan azad edirlər. Məsələn, korporasiyaların gəlirlərinin vergiyə cəlb edilməsində Fransa və İsveçrə bu üsuldan istifadə edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən aşağıda göstərilən tələblərin birinə cavab verən istənilən fiziki şəxs rezident hesab olunur.

- təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan;
- təqvim ili içərisində və ya bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olan;
- fiziki şəxsin Azərbaycan Respublikasının ərazisində və

xarici ölkədə olma müddəti 182 gündən artıq olmadıqda, o. aşağıdakı ardıcıllıqla göstərilən meyarla Azərbaycan Respublikasının rezidenti sayılır:

- daimi yaşayış yeri:
- həyati mənafelərinin mərkəzi;
- adətən yaşadığı yer;
- Azərbaycan Respublikasının vətəndaşlığı.

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis edilən və sahibkarlıq fəaliyyətini həyata keçirən və ya Azərbaycan Respublikasında idarəetmə yeri olan istənilən hüquqi şəxs rezident hesab olunur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, aşağıdakılar qeyri-rezident hesab olunurlar.

- Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan və burada sahibkarlıq fəaliyyəti göstərməyən şəxs və onun ailə üzvləri;
- Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın burada sahibkarlıq fəaliyyəti göstərməyən əməkdaşı və ya Azərbaycan Respublikasında xarici ölkələrin dövlət xidmətini həyata keçirən və burada sahibkarlıq fəaliyyətini həyata keçirməyən şəxs və onun ailə üzvləri;
- məqsədi yalnız Azərbaycan Respublikasının ərazisindən bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs;
- Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri, beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan xarici təşkilatların və firmaların nümayəndəlikləri;
- rezident anlayışı ilə əhatə edilməyən digər şəxslər.

Əlavə dəyər vergisinə münasibətdə birbaşa vergilər üçün rezidentlik və ərazi prinsipinə analoji olaraq təyinat yeri və mənşə ölkəsi prinsiplərindən istifadə olunur.

Təyinat yeri prinsipi nəzərdə tutur ki, istehsal edildiyi yerdən asılı olmayaraq, son istehlak üçün baxılan yurisdik- siyaya gətirilən bütün mal və xidmətlərdən əlavə dəyər vergisi tutulur. Bu prinsipə əsasən, ƏDV son istehlaka vergidir, idxal bu vergiyə cəlb olunur, ixrac isə bu vergidən azaddır.

Mənşə Ölkəsi prinsipi isə nəzərdə tutur ki, son istehlak yerindən asılı olmayaraq, baxılan ölkədə istehsal edilmiş bütün mal və xidmətlərdən ƏDV tutulur. Bu halda isə ixrac vergiyə cəlb olunur, idxal isə vergidən azaddır, və ƏDV məhsul istehsalına tətbiq olunan vergidir.

Hal-hazırda dünya təcrübəsində təyinat yeri prinsipinə əsasən tutulan ƏDV tətbiq edilir, yəni ixrac vergitutmadan azaddır, idxal isə vergiyə cəlb edilir. Bu verginin ödənilməsinin düzgünlüyünə nəzarəti, vergi orqanları ilə yanaşı, gömrük orqanlan da həyata keçirirlər.

2. Hər bir dövlət tərəfindən vergi kreditləri və vergi əvəzləşdirmələri sistemi vasitəsi, ilə ikiqat vergitutmanm tənzimlənməsi üzrə birtərəfli qaydada daxili qanunvericilik aktlarının qəbul edilməsi.

Vergi əvəzləşdirmələri sistemi nəzərdə tutur ki, xarici hüquqi və ya fiziki şəxslərin ərazi prinsipi üzrə yaranmış gəlirindən xarici yurisdiksiyada ödədikləri verginin məbləği, rezidentləri olduqları yurisdiksiyalarda hüquqi şəxslərin vergiyə cəlb olunan mənfəətlərinin məbləği, fiziki şəxslərin isə vergiyə cəlb olunan gəlirlərinin məbləği hesablanarkən nəzərə alınır.

Vergi krediləri sistemi isə fiziki və ya hüquqi şəxslərə xaricdə ödədikləri verginin məbləğini rezidentləri olduqları yurisdiksiyada yaranmış vergi öhdəliklərinin məbləğindən çıxmaq hüququ verir.

3. İkiqat beynəlxalq vergitutma probleminin beynəlxalq vergi sazişləri bağlanması yolu ilə tənzimlənməsi.

Qeyd etmək lazımdır ki, ikiqat vergitutmanm aradan qaldırılması problemini birtərəfli qaydada həll etmək mümkün deyildir. Çünki bu zaman dövlətlər aşağıdakı iki məqsədi güdürlər:

- büdcəyə kifayət miqdarda vergi daxilolmalannm təmin edilməsi;
- iqtisadi inkişaf üçün optimal şəraitin yaradılması.

Buna görə də ikiqat vergitutma probleminin həlli dövlətlərin milli vergi siyasətlərinin beynəlxalq səviyyədə koordinasiyasını tələb edir.

Beynəlxalq vergi sazişləri aşağıdakı məqsədləri güdür:

1. İkiqat vergitutmanm tənzimlənməsi;

2. Hər hansı bir ölkənin başqa bir ölkədə xarici iqtisadi fəaliyyətlə məşğul olan təsərrüfat subyektlərinin maraqlarının müdafiəsi, vergitutma nöqteyi-nəzərindən onlara ayrı-seçkilik edilməməsi. Əgər hər iki ölkənin hökumətləri arasındakı qarşılıqlı razılaşmaya əsasən xarici iqtisadi fəaliyyətin subyektləri üçün əlverişli vergi mühiti təmin edilirsə, bundan hər iki dövlət faydalanmış olur. Bu faydanı kapital ixrac edən ölkə öz rezidentlərinin qlobal gəlirlərindən tutulan vergilər şəklində, kapital idxal edən ölkə isə iqtisadiyyata xarici investisiyaların cəlb edilməsi şəklində əldə edir. Beləliklə, son nəticədə beynəlxalq vergi sazişləri beynəlxalq kommersiya fəallığının yüksəlməsinə, ölkələr arasında kapital axınının artmasına səbəb olur.

3. Vergidən yayınmanın müxtəlif üsullarına qarşı hər bir ölkədə mübarizə aparılması. Fiskal orqanlar arasında informasiya mübadiləsinin köməyi ilə, ilkin təhqiqatların aparılması və qanunsuz yollarla vergidən yayınanların tutulması yolu ilə hər bir dövlət öz vergi suverenliyini qoruyub saxlayır.

4. Dövlət və vergi ödəyiciləri arasında ortaya çıxan mübahisəli məsələlərin tənzimlənməsi prosedurunun işlənib hazırlanması. Hal-hazırda fiskal sahədə dövlətlər arasındakı qarşılıqlı münasibətlər beynəlxalq vergitutmada yaranan problemlərin həllinə əhəmiyyətli dərəcədə kömək edən ikitərəfli və ya çoxtərəfli sazişlərin bağlanması yolu ilə qurulur.

Ümumi və xüsusi beynəlxalq konvensiyalar mövcuddur. Ümumi sazişlər fəaliyyətin bütün sahələrində gəlir və kapitalın ikiqat vergiyə cəlb olunmasının qarşısının alınması məsələlərini tənzimləyir. Xüsusi vergi sazişləri isə sahibkarlıq fəaliyyətinin konkret sahələrini, məsələn, beynəlxalq nəqliyyat yükdaşımaları sahəsini və s. əhatə edir.

Beynəlxalq vergi konvensiyaları qarşısında duran məsələlər aşağıdakı kimi həll edilir:

1. Beynəlxalq ikiqat vergitutma problemi həll edilərkən xarici iqtisadi fəaliyyətin subyektlərinin gəlirinə münasibətdə vergi yurisdiksiyası məhdudlaşdırılır, konvensiyaların fəaliyyətinin şamil edildiyi şəxslər müəyyənləşdirilir, fiziki və hüquqi şəxslərin vergi xərclərinin azaldılmasını təmin edən və ikiqat vergitutmanı tənzimləyən sxemlərdən istifadə edilir.

2. Vergi ödəyiciləri arasında ayrı-seçkiliyə yol verilməməsi

üçün xarici dövlətdəki vergi yükü ilə ölkə daxilindəki vergitutmanın ağırlığı bir-biri ilə uzlaşdırılır.

3. Saziş bağlayan ölkələr arasındakı informasiya mübadiləsi və onların fiskal orqanları arasındakı qarşılıqlı əlaqələr vergidən yayınma ilə mübarizədə əhəmiyyətli rol oynayır.

4. Vergitutmada meydana çıxan mübahisəli məsələlər məhkəmə instansiyalarına şikayət verilməsi yolu ilə tənzimlənir.

Beynəlxalq vergi sazişlərinin əsas xüsusiyyəti ondadır ki, beynəlxalq hüququn elementi kimi onlar yerli qanunvericilikdən üstün tutulur.

Dünya praktikasında ümumi vergi sazişlərinin iki modeli mövcuddur; İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təklif etdiyi model və Birləşmiş Millətlər Təşkilatının təklif etdiyi model.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təklif etdiyi modeldən iqtisadi cəhətdən inkişaf etmiş ölkələr arasında ikitərəfli vergi sazişləri bağlanarkən istifadə edilməsi tövsiyə olunur. Bu model 1977-ci ildə işlənib hazırlanmışdır. Onun əsasını rezidentlik prinsipi təşkil edir. Bu prinsipə əsasən gəlirin götürüldüyü ölkə qeyri-rezident hüquqi və fiziki şəxslərin gəlirinə münasibətdə öz vergi yurisdiksiyasını əhəmiyyətli dərəcədə məhdudlaşdırır və gəlir vergi ödəyicisinin rezident hesab olunduğu ölkədə vergiyə cəlb olunur. Mənfəətin faizlər, dividendlər və royalti şəklində repatriasiyası üçün ya verginin azaldılmış dərəcəsi, ya da vergilərdən tamamilə imtina edilməsi nəzərdə tutulur.

Ancaq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təklif etdiyi modeldən iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlərdə istifadə etmək olmaz, çünki bu model inkişaf etməkdə olan ölkələri öz ərazilərində yaranan gəlirin bir hissəsindən məhrum edir.

Transmilli korporasiyaların vergiyə cəlb edilməsindən inkişaf etməkdə olan ölkələrə müəyyən gəlir əldə etməyə təminat vermək üçün Birləşmiş Millətlər Təşkilatı 1979-cu ildə vergi sazişinin alternativ modelini işləyib hazırlamışdır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlərdə bu modeldən istifadə edilməsi tövsiyə olunur. Birləşmiş Millətlər Təşkilatının təklif

etdiyi modeldə inkişaf etməkdə olan ölkələrin ərazilərində yaranan bütün gəlirləri vergiyə cəlb etməyə və həmçinin, mənfəətin repatriasiyasının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təklif etdiyi modeldə nəzərdə tutulandan daha yüksək dərəcə ilə vergiyə cəlb edilməsinə imkan verən ərazi prinsipindən geniş surətdə istifadə olunur.

Azərbaycan Respublikası da öz xarici vergi siyasətində beynəlxalq vergi sazişlərindən geniş surətdə istifadə edir. Beynəlxalq vergi sazişləri ölkədəki investisiya mühitinə müsbət təsir göstərir. Azərbaycan Respublikasının xarici dövlətlərlə bağladığı beynəlxalq vergi sazişləri barədə məlumatlar cədvəl 23-də əks olunub.

Cədvol 2.^

**Azərbaycan Respublikasının xarici dövlətlərlə bağladığı beynəlxalq vergi sazişləri**

| № | Digər tərəf | İmzalanmışdır | Qüvvəyə minmişdir |
|---|---|---|---|
| 1 | Almaniya | 25.08.2004 | 28.12.2005 |
| 2 | Avstriya | 04.07.2000 | 23.02.2001 |
| 3 | Belarus | 08.08.2001 | 29.04.2002 |
| 4 | Belçika | 18.05.2004 | 12.08.2006 |
| 5 | Böyük Br it an iy a və Şimali İrlandiya Birləşmiş Krallığı | 23.02.1994 | 29.09.1995 |
| 6 | Çexiya | 24.11.2005 | 16.06.2006 |
| 7 | Çin Xalq | 17.03.2005 | 17.08.2005 |
| 8 | Finlandiya | 29.09.2005 | 29.11.2006 |
| 9 | Fransa | 20.12.2001 | 01.10.2005 |
| 10 | Gürcüstan | 18.02.1997 | 01.12.1997 |
| 11 | Kanada | 07.09.2004 | 23.01.2006 |
| 12 | Latviya | 03.10.2005 | 19.04.2006 |
| 13 | Litva | 02.04.2004 | 13.11.2004 |
| 14 | Moldova | 27.11.1997 | 28.01.1999 |
| 15 | Norveç | 24.04.1996 | 19.09.1996 |
| 16 | Özbəkistan | 27.05.1996 | 02.11.1996 |
| 17 | Polşa | 26.08.1997 | 20.01.2005 |
| 18 | Qazaxıstan | 16.09.1996 | 07.05.1997 |
| 19 | Rusiya | 03.07.1997 | 03.07.1998 |
| 20 | Rumıniya | 29.10.2002 | 29.01.2004 |
| 21 | Türkiyə | 09.02.1994 | 01.01.1998 |
| 22 | Ukrayna | 30.07.1999 | 03.07.2000 |
| 23 | İsveçrə | 23.02.2008 | 13.07.2007 |
| 24 | Tacikistan | 13.08.2007 | 11.02.2008 |

Bunlar ulu öndər Heydər Əliyevin mülkiyyət formasından, mənsubiyyətindən asılı olmayaraq bütün sahibkarlıq fəaliyyəti subyektləri üçün əlverişli vergi mühiti yaradılması istiqamətində müəyyənləşdirdiyi siyasətin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsinə bariz sübutdur.

iqtisadi tərəqqi və

zirvələrə aparan yol

VE

RGİ

siyasəti

**inanıram ki, mənim axıra çaldıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

**Heydər Əliyev**

2003-cü il oktyabrın 31-də andiçmə mərasimində cənab İlham Əliyev möhtərəm Heydər Əlirza oğlu Əliyevə müraciətlə belə söyləmişdir: "Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru addımlayacağıq. Azərbaycan Respublikasının Prezidenti kimi, mən gələcək fəaliyyətimdə də Heydər Əliyev siyasətini ardıcıl olaraq davam etdirəcəyəm". Bu siyasətin əsas prioritetlərini isə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması.

qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması, iqtisadiyyatımızın gələcəkdə daha da inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması, ölkəmizin beynəlxalq aləmdə əlaqələrinin daha da genişləndirilməsi, Azərbaycanın dünya birliyinə, o cümlədən Avropa xalqları ailəsinə daha çox inteqrasiya olunması təşkil edirdi.

2003-cü ilin prezident seçkilərində Azərbaycan xalqı mütəşəkkil surətdə seçki məntəqələrinə gəldi və Heydər Əliyev siyasətinə, Heydər Əliyev məktəbinə səs verdi. Bu siyasətin ən uğurlu davamçısı, bu məktəbin ən layiqli yetirməsi isə Azərbaycanın yeni lideri İlham Əliyev idi. Heydər Əliyev seçkilərdən əvvəl Azərbaycan xalqına müraciət etmiş, “mən İlham Əliyevə özüm qədər inanıram” demişdi. Azərbaycan xalqı isə Heydər Əliyevə özü qədər, öz varlığı qədər inanırdı. İlham Əliyev prezident seçkilərinə bu şüarla getmişdi: Heydər Əliyev siyasətini davam etdirmək, Azərbaycanın ümummilli liderinin yolu ilə getmək.

Müasir qloballaşma dövründə iqtisadi inkişaf potensialı hər bir dövlətin gücünü və qüdrətini müəyyən edən başlıca amil qismində çıxış edir. Dinamik inkişafda olan iqtisadiyyat davamlı sabitlik, əmin-amanlıq, demokratiya və vətəndaş cəmiyyəti, milli təhlükəsizlik, effektiv xarici siyasət deməkdir - ölkənin və xalqın problemlərinin ən optimal yolu məhz sosial-iqtisadi tərəqqidən keçir. Azərbaycan Prezidenti İlham Əliyevin son 5 illik fəaliyyəti dövründə əsas diqqətin iqtisadi inkişafın sürətləndirilməsi tədbirlərinə yönəldilməsi də məhz bu reallıqla şərtlənmiş, uğurla gerçəkləşdirilən islahatlar respublikamızın bütün strateji sahələrdə öncüllüyünü təmin etmişdir.

Elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, mövcud imkanlardan Azərbaycan vətəndaşlarının rifahı naminə maksimum istifadə müasir tariximizin ötən 5 illik dövrünü səciyyələndirən xarakterik xüsusiyyətlərdəndir. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallığa adekvat addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin

etmiş, yeni dövrün tələbi kimi qarşıda duran prioritet vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin çevikliyinə nail olmuşdur.

2003-cü ildən başlayaraq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda yeni iqtisadi siyasət strategiyası həyata keçirilir. Bu strategiyanın əsasını Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq layihələr, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı kimi proqramlar təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş və elmi əsaslara söykənən bu strategiyanın həyata keçirilməsi hazırda cənab İlham Əliyevin iqtisadi siyasətinin əsasını təşkil edir.

Azərbaycanın iqtisadiyyatının inkişafı, xüsusilə də qeyri- neft sektorunun inkişafı Prezident İlham Əliyevin siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan Prezidentinin 2003- cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı bu inkişafın əsasını qoydu. Fərmanda işsizliyin aradan qaldırılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, regionların inkişaf etdirilməsi məqsədilə dövlət proqramlarının hazırlanması kimi mühüm vəzifələr nəzərdə tutulurdu.

Azərbaycan Prezidenti regionların inkişafına nail olmaq üçün qarşıya kənd təsərrüfatı məhsulları istehsalının artırılması, qeyri-neft sənayesi sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin yaradılması, turizmin inkişafının təmin edilməsi, məşğulluğun səviyyəsinin yüksəldilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, bölgələrdə müasir tipli elektrik stansiyalarının tikilməsi, yolların və kommunikasiya xətlərinin qurulması, sahibkarlığın inkişaf etdirilməsi istiqamətində kompleks tədbirlər görülməsi, sahibkarlığın inkişafına maliyyə yardımının artırılması, regionlarda təhsil, elm, səhiyyə sahələrində mühüm işlərin görülməsi kimi strateji vəzifələr qoydu.

Prezident İlham Əliyev hələ Nazirlər Kabinetinin 17 noyabr 2003-cü ildə keçirilmiş iclasında regionların tarazlı və davamlı inkişafını hökumətin qarşısında duran başlıca vəzifələrdən biri kimi müəyyənləşdirmişdi. Dövlət başçısı bir

İctimai-İqtisadi formasiyadan digərinə keçid dövründə cəmiyyət üçün xarakterik olan bir sıra problemlərin kompleks həlli məqsədilə hələ 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008- ci illər) Dövlət Proqramı"nın təsdiq edilməsi barədə fərman imzalamış, qarşıdakı dövr üçün hökumətin əsas fəaliyyət prioritetlərini müəyyənləşdirmişdir. İmzalanmasının dördüncü ildönümü tamam olan bu fundamental proqram ölkə iqtisadiyyatına gətirdiyi böyük dividendlərlə öz aktuallığını qoruyub saxlamışdır. Dövlət Proqramı olduqca böyük və regionların inkişafı üçün bütün zəruri məqamları əks etdirən mühüm sənəddir.

Müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq, bu sənəddə işlərin görüləcəyi regionun, rayonun, hətta kəndin ünvanı, nəzərdə tutulan layihənin, həyata keçiriləcək tədbirin adı, konkret vaxtı, icrasına məsul olan təşkilatların ünvanı göstərilmişdir. Dövlət Proqramının icrasına Prezident İlham Əliyev şəxsən nəzarət edir. Bu məqsədlə mütəmadi olaraq, respublikanın regionlarına səfərlər edir, problemlərin yerindəcə həll olunması üçün tapşırıqlarını verir. Proqramın həyata keçirilməsini sürətləndirmək üçün Azərbaycan Prezidenti regionlar üzrə əlavə tədbirlər planları imzalamışdır.

2008-ci il fevralın 11-də dövlət başçısı İlham Əliyevin ilə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının imzalanmasının 4-cü ildönümünə həsr olunmuş konfransda səslənən rəqəmlər göstərir ki, bu proqram bölgələrin inkişafındakı fərqin aradan qaldırılması, qarşıya qoyulmuş bir sıra strateji layihələrin həyata keçirilməsi baxımından son dərəcə əhəmiyyətli sənəd olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev konfransdakı dərin məzmunlu çıxışında regionların sosial-iqtisadi inkişafına həsr olunmuş Dövlət Proqramının mühüm nəticələr verdiyini xüsusi vurğulamışdır. Dövlət başçısı demişdir ki, regional inkişafı təmin edəcək belə bir proqramın qəbulu ilə bağlı hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində öz təkliflərini irəli sürmüşdür; "Bu proqramın ilkin konturları hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim tərəfimdən təqdim edilmişdi. Bu, demək olar ki, mənim iqtisadi proqramımın vacib tərkib hissəsi idi. Prezident seçkilərindən 3-4 ay sonra

proqram tərtib edilmiş və təsdiq olunmuşdu. Deyə bilərəm ki, son dörd il ərzində Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çox böyük rol oynamışdır. Bu dörd il ərzində bütövlükdə Azərbaycan iqtisadiyyatı çox yüksək sürətlə inkişaf etmişdir. Deyə bilərəm ki, bu sürət, bəlkə də keçmiş tarixdə də müşahidə olunmayıbdır. Dörd il ərzində Azərbaycan iqtisadiyyatı 96 faiz artmışdır. Demək olar ki, biz dörd ildə ümumi daxili məhsulumuzu 2 dəfə artıra bilmişik. 2008-ci ildə də iqtisadiyyatın yüksək sürətlə inkişaf etməsi gözlənilir. 2007-ci ilin yekunlarına görə, Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul 3700 dollar təşkil edir və gözlənilir ki, 2008-ci ildə 4500 dollara çatacaqdır. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir və bu inkişaf, əlbəttə ki, həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərir".

Azərbaycan Prezidentinin məqsədyönlü siyasəti hesabına ölkə həyatında müşahidə olunan davamlı yüksəliş respublikanın pozitiv inkişafını müəyyənləşdirən fakt və statistik göstəricilərdə də qabarıq təsdiqini tapır. Son beş ildə ölkədə aparılan əsaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda iqtisadiyyatın həcmi 96 faiz - təxminən iki dəfə artmışdır və bu da dünyada analoqu olmayan göstəricidir. 2003-cü ilin oktyabrında cəmi 1,2 milyard manat təşkil edən dövlət büdcəsinin 2008-ci ildə 10 milyard manat təşkil etməsi də real inkişafın miqyası barədə dolğun təsəvvür formalaşdırır. Qısa müddətdə 640 min yeni iş yerinin açılması da məhz regionların inkişafı nəticəsində mümkün olmuşdur. 2003-cü ilin sentyabrında cəmi 5,5 köhnə Azərbaycan manatı olan minimum əmək haqqı cənab İlham Əliyevin qısa müddətdə imzaladığı 9 sərəncamla 60 manata qaldırılmış, əhalinin pensiyaları təxminən 4 dəfə artmışdır. Təkcə 2007-ci ildə investisiyaların həcmi 6 milyard dollardan çox olmuşdur və bunun da böyük qismi daxili investisiyaların payına düşür.

Proqramın icra vəziyyətini daim diqqət mərkəzində saxlayan dövlət başçısı mütəmadi olaraq regionlara səfərlər edərək görülən işlərlə əyani tanış olmuş, lazımi tapşırıq və tövsiyələrini vermişdir. Bunun nəticəsi kimi, regionların inkişafı prosesinin sürətləndirilməsi məqsədinə hesablanmış 13 əlavə

sərəncam imzalanmışdır. Ümumilikdə proqramda nəzərdə tutulmuş vəzifələrin 98 faizinin uğurla başa çatdırılması hökumətin çevik və işlək fəaliyyətinin göstəricisidir.

Ümummilli liderimiz Heydər Əliyev yeni dövrdə sahibkarlığın inkişafı olmadan Azərbaycanın inkişafının mümkün olmadığını elan etmişdi. Azərbaycan Prezidenti İlham Əliyev də uğurla bu yolu davam etdirir. Artıq iqtisadiyyatın liberal-laşdırılması, bazarın inhisardan azad edilməsi, özəl sektora dəstək verilməsi, sahibkarlığın inkişafı üçün kreditlərin ayrılması və ən əsası, beynəlxalq əhəmiyyətə malik və Azərbaycana mühüm dividentlər gətirəcək nəhəng enerji layihələrinin həyata keçirilməsi sahəsində zəruri addımlar atılmış, uğurlu nəticələr əldə edilmişdir.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin əsasında insan amili dururdu. Azərbaycanda bu gün də bu siyasət davam edir, hər şey insan üçün, hər şey Azərbaycan vətəndaşları üçündür. Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsinə, iqtisadi problemlərinin həll olunmasına, hər bir insanın yaxşı yaşamasına xidmət edir.

Möhtərəm İlham Əliyev hələ prezident seçkiləri dövründə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlərin görüləcəyini bildirərək bəyan etmişdi ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Hazırda bu təbəqəyə aid insanlara dövlət xüsusi diqqət yetirir, onların problemlərinin həllinə çox həssas yanaşır.

Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı iki sərəncam imzalamış, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı^m təsdiq etmişdir. Təkcə son illərdə qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə 100 milyon dollardan artıq vəsait sərf olunmuşdur.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkədə onu narahat edən əsas problemlərdən biri də yoxsulluqdur. Bu problemi aradan qaldırmaq üçün hazırda Azərbaycanda xüsusi proqram həyata keçirilir. Əgər 2004-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2005-ci ildə bu, 40

faiz olmuş və 2006-cı ildə 29 faizə düşmüşdür. 2007-ci ildən etibarən isə 20 faiz təşkil etmişdir. Amma Prezident hesab edir ki, bu da çoxdur, Azərbaycanda yoxsul olmamalıdır. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ümummilli layihələr də bu məqsədə xidmət edir.

Azərbaycan Prezidenti təhsil, səhiyyə və idman sahələrinə xüsusi önəm verir. Ölkədə təhsilə diqqət daim artır, təhsilin səviyyəsini, təhsil alan gənclərin maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə konkret tədbirlər həyata keçirilir. Təhsilə çəkilən xərclər 2007-ci ildə 2006-cı illə müqayisədə 50 faizdən çox artmışdır.

2004-cü ildən etibarən Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində bütün ölkədə yeni məktəblərin tikintisinə başlanmışdır.

2004-cü il avqustun 21-də qəbul olunmuş “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı” Proqramına əsasən, dövlət gündüz ümumtəhsil məktəblərinin kompüter texnikası ilə təchizatı davam edir. Məktəblərin İnternetə qoşulması kənd və şəhər uşaqları üçün bərabər şərait yaradır, onlara İnternet-olimpiadalarda və müsabiqələrdə iştirak etməyə imkan verir.

Ölkənin həyat səviyyəsini xarakterizə edən və gələcəyini təmin edən əsas göstəricilərdən biri də insanların sağlamlığı və səhiyyənin inkişafıdır. Prezident İlham Əliyev Azərbaycanda səhiyyənin inkişafına, bu sahədə yeni texnologiyaların tətbiqinə böyük əhəmiyyət verir. 2005-ci ildən başlayaraq, Azərbaycanın bütün regionlarında müasir standartlara uyğun diaqnostika mərkəzlərinin tikilməsi layihəsi həyata keçirilir və bu layihələr Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

Dövlət büdcəsindən səhiyyənin inkişafına ayrılan vəsait ilbəil artır. 2005-ci ildə bu məqsədlər üçün 2004-cü ildəkindən 55 faiz çox vəsait xərclənmişdir. 2006-cı ildə büdcədən ayrılmış vəsait 2005-ci illə müqayisədə 60 faizdən çox artmışdır. Artım 2007-ci ildə də davam etmişdir.

Azərbaycanda təhsil, səhiyyə ilə yanaşı, idmana qayğı da sürətlə artır. Respublikamızda idmanla məşğul olmaq üçün çox gözəl imkanlar yaradılır. Ölkəmizin müxtəlif bölgələrində müasir idman kompleksləri tikilib istifadəyə verilir. 10-dan çox idman kompleksi artıq fəaliyyətdədir. 20-yə qədər idman

kompleksi isə tikilməlidir və onların bəzilərinin tikintisi artıq başlanmışdır. Prezident İlham Əliyev Azərbaycanın hər bir bölgəsində müasir tipli idman komplekslərinin tikiləcəyini elan etmişdir. Azərbaycanda idmana dövlət səviyyəsində yüksək qayğı idmanın sürətlə inkişaf etməsinə, idmançılarımızın daha yüksək zirvələr fəth etməsinə, Olimpiya çempionu səviyyəsinə yüksəlməsinə imkan yaradır. Ölkəmizdə idmanın sürətli inkişafı, müasir idman infrastrukturunun yaradılması, idmançılarımızın parlaq qələbələri beynəlxalq idman federasiyalarının da diqqətini cəlb edir və Azərbaycan dünya çempionatlarının keçirildiyi bir ölkəyə çevrilir.

Bunlar dünyada bənzəri olmayan göstəricilərdir və şübhəsiz ki, əfsanədən reallığa çevrilən bu işlər ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsidir.

Dövlətimizin başçısının imzaladığı sənədlər, qəbul edilmiş dövlət proqramları məhz xalqımızın, o cümlədən gənclərin sosial rifah halının yüksəldilməsinə, ölkəmizin qüdrətinin, potensialının artırılmasına yönəldilmişdir.

Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan, müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir.

Gənc nəslin tərbiyəsi, onların sosial, fiziki və mənəvi inkişafını təmin edən bütün fəaliyyət sahələrinin istiqamətləndirilməsi, ölkədə gənclər hərəkatının vahid mərkəzdən idarə olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli, 464 saylı fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Nazirlik uşaq, yeniyetmə, gənclər, bədən tərbiyəsi, idman və turizm sahələrində dövlət siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanıdır. Bu gün Azərbaycan Respublikasında həyata keçirilən gənclər siyasəti çox geniş bir spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın icti

mai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri və s. əhatə edir. Bu siyasətin həyata keçirilməsi üçün ölkəmizdə gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazası formalaşmış, son illər bilavasitə gənclərlə bağlı 20-yə yaxın normativ sənəd qəbul edilmişdir. Məsələn, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu, «Azərbaycan gəncliyi Dövlət Proqramı» (2005-2009-cu illər), «Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı, «Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı, «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı, «Gənc ailə» Proqramı, «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi» Proqramı, «İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı», «Ordudan tərxis olunmuş gənclərin məşğulluğu» Proqramı və s. kimi qanunvericilik aktları və dövlət proqramlarının qəbul olunması gənclərin sosial-iqtisadi inkişafını təmin etməyə imkan vermişdir. Bu gün ölkə miqyasında qəbul olunan dövlət proqramları, qanunlar və fərmanlar çox vaxt gənclərlə bağlı qanunvericilik aktlarına uyğun hazırlanır.

Milli neft strategiyasının uğurla reallaşması sayəsində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta potensialı, o cümlədən Dövlət Neft Fondunun vəsaiti günbəgün artır. 2001-ci ildə Neft Fondunun açılış balansı 270 milyon ABŞ dolları təşkil etdiyi halda, hazırda Fondun vəsaitinin 5 milyard səviyyəsini keçməsi məhz milli liderimiz Heydər Əliyevin banisi olduğu neft strategiyasının uğurlu nəticəsi kimi qiymətləndirilməlidir.

Eyni zamanda. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ölkənin iqtisadi inkişafının sürətləndirilməsində, mühüm sosial-iqtisadi problemlərin həllində, habelə strateji əhəmiyyətli dövlət proqramları və layihələrin maliyyələşdirilməsində Dövlət Neft Fondunun rolu ildən-ilə daha da artır.

Ölkə iqtisadiyyatının bütün sahələri kimi, vergi sisteminin

də inkişaf etdirilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan Azərbaycanın vergi xidmətinin müasir standartlar əsasında formalaşdırılması üçün mühüm tədbirləri Azərbaycan Prezidenti İlham Əliyev davam etdirməkdədir. Məhz ulu öndərimizin layiqli davamçısı İlham Əliyevin təşəbbüsü və qayğısı sayəsində ölkəmizin vergi siyasətinin konsepsiyası müəyyən olunmuş, vergi sistemində aparılan islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri təsbit edilmişdir.

Azərbaycanın vergi sisteminin müasirləşdirilməsi çərçivəsində aparılan struktur islahatları nəticəsində MDB məkanında analoqu olmayan bir idarəetmə sistemi quruldu. Azərbaycanın vergi xidmətinin müasir strukturu sistemlilik, çeviklik, operativlik, koordinasiya olunma və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirdi.

Praqmatik, siyasi iradəli və qətiyyətli, məqsədyönlü, mütərəqqi islahatlara meyilli Azərbaycan Prezidenti İlham Əliyevin beş illik fəaliyyəti Azərbaycan tarixinə Heydər Əliyevin müəllifi olduğu milli inkişaf strategiyasının nailiyyətlərlə dolu yeni bir mərhələsidir. Bu inkişaf mərhələsində vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində yeni hədəflər müəyyən edilmiş, vergi xidmətinin daha da təkmilləşdirilməsi sahəsində uğurlu addımlar atılmışdır.

Bu qədər qısa müddətdə böyük uğurların əldə olunmasının, təbii ki, ciddi səbəbləri var. Birinci əsas səbəb bütün bu işlərin Heydər Əliyev irsinə əsaslanması, məhz onun yaratdığı iqtisadi və siyasi baza üzərində qurulmasıdır. İkinci əsas səbəb isə Prezident İlham Əliyevin işə yaradıcı yanaşması, müasir dünya dəyərləri ilə Azərbaycan təcrübəsini uzlaşdırması, iqtisadi və siyasi islahatların paralel şəkildə aparılmasına şərait yaratmasıdır. Bu uğurların məntiqi nəticəsi isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

Dahi öndər Heydər Əliyev iqtisadi siyasətin mühüm tərkib hissəsi olan vergi siyasətini həmişə diqqət mərkəzində saxlamış, vergi sisteminin kompleks inkişafı üçün zəruri təd

birlərin həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. Ümummilli liderimiz ölkədə vergi sisteminin inkişafına göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsi kimi, 11 fevral 2000-ci ildə Vergilər Nazirliyinin yaradılması haqqında fərman imzalamışdı. Bu sənədin qəbul edilməsi müstəqil Azərbaycan Respublikasının müstəqil vergi xidmətinin formalaşması sahəsində həyata keçirilən ən böyük və uğurlu addımlardan biridir.

Bu uğurlu addımın davamı olaraq ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik irsinin ən layiqli davamçısı, görkəmli siyasi xadim, peşəkar diplomat, idarəçilikdə qabiliyyətli təşkilatçı, Azərbaycanın neft strategiyasının hazırlanması və reallaşmasında böyük xidmətləri olan İlham Əliyev 1 fevral
2005- ci ildə "Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" fərman imzalamışdır. Ulu öndər Heydər Əliyevin fərmanı ilə Vergilər Nazirliyin yaradıldığı günün -"11 fevral" tarixinin vergi xidməti işçilərinin peşə bayramı günü kimi təsis edilməsi haqqındakı bu sərəncam vergi orqanlarına və Azərbaycan Respublikasının vergi xidmətinə göstərilən etimadın və dövlət qayğısının bariz nümunəsidir.

Möhtərəm Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında həyata keçirilən milli inkişaf strategiyasının əsas istiqamətlərində biri də ölkənin vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bu məqsədə nail olmaq üçün respublikamızda vergi siyasətinin inkişaf etdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə xidmətin yaxşılaşdırılması və s. istiqamətdə kompleks tədbirlər sistemi həyata keçirilməkdədir.

Son beş illik dövr ərzində bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri Avropa Birliyinin TACIS Proqramı çərçivəsində "Vergi sisteminin müasirləşdirilməsi" layihəsi olmuşdur. "Vergi sisteminin müasirləşdirilməsi" layihəsi 3 komponentdən ibarət olmuşdur:

- vergi orqanları işçilərinin tədrisi;
- Vergilər Nazirliyində informasiya və kommunikasiya texnologiyalarının təkmilləşdirilməsi:
- vergi ödəyicilərinin məlumatlandırılması.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında əlverişli

vergi mühitinin formalaşdırılması, ilk növbədə, təkmil qanunvericilik bazasının mövcudluğu ilə şərtlənir. Vergi Məcəlləsi və vergi münasibətlərinin tənzimlənməsi ilə bağlı digər normativ hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikasında demokratik və sivil cəmiyyət quruculuğu sahəsində bu sənədlərin qəbulu və mütəmadi olaraq təkmilləşdirilməsi nə qədər əhəmiyyətli olsa da, vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinin düzgün qavranılması və onların hüquqlarının müdafiəsi baxımından Vergi Məcəlləsinin müddəalarının izahının verilməsinə ehtiyac duyulurdu. Bunun vacibliyini nəzərə alaraq, 2004-2005-ci illər ərzində «Vergi sisteminin müasirləşdirilməsi» layihəsinin ekspertləri tərəfindən Vergi Məcəlləsinin tətbiqinə dair tövsiyələr hazırlandı.

Layihədə əsas istiqamət kimi, vergi sistemində kadr potensialının təkmilləşdirilməsi üçün Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyətinə yardım edilməsi nəzərdə tutulurdu.

Vergi orqanları işçilərinin tədrisi komponenti üzrə işlərin görülməsinə ilkin hazırlıq kimi layihənin işçi qrupu tərəfindən mövcud vəziyyətin qiymətləndirilməsi və potensial imkanlarının müəyyənləşdirilməsinə başlanıldı. Bu məqsədlə xüsusi sorğu anketləri tərtib olundu və vergi orqanlarının əməkdaşları tərəfindən cavablandırılmaq üçün aidiyyəti üzrə göndərildi. Toplanan məlumatlar tədris tələbatının qiymətləndirilməsi üzrə bazanın yaradılmasına imkan verdi. Bu baza treninqə olan tələbatlar və tədris məşğələlərinin keçirilməsinə təsir göstərən amillər barədə dəqiq və etibarlı məlumat əldə etməyə şərait yaratdı.

Əməkdaşların doldurduğu anketlər xüsusi ekspertlər tərəfindən araşdırıldıqdan sonra vergi sahəsində mövcud tədris infrastrukturu və vasitələri nəzərdən keçirildi, tədris tələbatları qiymətləndirildi, araşdırmaların nəticələrinə əsaslanaraq tədris strategiyası və metodologiyası hazırlandı.

Layihənin işçi qrupu tərəfindən təşkil olunan tədris prosesi çərçivəsində təxminən 60 gün ərzində beynəlxalq və yerli ekspertlər 2000-dən artıq iştirakçı tədris kursu keçdi, o cümlədən təlimçilər üçün bir sıra tədris sessiyaları keçirildi. Həmin təlimçilər də öz növbəsində, nazirliyin əməkdaşları üçün treninqlərin keçirilməsində iştirak etdilər. Tədris zamanı əsas mövzular menecment, pedaqoji bacarıqlar, vergi qanun

vericiliyi və inzibatçılığı ilə bağlı idi.

Layihə fəaliyyətində, o cümlədən 3 ölkədə - Fransa, Estoniya və Rusiyada keçirilən tədris səfərlərində, məlumatlandırma və informasiya texnologiyası komponentində altı müxtəlif ölkədən - Azərbaycan, Bolqarıstan, Fransa, Almaniya, Böyük Britaniya, Hollandiyadan gələn 30-dan artıq ekspert, həmçinin inzibati və xidməti personal iştirak etdi.

İkinci istiqamət, yəni informasiya texnologiyası komponenti üzrə də layihənin ekspertləri tərəfindən əhəmiyyətli işlər görüldü. Bu sahə üzrə mövcud infrastruktur nəzərdən keçirildi, ümumi tələbatlar qiymətləndirildi və gələcək potensial struktur müəyyən edildi. Qiymətləndirmənin nəticələri əsasında texniki xüsusiyyətlər və nümunəvi tender dosyesi işlənib hazırlandı.

Vergi ödəyicilərinin məlumatlandırılması istiqamətinə müvafiq olaraq layihənin ekspertləri tərəfindən bu sahədə əsas tələbatlar müəyyən edildi. Bunlar vergi ödəyiciləri üçün pedaqoji və informativ materialların, yəni kitabçaların və vebsaytın hazırlanmasından ibarət idi.

Layihənin vebsaytının ilkin forması 2005-ci il yanvarın 1-dən on-layn rejimindədir, yeni məqalələr və Vergi Məcəlləsinin tətbiqinə dair tövsiyələrlə müntəzəm yenilənir.

Məlumat və maarifləndirmə üzrə görülən işlər çərçivəsində vergi tədrisi ilə bağlı bu günə kimi nəşr olunan ədəbiyyat və tədris proqramlarının mövcud vəziyyətini təhlil edildi. Təhlil zamanı Azərbaycan dilində nəşr olunan ədəbiyyatların tədris məqsədləri üçün əhəmiyyətlilik və faydalılıq səviyyəsi qiymətləndirildi.

Qeyd olunanlar onu göstərir ki, Avropa İttifaqının TACIS Proqramı çəiçivəsində «Vergi sisteminin müasirləşdirilməsi» layihəsinin icraçı qrupu qarşıya qoyulmuş hədəflərə çatmağa müvəffəq oldu.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik irsinin ən layiqli davamçısı İlham Əliyevin vergi sistemini təkmilləşdirmək, vergitutma bazasını genişləndirmək, vergi xidmətini müasir Avropa standartlarına çatdırmaq haqqında tövsiyələri vergi xidmətində son beş ildə aparılan islahatların ana xəttini təşkil etmişdir. Azərbaycan Prezidentinin 2005-ci ilin sentyabrında təsdiq etdiyi “Vergi inzibatçılığının təkmilləşdirilməsi

Üzrə Dövlət Proqramı (2005-2007-ci illər)" vergi orqanları qarşısında çox mühüm tapşırıqlar müəyyənləşdirdi.

Dövlət Proqramı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına (2004-2008-ci illər)",Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın stimul- laşdırılması tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli və " Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli fərmanlarına uyğun olaraq hazırlanmışdı.

Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının əsas məqsədini ölkədə vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmaqla bu sahədə səmərəli inzibatçılığın yaradılmasına nail olmaq və ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə təkan verən vergi daxilolmalarının müntəzəm artmasını təmin etmək təşkil edirdi.

Bu əsas məqsədə nail olmaq üçün 2005-2007-ci illərdə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulurdu:

- Azərbaycan Respublikasının Vergilər Nazirliyinin sistemində vergi ödəyicilərinə xidmət işini təkmilləşdirmək;
- Azərbaycan Respublikasının regionlarında kiçik və orta sahibkarlıq subyektləri üçün özəl vergi məsləhəti xidmətləri yaratmaq;
- vergi ödəyicilərinin hüquqlarının qorunması üçün mükəmməl apellyasiya sisteminin yaradılmasına nail olmaq;
- fiziki şəxslərin ümumi gəlirləri haqqında bəyannamənin verilməsinə hazırlıq işini sürətləndirmək;
- vergi ödəyicilərinin uçotu, o cümlədən əlavə dəyər vergisi üzrə qeydiyyat sistemini təkmilləşdirmək;
- Azərbaycan Respublikası Vergilər Nazirliyinin kompüter informasiya sistemi çərçivəsində auditin planlaşdırılması işini təşkil etmək;
- vergi borclarının məcburi alınması sahəsində texnoloji və inzibati imkanlarını gücləndirmək;

- vergi orqanlarında kadrların peşəkar hazırlıq səviyyəsini artırmaq;
- vergi orqanlarının funksional fəaliyyətini vahid kompüter sistemi çərçivəsində avtomatlaşdırmaq;
- vergi orqanları ilə vergi ödəyiciləri arasında elektron əlaqəyə keçidi təmin etmək.

Vergi inzibatçılığının təkmilləşdirilməsinin aşağıdakı əsas prinsiplər əsasında həyata keçirilməsi nəzərdə tutulurdu:

- vergi inzibatçılığının səmərəliliyinin artırılması iqtisadi inkişafa müsbət təsir göstərməlidir;
- vergilərin ödənilməsi sahəsində bürokratik maneələr aradan qaldırılmalı, hesabat formalarının sayı azaldılmalıdır;
- vergi daxilolmaları vergilərin yığılması ilə bağlı xərcləri əhəmiyyətli dərəcədə üstələməlidir;
- vergidən yayınma hallarının qarşısının alınması üçün normativ hüquqi baza təkmilləşdirilməlidir;
- vergi ödəyicilərinin müflisləşməsinin qarşısı alınmalı və onların hüquqlarının müdafiəsi təmin edilməlidir.

Dövlət Proqramında vergi inzibatçılığının aşağıdakı istiqamətlərdə inkişafı məqsədəuyğun hesab edilirdi:

- vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin edilməsi;
- vergi dələduzluğu və vergidən yayınma hallan ilə mübarizənin gücləndirilməsi, vergi inzibatçılığının az riskli sistem kimi formalaşdırılması;
- vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması;
- vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması;
- müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılması.

Azərbaycan Respublikasında vergi inzibatçılığının əsas istiqamətlərindən biri olan vergilərin könüllü ödənilməsi sisteminin yaradılması və vergi ödəyicilərinin hüquqlarının etibarlı müdafiəsinin təmin edilməsi üçün 2005-2007-ci illərdə aşağıdakı işlərin görülməsi nəzərdə tutulurdu:

- vergi ödəyicilərinin maarifləndirilməsi konsepsiyasının hazırlanması;

- vergi mədəniyyətinin artırılmasına yönəldilmiş proqramların həyata keçirilməsi:

- özəl vergi məsləhəti xidmətlərinin təşkili üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

- vergi ödəyicilərinin hüquqlarının müdafiəsi, onların şikayətlərinə obyektiv baxılması məqsədi ilə daha mükəmməl apellyasiya sisteminin yaradılması.

Proqramda qeyd olunurdu ki, vergilərin ödənişində könüllülüyün artırılması, mövcud beynəlxalq təcrübədən istifadə etməklə, Azərbaycan Respublikasında fiziki şəxslərin ümumi gəlirləri haqqında bəyannamənin tətbiqi sahəsində zəruri işlərin görülməsini tələb edir. Həmin bəyannamədə əmək haqqının və digər gəlirlərin mənbələrinin düzgün göstərilməsi üçün maarifləndirmə işləri böyük əhəmiyyət kəsb edir. Vergidən yayınmanın qarşısını almaq, bu sahədə mübarizəni gücləndirmək məqsədi ilə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər bütün vergi ödəyiciləri üçün bərabərlik prinsipinə riayət edilməsinə və vergi daxilolmalarının artımının təmin edilməsinə yönəldilir.

Vergi inzibatçılığının səmərəliliyinin artırılmasında vergi auditinin işinin təkmilləşdirilməsi və audit xidmətinin az riskli sistem kimi fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə vergi ödəyiciləri haqqında hüquqi və analitik bazasının Azərbaycan Respublikası Vergilər Nazirliyinin vahid kompüter informasiya sisteminə inteqrasiyası, səyyar vergi yoxlamaları üçün vergi ödəyicilərinin seçilməsi prosesinin avtomatlaşdırılması və yoxlamanın nəticələrinin xüsusi meyar əsasında qiymətləndirilməsi nəzərdə tutulurdu.

Vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaradılmasının qarşısının alınması istiqamətində Dövlət Proqramında aşağıdakı işlərin görülməsinə xüsusi önəm verilirdi:

-Azərbaycan Respublikası Vergilər Nazirliyinin kompüter informasiya sistemi vasitəsi ilə borcları yaranma müddətlərinə görə qruplaşdırmaq, vergi ödəyicilərinə vergi borcları haqqında bildirişlərin göndərilməsini avtomatlaşdırmaq;

- əlavə dəyər vergisi üzrə könüllü qeydiyyat prosedurunu və vaxtı keçmiş vergilər üzrə faiz dərəcələrini sərtləşdirməklə vergi borclarının yaranmasının qarşısını almaq.

Vergi orqanlarında idarəetmə sisteminin təkmilləşdirilməsi və onun bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması kadr potensialından səmərəli istifadə edilməsini, mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəlməsini, vergi ödəyiciləri ilə münasibətlərin təkmilləşdirilməsini təmin etməklə dövlət büdcəsinə daxilolmaların vaxtında və daha dolğun köçürülməsinə yönəldilmişdir.

Azərbaycan Respublikası Vergilər Nazirliyi sistemində struktur bölmələrin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi üçün nazirliyin taktiki planlaşdırma və qərar qəbul etmə qabiliyyətinin optimallaşdırılması məqsədi ilə Menecment İnformasiya Sisteminin (MİS) yaradılması və onun kompüter informasiya sisteminə inteqrasiyasının təmin edilməsi nəzərdə tutulurdu.

Azərbaycan Respublikası Vergilər Nazirliyində kadrların yüksək peşəkarlıq səviyyəsini təmin etmək məqsədi ilə treninq sistemində aşağıdakı işlərin aparılması nəzərdə tutulurdu:

- Tədris Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi, müasir treninq konsepsiyalarının və üsullarının tətbiqinin təmin edilməsi;
- Nazirliyin əməkdaşları və vergi ödəyiciləri üçün məsafədən təhsilin (“on-layn” rejimində) təşkili və tədris-metodiki təminatın hazırlanması.

Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri də müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılmasıdır. Azərbaycan Respublikası Vergilər Nazirliyinin və onun orqanlarının funksional fəaliyyətlərinin vahid elektron sistemi çərçivəsində avtomatlaşdırılması və tədricən vergi ödəyiciləri ilə birbaşa əlaqənin kontaktsız əlaqə ilə əvəz edilməsi Dövlət Proqramı qarşısında duran ən vacib istiqamətlərdən biri idi. Bununla bağlı vergi ödəyicilərini vahid dövlət reyestrinin yaradılması və orada bütün vergi ödəyiciləri haqqında zəruri məlumatın toplanmasının təmin edilməsi nəzərdə tutulurdu. Eyni zamanda, vergi ödəyicilərinin bəyannamələrinin elektron formatda qəbulu və işləməsi bu istiqamətin mühüm elementi kimi həll edilməli idi.

Nazirliyin vahid kompüter sistemində vergi bəyannamələrinin yığılması, vergi ödəmələri, kameral və səyyar vergi auditi

Üzrə vergi ödəyicilərinin seçilməsi və auditin aparılması prosesləri avtomatlaşdırılmalı idi.

Bununla yanaşı. Dövlət Proqramında Azərbaycan Respublikası Vergilər Nazirliyinin fəaliyyətinin digər istiqamətləri, o cümlədən kargüzarlıq, kadrların uçotu və idarəetmə, kadr hazırlığı işi, işçilərin və ayrı-ayrı idarələrin fəaliyyətinin müvafiq meyarlar əsasında qiymətləndirilməsi, vergi daxilolmalarının proqnozlaşdırılması kimi idarəetmədə vacib rol oynayan proseslərin avtomatlaşdırılıb vahid kompüter informasiya sisteminə inteqrasiya olunması nəzərdə tutulurdu.

Qeyd olunurdu ki, "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı" çərçivəsində 2005-2007-ci illərdə həyata keçiriləcək modernləşdirmə tədbirlərinin nəticəsində aşağıdakılara nail olunacaqdır:

- ölkədə könüllü vergi ödəmə dərəcəsi artacaq;
- vergi ödəyicilərinə xidmət sisteminin çevik və təkmil fəaliyyəti təmin ediləcək;
- vergi dələduzluğuna və vergidən yayınma hallarına qarşı səmərəli mübarizə sisteminin fəaliyyəti nəticəsində bu sahədə risklər ciddi şəkildə azalacaq;
- vergi yoxlamalarının obyektivliyi və səmərəliliyi artacaq;
- daha az cari inzibati xərclərlə vergi daxilolmalarının artırılması təmin olunacaq;
- büdcə gəlirlərinin proqnozlaşdırması üçün daha real məlumat bazası formalaşdırılacaq;
- ölkədə ümumi vergi bəyannaməsi sisteminə keçid üçün hazırlıq işləri başa çatdırılacaq;
- vergi ödəyicilərinin hüquqlarının qorunması gücləndiriləcək;
- vergi borclarının tez aşkar edilməsində və ödənilməsində səmərəli hüquqi-iqtisadi mexanizmlər və texnologiyalar tətbiq olunacaq;
- vergi bəyannamələrinin elektron formatda göndərilməsi və işlənilməsi təmin olunacaq;
- vergi orqanlarının vergi ödəyiciləri ilə tədricən həm bəyannamələr, həm də ödəmələr üzrə kontaktsız münasibətlərə keçməsi təmin ediləcək;
- vergi orqanlarında fəaliyyət sahələri və insan resurslarının idarə edilməsi üzrə müasir, çevik və təkmil menecment sistemi

fəaliyyət göstərəcək;

- xidmət etikası standartlarına riayət edilməsi təmin olunacaq;
- korrupsiya risklərini ifşa edən mexanizmlər və prosedurlar tətbiq olunacaq.

“Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)”nm müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində, gözlənilən nəticələrə, demək olar ki, tam nail olundu.

Ümummilli lider Heydər Əliyevin 17 fevral 2003-cü il tarixində təsdiq etdiyi «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)» ölkəmizin sosial-iqtisadi həyatında və inzibati-idarəetmə sahəsində mühüm bir texnoloji mərhələnin əsasını qoydu. Bu sənəd Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması prosesini sürətləndirməklə yanaşı, ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyasını şərtləndirdi.

Bu strategiyadan irəli gələn vəzifələr ötən müddətdə həyata keçirilən vergi islahatlarında da öz fəal əksini tapmışdır.

Vergi sisteminin təkmilləşdirilməsi sahəsində bu strategiyanın yerinə yetirilməsi üzrə son beş ilin ən mühüm nailiyyətlərindən biri də “Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı (2005-2007-ci illər)”nın həyata keçirilməsi nəticəsində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) işə salınmasıdır. Bu, XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilməsi, bu texnologiyalarının verdiyi üstünlüklərdən faydalanma imkanlarının artması ilə bağlıdır. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindən birinə çevrilmişdir.

AVİS elektron hökumətin qurulması istiqamətində həyata keçirilən mühüm layihələrdən olmaqla, vergi sahəsində çox mühüm dəyişikliklərə gətirib çıxarmışdır. AVİS vergi orqanları ilə vergi ödəyicilərinin arasında elektron əlaqələrin inkişafına xidmət edən, müasir avadanlıq və proqram təmi-

natlanna söykənən, geniş təhlil bazasına malik bir informasiya sistemidir. Bu layihənin reallaşdırılması nəticəsində vergi orqanlarının işinin avtomatlaşdırılması, digər dövlət orqanları ilə inteqrasiyanın şəbəkələnməsi, müxtəlif iqtisadi təhlil və proqnozların həyata keçirilməsinin təminatı, vergi xidməti strukturları arasında informasiya mübadiləsi, məlumatların işlənməsi, bəyannamələrin qəbulu, qeydiyyatının sürətləndirilməsi və avtomatlaşdırılması mümkün olmuşdur. AVİS-in reallaşdırılması Azərbaycanın vergi xidmətini təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada ən modern informasiya texnologiyasına malik xidmətlərdən birinə çevirmişdir.

Vergilər Nazirliyinin «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi» üzrə vergi ödəyicilərinə elektron formada internet vasitəsilə bəyannamə və hesabat verilməsi imkanının yaradılması məqsədilə qanunvericilikdə müvafiq dəyişikliklər aparılmış, «İnternet vergi idarəsi» proqram təminatı hazırlanmış və Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmişdir. AVİS-in işə salınması vergi ödəyicilərinə elektron bəyannamələr göndərilməsi imkanını yaratmışdır. "Elektron-bəyannamə" sisteminin tətbiqi vergi ödəyicisinə bəyannaməni internet vasitəsilə təqdim etmək, bəyannamənin tərtibinə və düzgünlüyünün yoxlanmasına proqram təminatı vasitəsi ilə köməklik göstərilməsi, bəyannamələrin elektron formatda saxlanılması, ödəyicinin öz şəxsi hesab vərəqəsinə "real vaxt" rejimində baxa bilmək imkanlarını verir. Bunun sayəsində vergi orqanları ilə müvafiq elektron məlumat mübadiləsinin aparılması haqqında müqavilə imzalamış vergi ödəyiciləri vergi orqanları tərəfindən istifadəçi kodu, xüsusi şifrə-parollar verildikdən sonra öz bəyannamələrini vergi orqanlarına internet vasitəsilə, yəni vergi orqanına gəlmədən təqdim edirlər.

Bununla yanaşı, vergi ödəyicilərinin öz bəyannamələrini internet vasitəsilə göndərmək imkanlarının asanlaşdınlması üçün ərazi vergi orqanlarında kompüter terminalları fəaliyyətə başlamışdır. Bu terminallar vergi ödəyicilərinin məlumatlandırılmasını, vergi qanunvericiliyi barədə məlumat və izahatların alınmasını və bir çox başqa funksiyaları özündə birləşdirir.

Bu layihə hər bir vergi ödəyicisinin sərbəst şəkildə öz ofisindən, evindən internetlə Vergilər Nazirliyinin saytına daxil olaraq öz məlumatlarına baxa bilməsi imkanlarını da nəzərdə tutur. Bununla da vergi ödəyicisi ödədiyi vergilər, borcu və s. barədə məlumat ala, bəyannamələrini elektron formatda vergi orqanına göndərə, hətta bank hesabı açmaq üçün müvafiq sənədləri elektron formatda vergi orqanına gəlmədən əldə edə bilər. Bu o deməkdir ki, vergi orqanları ilə vergi ödəyicilərinin arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, müasir kompüter və proqram təminatları, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması yolu ilə Azərbaycanın vergi xidməti vergi ödəyicilərinə inkişaf etmiş ölkələrdə olduğu kimi yüksək texnoloji xidmət təqdim edə bilir.

Bütün bunlar vergi ödəyicilərinin işini yüngülləşdirmək, vergilərin ödənilməsinə nəzarəti gücləndirmək və nəticə etibarilə vergi ödəyicilərinin bəyannamələrini vaxtında verməsinə, öz vergilərini könüllü ödəmələrinə nail olmaq məqsədinə xidmət edir.

Ölkədə biznesin qeydiyyatı prosedurlarının sadələşdirilməsi ilə bağlı Prezidentin imzaladığı 30 aprel 2007-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı böyük əhəmiyyət kəsb edir.

"Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" fərman vahid kodlaşdırmanın tətbiqi ilə sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının vahid orqanda həyata keçirilməsini ("bir pəncərə" prinsipi) nəzərdə tutur. Azərbaycan Prezidentinin "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 25 oktyabr 2007- ci il tarixli digər sərəncamı ilə sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin bu prinsip üzrə vahid dövlət qeydiyyat orqanı kimi Vergilər Nazirliyi müəyyən edilmişdir. Sərəncamla "bir pəncərə" prinsipi 2008-ci ilin yanvar ayının 1-dən tətbiq edilməyə başlanmışdır. Beləliklə, bu sistem sahibkarların biznes fəaliyyətinə başlamaq üçün artıq əvvəlki kimi bir neçə dövlət orqanına deyil, yalnız bir orqana, konkret olaraq.

Vergilər Nazirliyinə müraciət edərək qeydiyyatdan keçməsini nəzərdə tutur.

Qeydiyyatın "bir pəncərə" prinsipi üzrə aparılması dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 2007-ci il 30 aprel tarixli fərmanı və "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 2007-ci il 25 oktyabr tarixli sərəncamına uyğun olaraq, elektron hökumətin əsas elementlərindən olan "bir pəncərə" sistemi məlumatların bir mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla, bütün inzibati qeydiyyatların tamamilə sinxronlaşdırılmasmı nəzərdə tutur. İş adamlarının mərkəzi sistemlə avtomatik, on-layn və davamlı əlaqəsi yaranır. Faktiki olaraq, bu, lisenziyaların mərkəzləşdirilmiş qaydada və elektron şəkildə təqdim edilməsi deməkdir. Bu zaman qeydiyyat prosedurlarının sayı azalır və vaxt itkisinin qarşısı alınır. Qeydiyyatın "bir pəncərə" prinsipi üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan verir. Digər tərəfdən, "bir pəncərə" sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırır, sahibkarların dövlət qurumlarından asılılığını azaldır, uzunmüddətli qeydiyyat prosedurları ləğv olunur və sadələşdirilir. Bu isə son nəticədə sahibkarın cəmi bir neçə gündə qeydiyyata alınmasına və fəaliyyətə başlamasına imkan verir.

İndiyədək hökumət lisenziya verən qurumların sayının azaldılması ilə əlaqədar tədbirlər görsə də, qeydiyyat məsələsində problemlər hələ də qalırdı. Sahibkarlar fəaliyyətə başlamaq üçün 15 prosedur üzrə sənəd toplamalı, həmin sənədləri əldə etmək üçün Vergilər, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərindən, Dövlət Statistika Komitəsindən, Sosial Müdafiə Fondundan və digər dövlət qurumlarından keçməli idilər. Bu isə ən azı 150 gün vaxt aparırdı. Hətta işə başlamaq üçün sahibkarlar 1 il gözləməyə məcbur idilər. "Bir pəncərə" sisteminin tətbiqindən sonra biznesini qeydiyyatdan keçirmək istəyən sahibkar, əvvəllər olduğu kimi, 72 deyil, 3 gün gözləyir və tələb olunan prosedurların sayı 15-dən 5-ə qədər azaldılır. Sahibkarlar

sənədlərini yalnız bir dövlət orqanına - Vergilər Nazirliyinə təqdim etməklə qeydiyyatdan keçirlər.

29 dekabr 2007-ci il tarixində keçirilən Azərbaycanda sahibkarlığın inkişafında mühüm mərhələ olan “bir pəncərə” sisteminin təqdimat mərasimində iştirak edən Prezident İlham Əliyev qeyd etdi: “Çox şadam ki, Yeni il ərəfəsində Azərbaycanda belə gözəl mərkəzlər yaradılıb, fəaliyyətə başlayır və sahibkarlara gözəl xidmət göstərəcəkdir. Bu, yenilikdir, müasirlikdir, gələcəyə doğru böyük addımdır. Əminəm ki, bu sistem tam şəkildə işə düşəndən sonra Azərbaycanda sahibkarlıqla məşğul olmaq istəyənlərin sayı daha da artacaqdır. Artıq bütün bürokratik əngəllər aradan qaldırıldı, ən sadələşdirilmiş sistem tətbiq edilir. “Bir pəncərə” sistemi dünyada ən mütərəqqi praktikadır. Əminəm ki, həm şəffaflıq təmin olunacaq, həm də sahibkarlıqla məşğul olmaq istəyənlər üçün daha yaxşı şərait yaradılacaq və bu sistemin işə düşməsindən sonra Azərbaycanda bütövlükdə iqtisadi inkişaf daha da yüksək sürətlə davam etdiriləcəkdir. Azərbaycanda bütün sahələrdə ən müasir praktika tətbiq olunmalıdır. Biz bəzi hallarda dünyada ən gözəl təcrübəni götürüb istifadə edirik, bəzi hallarda isə inkişaf etmiş bir neçə ölkədən bir addım qabaqdayıq. Azərbaycan, bax, bu cür inkişaf etməlidir. İndi mən bütün regionlarda olan şəraiti, təchiz edilmiş bütün müasir avadanlıqları görürəm. Əminəm ki, bütün regionlarda insanlara, sahibkarlara çox gözəl xidmət göstəriləcəkdir”.

Ölkədə həyata keçirilən vergi siyasətinin əsas istiqamətini vergilərin məcburi yığılmasından onların könüllü olaraq ödənilməsinə keçilməsi təşkil edir. Bu məqsədə nail olunmasında vergi ödəyicilərinə göstərilən xidmətin səviyyəsi mühüm rol oynayır. Vergi ödəyicilərinə xidmət işinin düzgün təşkil olunması, onlarla şəffaf əlaqələrin yaradılması, vergi ödəyicilərinin məlumatlandırılması istiqamətində həyata keçirilən işlər vergi mədəniyyətinin formalaşmasında əvəzsiz rol oynayır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 24.03-cü maddəsinə əsasən vergi orqanları vergi qanunvericiliyi və vergi

qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə kütləvi informasiya vasitələri ilə və ya fərdi qaydada əvəzsiz olaraq məlumat verməyə, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etməyə, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar verməyə, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etməyə borcludurlar.

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»də göstərilir ki, vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinə məlumatların verilməsini, vergilərin hesablanması və ödənilməsi barədə onlara əvəzsiz olaraq izahatların verilməsini təmin etmək Vergilər Nazirliyinin vəzifələrinə daxildir.

Bu məqsədlə dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət strukturları yaradılmışdır. Azərbaycan Respublikası Vergi Məcəlləsi və «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»yə uyğun olaraq, vergi ödəyicilərinə xidmət strukturlarının başlıca funksiyaları aşağıdakılardan ibarətdir;

- vergi qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə kütləvi informasiya vasitələri ilə və ya fərdi qaydada əvəzsiz olaraq məlumatların verilməsi, vergilərin hesablanması və ödənilməsi, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarının izah edilməsi;
- vergi məsələləri ilə əlaqədar müraciət edən vergi ödəyicilərinin qəbulunun təşkil edilməsi, vergi ödəyicilərindən daxil olmuş sorğu və müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə cavab verilməsi;
- vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi üçün brifinq və seminar-məşğələlərin keçirilməsi;
- bələdiyyələrdə vergitutma məsələlərinə aid seminar-məşğələlərin keçirilməsi, onlara bu məsələdə metodiki köməkliyin göstərilməsi;
- vergi qanunvericiliyinin tətbiqi sahəsində vergi ödəyiciləri ilə iş aparılması, səyyar görüşlərin keçirilməsi;

- vergi ödəyicilərinə qeydiyyat, VÖEN, bank hesablarının açılması üçün şəhadətnamə-dublikatın, vergi ödəyicilərinə güzəşt hüququ verən arayışların (sertifikatların) verilməsi üzrə xidmətin göstərilməsi;
- nəzarət-kassa aparatlarının qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üzrə xidmətlərin göstərilməsi, «Kiçik sahibkarlıq subyektlərinin təsərrüfat əməliyyatlarının uçotu kitabı»nm vergi ödəyicilərinə təqdim edilməsinin qeydiyyatının aparılması;
- vergi ödəyicilərinə vergi öhdəliklərini əks etdirən məlumatların, şəxsi hesab vərəqəsinin (çıxarışın) verilməsi;
- vergi ödəyiciləri tərəfindən müraciət olduqda bəyannamələrin və başqa hesabat sənədlərinin düzgün tərtib edilməsinə köməkliyin edilməsi, bəyannamələrdəki uyğunsuzluqlarla əlaqədar vergi ödəyiciləri ilə birgə və ya daxil olan müvafiq sənədlər əsasında uyğunsuzluqların aradan qaldırılması;
- vergi öhdəliklərinin yerinə yetirilməsi səviyyəsinə görə müxtəlif qrup vergi ödəyiciləri ilə qrup və ya fərdi iş prinsipləri çərçivəsində profilaktik tədbirlərin həyata keçirilməsi və s.

Bu istiqamətdə görülən işlərdən ən əhəmiyyətlisi vergi ödəyicilərinin müraciətlərinin operativ cavablandırılması, vergi orqanlarına gəlmədən informasiya ala bilmələri üçün 195 nömrəli məlumat-telefon xidmətinin yaradılmasıdır.

MDB məkanında ilk olaraq Azərbaycanda tətbiq edilən bu xidmətdən hazırda respublikanın bütün sahibkarları və vətəndaşlar ödənişsiz şəkildə istifadə edə bilirlər. Təkcə onu qeyd etmək lazımdır ki, hər il yüz minlərlə istifadəçi bu məlumat xidmətinin fəaliyyətindən faydalanır.

Beləliklə, ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın vergi sistemi uğurla inkişaf edir, dünyanın ən modern vergi sisteminə çevrilməkdədir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevi Azərbaycan Respublikasının memarı, müasir Azərbaycanı isə onun şah əsəri adlandırırlar. Bu möhtəşəm abidəni qoruyub saxlamaq, uğurla

suliyyətli bir işdir. Bu gün belə bir əzəmətli vəzifəni Heydər Əliyevin layiqli davamçısı, Azərbaycanın hər bir vətəndaşının özünün Prezidenti hesab etdiyi İlham Əliyev şərəflə yerinə yetirir. Onun titanik əməyi nəticəsində bu gün Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyanın lider dövlətidir, indi bütün söz sahibləri onunla hesablaşırlar. İqtisadi, siyasi, mədəni sahədə əldə edilən uğurlar Azərbaycanın böyük gələcəyindən xəbər verir.

Ulu öndər çıxışlarının birində qeyd etmişdi ki, «Mən fəxr edirəm ki, azərbaycanlıyam». Bu gün hər bir azərbaycanlı fəxr edir ki, Azərbaycan adlı möhtəşəm bir gəminin sükanı arxasında Heydər Əliyev ənənələrinin layiqli davamçısı İlham Əliyev dayanıb və onun irəliyə doğru zəfər yürüşünün qarşısını heç bir qüvvə ala bilməz.

iqtisadi tərəqqi və

# VERGİ

siyasəti

## istifadə olunmuş ədəbiyyat

**Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 2007.**

**Azərbaycan Respublikasının Qanunları külliyyatı.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışları.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları.**

**Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı 2008.**

**Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı 2007.**

**Azərbaycanın statistik göstəriciləri. Bakı 2007.**

**Azərbaycan Respublikası Vergilər Nazirliyinin statistik məcmuələri.**

**"Azərbaycanın vergi xəbərləri" jurnalı.**

**"Vergilər" qəzeti.**

**F.Ə. Məmmədov,**
**A. F. Musayev,**
**M.M.Sadıqov,**
**Y. A.Kəlbiyev,**
**Z. H. Rzayev**
**Vergilər və vergitutma. Bakı 2006.**

**F.Ə. Məmmədov,**
**A.F.Musayev,**
**M.M.Sadıqov,**
**Z.H.Rzayev,**
**Y.A.Kəlbiyev**
**Vergitutmanm nəzəri və metodoloji əsasları. Bakı 2001.**

**A. F.Musayev,**
**A.A.Hüseynov,**
**Y.A.Kəlbiyev**
**Azərbaycan Respublikasının vergi xidməti; islahatlar və nəticələr Bakı 2002.**

**A. F.Musayev Vergi siyasətinin iqtisadi problemləri Bakı 2004.**

**M.C.Atakişiyev Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda Bakı 2005.**

**Z.H.Rzayev Vergi menecmenti Bakı 2007.**

**Экономика. Под ред. А.С.Булатова М.2000.**

**Л.Г.Ходов Государственное регулирование национальной экономики. М. 2004.**

**Государственное регулирование рыночной экономики. Под ред.**
**В. И.Кушлина М.2005.**

**М.Мескон,**
**М.Алббсрт,**
**Ф.Хедоури**
**Основы менеджмента.**
**Санкт-Петербург 2005.**

**А.В.Бусыгин**
**Предпринимательство. М. 2003.**

**Е.Е.Румянцева**
**Новая экономическая энциклапедия М. 2006.**

**Л.П.Владимиров**
**Прогнозирование и планирование в условиях рынка. М.2005**

**Прогнозирование и планирование в условиях рынка. Под ред.**
**Т. Г. Морозовой М. 2005.**

**М.Г.Лапуста,**
**А.Г.Поршнев,**
**Ю. Л. Старостин,**
**Л.Г.Скамай**
**Предпринимательство. М. 2002.**

**И.Н.Герчикова Менеджмент М. 2005.**

**В.Р.Веснин Менеджмент М. 2005.**

**Н.Е.Заяц**
**Теория налогов. Минск 2002.**

**И.В.Караваева**
**Налоговое регулирование рыночной экономики. М. 2000.**

**Налоги и налогообложение. Под ред. М.Романовского и О.Врублевой Санкт- Петербург 2002.**

**А.Э.Сердюков,**
**Е.С.Вылкова,**
**А.Л.Тарасевич**
**Налоги и налогообложение.**
**Санкт- Петербург 2005.**

**Налоговый менеджмент. Под ред.**
**А. Г.Поршнева М. 2003.**

**Т.Ю.Юткина**
**Налоги и налогообложение. М. 2002.**

**В. Д. Грибов.**
**Основы бизнеса. М. 2001.**

**С. Ф.Сутырин,**
**А.И.Погорлецкий**
**Налоги и налоговое планирование в мировой экономике.**
**Санкт-Петербург 1998.**

**Д.Г.Черник**
**Налоги в рыночной экономике.**
**М. 1997.**

**Р.Л.Дернберг**
**Международное налогообложение**
**М.1997**

iqtisadi tərəqqi və

# VERGİ

siyasəti

**kitabın içindəkilər**

iqtisadi
siyasətin mühüm
tərkib hissəsi

möhtəşəm
qayıdış

vergi siyasəti
və vergi
islahatian

iqtisadiyyatın
vergi
tənzimiənməsi

investisiya
siyasəti

biznes
fəaliyyəti

müasir
vergi sistemi

vergi mühiti

zirvələrə
aparan yol

istifadə olunmuş
ədəbiyyat

REGİONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ

9 789952 270907